İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
# ƏLİYEV

YÜZ DOQQUZUNCU KİTAB

DEKABR 2020 - FEVRAL 2021

AZƏRNƏŞR
BAKI - 2021

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2021

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2021, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində Ali Baş Komandanın İkinci Qarabağ müharibəsi zamanı azad edilmiş torpaqlara səfəri, bu torpaqlarda Azərbaycan xalqına ünvanladığı zəfər nitqləri, həmçinin Rusiya Federasiyasına işgüzar səfər çərçivəsində üçtərəfli formatda rəsmi görüş və birgə bəyanatlarına aid materiallar toplanmışdır.

Kitabda dövlət başçısının qədim Azərbaycan şəhəri Şuşaya və Cıdır düzünə, o cümlədən Qubadlı və Zəngilan rayonlarına tarixi səfərləri, Füzuli–Şuşa avtomobil yolunun və Füzuli rayonunda hava limanının təməlqoyma mərasimində bütün dünyaya ünvanlanan Vətən müharibəsinin şanlı tarixindən, haqq və ədalətin bərpasından, milli qürur və qəhrəmanlıq salnaməsindən bəhs edən çıxışlarına dair materiallar da öz əksini tapmışdır.

Bu cilddə, həmçinin dövlət başçısının Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına müraciəti, o cümlədən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə geniş çıxışı və yekun nitqi yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2021}}$ **BBK - 32**

© Azərnəşr, 2021

# İŞĞALDAN AZAD EDİLMİŞ QUBADLI VƏ ZƏNGİLAN RAYONLARINA SƏFƏR

*23 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 23-də işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarına səfərə gəlmişlər.*

*Qubadlıya gedən yolda dövlət başçısı avtomobili özü idarə etdi.*

**İlham Əliyev:** Cəbrayıl rayonunun ərazisindəyik. Azad edilmiş torpaqlardayıq. Sağ tərəfdə ermənilər tərəfindən dağıdılmış kəndlərimizdir. Gedirik Qubadlı rayonuna.

Dağıdılmış üzüm bağları. Bütün kəndlər dağıdılıb. Yolun sol və sağ tərəflərində olan dirəklər torpaqlar işğaldan azad olunduqdan sonra qısa müddət ərzində qoyulmuşdur.

Bütün kəndlər dağıdılıb. Düşmən bu cinayətlərə görə cavab verəcək. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir. Sovet vaxtından qalan abidə. İkinci dünya müharibəsinə həsr edilmiş abidədir. Onu da dağıdıblar. Bu da növbəti dağıdılmış kənd.

**Mehriban Əliyeva:** Kəndin adı nədir?

**İlham Əliyev:** Göyərçin Veysəlli kəndi. Erməni faşistləri tərəfindən dağıdılıb. Heç İkinci dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyiblər. Görün biz hansı vəhşi düşmənlə üz-üzə idik, hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün kəndləri bərpa edəcəyik. İlk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq. İndi Zəngilan rayonunun ərazisindən keçirik. Bura Babalı kəndidir. Bura da dağıdılıb.

Bir dənə də salamat bina yoxdur. Baxın, bütün binalar dağıdılıb. Köhnə qəbiristanlıq. Zəngilan rayonunun gözəl mənzərəsi, səfalı məkan. Hamısını bərpa edəcəyik. Bu da Üçüncü Ağalı kəndi. Görünür burada ermənilər yaşayıblar. Amma görün nə gündə yaşayıblar. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, budur bunun sübutu. Bizim kəndimizə gəliblər, kəndimizin böyük hissəsini dağıdıblar.

Ermənilərin zəbt etdikləri evlərimiz. İndi Üçüncü Ağalı kəndinin sakinləri yəqin ki, tanıyar bu ev kimindir. Gələsən, başqasının torpağını zəbt edəsən, insanları evsiz-eşiksiz qoyasan, onların evində yaşayasan, xarabalığa çevirəsən, sonra da deyəsən ki, bu, qədim erməni torpağıdır. Saxtakarlar, oğrular, yalançılar, vəhşilər bizim torpaqlarımızı 30 ilə yaxın müddət ərzində işğal altında saxlayıblar. Bütün bu videosənədlər hüquqi müstəvidə bizim təzminat davamız üçün əşyayi-dəlil olacaqdır.

Birinci Ağalı kəndi. Bura da dağıdılıb, amma bəzi evlər qalıb. Ermənilər bizim evlərimizdə yaşayıblar.

Bundan sonra özümüz yaşayacağıq öz evlərimizdə. Onlar da getsinlər öz vətənlərində yaşasınlar.

Seləli kəndi. Bu kənd də dağıdılıb. Görün nə günə qoyublar. Mən hələ müharibədən əvvəl deyirdim ki, bizim bütün kəndlərimiz, şəhərlərimiz talan edilib. Ermənilər dam örtüklərini, pəncərə çərçivələrini, hər şeyi aparıblar. Açıq-aşkar oğurluq ediblər, bizim torpaqlarımızı istismar ediblər.

Evin yarısını söküb, o biri tərəfdə yaşayıb. Baxın, nə günə qoyublar. Talançılar!

Vəhşi düşmən keçib bu torpaqlardan, dağıdıb ki, heç vaxt Azərbaycan əhalisi buraya qayıtmasın. Hər şey dağıdılıb. İnşallah, hamımız qayıdacağıq.

**Mehriban Əliyeva:** Yəqin ora hərbi hissədir.

**İlham Əliyev:** Orada artıq Azərbaycan bayrağı ucaldılıb. Hərbi hissələr tikiblər ki, torpaqlarımızı əbədi işğal altında saxlasınlar, amma rədd etdik onları, qovduq torpaqlarımızdan. Torpaqların sahibləri qayıdır.

Baxın, ağacları necə qırıblar. Baxın, vəhşi düşmən neyləyib, bütün ağacları kəsib. Zəngilanın çox zəngin təbiəti var, nadir meşələri var. Çinar ağacları. Baxın, neyləyib düşmən. Baxsın bütün dünya, ermənipərəst qüvvələr bu günə qədər kimi müdafiə edirlər? Bizə qarşı qətnamələr qəbul edən ölkələr baxsın, gözlərini açsın. Riyakar siyasətçilər, açın gözlərinizi, baxın. Sizin parlamentləriniz qətnamələr qəbul edib. Bizim üçün o qətnamələrin heç bir əhəmiyyəti yoxdur, bir kağız parçasıdır. İş ondadır ki, bizə qarşı yenə əsassız ittihamlar irəli sürülür. Fransa parlamentinin deputatları, Belçika, Hollandiya parlamentlərinin depu-

tatları, baxın, sizin sevimli ermənilər nələr ediblər bu torpaqlarda! Açın xəritəyə baxın, ensiklopediyaya baxın, görün Zəngilan rayonu, Qubadlı rayonu hansı ölkənin tərkib hissəsidir. Qətnamələr qəbul edirsiniz. Başınıza dəysin bu qətnamələr. Azərbaycanı ittiham edirlər.

Qubadlının Xanlıq kəndi. Xanlıq kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Ermənilər bizim bu tarixi, qədim kəndimizə eybəcər ad veriblər. Xanlıq kəndi Qubadlı rayonunun ərazisində yerləşir. Biz indi Qubadlı rayonunun ərazisindəyik. Ermənilər Xanlıq kəndində özləri üçün hərbi istehkam, hərbi baza qurmuşdular. Xanlıq kəndində qanunsuz məskunlaşma aparılmışdı. Xaricdən gətirilmiş ermənilər burada qanunsuz yollarla yerləşdirilmişdilər. Bu da hərbi cinayət sayılır. Cenevrə Konvensiyasına görə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparan ölkə cinayət törətmiş olur. Baxın, xaricdən gələn ermənilər üçün xaricdə yaşayan ermənilərin pulu ilə Xanlıqda qəsəbə salınıb.

Kənd təsərrüfatı texnikası – XX əsrin 50-ci illərində istehsal olunub. Xaricdə yaşayan ermənilər cinayət törədiblər. Xaricdən erməniləri gətirib bizim torpaqlarımızda məskunlaşdırıblar. Xanlıq qəsəbəsində azərbaycanlıların evlərini söküb yerində ermənilər üçün evlər tikiblər. Bu da ermənilərin maşını. Bax, bu maşınları sürürdülər onlar. Bu da bizim qəhrəman əsgərlərimizin adları. Öz adlarını yazıblar bu evlərin üzərində. Biləsuvar, Şabran, Sabirabad, Şuşa, Oğuz. Bax, qanunsuz məskunlaşma budur.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəldilər, burada hərbçilərlə görüşdülər.*

**İlham Əliyev:** Salam uşaqlar. Nə var, nə yox, necəsiniz?

**Əsgərlər:** Çox sağ olun.

**İlham Əliyev:** Xidmət necə keçir?

**Əsgərlər:** Əla. Hər şey yaxşıdır.

**İlham Əliyev:** Çox yaxşı. Bu, ermənilərin qədim kəndimizdə saldığı bir qəsəbədir. Bizim evlərimizi söküblər, ondan sonra da xaricdən gələn ermənilərin pulu ilə bu qəsəbə salınıb. İndi biz burada yaşayırıq. Siz burada məskunlaşmısınız, xidmət göstərirsiniz. Biz öz doğma torpaqlarımıza qayıtmışıq. Bu torpaqları döyüş meydanında azad etmişik. Düşməni öz torpaqlarımızdan qovmuşuq, bax, sizin kimi əsgərlərin sayəsində. Bütün dünya gördü ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti nəyə qadirdir. Gəlin uşaqlar, gəlin.

**Əsgərlər:** Xoş gəlmisiniz, cənab Prezident!

**İlham Əliyev:** Xoş gördük. Bu bizim qədim torpağımızdır. Əsrlərboyu xalqımız bu torpaqlarda yaşayıb. Biz döyüş meydanında gücümüzü göstərdik. Erməniləri torpaqlarımızdan qovduq. Azərbaycan bayrağını torpaqlarımızda ucaltdıq. Azərbaycan xalqının ən böyük arzusunu yerinə yetirdik, döyüş meydanında, danışıqlar yolu ilə yox. Bizim başımızı aldadırdılar. Bu 27 il ərzində ermənilər burada özləri üçün qəsəbə salıb, xaricdən erməniləri gətiriblər. Xanlıq qəsəbəsinə bir eybəcər erməni adı veriblər.

**Ə s g ə r l ə r:** «Onları iti qovan kimi qovduq» sözləriniz şüarımızdır.

**İ l h a m Ə l i y e v:** Gördülər bizim gücümüzü. Hesab edirdilər ki, torpaqlarımızda əbədi oturacaqlar, bizə meydan oxuyacaqlar. Səbrimiz tükəndi, dedim «irəli!»

**Ə s g ə r l ə r:** Var olun, var olun, var olsun Azərbaycan! Allah Sizi bizim başımızdan əskik etməsin!

**İ l h a m Ə l i y e v:** Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərdi. Mənə məlumat verilir ki, indi dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində bizim döyüş taktikamız öyrənilir. Bu bir yenilikdir, XXI əsrin müharibəsidir. Həm peşəkarlıq, həm iradə, milli ruh, qəhrəmanlıq hesabına torpaqlarımızı işğalçılardan azad etmişik.

**Ə s g ə r l ə r:** Sizin başçılığınız və iradəniz sayəsində.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**Ə s g ə r l ə r:** Biz Sizinlə fəxr edirik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!

**İ l h a m Ə l i y e v:** Gəlin şəkil çəkdirək.

**Ə s g ə r:** Ad gününüz mübarək, yüz yaşayın, Allah ömrünüzü uzun eləsin!

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qubadlı şəhərinə yola düşdülər.*

**İ l h a m Ə l i y e v:** Qubadlı rayonunun ərazisindən iki böyük çay keçir: Həkəri çayı və Bazarçay. Onlardan biri budur, baxın. Çox güman ki, bu, Həkəri çayıdır. Bura isə Aşağı Mollu kəndidir. Şəhidimiz Əsgərov Rüfətin şəkli. Allah rəhmət eləsin. Bütün şəhidlərimizə Allah rəhmət eləsin.

**M e h r i b a n  Ə l i y e v a:** Allah rəhmət eləsin.

**İ l h a m  Ə l i y e v:** Qubadlı rayonunun gözəl mənzərəsi. Yenə də dağıdılmış kənd. Hər şeyi yenidən quracağıq, yolları da, bütün infrastrukturu da. Gözəl mənzərədir. Bu da yəqin ki, Bazarçaydır. Çünki Qubadlının bir tərəfindən Həkəri çayı axır, digər tərəfindən Bazarçay buradan görünür. Ona Bərgüşad çayı da deyirlər. Qəzyan kəndi. Bax, ermənicə nəsə yazıblar orada.

Diləli Müskənli kəndi. Bu kənd də dağıdılıb. Bütün evlər dağıdılıb. Bir-iki ev qalıb, orada da düşmən yaşayıb. Bu da Saray kəndidir, Qubadlı şəhərinin yaxınlığında yerləşir. Bu kənd də dağıdılıb. Baxın, Qubadlı şəhərini düşmən nə günə qoyub. Bütün binalar dağıdılıb. Ancaq özləri üçün hərbi hissə tikiblər. Bu da Qubadlı şəhəri. Bu, yəqin ki, onların anbarları olub. Bu ev də sökülüb. Qubadlı şəhərinin girəcəyində ermənilər hərbi baza tikiblər. Gün də çıxdı. Təbiət də bizi alqışlayır, salamlayır. Sahibləri gəlib bu torpağa. Gör nə gündədir Qubadlı şəhəri. Nə günə qoyub düşmən bizim şəhərimizi.

*Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaltdı.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbə-

mizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Azərbaycan hərbçiləri, o cümlədən Şükür Həmidov dövlət tərəfindən yüksək döyüş ordenləri ilə təltif ediliblər.

Qubadlı rayonunun azad edilməsi əməliyyatı bir neçə gün çəkdi. Zəngilan şəhəri oktyabrın 20-də azad olunandan sonra təbii ki, bizim növbəti istiqamətimiz Qubadlı rayonu idi və şəhərdə ermənilər güclü istehkam qurmuşdular. İndi şəhərdən əsər-əlamət qalmayıb, bütün binalar dağıdılıb, sökülüb və yol boyunca Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının bütün kəndləri, qəsəbələri dağıdılıbdır. Ancaq burada, şəhərin girəcəyində düşmən hərbi baza yaratmışdı. Bu yüksəkliklərdə düşmənin hərbi birləşmələri yerləşmişdi. Ona görə Qubadlı şəhərini azad etmək o qədər də asan məsələ deyildi. Gərək ilk növbədə, ermənilərin istehkamları məhv ediləydi, onlardan biri Xanlıq qəsəbəsində yerləşirdi. Orada güclü istehkam qurmuşdular və Xanlıq qəsəbəsini onlar özləri üçün bir baza kimi yaratmışdılar. Xaricdə yaşayan ermənilər orada qəsəbə salmışdılar. İndi bu qəsəbədə Azərbaycan əsgərləri yerləşdirilib. Xaricdə yaşayan ermənilərin pulu ilə xaricdən ermənilər gətirilib və qanunsuz şəkildə Qubadlıda yerləşdiriliblər. Bu özlüyündə hər-

bi cinayətdir. Bu cinayətə və bütün digər cinayətlərə görə Ermənistan dövləti cavab verəcəkdir.

Qubadlını azad etmək üçün ilk növbədə, biz bu yüksəklikləri götürməli idik. Çünki düşmən bu yüksəkliklərdən müntəzəm olaraq hərbçilərimizə atəş açırdı. Eyni zamanda, Ermənistan ərazisindən də bizə atəş açılırdı. Azərbaycan Ermənistan ərazisinə keçmək fikrində deyildi və mən bunu müharibə zamanı dəfələrlə bildirmişdim. Onlar hesab edirdilər ki, bu imkanlardan istifadə edib, bizim hücumumuzun qarşısını ala bilərlər. Buradan, Qubadlı şəhərindən Ermənistan sərhədinə, bax, o istiqamətdən 5 kilometr məsafədir. Həm oradan ağır artilleriya ilə, həm də bu yüksəkliklərdən müxtəlif növ silahlardan istifadə edərək, bizim əsgərlərimizi, hərbçilərimizi atəşə tutmuşlar. Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərdi. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi. Ondan sonra Azərbaycan Silahlı Qüvvələri şəhərə girib, buranı da düşməndən təmizlədilər.

Qubadlı rayonunun və Qubadlı şəhərinin azad edilməsi bizə böyük strateji üstünlük təmin edirdi. Çünki Qubadlıdan sonra növbəti istiqamət Laçın rayonu idi. Hər gün döyüş əməliyyatı planları mənim tərəfimdən təsdiq edilirdi və hər gün görülmüş işlərə yekun vuraraq, məsələ təhlil edilirdi – gün ərzində görülmüş işlər bizim planlarımıza nə qədər uyğundur və biz

hansı nailiyyətlərə çata bilmişik. Qubadlıdan Laçın rayonunun cənub hissəsinə gedən yol daim atəş altında idi. Çünki Laçın rayonuna gedən yol düz Ermənistanın dövlət sərhədinin yanı ilə keçir, orada məsafə bəlkə də 10–20 metrdir və Ermənistan daim o tərəfdən atəş açırdı. Ona görə bizim hərbi birləşmələrimiz digər müxtəlif yollarla, cığırlarla dağları aşaraq, Laçın rayonunun strateji yüksəkliklərində yerləşmişdir. Beləliklə, Laçın rayonunun cənub hissəsində yerləşən Güləbird, Səfiyan və Türklər kəndləri azad edildi və eyni zamanda, strateji yüksəkliklər ələ keçiriləndən sonra bu bizə imkan verdi ki, Laçın dəhlizi artıq atəş altına düşsün.

Düşmən bizi bu tərəfdən gözləyirdi. Çünki təbii ki, düşmən bilirdi Şuşa azad edilməmiş müharibə dayana bilməz. Düşmən hesab edirdi ki, biz Laçın rayonunun cənub hissəsini götürəndən sonra bu tərəfdən Şuşaya girəcəyik. Biz də bilirdik ki, düşmən bizi orada gözləyir. Ona görə də Şuşaya başqa yolla getdik, onların gözləmədiyi yoldan keçdik. Bu günə qədər də onlar inana bilmirlər ki, bizim qəhrəman əsgər və zabitlərimiz o dağlardan, dərələrdən, meşələrdən necə keçərək, Şuşaya yaxınlaşıb və Şuşanı işğaldan azad ediblər. Onlar bizi buradan gözləyirdilər, eyni zamanda, Xocavənd rayonunun Qırmızı bazar qəsəbəsi istiqamətində gözləyirdilər. Biz isə Şuşaya başqa yolla getdik. Şuşaya yaxınlaşaraq bir neçə kəndi azad etdik, o cümlədən Sığınaq, Çanaqçı və Daşaltı kəndlərini azad etdik. Qubadlı əməliyyatının çox böyük əhəmiyyəti var idi. Çünki Qubadlıdan sonra biz Şuşa şəhərini işğaldan azad etdik. Oktyabrın 25-də Qu-

badlı azad olundu və noyabrın 8-də isə Şuşa şəhəri. Beləliklə, düşmən təslim olmağa məcbur oldu.

Müharibə zamanı gördüyümüz işlər bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənilir. Bu haqda məndə dəqiq məlumat vardır. Bizim xarici tərəfdaşlarımız bu məlumatı bizə çatdırıblar ki, ən inkişaf etmiş ölkələrin ali hərbi məktəblərində Azərbaycanın döyüş taktikası, bizim əməliyyatlar öyrənilir və bu, müasir döyüş taktikasıdır. Bizə qədər dünyada heç kim bu taktikadan istifadə etməyib. Burada bütün vacib amillər bir məqsədi güdürdü ki, az itkilərlə düşmənə sarsıdıcı zərbələr vuraraq, düşmənin ordusunu faktiki olaraq, məhv edərək hədəfə çataq və belə də oldu. Biz sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, sonra hücum əməliyyatına keçdik. Çünki biz torpaqlarımızı azad etməli idik. Ermənistanın təxribatlarına son qoyulmalı idi. Günahsız insanların həlak olmasına son qoyulmalı idi və əks-hücumdan sonra hücum edən tərəf, adətən, daha çox itki verir. Ancaq bizim itkilərimiz müharibənin miqyasına görə həddindən çox aşağıdır. Hər bir şəhidimiz əvəzolunmazdır, hər bir insanın həlak olması böyük faciədir, onun özü üçün, yaxınları üçün, qohumları üçün, xalq üçün. Ancaq onu da bildirməliyik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Məhz buna görə ola bilər bəziləri hesab edir ki, bu məsələ daha da tez həll oluna bilərdi. Halbuki 44 gün ərzində bu ərazini işğaldan azad etmək və düşməni məhv etmək, düşmən ordusunu məhv etmək, düşməni təslim olmağa məcbur etmək böyük qəhrəmanlıqdır.

Biz çalışırdıq öz taktikamızı elə quraq ki, itkilər az olsun. Eyni zamanda, bizim taktikamızda gözlənilməz addımlar da kifayət qədər çox idi. İstifadə etdiyimiz taktiki üsullar dünya hərb elmi üçün yenilikdir. Vaxt keçdikcə bu məsələ ilə bağlı daha geniş məlumat veriləcək. Ancaq bu gün də artıq xarici mətbuata sızılan məlumatlar onu göstərir ki, bu müharibə hərbi ekspertlər tərəfindən çox ciddi təhlil edilirdi və edilir. Peşəkarlıq, qəhrəmanlıq, planlaşdırma, güclü iradə, milli ruh, texniki təchizat – birlikdə bütün bu amillər və xalq–iqtidar birliyi bizim qələbəmizi şərtləndirdi.

Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük qələbə qazana bildik, öz doğma torpaqlarımızı düşməndən azad edə bildik. Düşmənə elə sarsıdıcı zərbələr endirmişik ki, bu günə qədər özünə gələ bilmir.

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat faktiki olaraq, Ermənistan dövlətinin kapitulyasiyası idi. Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Ondan sonra Ağdam, Laçın, Kəlbəcər rayonları bir güllə atmadan bizə qaytarıldı. Bu gün Azərbaycan əsgəri bu rayonlarda xidmət edir. Bu da böyük nailiyyətdir. Biz mütləq o bölgələri də, o rayonları da döyüşərək alacaqdıq. Amma çox itkilər verə bilərdik, xüsusilə Ağdam istiqamətində, hər tərəf minalanmışdı və bir neçə müdafiə xətti var idi. Eyni zamanda, xüsusilə hava şəraitini nəzərə alsaq, Kəlbəcər,

Laçın rayonlarının döyüşlə azad edilməsi də böyük itkilərə gətirib çıxaracaqdı. Artıq qış başlamışdı, yolları buz bağlamışdı. Kəlbəcərə Göygöl rayonundan keçmək üçün saatlarla vaxt lazımdır.

Ona görə noyabrın 10-da imzalanmış Bəyanatın çox böyük əhəmiyyəti vardır. Təbii ki, əgər biz o günə qədər böyük ərazini işğalçılardan azad etməsəydik, düşmənin belini qırmasaydıq, düşmən ordusunun məhv edilməsində istədiyimizə nail olmasaydıq, əlbəttə, düşmən onun üçün bu alçaldıcı sənədə qol qoymazdı. Biz onu məcbur etdik, torpaqlarımızdan qovduq və mən verdiyim sözə həmişə olduğu kimi, sadiq qaldım. Müharibənin ilk günlərindən demişdim, Ermənistan rəhbərliyi açıq-aşkar bəyan etməlidir ki, nə vaxt, hansı tarixdə bizim torpaqlarımızdan çıxır. Tarix verməlidir bizə. Əgər bu olarsa, biz müharibəni dayandırarıq. Amma bizə tarix verilmədi. Çalışırdılar ki, müxtəlif yollarla xarici ölkələri bu işə qoşaraq, öz çirkin əməllərini, işğalı davam etdirsinlər. Əgər Ermənistan rəhbərliyi o vaxt mənim sözümə baxıb düzgün addım atsaydı, belə alçaldıcı vəziyyətə düşməzdi. Mən demişdim ki, axıra qədər gedəcəyik və axıra qədər də getdik, lazım olan anda dayandıq, üç rayonu bir güllə atmadan, bir itki vermədən qaytardıq, ərazi bütövlüyümüzü bərpa etdik.

Bu gün vaxtilə işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Ali Baş Komandan kimi, mən azad edilmiş bu torpaqlarda əsgərlərlə görüşürəm. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanıbdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol

boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, orda da hərbçilər və ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Mən azad edilmiş bu bölgələrdə ermənilər tərəfindən törədilmiş vəhşiliyi görərkən bir daha əmin oluram ki, biz nəinki özümüz üçün, bölgəmiz üçün də böyük iş görmüşük. Biz erməni faşizminin başını əzdik. Bizim torpaqlarımızı erməni faşizmi bu günə salıb. Biz Ermənistan faşist dövlətinin, terror dövlətinin belini qırdıq və bu gün məcbur olub bizim qabağımızda diz çöküb, düzgün nəticə çıxarmalıdır. Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılarsa – 5 kilometrdir buradan Ermənistan sərhədinə – onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar.

Biz öz istəyimizə nail olduq. Dekabrın 10-da Zəfər paradı keçirildi. Zəfər paradında biz düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasını, eyni zamanda da öz hərbi potensialımızı nümayiş etdirdik. Biz bundan sonra da ordumuzu gücləndirəcəyik. İndi gələn ilin büdcəsi müzakirə olunur. Mənim təşəbbüsümlə hərbi xərclər artırılır. İlk növbədə, ona görə ki, müharibə zamanı biz bir çox silah və sursatdan istifadə etdik, onları bərpa etmək lazımdır. Eyni zamanda, müasir texnikanın bundan sonra da alınması nə-

zərdə tutulur. Bundan sonra da ordumuzun müasirləşdirilməsi, ordumuzun döyüş potensialı, peşəkarlığı daim diqqət mərkəzində olacaqdır.

Biz qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmayacaq. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır. Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Lakin biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq. Mən həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq və yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik.

Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir. Qısa müddət ərzində lazım olan bütün bərpa işləri nəzərdə tutulub, xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar. Videosənədlər, fotosənədlər toplanılır, bütün dəymiş ziyan hesablanacaqdır. Bizim torpaqlarımız istismar edilirdi, təbii ehtiyatlarımız istismar edilirdi. Zəngilan rayonunda qızıl yatağı istismar edilirdi. Azad edilmiş digər ərazilərdə də həmçinin. Bütün bunların hesabını Ermənistan dövləti verəcək. Bununla paralel olaraq, bütün bərpa işləri təmin ediləcək, biz bütün şəhər və qəsəbələrimizi, kəndlərimizi bərpa edəcəyik, insanlar buraya qayıdacaq və biz öz torpağı-

mızda bundan sonra əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi öz torpağımızdan çıxarda bilməz.

Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirdik, əzmkarlıq nümayiş etdirdik, qəhrəmanlıq nümayiş etdirdik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etdik.

Qarabağ Azərbaycandır!

Yaşasın Azərbaycan əsgəri!

Yaşasın Azərbaycan!

* * *

*Sonra dövlət başçısı və xanımı işğaldan azad olunmuş Zəngilan rayonuna yola düşdülər.*

**İlham Əliyev:** Zəngilan şəhərinə az qalıb. Düşmən Zəngilanda da hər şeyi dağıdıb. Baxın, dağılmış evlər. Baxın, bu evi nə günə qoyublar.

*Prezident İlham Əliyev Zəngilanda Azərbaycan bayrağını ucaltdı.*

*Daha sonra dövlət başçısı və xanımı Zəngilanda mənfur düşmən tərəfindən dağıdılmış məscidə gəldilər. Dövlət başçısı məscidin qarşısında çıxış etdi.*

**İ l h a m Ə l i y e v:** Görün mənfur düşmən məscidi nə günə salıb. Bizim bütün dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Dünya 30 il ərzində buna səssiz qalıb. Biz bu məsələni dəfələrlə qaldırmışıq, beynəlxalq kürsülərdən söyləmişik ki, tarixi və dini abidələrimiz dağıdılıb, təhqir edilibdir. Biz o videoları dəfələrlə göstərirdik. Ağdam məscidini, Şuşa məscidlərini, o vaxt işğal altında olan digər məscidlərin vəziyyətini göstərərək deyirdik ki, mənfur düşmən bizim dini abidələrimizi dağıdıb, təhqir edibdir.

Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanılması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. Bax, burada məscid olub, indi yoxdur, dağıdıblar. İndi bəziləri azad edilmiş torpaqlarda erməni xalqının dini irsi haqqında məsələ qaldırır. Bəs bizim milli dini irsimiz haqqında niyə heç kim məsələ qaldırmayıb? Bu yaxınlarda UNESKO-nun bir məmuru əsassız bir ifadə işlədib ki, guya bizə müraciət olunub, Azərbaycan isə səssiz qalıb. Biz 30 il ərzində dəfələrlə UNESKO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi? Müharibə qurtaran kimi başlayıblar ki, erməni xalqının abidələri gərək qorunsun. Biz bütün abidələri qoruyuruq, bütün xalqların abidələrini qoruyuruq və dünya bunu bilir. Amma baxın, görün, məscid olub bura, UNESKO, buraya gəl, gəl gör. Avropa Şurası, səssiz qalma, gəl

gör buranı! Bütün məscidlər dağıdılıb. Yaxşı, məscidi dağıtmaq olar? Məscidi dağıtmaq, deməli, cinayət deyil? Bu ədalətsizlik nə qədər davam edəcək? Bu riyakarlıq nə qədər davam edəcək? Bu ikili standartlar nə qədər davam edəcək? Bu islamofobiya nə qədər davam edəcək? Bunu dağıdan erməni olub. Özündən mədəni millət obrazı yaratmağa çalışan və bəzi xarici himayədarları tərəfindən belə qəbul edilən mədəni adam bunu edər? Mədəni adam məsciddə donuz saxlayar? Bütün dünya bunu görsün! O cümlədən dünya müsəlmanları görsünlər, müsəlman ölkələrinin xalqları görsünlər. Bunu törədən ölkə ilə hansı dostluqdan söhbət gedə bilər? Əfsuslar olsun, biz bunu bu günə qədər eşidirik ki, bəzi müsəlman ölkələri Ermənistana dost ölkə deyir. Bu «dost» ölkəyə 20 il rəhbərlik etmiş cəlladlar bunu dağıdıblar. Onlar gəlib dağıdıblar bizim məscidimizi, təhqir ediblər. Bütün dünya bunu görməlidir. Əgər bizə qarşı hər hansı bir irad irəli sürüləcəksə, cavabını verəcəyik. İstənilən beynəlxalq təşkilat gəlsin, bunu görsün, öz hesabatında bunu əks etdirsin, qınasın işğalçı dövləti və görsün ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq, biz kimi qovmuşuq torpaqlarımızdan, rədd etmişik onları buradan. Görün şəhərlərimizi nə günə salıblar. Bir dənə də salamat bina yoxdur. Cəbrayıldan başlayaraq ta Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidlərimiz, bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv et-

mişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan «beynəlxalq məmurlar» öz dillərini qarınlarına qoyacaqlar. Biz bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.

* * *

**İlham Əliyev:** İndi isə Zəngilandan Bakıya qayıdırıq. Yolboyu Zəngilanın gözəl təbiətini seyr edirik. Görün necə gözəl yerlərdir. Qubadlı, Zəngilan rayonlarında olarkən bir daha gördük ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub.

30 il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq. Bir müddət sonra bu bölgəyə həyat tam qayıdacaq, inşallah.

İndi istiqamət Bakı şəhəridir. Çəkilişi aparan Mehriban xanıma da təşəkkürümü bildirirəm. Xahiş edirəm özünü də çəksin.

**Mehriban Əliyeva:** Dərin hörmət və məhəbbətlə sizin Mehriban.

**İlham Əliyev:** Sağ olun, əziz bacı və qardaşlar. Qarabağ Azərbaycandır!

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 24-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev telefonla zəng etmişdir.*

*Qazaxıstan Prezidenti dövlət başçımızı ad günü münasibətilə təbrik etdi, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzuladı.*

*Azərbaycan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları Azərbaycan–Qazaxıstan dostluq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduqlarını bildirdilər.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 24-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng etmişdir.*

*Vladimir Putin Azərbaycan Prezidentini ad günü münasibətilə təbrik etdi, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərimizin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilərək, əməkdaşlığımızın gələcəkdə də genişlənəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 24-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla zəng etmişdir.*

*Rəcəb Tayyib Ərdoğan dövlət başçımızı ad günü münasibətilə təbrik etdi, ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Prezident İlham Əliyev Türkiyə Prezidentinə göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əmin olduqlarını bildirdilər.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ GİORGİ QAXARİA İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 24-də Gürcüstanın Baş Naziri Giorgi Qaxaria telefonla zəng etmişdir.*

*Gürcüstanın Baş Naziri dövlət başçımızı ad günü münasibətilə təbrik etdi, ona ölkəmizin inkişafı və xalqımızın firavanlığı naminə fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzuladı.*

*Dövlət başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd edilərək, əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

**GÜRCÜSTANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB GİORGİ QAXARİAYA**

Hörmətli cənab Baş Nazir!

Gürcüstanın Baş Naziri vəzifəsinə yenidən təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Gürcüstan münasibətləri tarixən möhkəm dostluq və mehriban qonşuluq telləri ilə bir-birinə bağlı olan xalqlarımızın iradəsinə uyğun olaraq dinamik və hərtərəfli inkişaf etməkdədir.

İnanıram ki, siyasi, iqtisadi və humanitar sahələrdə daim genişlənən əlaqələrimiz, qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına, ölkələrimiz arasındakı strateji tərəfdaşlığın möhkəmlənməsinə töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 dekabr 2020-ci il*

## BAKI–QUBA–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN MASAZIR DAİRƏSİNƏDƏK OLAN HİSSƏSİNİN YENİDƏN QURULMASI ÇƏRÇİVƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*28 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7,5 kilometrliyindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması çərçivəsində görülmüş işlərlə tanış olmuşdur.*

*Dövlət başçısı Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 30 kilometrlik birinci hissəsinin açılışında da iştirak edibdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə mühüm sosial və iqtisadi əhəmiyyəti ilə seçilən infrastruktur layihələri həyata keçirilir. Bunlar ümumilikdə ölkəmizin iqtisadi potensialını möhkəmləndirir, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində aparılan işlərə böyük töhfə verir. Dövlət başçısının sərəncam və tapşırıqlarına uyğun inşa olunan Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil magistralı yol infra-*

*strukturu layihələrinin genişləndirilməsi, onların daha da müasirləşdirilməsi istiqamətində atılan növbəti mühüm addımdır. Bu layihə çərçivəsində yolun 7,5 kilometrliyindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması başa çatıbdır.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov işlərin icrası ilə bağlı dövlət başçısına məlumat verdi. Layihə çərçivəsində Xırdalan dairəsinin altından keçən avtomobil tuneli genişləndirilib. Hər bir istiqamət üzrə əlavə tunellər inşa edilib. Bundan başqa, yenidən qurulma işləri zamanı Xırdalan dairəsinə qalxan və düşən hissələrdə iki hərəkət zolaqlı yol inşa olunub. Görülmüş işlər bu istiqamətdə yaranan tıxacların qarşısının alınmasında, avtomobillərin hərəkətinin intensivliyinin, sürücülərin və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.*

*Layihəyə uyğun olaraq Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun Xırdalan dairəsi yaxınlığında yeni dəmir yolu körpüsü də tikilibdir.*

*Bundan əvvəlki körpünün texniki göstəriciləri avtomobillərin normal və təhlükəsiz hərəkətinə mane olurdu. Ona görə də əvvəlkinin sökülərək əvəzində yeni, müasir standartlara cavab verən yeni körpünün inşası ilə bağlı qərar qəbul edilmişdi. Layihənin icrası şəhərin bu hissəsində tıxacların qarşısının alınmasında, qatarların hərəkətinin təhlükəsizliyində böyük rol oynayacaqdır.*

*Prezident İlham Əliyev Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı–Quba–*

*Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun Xızı rayonunun Yaşma və Giləzi qəsəbələri arasında yerləşən 30 kilometrlik birinci hissəsinin açılışında da iştirak etdi.*

*Uzunluğu 150 kilometr olan yeni yol 4 hərəkət zolaqlıdır. Hazırda yeni magistralın Şabran rayonunun Gəndob kəndi və Qusar rayonunun Samur qəsəbəsi arasında yerləşən hissəsində tikinti yekunlaşmaq üzrədir. Yeni istiqamət üzrə inşa edilən bu magistral avtomobil yolu əvvəlkindən 13 kilometr qısadır.*

*Yolun qalan hissələrinin gələn ilin ikinci yarısında yekunlaşdırılması planlaşdırılır. Yeni avtomagistrala Giləzi yaşayış məntəqəsi, Siyəzən və Şabran rayonları, həmçinin Quba–Xaçmaz avtomobil yolu ilə kəsişən ərazidən yol qovşaqları vasitəsilə daxil olmaq mümkündür. Yeni magistral avtomobil yolundan istifadə üçün ödənişin hər kilometr üçün yük və minik avtomobillərinə görə fərqli məbləğdə olması nəzərdə tutulub. Bu yolun inşası beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji önəm daşıyan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Yolun inşası Azərbaycanın layihədə iştirak edən ölkələrlə iqtisadi əməkdaşlığının genişləndirilməsinə xidmət edəcək. Bundan başqa, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaqdır.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilibdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu «Qoşulmama Hərəkatı»nın sədri kimi, Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında «Qoşulmama Hərəkatı»nın sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdi.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq, Azərbaycan xalqı Vətən müharibəsinə qalxdı. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratdı və ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq–iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edildi.

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi «Dəmir yumruq» əməliyyatı dünya hərb tarixinə düşərək, aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirdi. Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini

yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək, onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək, ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını aldı, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik. Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri qələbəmizə layiqli töhfə oldu.

Əziz həmvətənlər!

Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2020-ci il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZORAN MİLANOVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Xorvatiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 dekabr 2020-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ NAZİRİ HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 dekabr 2020-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 31-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Yaşar Gülər, Türkiyə Respublikasının Quru Qoşunları komandanı Ümit Dündar və Türkiyə Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı Adnan Özbal daxildirlər.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, sizi görməyimə şadam! İl başa çatır və çox şadam ki, ilin sonunda siz Azərbaycana səfər edirsiniz. Bu il biz sizinlə dəfələrlə görüşmüşük. Fürsətdən istifadə edərək, sizi və bütün Türkiyə Silahlı Qüvvələrini Yeni il münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə yeni ildə yeni uğurlar diləyirəm.

İki gün əvvəl əziz qardaşım cənab Prezident Rəcəb Tayyib Ərdoğanla danışmışıq və sizin səfəriniz haqqında da söhbət etmişik. Fürsətdən istifadə edərək, bir daha qardaş Türkiyə dövlətinə, qardaş türk xalqına, şəxsən cənab Prezident Rəcəb Tayyib Ər-

doğana bizə göstərilmiş böyük dəstəyə görə təşəkkürümü bildirirəm. Müharibə zamanı bu böyük siyasi və mənəvi dəstək bizə əlavə güc verdi, bütün dünya bir daha gördü ki, Türkiyə–Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır, əbədidir və bütün günlərdə – xoş günlərdə də, ağır günlərdə də biz bir-birimizin yanındayıq. Eyni zamanda, dünyanın digər bölgələrində Türkiyənin gücünün artması, xüsusilə 2020-ci ildə Türkiyənin bir çox məsələlərdə söz sahibinə çevrilməsi bizi haqlı olaraq sevindirir. Dəfələrlə demişəm, Türkiyənin gücü bizim gücümüzdür və birlikdə biz daha güclüyük. Əminəm ki, gələn il də nəzərdə tutulmuş bütün planlar icra ediləcəkdir.

Bizim üçün bu il xüsusi əhəmiyyət daşıyır, böyük zəfər ili kimi Azərbaycan tarixində əbədi olaraq qalacaqdır. Uzun illərin işğalına son qoyuldu, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, işğalçıları işğal edilmiş torpaqlardan qovdu və ədaləti, tarixi ədaləti, haqq-ədaləti, beynəlxalq hüququ bərpa etdi. Şəhidlər oldu, yaralılar oldu, müharibədə bu qaçılmazdır. Biz şəhidlərin ruhu qarşısında and içdik ki, dağıdılmış bu bölgələri bərpa edəcəyik. Artıq bərpa işləri başlandı, ilkin kontraktlar imzalandı. Şadam ki, ilkin tərəfdaşlarımız yenə də Türkiyə şirkətləridir. Onlar bizim üçün önəmli infrastruktur layihələrini artıq icra etməyə başlayıblar. Xüsusilə Füzuli–Şuşa avtomobil yolunun tikintisində Türkiyə şirkətləri Azərbaycan şirkətləri ilə birlikdə fəaliyyət göstərirlər. Bütün başqa layihələrdə Türkiyə şirkətlərinin fəaliyyəti artıq təsdiq edilib, o cümlədən Kəlbəcərə çəkiləcək yeni yol, tunellər və digər infrastruktur layihələri icra ediləcək-

dir. Tezliklə biz bu bölgələrə həyat qaytarmalıyıq. Çünki mən orada olarkən gördüm ki, erməni vəhşiliyinin sərhədi yoxdur, hər tərəf dağıdılıb, hər tərəf viran edilib və aydındır ki, bu dağıntılar müharibə zamanı olan dağıntılar deyil. Çünki müharibə zamanı belə dağıntılar olmayıb. Müharibədən sonra, işğaldan sonra onlar bizim tarixi, mədəni, dini irsimizi silmək istədilər, şəhərlərimizi yerlə bir etdilər ki, azərbaycanlılar bundan sonra heç zaman o torpaqlara qayıtmasınlar. Amma səhv etdilər, yanıldılar, biz artıq qayıtmışıq, qayıdacağıq və Qarabağ bölgəsi dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.

Gələn il bizim üçün böyük quruculuq ili olacaq, ilkin tapşırıqlar verilib. Eyni zamanda, Ermənistan silahlı qüvvələri tərəfindən ara-sıra atəşkəs pozulur və əfsuslar olsun ki, müharibədən sonra da şəhidlərimiz vardır. Deyə bilərəm ki, bizdə olan məlumata görə, azad edilmiş bəzi torpaqlarda hələ də mövcud olan erməni silahlı birləşmələri Ermənistan siyasi rəhbərliyinə tabe deyillər, onların bir çoxu zərərsizləşdirilib, bir çoxu həbs edilibdir. Onlar müharibə əsirləri sayıla bilməz, onlar terrorçudurlar. Onlara imkan verildi – o cümlədən Rusiya sülhməramlı qüvvələri bu işlərə qoşularaq, imkan verildi ki, onlar o bölgələrdən çıxsınlar. Bu təklifə riayət edənlər çıxdılar və Ermənistan tərəfinə təhvil verildilər, ancaq bir qisim hələ də qalır və bizə qarşı terror aktları törədir. Buna baxmayaraq, bütövlükdə atəşkəs saxlanılır və hesab edirəm ki, bu, noyabrın 9-dan 10-na keçən gecə imzalanmış Bəyanatın müsbət tərəfidir. Bununla paralel olaraq, biz hazırda Azərbaycan, Ermənistan, Türkiyə dəhli-

zinin formalaşmasına da böyük önəm veririk, ilkin tapşırıqlar verilib. Biz yaxın günlərdə Horadizdən Zəngilana qədər, Ermənistan sərhədinə qədər dəmir yolunun tikintisinə başlayacağıq, artıq texniki-iqtisadi əsaslandırma hazırlanır. Qısa müddət ərzində müvəqqəti olaraq, Horadizdən Zəngilana qədər yol da çəkildi, mən özüm o yolla getmişəm, rahat, yüksək sürətlə getmək olar. Hesab edirəm ki, dəmir yolunun tikintisi maksimum 2 il çəkəcək. Ancaq bizim fikrimiz ondan ibarətdir ki, bu tarixi gözləməyək – dəmir yolu ilə Horadizə qədər, ondan sonra tırlarla daşımalar aparıla bilər. Bu, artıq bizim gündəliyimizdə olan vacib məsələdir. Hesab edirəm və əminəm ki, biz artıq Azərbaycandan Ermənistan və Naxçıvan ərazisindən keçərək, Türkiyəyə ilk yükləri göndərə və əks istiqamətdən qəbul edə bilərik.

Beləliklə, noyabrın 10-da imzalanmış Bəyanatın önəmli hissəsi olan Naxçıvan dəhlizinin açılması da həyata keçiriləcəkdir.

Nəhayət, sonuncu məsələ Türkiyə–Rusiya Monitorinq Mərkəzidir. Azərbaycan bu məsələ ilə bağlı da öz öhdəliyini yerinə yetirir. Azərbaycan tərəfi indi Ağdam bölgəsində bu Monitorinq Mərkəzi üçün bina inşa edir. Bu Mərkəz yaxın 10 günə – maksimum iki həftəyə hazır olacaqdır. Bildiyimə görə, artıq Türkiyə tərəfi də fəaliyyətə başlamaq üçün tam hazırdır. Yəqin ki, siz Rusiya tərəfi ilə də təmasdasınız, Monitorinq Mərkəzi nə qədər tez fəaliyyətə başlasa, o qədər də yaxşıdır. Çünki müharibədən təxminən iki ay keçməsinə baxmayaraq, hələ də təhdidlər, təhlükələr vardır. Nəzarətsiz erməni silahlı birləşmələri bizim

ərazimizdə fəaliyyət göstərir və onların bir hissəsi çıxmaq, təslim olmaq istəmir. Ona görə bu təhdidi aradan qaldırmaq və gələcəkdə bütövlükdə bölgəmizdə sülhün, sabitliyin təmin edilməsi üçün Monitorinq Mərkəzi mütləq olmalıdır. Çünki əfsuslar olsun ki, Ermənistanda bəzi siyasi qüvvələr revanşist fikirlərlə yaşayırlar, açıq bəyanatlar verirlər ki, gün gələcək onlar Azərbaycana qarşı müharibə aparacaqlar, Azərbaycan torpaqlarını işğal edəcəklər. Bu onlar üçün özünəqəsd olacaq. Təbii ki, belə cəhdlər dərhal yerindəcə aradan qaldırılacaq, ancaq bu təhdidlər vardır. Ona görə bu bölgədə monitorinq, nəzarət aparılmalıdır və Türkiyə–Rusiya Mərkəzi bu funksiyanı əminəm ki, şərəflə yerinə yetirəcəkdir.

Əlbəttə, Vətən müharibəsi Türkiyə–Azərbaycan əlaqələrini daha da möhkəmləndirdi və sizin iştirakınızla, əziz qardaşımın iştirakı ilə keçirilmiş hərbi parad bunu bir daha göstərdi. Siz gördünüz ki, bu nə qədər böyük sevincə, coşquya səbəb oldu, on minlərlə, yüz minlərlə insan küçələrə axışdı və bizim Azərbaycan və türk əsgərlərini qarşıladı. Bu bizim birliyimizin nümunəsidir. Paradı seyr edərkən iki il öncəki parad da yadımıza düşdü. O vaxt biz Bakının azad edilməsində Nuru Paşa ordusunun, Qafqaz İslam Ordusunun qəhrəmanlığını qeyd etmişdik. Bu dəfə isə Qarabağın azad edilməsini qeyd etdik. Yenə də bərabərik və əbədi bir yerdə olacağıq. Bir daha xoş gəlmisiniz!

**Hulusi Akar:** Cənab Prezident, vaxt ayırıb bizi qəbul etdiyiniz üçün Sizə öz adımdan və nümayəndə heyətinin üzvləri adından çox təşəkkür edirəm.

Cənab Prezidentimizlə Siz mütəmadi olaraq danışırsınız, amma yenə də Sizə salam göndərdi. Salamlarını Sizə çatdırmaq istəyirəm.

Fürsətdən istifadə edib gec də olsa, doğum gününüzü təbrik edirik, neçə belə illərə çıxasınız, liderliyinizi, inşallah, möhkəm cansağlığı və uğurlarla davam etdirəsiniz.

Təbii ki, burada bəzi duyğusal anlar da yaşadıq. Biz bunları unutmuruq, bu barədə dostlarımızla davamlı danışırıq. Bunlardan birincisi noyabrın 10-da saat ikidəki nitqinizdir. Həqiqətən də o bir Zəfər nitqi idi. Bunu daim xatırlayırıq. İkinci də 30 il işğala səssiz qalıb, seyr edib, hər şey bitdikdən sonra buraya gəlib Minsk qrupu olduqlarını xatırladanlara bu masada verdiyiniz cavabı da böyük zövqlə, bir dərs olaraq, Türkiyədə izlədik. Həqiqətən də hər kəs Sizin qətiyyətinizdən qürur duydu.

Qarabağ zəfərinin, Sizin də dediyiniz kimi, həqiqətən, Qafqazın tarixində çox önəmli yeri vardır. Bu həm Türkiyə–Azərbaycan əlaqələri baxımından dönüş nöqtəsi oldu, həm də Qafqazın gələcəyi baxımından həqiqətən, çox önəmli bir addım oldu. Sizin də dediyiniz kimi, bu zəfərin taclanması üçün, inşallah, ən qısa vaxtda ortaq Mərkəzin fəaliyyətə başlamasından sonra Naxçıvan ilə Zəngilan arasında kommunikasiya xətti qurulacaq ki, bu da qardaşların bir-biri ilə sıx əlaqəsi – Türkiyənin, Naxçıvanın və Azərbaycanın fiziki olaraq bir-birinə bağlanması baxımından çox önəmlidir.

Təbii ki, otuzillik bu mübarizə başa çatdıqdan, torpaqların işğaldan azad olunmasından sonra, in-

şallah, qarşıdakı dövrdə Sizin liderliyinizlə qoyulacaq sərmayələrlə orada rifah artacaq, əmin-amanlıq möhkəmlənəcək və ora bütün bölgə üçün, Qafqaz üçün cazibə mərkəzinə çevriləcəkdir. Azərbaycanın iradəsi ilə burada sülhün və sabitliyin təmin olunmasında Azərbaycan ilə Türkiyənin birliyi, bərabərliyi, çiyin-çiyinə çalışması həqiqətən, təkcə bu gün üçün deyil, gələcək üçün də böyük perspektivlər vəd edir. İnşallah, qarşıdakı dövrdə bu qardaşlıq bir ürək, bir bilək, bir yumruq olaraq davam edəcəkdir. Bununla da hər kəsin bura ilə bağlı planlarını yenidən nəzərdən keçirəcəyini, diqqətli olacağını düşünürük.

* * *

*Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

2020-ci il tarixdə qalır. 2020-ci il tarixdə bizim şanlı Qələbəmiz ili kimi qalacaqdır. Azərbaycan Ermənistanı 44 gün ərzində məğlub edərək, doğma torpaqlarını işğaldan azad etdi. Bu qələbə Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Bu, tarixi qələbədir. Biz tarixi ədaləti bərpa etdik.

Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Minsk qrupu çərçivəsində danışıqlar gedirdi, ancaq danışıqlar heç bir nəticə vermədi. Faktiki olaraq, Ermənistan bu danışıqlarda vaxt uzatmaq istəyirdi. Danışıqların imitasiyası prosesi gedirdi.

2003-cü ildə mən birinci dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə bəyan etmişdim ki, mənim Prezident kimi, əsas vəzifəm torpaqlarımızı işğaldan azad etməkdir. Prezidentlik dövrümün birinci illərində müəyyən ümidlər var idi ki, bu məsələ sülh yolu ilə həll oluna bilər. Çünki hesab edirdim ki, beynəlxalq hüququn norma və prinsipləri gözəl zəmin yaradır, bilirdim ki, tarixi ədalət bizim tərəfimizdədir. Eyni zamanda, BMT Təhlükəsizlik Şurasının qətnamələri məsələnin həlli üçün hüquqi əsas yaradırdı. Ancaq illər keçdikcə görürdüm ki, ümidlərimiz azalır və bunun səbəbi Ermənistanın fəaliyyəti idi, siyasəti idi, addımları idi. İllər keçdikcə daha aydın görünürdü ki, Ermənistan bu məsələni həll etmək

istəmir. Ermənistan bizim torpaqlarımızı işğal altında əbədi saxlamaq istəyir və danışıqlarda iştirak etməklə, sadəcə olaraq, görüntü yaradır ki, elə bil, danışıqlar prosesi gedir və beynəlxalq vasitəçilər də bu prosesdə iştirak edirlər. İllər keçdikcə ümidlərimiz azalırdı. Mən isə hər zaman deyirdim, son 17 il ərzində, demək olar, bütün beynəlxalq tədbirlərdəki çıxışlarımda deyirdim ki, bu məsələnin həlli bizim üçün prioritetdir.

Deyirdim ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq. Deyirdim ki, Azərbaycan heç vaxt imkan verməyəcək ki, tarixi, əzəli Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Deyirdim ki, biz heç vaxt qondarma «Dağlıq Qarabağ respublikası»na müstəqillik verməyəcəyik. Heç vaxt orada hər hansı bir səsvermə keçirilməyəcəkdir. Bütün bunları mən deyirdim və bu mövqe getdikcə daha da möhkəmlənirdi. Eyni zamanda, açıq görürdüm ki, əgər biz güclü olmasaq, əgər əlimizdə güc olmasa, bu məsələni həll edə bilmərik. Biz Birinci Qarabağ müharibəsində torpaqlarımızı nə üçün itirdik? Ona görə ki, ovaxtkı Azərbaycan rəhbərliyi öz vəzifə borcunu yerinə yetirə bilmirdi. 1992-ci ildə Şuşanın, Laçının, 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşməsi faktiki olaraq, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaratdı və ondan sonra digər torpaqların işğalı qaçılmaz idi. Ordumuz, demək olar ki, dağılmışdı, nizami ordu yaradılmamışdı, cəsarətli, igid övladlarımız qəhrəman kimi vuruşaraq şəhid olurdular, torpaqlarımız əldən gedirdi. Gücümüz yox idi. Ona görə güc amili ön plana

çıxdı. Bu gün artıq dəyişən dünyada güc amili, demək olar ki, rəsmi qaydada ön plana çıxıbdır. Mən isə bunu hələ 10 il bundan əvvəl proqnozlaşdırırdım, ona görə güc toplamaq üçün bütün imkanlar səfərbər edildi. Güc isə iqtisadiyyatdır. İqtisadiyyat güclü olmasa, hərbi gücdən, siyasi gücdən söhbət belə, gedə bilməz. Biz iqtisadi müstəqillik yaratmalı idik və yaratdıq. Artıq neçə ildir ki, Azərbaycan iqtisadi cəhətdən tam müstəqil ölkədir, heç kimdən asılı deyil, heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil.

İqtisadi müstəqillik siyasi müstəqilliyimizi gücləndirdi, daha da cəsarətli, müstəqil siyasət aparıldı. O siyasət ki, yalnız və yalnız Azərbaycan xalqının maraqlarına xidmət edir. Bu gün dünyada, dünya xəritəsində, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkələrin sayı o qədər də çox deyil. Azərbaycan onlardan biridir və Vətən müharibəsi bir daha bunu göstərdi. Bütün çağırışlara, bütün təzyiqlərə rəğmən, biz istədiyimizə nail ola bildik. Düşməni torpaqlarımızdan qovduq, hərbi yolla bu məsələni həll etdik və ondan sonra qələbəmizi siyasi yollarla daha da möhkəmləndirdik.

Güc toplamaq üçün, əlbəttə, düzgün siyasət aparılmalıdır. Son 17 il ərzində mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi – güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək.

Biz bu illər ərzində böyük, nəhəng layihələri icra etdik. Bu layihələr bizə imkan verdi ki, biz iqtisadi inkişaf baxımından dünyada qabaqcıl yerlərdəyik. İqtisadi inkişafın templərinə görə son 17 il ərzində Azərbaycan dünya miqyasında 1-ci yerdədir. Eyni zamanda, biz siyasətimizlə Ermənistanı zəiflətməli idik və bunu gizlətmirdik. Mən bunu təkcə bu gün demirəm, 10 il bundan əvvəl demişdim, nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistanı bütün layihələrdən, bütün regional təşəbbüslərdən məhrum edəcəyik, onları təcrid edəcəyik və bunu etdik. Baxın Avrasiyanın enerji, nəqliyyat, kommunikasiya xəritələrinə, ölkələri birləşdirən bütün o yollar, ölkələr üçün böyük fayda gətirən layihələr Ermənistandan yan keçib. Kim bunu edib? Biz, təzyiqlərə baxmayaraq. Mən bir dəfə demişəm, bir daha demək istəyirəm ki, hətta Bakı–Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı bizə qarşı əsassız ittihamlar irəli sürülürdü. Sanki biz təbiəti burada çirkləndiririk, ekoloji tarazlığa ziyan vururuq. Nə üçün? Bu layihəni dayandırmaq, yaxud da ki, bu layihəni Ermənistan ərazisindən həyata keçirmək üçün. O təqdirdə bizim əl-qolumuz bağlı olacaqdı, bizim bütün neft və ondan sonra qaz ixracımız Ermənistanın əlində olacaqdı. Mən buna razı ola bilərdim? Əlbəttə ki, yox! Ona görə də təzyiqlərə məruz qalırdım. Bəzi ölkələrin istəklərini yerə vururdum, çünki bu istəklər bizim milli maraqlarımıza zidd idi. 44 gün davam edən müharibə göstərdi ki, kim kimdir, kim kimin dostudur. Azərbaycan xalqı bunu yaxşı görür və bilir. Mən isə bunu çoxdan bilirdim. Ona görə bütün şər-böhtana, bütün təzyiqlərə, bütün

təhdidlərə hazır idim. Bir amalım var idi – güclü dövlət yaratmaq, torpaqlarımızı işğaldan azad etmək, ədaləti bərpa etmək!

Ermənistanı zəiflətmək üçün müxtəlif yollardan istifadə etdik və bütün bu yollar ictimaiyyətə təqdim edilirdi. Biz heç nəyi hansısa məxfi formatda etməmişik. Demişdim ki, təcrid edəcəyik, etdik – neft kəmərləri, qaz kəmərləri, nəqliyyat yolları Ermənistandan yan keçdi, telekommunikasiya xətləri Ermənistandan yan keçdi, elektroenergetika layihələri Ermənistandan yan keçdi. Ermənistan mümkün olan gəlirlərdən məhrum edildi.

Digər tərəfdən, Ermənistanı beynəlxalq arenada ifşa etmək, onların işğalçılıq siyasətini dünya ictimaiyyətinə çatdırmaq başlıca vəzifələrimizdən biri idi və biz buna nail olduq. Son 17 il ərzində, demək olar ki, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqemizi dəstəkləyən qərar, qətnamələr qəbul edib. BMT Baş Assambleyası, hətta Avropa Şurası və Avropa Parlamenti kimi, hər zaman anti-Azərbaycan mövqeyində dayanan təşkilatlar da məcbur olub münaqişə ilə bağlı həqiqəti əks etdirən qətnamələr qəbul ediblər.

Biz «Qoşulmama Hərəkatı»na üzv olduq. Yadımdadır, o vaxt bəziləri bunu səhv addım kimi qiymətləndirirdi. Ancaq mən bilirəm ki, bu, düzgün addım idi. Üzv olan kimi, dərhal 120 ölkənin dəstəyi ilə münaqişəyə dair qətnamə qəbul etdirdik – bizim maraqlarımıza xidmət edən qətnaməni. Bu gün «Qoşulmama Hərəkatı»nın sədri kimi, öz sözümüzü dünya miqyasında deyirik. Onu da bir daha demək istəyi-

rəm ki, müharibə zamanı BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı bizə sərf etməyən qərəzli anti-Azərbaycan təşəbbüslərinin qarşısının alınmasında «Qoşulmama Hərəkatı»na üzv ölkələr öz sözünü dedi. Bu təşəbbüs baş tutmadı.

Biz İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələr qurduq. Tarixdə bu gün bu əlaqələr ən yüksək zirvədədir. İslam Əməkdaşlıq Təşkilatı bu münaqişə ilə bağlı düzgün, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən qətnamələr qəbul etdi. Biz müsəlman ölkələri ilə təmaslar əsnasında onlara erməni vəhşilikləri haqqında məlumat çatdırırdıq.

Dağıdılmış, təhqir edilmiş məscidlərin şəkillərini mən öz həmkarlarıma göstərdim və sual verdim ki, siz bundan sonra bu ölkə ilə necə əlaqələr qurursunuz? Bu şəkilləri görəndən sonra siz onlarla necə görüşürsünüz, onların əlini sıxırsınız? Axı bütün bu vəhşiliklər təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı edilən cinayətdir.

Biz regionda qonşu ölkələrlə sıx münasibətlər qurduq. Çünki əvvəllər nədənsə hesab olunurdu ki, regionda Azərbaycanın ənənəvi müttəfiqləri var və Ermənistanın ənənəvi müttəfiqləri var. Biz bu konsepsiyanı darmadağın etdik. Bu gün qonşularımızın hamısı bizim yaxın dostlarımızdır. Bizim bütün qonşularımızla həm ikitərəfli, həm də üçtərəfli formatda çox gözəl əməkdaşlığımız var. Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli formatı var, Azərbaycan–İran–Türkiyə üçtərəfli formatı var, Azərbaycan–İran–Rusiya üçtərəfli formatı var. Ermənistanın hər hansı ölkələrlə bu formatı varmı? Yoxdur. Bu bizim siyasətimizin düzgün

olmasının bariz nümunəsidir. Biz Ermənistanı onların uzun illər saydıqları dayaq nöqtələrindən məhrum etdik. Çünki siyasətimizi düzgün qurmuşuq. Hər zaman öz siyasətimizi açıq aparmışıq. Heç bir ölkəyə qarşı heç bir avantürada yer almamışıq. Demişdim ki, Azərbaycan ərazisindən heç bir ölkəyə qarşı, o cümlədən və ilk növbədə, qonşulara qarşı heç bir təxribat xarakterli addım, təşəbbüs olmayacaq. Beləliklə, dünyada, regionda, qonşular arasında hörmət qazanmışıq və ölkəmizi gücləndirmişik. Bizimlə hesablaşmağa başlamışlar. Bizim sözümüzə inanırdılar və inanırlar. Həmişə demişəm, sözüm imzam qədər qüvvətlidir.

Bütün bu amillər öz rolunu oynadı. Ermənistanın təqdim etdiyi saxta tarixi darmadağın etdik, beynəlxalq tədbirlərdə dünya ictimaiyyətinə Kürəkçay sülh müqaviləsi haqqında kifayət qədər dolğun məlumat verdik. Hər kəs gördü ki, erməni xalqı Qarabağ bölgəsində sadəcə olaraq, son 200 il ərzində yaşayır, oraya köçürülüblər.

Xocalı həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırmışıq və çatdırırıq. Xocalı haqqında son 17 ilə qədər kimsə danışırdı? Sanki belə bir cinayət olmayıb. Sanki bu soyqırımı olmayıb. Çünki Ermənistan bunu ört-basdır etməyə çalışır, hətta bu hərbi cinayəti Azərbaycanın üstünə atmaq istəyir. Necə ki, Vətən müharibəsi dövründə Gəncəni və digər şəhərləri Ermənistan ərazisindən ballistik raketlərlə atəşə tutandan sonra deyirdi ki, Azərbaycan bunu özü edib. Belə həyasız ölkə ola bilərmi? Belə vicdansız adamlar ola bilərmi? Görünür ki, ola bilər. Bu da Ermənis-

tandır. Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün çox böyük səylər göstərdik – həm dövlət, həm də Heydər Əliyev Fondu. Bu gün 13 ölkə Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıb. Müharibə haqqında həqiqətləri, dağıdılmış şəhərlər, kəndlər haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdıq. Halbuki bizim o kəndlərə, şəhərlərə getmək imkanımız yox idi. Heç bir beynəlxalq təşkilat oraya getmirdi. UNESKO – hansı ki, bu gün bizə irad tutmağa çalışır, guya biz erməni dini abidələrini burada qoruya bilməyəcəyik, halbuki bu yalandır, Azərbaycanda bütün dini abidələr qorunur – bir dəfə gedib o torpaqlara? Bir dəfə Şuşa məscidində olub? Zəngilanda dağıdılmış məsciddə olub? Ağdam məscidində olub? Orada ermənilər donuz, inək saxlayırdılar. İndi bizə irad tuturlar.

Ermənistan oralara heç kimi buraxmırdı, heç kimi. Hətta Minsk qrupuna sədrlik edən ölkələrin səfirlərini buraxmırdı. Biz güc-bəla ilə iki dəfə nail olduq ki, Minsk qrupu işğal edilmiş torpaqlara faktaraşdırıcı missiya göndərsin. Sonuncu missiya 10 il bundan əvvəl getmişdi. Hər il mən onlara deyirdim ki, niyə getmirsiniz? Gedin, oraya baxın, qanunsuz məskunlaşma gedir. Bizim bütün şəhərlərimiz, kəndlərimiz dağıdılır. Kəndlərimizin, şəhərlərimizin adları dəyişdirilir, tarixi abidələrimiz dağıdılır, yaxud da ki, erməniləşdirilir. Getmirdilər ki, Ermənistan buraxmır. Ermənistan kimdir ki, buraxmasın?! Bax, bütün bu işləri görərkən biz Qələbə Günümüzü yaxınlaşdırırdıq. Əgər mənim əvvəlki çoxsaylı çıxışlarıma nəzər yetirsəniz, görərsiniz, demişdim ki, hər gün

hər birimiz bu müqəddəs anı öz əməyimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırdıq, bu müqəddəs qələbə anı gəldi!

Müharibənin qaçılmaz olması ilə bağlı artıq neçə ildir ki, regionun işləri ilə məşğul olan müxtəlif ekspertlər öz fikirlərini ifadə edirlər. Eyni zamanda, bütün bu illər ərzində bizə ünvanlanan sifarişlər arasında, necə deyərlər, bir tezis üstünlük təşkil edirdi ki, münaqişənin hərbi həlli yoxdur. Kimsə bunu ortalığa atmışdı. Mən təxminən bilirəm kim. Bütün başqa təşkilatlar, bu işə aidiyyəti olan-olmayan, bölgə məsələləri ilə məşğul olan-olmayan – hamı elə bir ağızdan deyirdi ki, münaqişənin hərbi həlli yoxdur.

Mən son illər ərzində bir çox ölkələrdə rəsmi səfərlərdə olmuşam – həm bölgə ölkələrində, həm başqa ölkələrdə. Bütün bu səfərlər işıqlandırılıb. Bir çox hallarda heç bölgə ilə, bizim regionumuzla əlaqəsi olmayan hansısa həmkarım deyirdi ki, münaqişənin hərbi həlli yoxdur. Sən haradan bilirsən? Müxtəlif dairələr deyiblər ki, bax, bunu deməlisən İlham Əliyevə. Dünya idarəetməsində fəal rol oynayan ölkələr, dairələr bunu deyirdilər ki, bizi bu yoldan çəkindirsinlər, heç vaxt bu olmasın. Status-kvo əbədi qalsın, dəyişdirilməsin. Halbuki bəzən də deyirdilər ki, status-kvo qəbuledilməzdir. Amma sonra bundan da, necə deyərlər, vaz keçdilər. Başladılar deməyə ki, status-kvo dayanıqlı deyil. Deməli, qəbulediləndir. Amma bizim üçün qəbuledilən deyildi. Biz Ermənistan, onun havadarları, onun himayədarları və erməniपərəst qüvvələrin qarşısına təkbaşına çıxmışdıq. Təkbaşına! Heç kim bizi bizə sərf etməyən sülh müqaviləsi va-

riantına məcbur edə bilmədi. Halbuki bir neçə dəfə belə cəhdlər oldu. Bir neçə dəfə, hətta müəyyən saxtakarlıq edərək, sənədlərin tərtibatında guya səhvlər olub deyə, bizi hansısa varianta təhrik etməyə, sövq etməyə çalışırdılar. Amma keçmədi, keçməyəcəkdi. Çünki güclü iradə var idi və vardır. Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Torpaqlarımızın işğaldan azad edilməsi ən başlıca vəzifə idi və biz bu vəzifəyə, bu hədəfə doğru inamla addımlayırdıq.

Son illərdə vəziyyət gərginləşməyə başlamışdı. Artıq Ermənistan da öz niyyətini gizlədə bilmirdi. Danışıqların mənası faktiki olaraq, itmişdi və təkcə bu son 2 il ərzində yox, təqribən 5-6 il ərzində.

Ermənistan işğal edilmiş torpaqlarda müntəzəm olaraq hərbi təlimlər keçirirdi. O hərbi təlimlər Ağdam rayonu ərazisində keçirilirdi. Ermənistan rəhbərliyinin sözlərinə görə, bu təlimlərdə 10 minlərlə canlı qüvvə iştirak edirdi. Bizim mövqelərimizə qarşı hücum təşkil edilirdi. Hərbi helikopter hücum etmişdi və o helikopter vuruldu. Bu da Ermənistana imkan verdi ki, bunu bəhanə gətirərək desin ki, Azərbaycan bizim helikopterimizi vurdu, indi danışıqlar dayanmalıdır. Hər dəfə müəyyən irəliləyişə imkan yarandıqca, belə təxribatlara əl atırdılar.

Aprel döyüşləri Ermənistana dərs olmadı. Bir neçə gün davam edən aprel döyüşləri kiçik də olsa, bizim qələbəmizlə nəticələndi. Ermənistan məcbur oldu, yerinə oturduldu, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik, göstərdik ki, bizi heç kim və heç nə yolumuzdan döndərə bilməz, çəkin-

dirə bilməz. Amma dərs olmadı onlara. Aprel döyüşlərindən sonra Ermənistanın ovaxtkı rəhbərliyi, demək olar, söz vermişdi ki, işğal edilmiş torpaqlardan çıxacaq. Bu həqiqətdir. Amma sonra orada ya özləri təşkil etdilər, ya doğrudan da belə hadisə baş verdi – polis bölməsi zəbt edildi, terrorçu qrup orada terror aktı törətdi və ondan sonra Ermənistan rəhbərliyi dedi ki, görürsünüz, burada vəziyyət gərgindir, biz bunu edə bilmirik. Bizi aldatdılar. 2018-ci ildə Günnüt əməliyyatı – Naxçıvan əməliyyatı da bizim uğurlu əməliyyatımız idi. Biz böyük ərazini götürdük, işğaldan azad etdik və strateji yüksəklikləri zəbt etdik. Yenə də dərs olmadı. Yəni biz onlara şans verirdik. 2018-ci ildə Ermənistanda – indi bəziləri buna inqilab deyir, bəziləri çevriliş deyir, özləri bilərlər – dəyişiklik baş verdi, ümidlər oyandı və bu ümidlər əsassız deyildi. Mən dərinə getmək istəmirəm. Biz ümid edirdik ki, yeni rəhbərlik keçmiş səhvlərdən təmizlənəcək və bu məsələ öz həllini tapacaq. Amma bu da baş vermədi. Demək olar ki, bir ildən sonra bizə qarşı qəbuledilməz addımlar atıldı, bizi faktiki olaraq, aldatdılar, öz daxili problemlərini həll etmək, daxili müxalifəti əzmək, həbs etmək üçün vaxt uddular. Ondan sonra nə oldu, Azərbaycan xalqı yaxşı bilir. Qəbuledilməz bəyanatlar, Azərbaycan xalqının təhqir edilməsi, yersiz hərəkətlər, biabırçı addımlar, bəyanatlar və təxribat xarakterli hərbi əməliyyatlar – iyul ayında, avqust ayında və nəhayət, sentyabrın 27-də. Mən dedim: yetər artıq, irəli! 44 gün ərzində düşmənin ordusu məhv edildi. Bu gün Ermənistan ordusu yoxdur.

Müharibə dövründə mən əziz xalqımı müharibə ilə bağlı müntəzəm olaraq məlumatlandırırdım. Müharibənin gedişatı xalqımızın gözü qabağında keçirdi. Müharibədən sonra da bəzi əməliyyatlar haqqında, bəzi qərarlar haqqında müəyyən məlumatlar verilir. Bu məsələyə çox vaxt ayırmaq istəmirəm. Amma 44 gün ərzində Azərbaycan Ordusu Ermənistan ordusunu darmadağın etdi. Bizim qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdi. Düzgün planlaşdırılmış və həyata keçirilmiş əməliyyatlar sayəsində, texniki imkanlardan istifadə edərək, qəhrəman övladlarımızın qəhrəmanlığına, rəşadətinə söykənərək, biz mümkün olmayanı etdik, düşməni məhv etdik, düşmən ağ bayraq qaldırdı, düşmən diz çökdü. Üç yüzdən çox şəhər və kəndlərimizi işğaldan azad edəndən sonra, qədim Azərbaycan şəhəri, hamımız üçün doğma olan Şuşanı və ardınca bir çox kəndləri azad edəndən sonra düşmən tam təslim oldu, kapitulyasiya aktına imza atdı və işğalda olan digər torpaqlardan geri çəkilməyə məcbur oldu.

Müharibə arxada qaldı. Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi, müharibə rəmzinə, qələbə rəmzinə çevrilən dəmir yumruq öz gücünü göstərdi. Bu həm birlikdir, həm də gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaqdır. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini ala-

caq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq.

Azərbaycan Ermənistanı məğlub etdi. Bunu bütün dünya gördü, bu, dünyanın gözü qarşısında baş verdi. Heç kim bizi dayandıra bilmədi. Demişdim ki, sona qədər gedəcəyik, bizə tarix versinlər ki, işğalçı Ermənistan dövləti bizim torpaqlarımızdan nə vaxt çıxacaq. Tarix veriləndən sonra biz hərbi əməliyyatlarımızı dayandırdıq.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Hər il mən xalqa müraciət edərkən dünya azərbaycanlılarını həmrəylik və Yeni il münasibətilə təbrik edirəm. Bu dəfə isə bu təbrikin xüsusi önəmi vardır. Mən bilirəm ki, dünyada yaşayan azərbaycanlılar müharibə dövründə Azərbaycanda gedən prosesləri, müharibəni yaxından izləyiblər. Onlar öz dəstəklərini ifadə edirdilər. Mənə göndərilmiş minlərlə məktub arasında xaricdə yaşayan azərbaycanlılardan da kifayət qədər çox məktublar vardır. Onlar həm mənəvi dəstək göstərdilər, həm də həmrəylik göstərdilər. Bu gün onlara müraciət edərək deyirəm – siz fəxr edə bilərsiniz ki, qəhrəman Azərbaycan xalqının övladlarısınız. Bu gün hər bir azərbaycanlı, hər bir Azərbaycan vətəndaşı və xaricdə yaşayan soydaşlarımız haqlı olaraq fəxr edə bilərlər ki, biz müzəffər xalqın övladlarıyıq, nümayəndələriyik.

Mən bütün soydaşlarımızı bu bayram münasibətilə təbrik etmək istəyirəm. Bütün Azərbaycan xalqını ilk növbədə, tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm. Gələcəkdə bizi böyük işlər gözləyir, ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü,

inkişaf dövrü, torpaqlarımızın bərpası günləri bizi gözləyir. Bu dövr şərəfli dövr olacaqdır. Baxmayaraq ki, düşmən işğal etdiyi və artıq azad olunmuş torpaqlarda hər şeyi dağıdıb, biz bütün şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik, Qarabağ bölgəsində cənnət yaradacağıq. Bizim xalqımız buna layiqdir. Bizim xalqımıza qələbə yaraşır və qələbə həmişə bizimlə olacaq!

Əziz bacı-qardaşlarım, sizi Yeni il münasibətilə, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqını böyük Zəfər münasibətilə təbrik edirəm. İstərdim ki, Yeni il ərəfəsində hamımız birlikdə bizi qələbəyə aparan şüarı deyək:

Qarabağ Azərbaycandır!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2020-ci il*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ TELEFONLA GÖRÜŞ

*1 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə yanvarın 1-də Bolqarıstanın Baş Naziri Boyko Borisov telefonla zəng etmişdir.*

*Boyko Borisov TAP layihəsi üzrə Azərbaycan qazının Bolqarıstana çatdırılmasının mühüm hadisə olduğunu qeyd edərək, bunun yüksək qiymətləndirildiyini xüsusi olaraq vurğuladı.*

*Öz növbəsində, Azərbaycan Prezidenti TAP layihəsi üzrə Azərbaycan qazının Bolqarıstana çatdırılmasının həm ikitərəfli əlaqələrin inkişafı, həm də beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd etdi. Eyni zamanda, dövlət başçısı Azərbaycan qazının Avropaya çatdırılmasını «Cənub Qaz Dəhlizi»nin tamamlanması və bu tarixi layihədə iştirak edən ölkələrin uğurlu əməkdaşlığının təsdiqi kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev və Baş Nazir Boyko Borisov TAP layihəsi üzrə Azərbaycan qazının Bolqarıstana və Avropanın digər ölkələrinə çatdırılmasının Avropanın enerji təchizatının şaxələndirilməsi və enerji təhlükəsizliyinin təmin olunması işinə böyük töhfə verəcəyini də bildirdilər.*

*Telefon söhbəti zamanı Azərbaycan ilə Bolqarıstan arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəni sahələrdə əməkdaşlığın genişləndirilməsində tərəqqinin müşahidə olunduğu qeyd edilərək, dostluq və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.*

*Boyko Borisov Azərbaycan Prezidentini ölkəsinə səfərə dəvət etdi.*

*Azərbaycan Prezidenti dəvəti minnətdarlıqla qəbul etdi.*

*Telefon söhbəti zamanı, həmçinin Prezident İlham Əliyev və Baş Nazir Boyko Borisov bir-birini Yeni il münasibətilə təbrik edərək, möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzuladılar.*

## QROSSMEYSTER TEYMUR RƏCƏBOVA

Əziz Teymur!

«Airthings Masters» şahmat turnirində qələbə qazanmağın münasibətilə səni səmimi-qəlbdən təbrik edirik.

Sənin bu yarış zamanı peşəkarlıq, iradə və əzmkarlıq nümayiş etdirərək, qazandığın inamlı qələbə Azərbaycan xalqını sevindirdi. Sənin bu uğurun eyni zamanda, xalqımızın yüksək intellektual potensialının bariz göstəricisidir.

Sənə ən xoş arzularımızı yetirir, gələcək uğurlar və yeni-yeni şahmat zirvələrini fəth etməyi diləyirik.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 yanvar 2021-ci il*

## ROBER OSSEYNİN AİLƏSİNƏ

Dünya kino və teatr sənətinin görkəmli nümayəndəsi, aktyor, ssenarist, rejissor Rober Osseynin vəfatı ilə əlaqədar Mehriban xanımla birlikdə dərin hüznlə başsağlığımızı veririk.

Rober Osseynin dolğun səhnə və ekran fəaliyyəti əsnasında canlandırdığı rəngarəng obrazlar, bənzərsiz ifalar, quruluşçusu olduğu çoxsaylı tamaşalar kino və teatr sənətinin parlaq nümunələridir.

Rober Osseyn Azərbaycanın əsl dostu idi. Azərbaycanlı soy-kökləri ilə fəxr edən Rober Osseyn ölkəmizin hüdudlarından kənarda yaşasa da, qəlbən ata yurduna bağlı idi. Məhz bu səbəbdən o dəfələrlə ölkəmizə səfər etmişdir. Ona Azərbaycanda hər zaman böyük hörmət və rəğbət bəslənilmişdir. Onunla görüşlərimizi və söhbətlərimizi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Unudulmaz sənətkar və səmimi insan Rober Osseynin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 yanvar 2021-ci il*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ, RUSİYA–AZƏRBAYCAN İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ ALEKSEY OVERÇUK İLƏ GÖRÜŞ

*3 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 3-də ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökumətinin sədr müavini, Rusiya–Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə hökumətlər-arası birgə Komissiyasının həmsədri Aleksey Overçuku qəbul etmişdir.*

*Rusiya Federasiyası Hökumətinin sədr müavini, Rusiya–Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyasının həmsədri Aleksey Overçuk Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlət başçımıza çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Bildirildi ki, 2020-ci ildə koronavirus pandemiyasına baxmayaraq, iqtisadi sahədə əlaqələr inkişaf edib. Bu baxımdan keçən ilin sonlarında hökumətlərarası birgə*

*Komissiyanın Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayevin Rusiyaya, Komissiyanın Rusiya tərəfindən həmsədri Aleksey Overçukun isə hazırda ölkəmizə səfər etməsi bu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirildi.*

*Görüşdə 2021-ci ildə Azərbaycan ilə Rusiya arasında iqtisadi, enerji, nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlıq istiqamətləri müzakirə edildi, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## MƏDƏNİYYƏT NAZİRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ ANAR KƏRİMOV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*5 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də Anar Kərimovu Mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Mən sizi Mədəniyyət naziri vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Siz bir müddət Mədəniyyət nazirinin müavini vəzifəsində çalışmısınız və ümid edirəm ki, nazir kimi, bu yüksək etimadı doğruldacaqsınız.

Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir. Biz öz mədəniyyətimizi, mədəni irsimizi qorumalıyıq. Əsrlərboyu xalqımız öz mədəniyyətini qoruyub və bu, imkan verib ki, biz xalq kimi, millət kimi, milli-mənəvi dəyərlərimizi, milli mənsubiyyətimizi qoruya bilək.

Uzun illər Azərbaycan müstəqillikdən məhrum olub, xalqımız başqa dövlətlərin tərkibində yaşayıbdır. Buna baxmayaraq, xalqımızın iradəsi, milli köklərə bağlılığı imkan vermədi ki, xalqımız assimilyasiyaya uğrasın. Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıbdır.

Əsrlərboyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir. Mən ana dilinin qorunması ilə bağlı müxtəlif vaxtlarda öz sözlərimi demişəm. Azərbaycan Milli Elmlər Akademiyasının kürsüsündən və digər tədbirlərdə demişəm ki, bizim zəngin dilimiz var, biz haqlı olaraq, dilimizlə fəxr edə bilərik. Hesab edirəm ki, zənginliyi nöqteyi-nəzərindən Azərbaycan dilinin dünya dilləri arasında xüsusi yeri vardır.

Son vaxtlar Azərbaycan dilinə daxil edilmiş bəzi kəlmələr dilimizin saflığını pozur. Bizim dilimiz çox zəngindir. Hesab edirəm ki, Mədəniyyət Nazirliyi digər aidiyyəti qurumlarla – Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan dilinin qorunması üçün çox ciddi işlər aparmalıdır. Müxtəlif tədbirlər görülür, proqramlar var, ancaq gündəlik həyatda bəzi hallarda dilimizin saflığının pozulmasını görürük. Mən bunu mətbuat orqanlarından, televiziya məkanından görürəm və əlbəttə ki, bunun qarşısı alınmalıdır. Biz əsrlərboyu dilimizi qorumuşuq, bundan sonra da qorumalıyıq. Bu gün dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir.

Bizim zəngin ədəbiyyatımız dünyada tanınır və biz haqlı olaraq, öz dahi şairlərimizlə fəxr edə bilərik. 2021-ci il mənim sərəncamımla «Nizami ili» elan olunur. 2021-ci ildə biz Nizaminin 880 illik yubileyini qeyd edəcəyik, yubiley həm Azərbaycanda, həm də dünyada geniş qeyd olunmalıdır. Dahi Azərbaycan şairi Nizaminin əsərləri dünyaya daha geniş təqdim

edilməlidir. Bildiyiniz kimi, artıq uzun illərdir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi fəaliyyət göstərir və bu Mərkəzə mənim xüsusi diqqətim vardır. Mərkəz humanitar qeyri-hökumət təşkilatı kimi formalaşsa da, hazırda mərkəzin fəaliyyəti çox genişdir, çoxşaxəlidir. Hər il keçirilən Qlobal Bakı Forumu – əlbəttə, 2020-ci ildə pandemiyaya görə keçirilməyib – dünya miqyasında öz layiqli yerini tutubdur. Bir daha demək istəyirəm ki, bu il biz Nizami Gəncəvinin yubileyini geniş qeyd etməliyik. 2019-cu il isə digər dahi Azərbaycan şairi «Nəsimi ili» olmuşdur. Bu onu göstərir ki, dövlət tərəfindən və şəxsən Prezident tərəfindən bizim ədəbiyyatımıza, bizim dahi şairlərimizin xatirəsinə çox böyük hörmət var, qayğı var. Nizami, Nəsimi, Füzuli və digər dahi Azərbaycan şairləri dünya ədəbiyyat xəzinəsinə çox böyük töhfələr vermişlər.

Azərbaycanın zəngin musiqi sənəti var və bu gün bizim sənətimiz dünyada tanınır. Bizim musiqi sənətimiz UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Azərbaycan muğamı bizim milli sərvətimizdir. Ölkəmizdə müntəzəm olaraq muğam müsabiqələri, beynəlxalq muğam festivalları keçirilir, bir çox ölkələrdən ifaçılar gəlirlər. Əlbəttə, muğam sənəti bir neçə ölkədə mövcuddur, mən hesab edirəm ki, muğam sənətinin mərkəzi Azərbaycandır. Təkrarolunmaz bu sənət bu gün yaşayır, biz bu sənəti yaşadırıq. Heydər Əliyev Fondunun xətti ilə muğam sənətinin dünyada təbliği istiqamətində çox böyük işlər görülüb. Çox şadam ki, bizim gənclərimiz də muğam sənətinə böyük maraqla yanaşırlar. Bu çox təqdirəlayiq bir haldır. Çünki bəzi hallarda gənclər

daha çox populyar musiqiyə üstünlük verirlər, yəni bəzi hallarda xarici musiqiyə üstünlük verirlər. Mən çox şadam ki, bizim gənclərimizin mütləq əksəriyyəti milli incəsənətimizə, musiqimizə bağlı olan insanlardır. Əlbəttə, bizim tanınmış muğam ustaları gənc nəslin yetişdirilməsində öz rolunu oynayır.

Bildiyiniz kimi, mənim sərəncamımla bir neçə Muğam Mərkəzi yaradılıbdır – Bakı şəhərində, Ağdam, Füzuli və digər rayonlarda. İndi isə belə muğam mərkəzləri artıq işğaldan azad edilmiş torpaqlarda da yaradılacaqdır.

Aşıq sənəti təkrarolunmaz sənətdir. Haqlı olaraq biz aşıq sənətini sırf Azərbaycan sənəti kimi qəbul edirik və aşıq sənətini dünyada təbliğ edirik. Bizim milli musiqimiz çox zəngindir, çox geniş auditoriya cəlb edə bilib. Bizim musiqimiz xalqımızın istedadını göstərir. Bütövlükdə bizim mədəniyyətimiz xalqımızın istedadını göstərir. Çünki ancaq istedadlı xalq belə gözəl əsərlər yarada bilər.

Xalçaçılıq sənəti ilə haqlı olaraq fəxr edə bilərik. Dünyada xalçaçılıq sənəti ilə məşğul olan ölkələrin sayı o qədər də çox deyil. Onların arasında Azərbaycan xalçalarının xüsusi yeri vardır. Özü də xalçalarımızın, xalça məktəblərinin müxtəlifliyi bizim mədəni zənginliyimizi göstərir. Xalça sənətini də biz yaşadırıq. Vaxtilə muğam sənəti yavaş-yavaş yaddan çıxırdı və elə bil ki, kənarda qalırdı, eləcə də xalçaçılıq sənəti. Gənclər xalçaçılıqla məşğul olmağa həm həvəsli deyildilər, həm də ki, imkanları yox idi. Biz bu imkanları yaratdıq. Xalçaçılıq sənəti əbədi yaşamalıdır.

Bizim memarlıq əsərlərimiz dünya səviyyəsində məşhurdur və UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına salınıbdır. Qız qalası memarlıq nümunəsidir, təkrarolunmaz memarlığa malikdir. İçərişəhər, Şirvanşahlar sarayı, digər bölgələrimizdə yerləşən memarlıq abidələri göstərir ki, bizim nə qədər zəngin memarlıq abidələrimiz vardır. Eyni zamanda, biz son illər ərzində müasir memarlıq əsərləri yaratmışıq. Heydər Əliyev Mərkəzi dünyada seçilən memarlıq nümunələrindən biridir və bir çox reytinqlərdə, bir çox hesabatlarda bir nömrəli müasir memarlıq nümunəsi kimi qeyd edilir. Alov qüllələri də memarlıq nümunəsidir, həm Bakı şəhərinin rəmzi olan alovu, həm də ölkəmizin sürətli inkişafını əks etdirir, memarlıq baxımından çox uğurlu bir layihədir. Eyni zamanda, bölgələrdə müasir memarlıq abidələrinin sayı getdikcə artır.

Bizim dini abidələrimiz qorunur və qorunacaq. Mənim göstərişimlə bizim bütün əsas dini abidələrimiz təmir olunub. Bir çoxları yenidən tikilib, o cümlədən mənim göstərişimlə Heydər məscidi yenidən tikilib. Bizim digər məscidlərimiz əsaslı təmir edilib. Onların təmiri simasını qorumaq şərtilə aparılıb. Azərbaycan bu sahədə də dünyaya göstərir ki, nə qədər zəngin mədəni irsə malikdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi ölkəmizdə yerləşir, 743-cü ildə inşa edilib, mənim göstərişimlə faktiki olaraq, yenidən qurulubdur.

Yaxud da ki, xristian dininə mənsub olan abidələr, alban kilsələri, Kiş kilsəsi, Xudavəng kilsəsi. Artıq işğaldan azad olunmuş Xudavəng kilsəsi öz sahiblə-

rinə, bizim udi qardaşlarımıza qaytarılıbdır. Baxmayaraq ki, ermənilər bunun həm adını, həm də orada aparılan saxtakarlıq işləri nəticəsində onun görünüşünü dəyişdirdilər, onu erməniləşdirmək istədilər, amma buna nail ola bilmədilər. Bizim udi qardaşlarımız artıq Xudavəng kilsəsində öz ibadətlərini etmişlər. Qafqaz Albaniyasına aid olan bütün digər kilsələr, o cümlədən Nic qəsəbəsindəki kilsə Heydər Əliyev Fondu tərəfindən təmir olunub. Bu kilsə müharibə zamanı açılıb və bizə qarşı əsassız ittihamlar irəli sürənlərə ən gözəl cavab məhz budur. Müharibə zamanı alban xristian kilsəsinin təmirdən sonra açılışı oldu. Rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsə, gürcü kilsələri, Bakıda yerləşən erməni kilsəsi – bütün bunlar dövlət tərəfindən qorunur. Amma görün bizim məscidlərimizi mənfur düşmən nə günə salıb – 60-dan çox məscid işğal edilmiş və indi azad etdiyimiz torpaqlarda dağıdılıb və buna heç kim reaksiya vermir. Heç bir beynəlxalq təşkilat Ermənistanı qınamır. Biz erməni kilsəsini qoruyuruq. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur və Azərbaycanda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Bu gün Qarabağ bölgəsində yaşayan ermənilər də, əminəm, bunu artıq başa düşürlər ki, onlar ancaq Azərbaycan dövləti çərçivəsində normal yaşaya bilərlər.

Azad edilmiş torpaqlarda hər tərəf dağıdılıb. Amma bəzi tikililər var, bəzi evlər var ki, orada ermənilər yaşayıb. Adam baxanda məəttəl qalır ki, orada insanlar necə yaşayıblar? Elə bil ki, it damıdır. Ermənistan rejimi bu adamları faktiki olaraq, belə səfalət içində, belə yoxsulluq içində girov kimi saxla-

yaraq məcbur edirdi ki, orada yaşasınlar. Məcbur edirdi! Kimin imkanı var, qaçıb gedirdi. Ona görə mən həmişə deyirdim ki, müharibədən əvvəl orada– işğal edilmiş torpaqlarda yaşayan erməni əhalisinin real sayı təqribən 60 minə yaxın idi. İndi, müharibədən sonrakı vəziyyət bunu göstərir. Ermənilər bu rəqəmi süni şəkildə şişirdirdilər, guya ki, orada 150 min adam var. Maksimum 60 min civarında idi. Onları da güc-bəla ilə orada saxlayırdılar ki, qanunsuz məskunlaşma getsin. Onlar nə gündə yaşayırdılar?! Onlar vəhşi rəhbərləri tərəfindən dağıdılmış Ağdam, Füzuli, Şuşa, digər şəhərlər canlananda, o yerlər cənnətə çevriləndə görəcəklər ki, əlbəttə, harada yaşamaq rahat, təhlükəsiz və iqtisadi cəhətdən sərfəli olar.

Ona görə mədəni abidələrimizin, dini abidələrimizin qorunması Mədəniyyət Nazirliyinin başlıca vəzifəsi olacaq. Mənim təşəbbüsümlə bir çox tarixi abidələr bərpa edilib. Ancaq bu gün dözülməz vəziyyətdə olan kifayət qədər çox tarixi abidələrimiz vardır. Hesab edirəm ki, Mədəniyyət Nazirliyi yararsız vəziyyətdə olan bu mədəniyyət ocaqlarının qısa müddət ərzində təftişini aparmalıdır, siyahıya almalıdır, yeni siyahılar tərtib etməlidir. Çünki vaxtilə dövlət tərəfindən qorunan abidələrin siyahıları dəqiq tərtib edilməmişdir. Orada qərəzli yanaşma var idi. Bəzi binalar o siyahıdan çıxarılırdı ki, sonra onlar satışa çıxarılsın. Belə hallar da var idi. Kifayət qədər çox pozuntular var idi. Yəni bu siyahılarla bağlı aparılan manipulyasiyalar, əlbəttə ki, bizim mədəni irsimizə çox böyük zərbə vurdu. Digər xoşagəlməz hallar – əfsuslar olsun ki, Mədəniyyət

Nazirliyində kifayət qədər xoşagəlməz hallar mövcud idi – hamısı üzə çıxdı. Bu pozuntulara yol verən insanlar məsuliyyətə cəlb olundular, o cümlədən cinayət məsuliyyətinə. Siz bütün bu pozuntularla bağlı ciddi mübarizə aparmalısınız. Mən sizə bu barədə göstərişlərimi artıq nazir müavini vəzifəsinə təyin edəndə vermişdim.

Bizim zəngin mədəni həyatımız var. Amma biz mədəni həyatımızı daha da zənginləşdirməliyik. Ümid edirəm ki, bu il peyvənd tətbiq olunandan sonra pandemiya artıq yavaş-yavaş yoxa çıxacaq. Biz də yaxın günlərdə peyvəndi gözləyirik və ondan sonra normal həyat bərpa ediləcək. Bizim mədəni həyatımız çox zəngin olmalıdır, müsabiqələr, festivallar keçirilməlidir. Biz həm Azərbaycan mədəniyyətini dünyada təbliğ etməliyik, həm də xarici qonaqları bundan sonra da dəvət etməliyik.

Əlbəttə, dağıdılmış ərazilərdə mədəni obyektlərin, mədəniyyət ocaqlarının bərpası başlıca vəzifələrdən biridir. Artıq operativ qərargaha bu məsələ ilə bağlı göstəriş verilib. Siz də orada təmsil olunursunuz. Ona görə dağıdılmış bütün tarixi abidələrimiz, mədəniyyət ocaqlarımız gərək siyahıya alınsın. Onların əvvəlki görüntüsü gərək təqdim edilsin. Bərpa işləri, yaxud da ki, yenidən qurulma onların ilkin, yəni autentik simasını pozmamalıdır. Ümumiyyətlə, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalıyıq, tarixi abidələrimizin əsl simasını bərpa etməliyik.

Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. He-

sab edirəm ki, Şuşa nəinki Azərbaycanın, həmçinin bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Yenə də deyirəm – vaxt itirmədən, ancaq tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir.

O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməli, bərpa olunmalı, onların öz siması qaytarılmalıdır. Ermənilər bizim 60-dan çox məscidi məhv ediblər. Ağdam məscidində donuz, inək saxlayırdılar. Bu yaxınlarda hansısa erməni jurnalist tərəfindən internetdə dərc edilmiş foto bütün Azərbaycan xalqını bir daha hiddətləndirdi. O fotoda Azərbaycan xalqının cəlladı, Ermənistanın keçmiş prezidenti Köçəryan zəbt edilmiş, işğal olunmuş Ağdam şəhərində bizim məscidimizin önündə öz əlaltıları, quldurları ilə dayanıb. Ağdam məscidinin üzərində isə təhqiredici yazılar görünür. Görün kim rəhbərlik edib Ermənistana, hansı cəllad, hansı alçaq mənəviyyat sahibi?! Şəhəri dağıdıblar, məscidimizi təhqir ediblər. Məscidimizə inək, donuz doldurublar, məscidin divarlarına isə dinimiz haqqında, xalqımız haqqında təhqiramiz ifadələr yazıblar. Məscidi təhqir edən, məscidin üzərində təhqiramiz rəsmlər çəkdirən, sözlər yazan Köçəryan budur. Onun əlaltısı və quyruğu Sarkisyan, onlar dağıdıblar bizim şəhərlərimizi iyirmi il ərzində. Bizim şəhərlərimiz

müharibə dövründə dağıdılmayıb. Müharibə dövründə şəhərləri belə dağıtmaq mümkün deyil. Müharibədən sonra işğal dövründə bütün binaları, bütün yaşayış yerlərini söküblər. Onlar vandallardır, barbarlardır. Amma 20 il Ermənistana rəhbərlik ediblər.

Biz bütün tarixi abidələrimizi bərpa edəcəyik. Şuşa şəhərində ermənilər bir məscidi guya təmir etdirmək istəyiblər. O, təbliğat xarakterli bir addım idi. Çünki onlar 60-dan çox məscidi dağıdıblar, o cümlədən Zəngilan şəhərindəki məscidi – mən orada olarkən o məscidin önündə Azərbaycan xalqına sözlərimi dedim, o məscidin ancaq bir neçə divarı qalıb – indi necə olur ki, Şuşada bir məscidi guya təmir etdirirlər? Sadəcə olaraq, təbliğat üçün, desinlər ki, bəli, biz burada müsəlman dininə hörmət göstəririk. Ancaq əfsuslar olsun ki, Şuşadakı bu məscidin təmirində xarici mütəxəssislər iştirak ediblər, özü də bizdən icazəsiz. Necə ola bilər, Azərbaycan ərazisinə bizdən icazəsiz gedəsən, bizim məscidimizi işğalçı ermənilərlə birlikdə guya təmir edəsən?! Bu hansı beynəlxalq normalara sığır? Hansı mənəvi çərçivələrə sığır? Hansı şirkət, yaxud da ki, insanlar bunu özlərinə rəva görə bilərlər? Bunlar bizim tarixi abidələrimizdir, bizdən soruşun. Yoxsa, özbaşına gedəsən başqa ölkənin zəbt edilmiş torpaqlarına, orada özün üçün iş görəsən. Məscidin tarixi siması dəyişdirilib. Ona görə mən sizə tapşırıq verirəm, o məscidin daxili tərtibatına yenidən baxmaq lazımdır. O təmir bizə lazım deyil. Biz oranı yenidən təmir etdirəcəyik, ona öz simasını qaytaracağıq. Ondan sonra o məscid açılacaqdır.

Şuşada Vaqif Poeziya Günləri bərpa edilməlidir. Vaqif Poeziya Günləri ənənəvi olaraq keçirilirdi. Yadımdadır, mən də atamla birlikdə Vaqif Poeziya Günlərində olmuşam. Vaqifin məqbərəsinin açılışında olmuşam, o qarlı-şaxtalı havada. İndi Vaqifin məqbərəsini görəndə adamın ürəyi ağrıyır. Nə qədər vəhşilik ola bilər? Nə qədər qəddarlıq ola bilər? Azərbaycan xalqı axı sizə nə edib? Sizə çörək verib. Azərbaycan xalqı sizə nə edib ki, ürəyinizdə bu qədər nifrət olsun? Şəhərləri dağıdırsınız, insanları didərgin salırsınız, tarixi abidələri sökürsünüz, nə məqsəd güdürsünüz? Elə hesab edirlər ki, bizim yaddaşımızdan silinəcək bu vəhşilik? Biz 44 gün müharibə apardıq, Ermənistanı, demək olar ki, tamamilə məğlub etdik. İstənilən addım ata bilərdik, istənilən addım! Amma mən demişəm ki, biz mülki əhaliyə qarşı vuruşmuruq. Biz tarixə qarşı vuruşmuruq. Biz dini abidələrə qarşı vuruşmuruq. Onların bir dənə də olsun dini abidəsi dağıdılıb? Yox! Orada mülki əhali arasında itkilər çox aşağı səviyyədədir. O da təsadüfən baş verib.

Görün nə ediblər? Xocalı soyqırımı, məscidlərimizin dağıdılması, şəhərlərimizin dağıdılması. Mədəni soyqırımı törədiblər bizə qarşı. Bütün dünya, onların havadarları, dostları görməlidir. Onların sözləri ilə desək, müsəlman əhatəsində olan sivilizasiyalı bir məkan kimi təqdim etməyə çalışan və buna inanan xarici havadarlar, açın gözünüzü baxın, nə ediblər onlar?! Vəhşidirlər! Adam bunu etməz. Bu vəhşiliyə son qoyulmalı idi və qoyuldu. Kimsə bunlara dərs verməli idi, yoxsa yox?

Bütün qonşulara meydan oxuyurlar. Əsassız iddialar – torpaq iddiası, ərazi iddiası irəli sürürlər. Hər şeyi özününküləşdirmək istəyirlər. Bizim musiqimizi oğurlayırlar. Onların öz musiqisi kimi təqdim etdikləri musiqilərin böyük hissəsinin müəllifi Üzeyir Hacıbəylidir və digər bəstəkarlarımızdır. Bizim mətbəximizi oğurlayırlar. Qonşu xalqların mətbəxini oğurlayırlar. Tarixi abidələri oğurlayırlar. Kilsələri başqa xalqlardan, qonşu xalqlardan oğurlamağa çalışırlar. Bir daha deyirəm, Şuşada Vaqif Poeziya Günləri bərpa edilməlidir, «Xarıbülbül» festivalı bərpa olunmalıdır. İndi Şuşaya yeni yol çəkilir. Düzdür, bu yol çox çətin relyefi olan ərazidə çəkilir. Amma buna nail olacağıq. Planlaşdırın, bu il bu iki tədbir Şuşa şəhərində keçirilməlidir – «Xarıbülbül» festivalı və Vaqif Poeziya Günləri. Mənim göstərişimlə Füzulidə Beynəlxalq Aeroport tikiləcək. Artıq göstəriş verilib. İndi yer seçilir. Minalardan təmizləmə işləri aparılacaqdır. Bu il Füzulidə Beynəlxalq Aeroport yaradılmalıdır, hər halda, uçuş-enmə zolağı istifadəyə verilməlidir. Oradan Şuşaya məsafə də yaxındır. Çünki vaxtilə sovet dövründə Şuşaya ya gərək Xankəndidən gedəydin, ya da Laçın dəhlizi ilə. İndi isə yeni yol açırıq. Əlbəttə, o yollar da var və bizim vətəndaşlar, indi orada təmir-bərpa işlərini aparanlar bu yollardan istifadə edirlər – Ağdam–Xankəndi–Şuşa yolu və Laçın dəhlizi. Bu yollar açıqdır. Biz nə vaxt istəsək oraya getməliyik, gəlməliyik və elə də olacaq. Ancaq Füzuli Beynəlxalq Aeroportunun tikilməsi xarici qonaqların Şuşaya dəvət edilməsi üçün imkanlar yarada-

caq. Çünki oradan qısa müddətə Şuşaya getmək mümkündür.

Azad edilmiş torpaqlarda bütün mədəni obyektlərin siyahısı hazırlanmalıdır. Onsuz da var idi, amma indi onların vəziyyətinə baxmalıyıq ki, sonra bərpa edək. İlk növbədə, onların təftişi, kvalifikasiyası aparılmalı və beynəlxalq şirkətləri dəvət etməklə, onların bütün siyahısı tərtib edilməlidir. Deyə bilərəm ki, azad edilmiş torpaqlarda bütövlükdə dağıntılar siyahıya alınır. Bu dağıntıları törədənlərə qarşı biz hüquqi müstəvidə öz addımlarımızı atacağıq.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Siz uzun illər Azərbaycanı UNESKO-da təmsil etmisiniz. UNESKO–Azərbaycan əlaqələri haqqında kifayət qədər məlumatlısınız. Bu əlaqələrin inkişafı üçün öz səylərinizi göstərmisiniz. Sizi nazir müavini və indi nazir vəzifəsinə təyin etmək eyni zamanda, əldə etdiyiniz təcrübəyə də əsaslanır. Yəni UNESKO ilə bizim çox məhsuldar, səmimi münasibətlərimiz var və ümid edirəm ki, bu münasibətlər qorunacaq. Üç baş katiblə mənim görüşlərim olub. İndiki baş katib Bakıda olarkən bir dəfə görüşmüşəm, amma ondan əvvəlki iki baş katiblə mənim bir çox görüşlərim olub. Onlar dəfələrlə Azərbaycanda olublar. UNESKO–Azərbaycan əlaqələrinin inkişafında onların böyük rolu vardır. Ona görə UNESKO-da Azərbaycanın dünya mədəni irsinə verdiyi töhfələr haqqında kifayət qədər geniş məlumat vardır. Biz təkcə Azərbaycanda deyil, bəzi ölkələrdə müxtəlif layihələr icra etmişik. O cümlədən həm müsəlman, həm xristian dini abidələrinin bərpasında fəal rol oynamışıq. Azərbaycanda multi-

kultural cəmiyyətin nümunəsi bir çox ölkələr üçün örnək olmalıdır. Bunu mən demirəm, dünya dini liderləri deyir. Bakıda səfərdə olan Roma Papası Fransiskin bəyanatlarına fikir versinlər. İslam Əməkdaşlıq Təşkilatının rəhbərlərinin bəyanatlarına fikir versinlər. Bakıda dəfələrlə səfərdə olan digər dini liderlərin, yəhudi, katolik, pravoslav, müsəlman dini rəhbərlərinin çıxışlarına baxsınlar. Kim bizi ittiham edə bilər ki, Azərbaycanda başqa dinlərin abidələri təhlükə altındadır? Naşı siyasətçilər, populistlər, bölgəmizdən xəbəri olmayan, erməni lobbisinin sifarişini yerinə yetirən, ya da ona çalışan «siyasətçi»lər bizə hansısa irad tuta bilərlər. Bu iradların əsası varmı? Yoxdur! Mənim sözümü sübut edən bizim bir neçə cildlik işlərimizdir. Getsinlər baxsınlar, ermənilər müsəlman abidələrini nə günə qoyublar?! Niyə 30 il ərzində bu məsələ ilə bağlı UNESKO məsələ qaldırmayıb? Biz dəfələrlə müraciət etmişik, dəfələrlə. Bu müraciətlər məktublar formasında sənədləşdirilib. İki il əvvəl UNESKO-nun yeni rəhbərliyinə də belə təklif verildi ki, missiya göndərin. İşğal edilmiş torpaqlara missiya gəlsin, baxsın ki, nə günə qoyublar bizim tarixi abidələrimizi? Nə oldu UNESKO-nun rəhbərliyinin cavabı? Dedilər ki, biz məsələni siyasiləşdirmək istəmirik. Yaxşı, 2 il bundan əvvəl məsələni siyasiləşdirmək istəmirdiniz, bəs indi niyə siyasiləşdirmək istəyirsiniz? Cavab versinlər, çox sadə, məntiqli bir cavab. Cavab yoxdur. Zəngilanda mən onlara müraciət etdim. Dedim ki, açın gözünüzü baxın nə günə salıblar ermənilər bizim məscidimizi. Bir reaksiya gəldimi oradan? Yox! Budur ermənilərin dağıtdığı. Bəs

biz nəyi dağıtmışıq? Biz nə etmişik? Ancaq təmir etmişik, qorumuşuq. Ona görə biz belə əsassız yanaşmanı diqqətsiz qoya bilmərik.

Biz UNESKO ilə bundan sonra da əməkdaşlıq etməyə hazırıq. Ancaq bir şərtlə ki, UNESKO öz beynəlxalq statusunu saxlasın. UNESKO hər hansı bir ölkənin filialı deyil. Əgər bu yanaşma bizim münasibətlərimizdə üstünlük təşkil edərsə, əməkdaşlıq olacaq. Əgər olmayacaqsa, bu əməkdaşlığa yenidən baxmaq olar. Hər halda, bizim niyyətimiz təmizdir. İkili standartlardan, islamofobiyadan, ayrı-seçkilikdən azad olan münasibətlər olmalıdır.

Onu da bildirməliyəm ki, bizim dəvətimizlə yanvar ayında İSESKO-nun missiyası Azərbaycana gələcək və burada görüşlər olacaq. Mən hesab edirəm ki, onlar azad edilmiş torpaqlara da getməlidirlər. Ondan sonra ekspertlər qrupu gəlməlidir. Müsəlman abidələrinin ermənilər tərəfindən dağıdılması ilə bağlı onlar missiya həyata keçirməlidirlər və öz hesabatlarında bunu əks etdirməlidirlər. Əlbəttə, bütün təhlükəsizlik tədbirlərini nəzərə almaq şərti ilə maksimum imkan yaradılmalıdır. Çünki o bölgələrdə minalar kifayət qədər çoxdur və təhlükəsizlik tədbirləri mütləq təmin edilməlidir.

Beləliklə, mədəni irsimizin qorunması, saxlanılması, Azərbaycan mədəniyyətinin dünyada təbliği, gənc nəslin Azərbaycan mədəniyyətindən, mədəni irsindən xəbərdar olması və gənclərimizin milli ruhda tərbiyəsi işində Mədəniyyət Nazirliyinin rolunun yenidən formalaşdırılmasıdır. İstedadlı mədəniyyət xadimlərinin mükafatlandırılması və onlara dövlət tə-

rəfindən verilən dəstək, gənc nəslin yetişdirilməsi, tarixi abidələrimizin qorunması, nazirliyin ənənəvi funksiyalarının davam etdirilməsi və indi, əlbəttə, azad edilmiş torpaqlarda görüləcək işlər Mədəniyyət Nazirliyinin əsas vəzifələrindən biri olmalıdır. Əminəm ki, siz bu vəzifənin öhdəsindən gələcəksiniz. Sizə uğurlar arzulayıram. Əminəm ki, bu yüksək etimadı siz öz işinizlə doğruldacaqsınız.

**Anar Kərimov:** Çox sağ olun, möhtərəm cənab Prezident. İcazənizlə, ilk növbədə, Sizi müzəffər ordumuzun Ali Baş Komandanı olaraq, bu tarixi qələbə münasibətilə mədəniyyət ictimaiyyəti adından bir daha təbrik edim.

Məhz Sizin qətiyyətli mövqeniz və siyasi iradəniz nəticəsində Azərbaycan nəinki öz ərazi bütövlüyünü bərpa etdi, eyni zamanda, Azərbaycan öz milli qürurunu və öz inamını bərpa etdi. Bu qələbə nəticəsində Sizin elan etdiyiniz Qarabağımıza «Böyük qayıdış» proqramında mədəniyyətimizə, Mədəniyyət Nazirliyinə verdiyiniz bu xüsusi önəmə görə Sizə təşəkkürümü bildirmək istərdim.

Milli musiqimizin, mədəniyyətimizin beşiyi olan Şuşanın azad edildiyi gün Sizin söylədiyiniz «Şuşa, sən azadsan!» sözləriniz həm Azərbaycan xalqı, həm də mədəniyyət ictimaiyyətimiz üçün qürur mənbəyi oldu. Belə bir tarixi zamanda bu yüksək etimadı göstərməyiniz mənim üçün böyük bir şərəf və böyük bir məsuliyyətdir.

Möhtərəm cənab Prezident, dediyiniz kimi, mən mədəniyyətimizi canlandırmaq və Qarabağımıza qaytarmaq üçün var gücümlə çalışacağam. Sizin və Bi-

rinci vitse-prezident Mehriban xanımın mədəniyyətimizin inkişafına göstərdiyiniz qayğı və diqqət hər birimiz üçün örnəkdir. Bu bizim gələcək fəaliyyətimizdə də iş prinsipimiz olacaqdır.

Qürur hissi ilə deyirəm ki, UNESKO-da çalışdığım illərdə də Sizin mədəniyyətimizin inkişafına dəstəyinizin şahidi olmuşam. Mədəniyyət nazirinin müavini vəzifəsinə təyin olunandan sonra Sizin ilk tapşırıqlarınıza uyğun olaraq, mədəniyyət sektorunda islahatların aparılması məqsədilə genişmiqyaslı və sistemli bir prosesə başlamışıq. Bu islahat prosesinin əsas dörd istiqamətini Sizin diqqətinizə çatdırmaq istərdim. Əvvəla, şəffaf və səmərəli idarəçiliyin qurulması, insan resurslarının gücləndirilməsi, Mədəniyyət Nazirliyi olaraq, məzmunun zənginləşdirilməsi və iqtisadi modellərin tətbiq edilməsi. Sizin bu gün də mədəniyyətimizlə bağlı söylədiyiniz dəyərli fikirləri və göstərdiyiniz istiqamətləri rəhbər tutaraq, islahat prosesində onların hamısını tətbiq edəcəyik. Beynəlxalq səviyyədə əməkdaşlığa gəldikdə, təbii ki, Sizin rəhbərliyinizlə biz ümdə məqsədimiz olan ərazi bütövlüyümüzün qorunub saxlanılması, suverenliyimizə hörmət edilməsi, bu məsələlərə ədalətli və qərəzsiz yanaşılması beynəlxalq təşkilatlardan tələb olunacaqdır.

Möhtərəm cənab Prezident, Sizi bir daha əmin edirəm ki, verdiyiniz tapşırıqları və üzərimə düşən məsuliyyəti dərk edərək, onları şərəf və vicdanla yerinə yetirəcəyəm. Etimadınıza görə bir daha təşəkkür edirəm. Çox sağ olun.

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanda yüz illərdir ki, ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və qardaşlıq mühiti hökm sürür. Dünyada nümunəvi tolerantlıq məkanı kimi tanınan ölkəmizdə mütərəqqi milli və tarixi ənənələrin, etnik-mədəni müxtəlifliyin, multikultural dəyərlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

2020-ci il uzun müddət davam edən Qarabağ münaqişəsinin həlli, ərazi bütövlüyümüzün təmin edilməsi və tarixi ədalətin zəfər çalması ilə əlamətdar olmuşdur. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı, o cümlədən etno-mədəni zənginliyi ilə seçilən cəmiyyətimizdə özünəməxsus yeri olan xristian inanclı həmvətənlərimiz torpaqlarımızın düşmən işğalından azad edilməsində əsl qəhrəmanlıq nümunələri göstərmiş, eyni zamanda, erməni faşizmi ilə informasiya cəbhəsində

və xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması işində yüksək fəallıqla mübarizə aparmışlar. Ölkəmizdə yaşayan bütün xalqların müqəddəs Vətən müharibəsində nümayiş etdirdiyi birlik və bərabərliyi, sarsılmaz milli-mənəvi həmrəyliyi tarixi qələbəmizi şərtləndirən başlıca amil kimi qiymətləndirirəm.

Əminəm ki, pravoslav xristian icması ümumi evimiz olan Azərbaycanın tərəqqisi və daha da güclənməsi naminə qüvvə və bacarığını bundan sonra da əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Milad bayramı yeni həyatı, dirçəlişi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2021-ci il*

## 2020-ci İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ VİDEOFORMATDA MÜŞAVİRƏ

*6 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 6-da 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilmişdir.*

*Dövlət başçısı müşavirəni giriş nitqi ilə açdı.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Bu gün biz keçən ilin yekunlarını müzakirə edəcəyik, 2021-ci ildə görüləcək işlər haqqında danışacağıq. Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi qələbə qazanaraq, öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı, təslim oldu və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yolla geri qaytardıq. Beləliklə, Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyuldu. Biz bunu hərbi yolla həll etdik. Baxmayaraq ki, uzun illər ərzində beynəlxalq vasitəçilər, demək olar, bütün aparıcı beynəl-

xalq təşkilatlar bizə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Biz də deyirdik ki, əgər belədirsə, onda münaqişə sülh yolu ilə həll olunsun, biz də bunun tərəfdarıyıq. Müharibə dövründə mən dəfələrlə Azərbaycan xalqına müraciət edərək və xarici kütləvi informasiya vasitələrinə müsahibələr verərək deyirdim ki, Ermənistan tərəfi bizə tarix versin, onlar nə vaxt bizim torpaqlarımızdan öz silahlı qüvvələrini geri çəkirlər və biz dayanırıq. Əks təqdirdə, axıra qədər gedəcəyik və bunu etdik. Beləliklə, şanlı qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi, göstərdi ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən dəfələrlə demişdim ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, biz bu məsələni hərbi yolla həll edəcəyik və belə də oldu – hərbi yolla. Ondan sonra məsələ siyasi yolla həll olundu və tarixi ədalət bərpa edildi.

Mən son illər ərzində ölkəmizin hərtərəfli inkişafını dilə gətirərək deyirdim ki, bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu gün bu həm siyasi gücdür, həm iqtisadi gücdür, həm xalq–iqtidar birliyidir, həm hərbi gücdür, həm də bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək, qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik. Ermənistan ordusu 44 gün ərzində darmadağın edildi, demək olar ki, Ermənistan ordusu yoxdur. Müharibədən sonra müşahidə olunan mənzərə onu göstərir ki, bu gün Ermənistan silahlı qüvvələri faktiki olaraq, tam dağıdılıb.

Ermənistan məğlub edilib və biz istədiyimizə 44 gün ərzində nail ola bilmişik. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, keçmiş Hadrut rayonunu, Xocavənd rayonunun böyük hissəsini, Suqovuşan qəsəbəsini, Murovdağ silsiləsini və Şuşa şəhərini hərbi yolla azad etdik. Bütövlükdə 300-dən çox yaşayış məntəqəsi hərbi yolla işğaldan azad edildi. Bunun nəticəsində Ermənistan faktiki olaraq, diz çökdü, məcbur olub noyabrın 10-da kapitulyasiya aktına imza atdı. Beləliklə, Ağdam, Laçın və Kəlbəcər rayonları bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Bu qələbə tarixdə əbədi qalacaq. Bu qələbə bütün dünyaya sübut etdi ki – bir daha bunu qeyd etmək istəyirəm – bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Mən demişdim ki, tarixi Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövləti yaradılmayacaq. Mən demişdim ki, heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Mən demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Demişdim ki, biz bu məsələni istənilən yolla həll edəcəyik və etdik, bütün təzyiqlərə, təhdidlərə baxmayaraq. Baxmayaraq ki, dünyada kifayət qədər güclü erməni lobbisi var. Dünyada bir çox aparıcı dövlətlər Ermənistanı dəstəkləyir və müharibə dövründə biz bunu açıq-aşkar görürdük, bəzi ölkələr bunu gizlədə bilmirdilər. Bu dəstək Ermənistana nə verdi? Heç nə! Bizim gücümüz, iradəmiz qarşısında bu dəstək sıfıra bərabər oldu. Hər kəs gördü ki, bizi heç kim və heç nə dayandıra bilməz. Mən deyəndə ki, biz axıra qədər gedəcəyik, sözümə əməl etdim. O vaxt dayandıq ki, Ermənistan öz alçaldıcı məğlubiyyətini

etiraf etdi, diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu. Hesab edirəm ki, bu, Ermənistan üçün tarixi dərs oldu. Onlar bir daha Azərbaycan xalqının böyüklüyünü gördülər. Baxmayaraq ki, işğal edilmiş bütün torpaqlarda vandalizm aktları törədilib, bizim bütün tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb və ya təhqir edilib, bütün yaşayış binalarımız dağıdılıb, Ağdam, Füzuli şəhərləri yoxdur, kəndlər yoxdur, Cəbrayıl, Qubadlı, Zəngilan şəhərlərində tək-tük bina qalıb, orada da Ermənistan hərbçiləri yerləşmişdilər. Kəlbəcər və Laçın rayonlarında daha çox qanunsuz məskunlaşma aparılmışdır. Ancaq Ermənistana o rayonlardan çıxmaq üçün vaxt verildiyi müddət ərzində onlar oranı da dağıtdılar, bütün dünyaya öz vəhşiliklərini göstərdilər. Bütün dünyanın gözü qarşısında evləri yandırıb, meşələri kəsib, qırıb, yandırıb vandalizm aktları törətdilər. Bütün dünya gördü ki, biz kiminlə üz-üzə idik. Bu vəhşiliyin, bu qəddarlığın bəlkə də tarixdə analoqu yoxdur. Heç İkinci dünya müharibəsində işğalçı qüvvələr bu qədər qəddarlıq törətməmişdilər. Onlar hesab edirdilər ki, biz bu bölgələrə qayıtmayacağıq, amma biz qayıtdıq və qayıdırıq. Bu gün biz böyük qayıdış haqqında danışacağıq.

Biz tarixi ədaləti bərpa etdik. Biz bütün dünyaya gücümüzü göstərdik. Göstərdik ki, heç kim bizim iradəmizin qabağında dura bilməz. Eyni zamanda, məsuliyyət göstərdik, ədalət göstərdik, Ermənistan ərazisinə girmədik. Baxmayaraq ki, Ermənistan ərazisindən bizə qarşı namərd atəşlə törədilmiş hərbi cinayət nəticəsində onlarla mülki şəxs həlak oldu, şəhərlərimiz bombalandı, amma biz Ermənistan ərazisinə

keçmədik. Biz beynəlxalq hüquqa hörmətimizi göstərdik. Baxmayaraq ki, mənfur düşmən üçün heç bir mənəvi çərçivə yoxdur, heç bir mənəvi dəyər yoxdur. Amma mən demişdim ki, biz özümüzü onlar kimi apara bilmərik, biz azərbaycanlıyıq, biz özümüzə hörmət edən xalqıq. Biz döyüş meydanında düşməni çökdürdük. Döyüş meydanında düşmənə elə dərs verdik ki, onlar bu günə qədər bu dərsdən özlərinə gələ bilmirlər. Bu gün Ermənistanı bürümüş böhran onların işğalçılıq siyasətinin nəticəsidir. Gərək bizim torpaqlarımızdan sülh yolu ilə çıxardılar, biz onlara şans vermişdik. Gərək öz xoşu ilə çıxardılar bizim torpaqlarımızdan, amma biz bunun tamamilə əksini gördük – qanunsuz məskunlaşma, şəhərlərimizin adlarının dəyişdirilməsi, Azərbaycanın tarixi, mədəni, dini irsinin silinməsi. Əfsuslar olsun ki, bəzi beynəlxalq təşkilatlar və şirkətlər onlara bu sahədə yardım etmiş, bizim torpaqlarımızda qanunsuz biznes fəaliyyəti göstərmişdilər. Bu gün bu barədə də danışacağıq, artıq müvafiq göstərişlər verilib. O şirkətlər məsuliyyətə cəlb olunacaq. Onlar bunu bilsinlər və gözləsinlər o günü. Oraya müxtəlif ölkələrin parlament nümayəndələri gedirdilər, indi görüm necə gedəcəklər. Fransadan bir heyət getmişdi, parlament üzvləri. Əfsuslar olsun ki, sülhməramlı qüvvələr onlara bu icazəni vermişdilər. Halbuki biz bu sülhməramlı qüvvələr qarşısında məsələ qoymuşduq ki, bizim icazəmiz olmadan heç bir xarici vətəndaş Dağlıq Qarabağa gedə bilməz. Nəticədə Fransa səfiri bizim Xarici İşlər Nazirliyinə çağırıldı, nota verildi. Biz səssiz qalmayacağıq.

İndi mənə məlumat verildi ki, Ermənistanın xarici işlər naziri Xankəndiyə gedib. Sənin orada nə işin var? Müharibə onların yadından çıxmasın. Unutmasınlar ki, dəmir yumruq yerindədir. Bu səfərlərə son qoyulmalıdır. Biz xəbərdarlıq edirik, əgər belə təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq. İndi münasibətlərin normallaşdırılması istiqamətində addımlar atılır. Rusiya öz vasitəçilik imkanlarını tərəflərə təqdim edib. Bu yaxınlarda Ermənistana və Azərbaycana səfər etmiş Rusiya hökumət nümayəndələrindən ibarət heyət əsasən bu mövzular haqqında söhbətlər aparmışdır.

Yaxşı, əgər münasibətlər normallaşacaqsa, o zaman belə təxribat xarakterli «səfərlərə» nə ehtiyac var? Nəyi göstərmək istəyirlər? Yenəmi bizi qıcıqlandırmaq istəyirlər? Unutmasınlar ki, onlara çox baha başa gəldi bu tipli addımlar. Ona görə bütün səfərlərə son qoyulmalıdır. Heç bir xarici vətəndaş bizim icazəmiz olmadan o əraziyə gedə bilməz. Heç bir beynəlxalq təşkilat – ancaq Qırmızı Xaç istisna olmaqla – oraya gedə bilməz. Bu bizim ərazimizdir. Bütün dünya bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistanın xarici işlər naziri, sən kimsən ki, oraya gedirsən? Xəbərdarlıq edirik. Əgər buna oxşar addım təkrarlanarsa, bizim cavabımız çox sərt olacaq. Birinci dəfə biz Xarici İşlər Nazirliyi vasitəsilə onlara xəbərdarlıq etdik. Ondan sonra xəbərdarlıq başqa cür veriləcək. Onların ayağı oradan kəsilməlidir. Otursun öz ölkəsində.

Sülhməramlı qüvvələrə gəldikdə, onların orada funksiyası vardır. Noyabrın 10-da bu funksiya təsbit

edildi. Baxmayaraq ki, indi onlar orada humanitar işlərlə məşğuldurlar, halbuki noyabrın 10-da imzalanmış Bəyanatda bu funksiya təsbit edilməyib, biz buna, necə deyərlər, göz yumuruq. Nə üçün? Çünki başa düşürük ki, orada insanlar yaşayır, başa düşürük ki, indi qış gəlib, hava soyuqdur. Orada müəyyən işlər görülməlidir ki, bu qış orada yaşayan ermənilər üçün problem yaratmasın. Ona görə biz imkan verdik. İndi yüklərin böyük hissəsi oraya Azərbaycan ərazisindən gedir. Biz imkan verdik. Bərdəyə qədər dəmir yolu ilə gedir. Ondan sonra maşınlarla Dağlıq Qarabağa aparılır. Əlbəttə, biz imkan verməyə də bilərdik.

Ermənistan 30 il bizim suyumuzu kəsib, 100 min hektar torpağı susuz qoyub. Baxmayaraq ki, həm Sərsəng, həm də Suqovuşan su anbarları o vaxt ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə və onun fəaliyyəti nəticəsində inşa edilmişdir, Ermənistan bizim suyumuzu kəsmişdi. Amma mən yenə də deyirəm, biz heç vaxt onların səviyyəsinə düşməməliyik. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar bizim vətəndaşlarımızdır. Mən demişəm, onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar. Ona görə biz bu imkanları verdik. Yoxsa Laçın dəhlizi ilə oraya yük daşımaq çox çətin məsələdir. Biz digər addımlar atdıq ki, orada humanitar işlər getsin. Yenə də deyim, noyabrın 10-da imzalanmış sənəddə bu yoxdur. Amma biz yenə də imkan veririk. Bu bizim ürəyimizin nə qədər geniş olmasını göstərir. Hesab edirəm ki, noyabrın 10-da imzalanmış Bəyanat gələcək fəaliyyət

üçün əsas olmalıdır. Bu Bəyanatdan başqa, hər hansı bir digər sənəd imzalanmayıb.

Eyni zamanda, imkan verdik ki – söhbət bizim ərazimizdən keçən yollardan və azad edilmiş torpaqlardan gedir – erməni vətəndaşlar Qubadlı rayonundan keçən yoldan istifadə etsinlər. Onlar bunu gərək qiymətləndirsin, yoxsa yox? Bu bizim torpağımızdır. Başa düşürük ki, yol oradan keçib. Sovet vaxtında sərhədlərin o qədər də böyük əhəmiyyəti yox idi, orada yaşayan erməni əhalisi bəlkə də bilməyib ki, bu, Azərbaycan ərazisidir. Çünki kim onlara deyə bilərdi ki, bu, Azərbaycan ərazisidir. Onlar hesab ediblər ki, bu, Ermənistan ərazisidir. İndi biləndə ki, bu, Azərbaycan ərazisidir və Azərbaycan sərhədçiləri oraya gəlib yerləşiblər, stress keçiriblər. Amma yenə də mən göstəriş verdim ki, bir adamın burnu qanamamalıdır. Onlara başa salın ki, bu bizim yerimizdir, bizim torpağımızdır, çıxıb getsinlər. Vaxt verdik onlara. Ermənistan tərəfi bizdən xahiş etmişdi ki, yanvarın 2-nə qədər vaxt verin. Biz də vaxt verdik. Vaxt verməyə də bilərdik. Mən oraya bir hərbi dəstə göndərə bilərdim və görüm nə günə düşərdilər onlar. Bunu etdikmi? Yox! Amma onlar edərdilər. Onlar Kəlbəcəri işğal edəndə bizə vaxt vermədilər. Bizim vətəndaşlar oradan ayaqyalın Murov aşırımından, Ömər aşırımından keçərək çıxdılar. Bir çoxları da yolda donub həlak oldular. Onlar bizə vaxt verdilər?

Onlar mülki əhaliyə qarşı soyqırımı törətdilər, Xocalı soyqırımı, digər hərbi cinayətlər. Biz isə bizim azad edilmiş ərazilərdə diversiya ilə məşğul olanları əsir götürdük. Məhv etmədik. Dedim ki, əsir götürün,

daha müharibə başa çatıb, daha qan tökmək lazım deyil. Bu yenə də bizim humanist mahiyyətimizi göstərir. Bu bizim ərazimizdə yerləşib və oradan çıxmaq istəməyən bir qüvvədir və bizə qarşı təxribatlar törədib, hərbi təxribatlar. Bunun nəticəsində hərbçilərimiz həlak olub. Biz isə yenə humanistlik göstərdik. Onları əsir götürdük. Amma onlar hərbi əsir sayıla bilməz, çünki müharibə qurtarıb. Onlar terrorçudur, diversantdır. Onlar Xocavənd rayonuna Ermənistandan, Ermənistanın Şirak vilayətindən noyabrın 26-dan sonra gəlmişlər. Nə üçün gəlmişlər? Kim onları göndərib? Müharibə ayın 10-da qurtarıb, bəyanat imzalanıb. Kim göndərir onları oraya? Əgər Ermənistan rəhbərliyi bu qanunsuz silahlı birləşmələrə nəzarət edə bilmirsə, bu onların problemidir. Ona görə burada heç kim bizi ittiham edə bilməz.

Mən bir daha demək istəyirəm ki, biz bir çox hallarda humanistlik göstərmişik və Ermənistan tərəfi bunu qiymətləndirməlidir. Bunun müqabilində Ermənistanın xarici işlər nazirinin torpağımıza gəlməsi qəbuledilməzdir. Mən demişəm, ümid edirəm ki, onlar düzgün nəticə çıxaracaqlar. Çıxarmasalar, onların böyük problemləri olacaq və yenə də peşman olacaqlar.

Beləliklə, müharibə başa çatdı. Biz istədiyimizə nail olduq. İndi artıq quruculuq dövrü başlanır. Biz bu gün bu barədə də danışacağıq. Amma bundan əvvəl 2020-ci ildə baş vermiş başqa hadisələr haqqında demək istərdim. 2020-ci ilin fevral ayında ölkəmizdə parlament seçkiləri keçirilmişdir. Parlament seçkiləri demokratiya istiqamətində atılmış növbəti ciddi addım idi. Parlamentin rəhbər orqanları yeniləndi,

rəhbərliyə yeni insanlar gəldi. İlk dəfə olaraq parlamentin sədr müavini müxalifət partiyasının nümayəndəsi seçildi.

Eyni zamanda, ilk dəfə olaraq parlament komitələrinin sədr və müavin vəzifələrinə müxalifət nümayəndələri seçildilər. Bu, yeni siyasi mədəniyyətin təzahürüdür. Bu, bütün siyasi qüvvələr arasındakı əməkdaşlığa yönəlmiş ciddi bir addımdır. Əlbəttə ki, ölkəmizin demokratik inkişafı baxımından bunun çox böyük əhəmiyyəti vardır. Parlament çoxpartiyalıdır və bu, siyasi sistemimizin gücləndirilməsi istiqamətində çox önəmli addım sayılmalıdır.

Eyni zamanda, keçən il partiyaların böyük əksəriyyəti bizim təşəbbüsümüzə müsbət cavab verərək, siyasi dialoqa qoşuldular. Deyə bilərəm ki, hazırda bu dialoqda bütün siyasi qüvvələr iştirak edir. İştirak etməyənlərə siyasi qüvvə deyə bilmərəm. Çünki iştirak etməyən dəstə xain, satqın ünsürlərdən ibarətdir. Siyasi dialoq müharibədən əvvəl başlanmış və müharibə dövründə daha da güclənmişdir. Müharibə dövründə bir antimilli qruplaşma istisna olmaqla – mən antimilli şuranı nəzərdə tuturam – bütün digər siyasi partiyalar və birliklər birmənalı olaraq, bizim haqq işimizə öz dəstəyini verdi. Antimilli şura isə öz xain, satqın missiyasını müharibə dövründə də icra etdi, düşmənin dəyirmanına su tökdü, ordumuza qarşı çirkin kampaniya apardı. Ordumuzu ləkələmək istiqamətində növbəti təxribat xarakterli addımlar atıldı.

Onlardan başqa nə gözləmək olar? Bu antimilli şuranın liderləri vaxtilə Paşinyanı bizə nümunə kimi göstərirdilər, deyirdilər ki, baxın, Paşinyan demo-

kratdır, Paşinyan novatordur, Paşinyan təmiz adamdır. Bu onların sözləridir. İndi soruşun erməni xalqından, onlar bu novator demokrat haqqında nə fikirləşirlər? Onları birləşdirən, əlbəttə ki, hər iki, necə deyərlər, nümayəndənin vaxtında torpaqların əldən getməsidir. Azərbaycan Xalq Cəbhəsi və bu gün onun antimilli şurada cəmləşən qalıqları faktiki olaraq, Birinci Qarabağ müharibəsi dövründə fərarilik etmişlər. Biz bu tarixi unutmamışıq, gənc nəsil də bilməlidir. Müharibə gedə-gedə Prezident öz vəzifəsini tərk edib, gedib dağ kəndində oturub. Müharibə gedir, insanlar ölür, torpaqlar əldən gedir, ölkənin Prezidenti, Ali Baş Komandanı qaçır, gedir Naxçıvan Muxtar Respublikasının dağ kəndində oturur. Bu, fərarilik deyil, nədir? İndi bu antimilli şurada rəhbərlik edənlər, harada idiniz müharibə dövründə? Qaçıb gizlənmişdilər. İndi də qaçıb gizlənirlər, biri Amerikada oturub, oradan mühazirələr oxuyur və düşmənin dəyirmanına su tökür. Onu kim maliyyələşdirir? Kim ona istiqamət verir? Biz bilirik. Buradakılara kim istiqamət verir? Həmin qüvvələr. Ermənipərəst qüvvələr, müharibə dövründə bizə qarşı çirkin əməllərdə iştirak edənlər, bizim qələbəmizi əlimizdən almaq istəyənlər, ermənilərə dəstək verənlər antimilli şuranın havadarlarıdır və onlar fərraridirlər, satqındırlar, xaindirlər. Xalq da bunu bilməlidir, gənc nəsil də bilməlidir. Bəzi hallarda gənc nəslə bu biabırçı tarix haqqında kifayət qədər məlumat verilmir. Bu, orta məktəb, ali məktəb dərsliklərinə salınmalıdır. Bu qara səhifə dərsliklərə salınmalıdır. Gənc nəsil Şuşanı, Laçını, Xocalını, Kəlbəcəri satanları, fərarilik edənləri, torpaqlarımızın iti-

rilməsinə imkan yaradanları tanımalıdır. Bu günə qədər orada-burada sülənir Şuşanı satan satqın. Onlar bəla gətirdilər, faciə gətirdilər, günahsız insanların həlak olmasına şərait yaratdılar, insanları müdafiə etmədilər. AXC–Müsavat hakimiyyəti qaçdı gizləndi, təslim oldu, biabır oldu. Ondan sonra 30 il ərzində elə bil ki, bunlar deyil bu torpaqları satanlar. Elə bil ki, bunlar deyil döyüş meydanından qaçanlar, bunlar deyil müharibə dövründə Gəncəni bombalayanlar, Azərbaycan əsgərini əsir götürənlər. Bunlardır. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır.

Amma təbii ki, bunlar istisna olmaqla, bu gün ölkəmizdə çox ciddi və fəal siyasi dialoq gedir. Mən bir məsələni də qeyd etmək istərdim. Bir neçə ay bundan əvvəl mənə məlumat verildi ki, bəzi partiyalar qeydiyyatdan keçməyiblər. Mənim üçün bu, sözün düzü, yenilik idi. Mən bilmirdim. Mənə heç kim məlumat verməmişdi ki, belə hallar vardır. Ona görə mən dərhal göstəriş verdim ki, bu məsələ öz həllini tapmalıdır. İndi siyasi partiyaların qeydiyyat məsələsi öz həllini tapır. Hətta bir daha demək istəyirəm ki, müharibədən əvvəl artıq ölkəmizdə yeni bir siyasi iqlim yaranmışdır, müsbət iqlim. Çünki bizim hamımızın, bütün vətənpərvər qüvvələrin bir amalı var idi – torpaqlarımızın işğaldan azad edilməsi. Biz, Azərbaycan iqtidarı buna da nail olduq. Bu gün isə bizim qarşımızda bu qələbəni siyasi yollarla möhkəmləndirmək, erməni faşizminin baş qaldırmasına yol verməmək, beynəlxalq müstəvidə keçmiş münaqişə ilə və indiki reallıqlarla bağlı, o cümlədən dağıdılmış ərazilər haqqında məlumat çatdırmaq vəzifəsi durur. Bizim par-

tiyalarımızın bəziləri beynəlxalq partiya qurumlarına üzvdür. Bu məlumat o qurumlar çərçivəsində verilməlidir. Yəni bu, gələcək fəaliyyət üçün əsas istiqamət olmalıdır. Əlbəttə, ölkə daxilində demokratikləşmə proseslərinə müsbət təsir etmək, partiyalararası dialoqu möhkəmləndirmək, çatışmazlıqlar haqqında məsələ qaldırmaq və normal, sağlam rəqabət aparmaq – biz bunu istəyirik. Biz öz niyyətimizi ortaya qoymuşuq və şadam ki, bütün siyasi qüvvələr bu təşəbbüsə qoşulublar.

Kadr islahatları aparılıb. Nazirlər Kabinetində rəhbərlik dəyişdirildi. Prezident Administrasiyasında, nazirliklərdə, yerli icra orqanlarında rəhbərlik dəyişdirildi. Bu da cəmiyyətdə çox müsbət qarşılandı. Biz bu kadr dəyişikliyinin müsbət nəticələrini görürük.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha ciddi aparılmağa başlanıbdır. Hesab edirəm ki, o da sırf kadr islahatları ilə bağlı olan məsələdir. Xoşagəlməz hallar bürokratiya tərəfindən ört-basdır edilirdi və bəzi hallarda düzgün məlumat mənə çatdırılmırdı. Müvafiq qurumlar korrupsiyaya və rüşvətxorluğa qarşı kifayət qədər ciddi mübarizə aparmırdılar, bəzi hallarda cinayətlərə göz yumurdular. Bütün bunlar həqiqətdir. Kadr islahatları artıq buna da son qoydu. Bu gün heç kim, hər hansı bir cinayəti törətmiş insan vəzifəsindən asılı olmayaraq, məsuliyyətdən boyun qaçıra bilməz. Heç kim qanundan üstün deyil. Heç kim üçün heç bir xüsusi status, heç bir imtiyaz yoxdur. Bunu hər kəs bilməlidir. Hesab edirəm ki, 2020-ci ilin hadisələri də göstərdi ki, hər kəs bunu artıq bilir.

Koronavirus, əlbəttə ki, bütün dünya üçün çox böyük sınaq idi. Hesab edirəm ki, Azərbaycan bu sınaqdan şərəflə çıxır. Vəziyyət tam nəzarətdədir. Operativ tədbirlər nəticəsində yeni xəstəxanalar tikildi, laboratoriyalar alındı. Həkimlər səfərbər olundu. Koronavirus xəstələrinə qulluq edən həkimlərin maaşları artırıldı, onlar əmək haqlarının 3-5 misli həcmində maaş alırlar. Çox böyük sosial paket təqdim edildi. Bir neçə milyard manat dəyərində sosial paket koronavirusdan əziyyət çəkən insanlara, o cümlədən qeyri-formal çalışan və işsiz vətəndaşlara yardım kimi göstərildi. Bu gün biz peyvəndi gözləyirik. Ümid edirik ki, peyvənd bu ay ərzində Azərbaycana gətiriləcək. Hər halda, bütün kontraktlar imzalanıb. Peyvəndin bir qədər gec gətirilməsi bizdən asılı deyil. Ondan sonra insanlar kütləvi qaydada bu peyvənddən istifadə edəcək və canımız bu xəstəlikdən qurtaracaqdır.

Baxmayaraq ki, 2020-ci il bütün ölkələr üçün iqtisadi sahədə ağır il olub, amma Azərbaycan digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxıb. Bizim iqtisadiyyatımız təqribən 4 faizdən bir qədər çox azalıb. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Amma eyni zamanda, onu da bildirməliyəm ki, qeyri-neft sənayemiz 11 faizdən çox artıb. Nəyin hesabına? Məhz şaxələndirmə hesabına. Ona görə ki, sənayeləşmə siyasəti düzgün aparılıb. Neftin hasilatı bizdə azalır. Eyni zamanda, OPEC+ razılaşmasına görə biz özümüz də azaltmışıq. Neftin qiyməti aşağı düşüb. Əgər bu neft amili olmasaydı, bizim iqtisadiyyatımız bəlkə daha az düşərdi. Amma qeyri-neft sə-

nayesinin 11 faizdən çox artması real iqtisadiyyatın, qeyri-neft iqtisadiyyatının inkişafı deməkdir.

Kənd təsərrüfatı 2 faiz artıb və daha da çox artacaqdır. Çünki mən göstəriş vermişəm, azad edilmiş torpaqlarda indi payızlıq əkini aparılır. Bu barədə də danışacağıq. Orta əməkhaqqı və orta pensiya təqribən 13-14 faiz artıbdır. Neft Fondunun vəsaiti azalmayıb, artıb. Bu bəlkə də bir çoxları üçün təəccüblüdür. Çox yox, amma təqribən 0,5 faiz artıb. Deməli, biz öz valyuta ehtiyatlarımızı qoruya bilmişik. Baxmayaraq ki, biz koronavirusla mübarizəyə milyardlarla manat yönəltmişik, müharibə aparmışıq və digər xərclər olubdur, müavinətlər, sosial paket. Bu yaxınlarda qəbul edilmiş qərarlar əsasında şəhid ailələrinin müavinəti 300 manatdan 500 manata qaldırılıb. Bunlar böyük maliyyə yüküdür. Amma dövlətin dayanıqlılığı, ölkəmizin uğurlu siyasəti nəticəsində biz buna nail ola bilmişik.

İlin sonunda – dekabrın 31-də daha bir şad xəbər gəldi, «Cənub Qaz Dəhlizi» tam istismara verildi. Onun son seqmenti olan TAP istismara verildi. Azərbaycan qazı tarixdə ilk dəfə olaraq artıq Avropa məkanındadır. Bu bizim tarixi nailiyyətimizdir. Çünki «Cənub Qaz Dəhlizi»nin təşəbbüskarı da bizik. Əsas maliyyə yükünü də biz öz üzərimizə götürmüşük. Bir çox ölkələri birləşdirən bu layihə gələcəkdə o ölkələr və digər Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur. Bu əməkdaşlıq formatı bu gün artıq özünü nəqliyyat sektorunda, ticarət sektorunda göstərir, ondan sonra digər sektorlarda da göstərəcəkdir. Biz Avrasiyanın enerji xəritəsini yenidən

tərtib etdik. Biz bir-birinə bağlı olan 3500 kilometr uzunluğunda 3 qaz kəmərini inşa etdik. «Şahdəniz-2» layihəsini istismara verdik və artıq Avropa istehlakçıları Azərbaycan qazını alır. Bu həm onlar, həm də bizim üçün faydalıdır. Eyni zamanda, digər layihələr üzrə də uğurlu işlər aparılıb. Əminəm ki, bu layihələrin işlənməsi bizə əlavə dividendlər gətirəcək – həm iqtisadi, həm siyasi.

Vaxtından əvvəl nə isə demək istəmirəm. Amma eyni zamanda, biz yaxın günlərdə enerji sahəsində yeni gözəl hadisələrin şahidi olacağıq. Vaxt gələndə bu barədə də məlumat veriləcək. Yeni layihə bizim potensialımızı böyük dərəcədə gücləndirəcək.

Giriş sözümün sonunda beynəlxalq qurumların Azərbaycanda gedən işlərə verdikləri qiymətə də toxunmaq istərdim. Dünya Bankının «Doing Business» hesabatında – yəqin vətəndaşlar xatırlayırlar – bir neçə ölkə haqqında məlumatlar qeyri-dəqiq idi. Dünya Bankı bir neçə ay bundan əvvəl bildirmişdi ki, bu ölkələrin reytinqlərinə yenidən baxılacaq, o cümlədən Azərbaycan da bu siyahıda idi. Beləliklə, yenidən baxıldı və bizim reytinqimiz artırıldı. Çünki ondan əvvəl düzgün hesablanmamışdı. Bilmirəm hansı səbəblərə görə, o başqa məsələdir. Amma yeni reytinqə görə Dünya Bankının «Doing Business» proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir. Bizim işimizə ağızlarını büzən, iqtisadiyyatdan başı çıxmayan tiplər üçün, ünsürlər üçün, bax, budur əsas. Dünya Bankı bunu deyir. Biznes iqlimi, investisiya iqlimi, aparılan islahatlar Dünya Bankı tərəfindən qeyd edilir. Bundan əlavə, Azərbaycan 10 ən islahat-

çı ölkə sırasına daxil edilibdir. Ona görə deyirəm, dırnaqarası, qondarma iqtisadçılar, xaricdə və burada banlayan «iqtisadçı»lar, açın gözünüzü baxın və dilinizi qoyun qarnınıza. Yoxsa, yerindən duran bizə dərs deyəcək: «iqtisadiyyat düzgün aparılmır, elədir, belədir». Gedin oxuyun, əgər oxuya bilirsinizsə.

Davos Dünya İqtisadi Forumunun hesabatının bəzi parametrlərini qeyd etmək istərdim. Əhalinin elektrik təchizatı səviyyəsi – dünya miqyasında Azərbaycan ikinci yerdədir. İkinci yerdədir dünya miqyasında. Hökumətin dəyişməyə cavabdehliyi, yəni ki, islahatçı obrazı əmsalına görə Azərbaycan dünya miqyasında beşinci yerdədir. Hökumətin uzunmüddətli strategiyası – Azərbaycan 10-cu yerdədir. Hökumətin siyasi sabitliyi təmin etməsi – Azərbaycan 11-ci yerdədir. İnfrastruktur layihələri ilə bağlı – dəmir yolu xidmətlərinin səmərəliliyi 11-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi – 12-ci yer. Avtomobil yollarının keyfiyyəti – 24–27-ci yerlərdəyik. Bu hesablama inkişaf etməkdə olan 74 ölkə arasında aparılıbdır. İnklüziv inkişaf indeksi üzrə Azərbaycan üçüncü yerdədir. Bax, bu, dünyanın aparıcı və deyə bilərəm ki, ən nüfuzlu beynəlxalq qurumu olan Dünya Bankının və dünyanın bir nömrəli forumu olan Davos Dünya İqtisadi Forumunun hesabatlarının nəticələridir.

Bir daha demək istəyirəm ki, biz düzgün yoldayıq. Bütün çətinliklərə baxmayaraq, işğala baxmayaraq, 1 milyondan çox qaçqının olmasına baxmayaraq, biz bu nailiyyətləri əldə etmişik. İndi torpaqlar azad edilib, böyük qayıdış başlanmalıdır, böyük inkişaf pro-

sesləri başlanmalıdır. Ona görə bütün bu işləri daha da fəal, daha da məqsədyönlü şəkildə aparmalıyıq ki, Azərbaycanın imkanlarını genişləndirək və ölkəmizin inkişaf dinamikasını artıraq.

İndi isə keçək bu il görüləcək işlərin müzakirəsinə. İlk növbədə, istərdim ki, Operativ Qərargahın məlumatını dinləyim. Operativ Qərargah mənim göstərişimlə yaradılıb və artıq fəal işləyir. Bir çox tapşırıqlar verilib. Operativ Qərargahın rəhbəri bəzi məlumatları versin. Biz daim təmasdayıq, amma istərdim ki, vətəndaşlar da bunu eşitsinlər.

* * *

**Əli Əsədov** (*Baş Nazir, Operativ Qərargahın rəhbəri*): Cənab Prezident, icazə verin, əvvəlcə Sizi hökumətin bu geniş müşavirədə iştirak edən və etməyən bütün üzvləri adından böyük qələbəmiz münasibətilə təbrik edim. Bütün dünyanın gözü 44 gün ərzində Azərbaycanda idi. Ali Baş Komandan olaraq, Siz həm cəbhədə Silahlı Qüvvələrimizə rəhbərlik edir, həm də diplomatiya və informasiya məkanında uğurla mübarizə aparırdınız. Bütün dünya görürdü ki, qələbənin bir ünvanı var – qəhrəman Azərbaycan əsgəri, zabiti və onun sərkərdəsi, Ali Baş Komandanı!

Onu da demək istəyirəm ki, bu qələbə bir saatın, bir günün, bir ilin qələbəsi deyil. İlk gündən Sizin yanınızda köməkçi kimi işləyərək, mən bunu digər həmkarlarımla bərabər görmüşəm, bu qələbə bu illər ərzində hər gün, hər saat Sizin fəaliyyətinizin ən əsas prioriteti idi. Siz çox qələbələr qazanmısınız. Azərbaycan xalqı və dünya bunu bilir. Bu, diplomatik qələbə-

lər olub, bu, humanitar sahədə qələbələr olub. Bizim idman sahəsində və digər sahələrdə də kifayət qədər qələbələrimiz vardır. Ancaq Sizin rəhbərliyinizlə 44 gündə Vətən torpaqlarının işğaldan azad edilməsi, bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının ən müqəddəs arzusunun çin olması tarixə böyük hərflərlə yazılan QƏLƏBƏDİR! Cənab Prezident, bu hamının fikridir. Bunu bütün xalqımız bilir və bu qələbənin sevinc hissi ilə yaşayır.

Pandemiyaya qarşı görülən işlərə gəlincə deməliyəm ki, dünyanı bürüyən COVID xəstəliyi ilə əlaqədar Sizin sərəncamınızla fevralın 27-də Operativ Qərargah yaradılıb. Həmin tarixdən başlayaraq, bu xəstəliklə mübarizə bir neçə mərhələ keçib. Sizin və çox hörmətli Birinci vitse-prezident Mehriban xanımın birbaşa tapşırığı və tövsiyələri ilə biz də öz fəaliyyətimizi Ümumdünya Səhiyyə Təşkilatının, həkimlərimizin və qonşu ölkələrin təcrübəsinə, aparılan protokollara uyğun olaraq qurmuşuq. Bütün potensial imkanlar – insan resursları, maliyyə resursları və inzibati resurslar səfərbər olunubdur. İl ərzində bu istiqamətdə Sizin rəhbərliyinizlə bir neçə dəfə müşavirə keçirilib və bu müşavirələrdə görülmüş işlər barədə məlumatlar verilibdir.

Cənab Prezident, təbii olaraq, bütün dünyanın bu pandemiyaya hazırlığı aşağı səviyyədə olduğu kimi, biz də bu xəstəliyə lazımi dərəcədə hazır deyildik. Ancaq Sizin rəhbərliyinizlə qısa müddət ərzində görülmüş çox operativ tədbirlər nəticəsində laboratoriyaların sayı artırıldı, maska və dərman qıtlığı aradan qaldırıldı, yeni süni tənəffüs aparatlarının (ECMO)

alınması təmin edildi. Xüsusi olaraq bu xəstəliklə mübarizə üçün qısa müddət ərzində modul tipli xəstəxanalar yaradıldı, mövcud xəstəxanaların formatı və reanimasiya şöbələrinin şəraiti dəyişdirilərək, koronavirusla mübarizəyə cəlb edildi.

Möhtərəm cənab Prezident, il ərzində karantin şərtləri bir neçə dəfə dəyişdirilibdir. Biz ümumi karantin rejimindən sərtləşdirilmiş karantin rejiminə keçmişik. Təbii ki, bu hallar həm iqtisadiyyatda, həm sosial sferada, həm də insanların davranışlarında məhdudiyyətlərə səbəb olubdur. Ancaq hamı bilirdi, insanların reaksiyasından da bəlli olurdu ki, Azərbaycanda Sizin rəhbərliyinizlə Operativ Qərargah tərəfindən görülən işlər uğurludur. Bunu rəqəmlərdən də görmək olar.

Cənab Prezident, Siz çıxışınızda COVID-19-la əlaqədar büdcəmizdən ayrılmış vəsait və maliyyə imkanlarımız barədə danışdınız. COVID-lə mübarizəyə birbaşa olaraq 644 milyon manata qədər vəsait sərf olunub. Bu il üçün isə büdcədə hələlik birbaşa 261 milyon manat nəzərdə tutulub. Lazım olsa, əlavə ehtiyatlarımız var. Nəzərə alsaq ki, biz bir çox işləri 2020-ci ildə icra etmişik, əlavə xəstəxanalara, modul tipli xəstəxanalara və sairə ehtiyac yoxdur.

Cənab Prezident, Siz dediniz, bütün mənbələr və maliyyə imkanları nəzərə alınaraq, iqtisadiyyata ümumilikdə təqribən 2,5 milyard manatdan artıq dəstək göstərilibdir. Xüsusilə işsiz və iş yerini müvəqqəti itirmiş şəxslərə biz dörd dəfə 190 manat birdəfəlik ödəmə vermişik. Bu da toplam olaraq 450 milyon manat vəsait deməkdir.

Koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi məqsədilə Sizin fərmanınızla xüsusi fond yaradılıb və bu fonda 114 milyon manatdan artıq vəsait yığılıbdır. Bununla bərabər, xəstəliklə mübarizə üçün xarici ölkələrdən həkimlər cəlb edilibdir.

Möhtərəm cənab Prezident, təbii olaraq, dünya bu xəstəliklə mübarizə aparır. Biz hazırda yanvarın 18-dək sərtləşdirilmiş karantin rejimindəyik. Ümumi karantin rejiminin müddəti yanvar ayının 31-dək artırılıb və bu istiqamətdə ciddi nəzarət var. Hesab edirik ki, Siz dediyiniz kimi, peyvənd Azərbaycana gətiriləndən sonra bu xəstəliklə mübarizədə, onun qarşısının alınmasında xeyli irəliləyiş olacaqdır.

Bununla bərabər, Siz müharibə ilə əlaqədar digər tapşırıqlar da vermisiniz. İcazənizlə, mən bu barədə də açıqlama verərdim. Sentyabrın 27-dən başlayan Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin qarşısında tab gətirə bilməyən Ermənistan silahlı qüvvələri hərbi cinayət törədərək, bizim mülki əhalini, şəhər, rayon və kəndlərimizi atəşə tutaraq, öz xislətini göstərdi. Bu təcavüz nəticəsində bizim mülki əhaliyə, dövlət əmlakına, infrastrukturumuza, sahibkarlarımıza çox ciddi zərər vurulubdur. Bu zərərin qiymətləndirilməsi və gələcəkdə kompensasiya edilməsi istiqamətində Sizin 6 noyabr tarixli Sərəncamınız olubdur.

Sərəncamınızla Siz Dövlət Komissiyası yaratdınız və ona müvafiq konkret tapşırıqlar verdiniz. Sərəncamın icrası ilə bağlı Dövlət Komissiyasının gördüyü işlər barədə qısa məlumat vermək istərdim. Sərəncamla verilən tapşırıqların icrası ilə əlaqədar dərhal

İqtisadiyyat, Maliyyə, Fövqəladə Hallar, Kənd Təsərrüfatı nazirliklərinin, Şəhərsalma və Arxitektura Komitəsinin, Respublika Prokurorluğunun, «ASAN xidmət» və yerli icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət 11 şəhər və rayonda 13 işçi qrupu yaradılıbdır. İşçi qruplarına mərkəzi icra orqanlarının – nazirlərin və komitə sədrlərinin müavinləri səviyyəsində rəhbərlik edilir. Ümumiyyətlə, qiymətləndirmə ilə əlaqədar işlərə 200-dən çox məsul şəxs cəlb olunubdur. Ötən müddət ərzində zərər çəkmiş vətəndaşların özlərinin iştirakı ilə 10300-dən artıq obyektə baxış keçirilib və qiymətləndirmə aparılıbdır. Qiymətləndirmədən sonra müvafiq aktlar tərtib edilib və təqdim olunubdur. Ən çox zərər çəkmiş Tərtər rayonunda dəymiş ziyanın ilkin proqnozdan dəfələrlə çox olduğu nəzərə alınaraq, orada işlər indi də davam etdirilir. Yaxın günlərdə bu işlər başa çatdırılacaqdır.

Cənab Prezident, toplanmış materiallara əsasən, dağıdılmış və qəzalı vəziyyətə düşmüş, o cümlədən ziyan dəymiş əmlakın bərpa dəyəri əsasında, nəqliyyat vasitələri, kənd təsərrüfatı texnikası və digər daşınmaz əmlak isə orta bazar qiyməti prinsipinə uyğun olaraq qiymətləndirilibdir. Bu günədək hesablanmış dəymiş ziyan 63,6 milyon manat həcmində qiymətləndirilir.

Cənab Prezident, vətəndaşların əmlakı ilə bərabər, dövlət əmlakına da ciddi ziyan dəyibdir. Belə ki, dövlət əmlakına – əsasən yol infrastrukturuna, elektrik, rabitə, qaz, su xətlərinə və digər infrastruktur obyektlərinə dəymiş ziyan toplam olaraq təqribən 27,4 milyon manat dəyərləndirilir. Ümumiyyətlə, bu günədək

aparılmış qiymətləndirmə 91 milyon manat təşkil edir. Bir neçə rəqəmi diqqətə çatdırmaq istəyirəm. Dağıdılmış və qəzalı evlərin sayı 264 idi. Bu, tam dağıdılmış, o cümlədən 10 çoxmənzilli bina Gəncə şəhərindədir. Ümumi fərdi yaşayış evlərinin sayı 9294-dür. 440 sahibkarlıq obyektinə, 227 nəqliyyat vasitəsinə, digər 18 obyektə, məktəblərə və sosial obyektlərə, 518 kənd təsərrüfatı obyektinə ziyan dəyibdir.

Möhtərəm cənab Prezident, Siz bu proses üçün Komissiyaya 2 ay vaxt vermişdiniz. Tamamilə dağıdılmış, zərər çəkmiş binalarda yaşayan əhalinin şəxsi əşyalarına dəymiş ziyanın dərhal ödənilməsi ilə əlaqədar dekabrın 14-də Sizin sərəncamınız oldu. Sərəncama əsasən, Siz 9 milyon 100 min manat vəsait ayırmısınız. O vəsaitdən qəzalı vəziyyətə düşmüş yaşayış evlərinə dəymiş ziyanla əlaqədar hər ailəyə 6000, hər ailə üzvünə 1500 manat və ziyan dəymiş digər ailələrə 1000 manat ayrılması tapşırığı verilmişdir. Bu tapşırıqla əlaqədar həmin kontingent siyahıya alınıb və bu da 6143 ailədir. Bu proses bank vasitəsilə konkret ailə üzvlərinə plastik kartlar açılmaqla yerli icra hakimiyyəti və maliyyə strukturlarının nəzarəti altında icra olunur. Dünənədək 25 faiz icra olunub. Söz verilir ki, qısa müddətdə – bir həftə ərzində bu proses başa çatdırılacaqdır.

Cənab Prezident, sərəncamda digər tapşırıqlar da verilib. Siz də çıxışınızda dediyiniz kimi, dəymiş bu ziyan qiymətləndirilir və Xarici İşlər Nazirliyi vasitəsilə beynəlxalq təşkilatlara və xarici nümayəndələrə çatdırılır. Bu məsələlərin və aparılan bu qiymətləndirilmələrin şəffaf olması üçün «ASAN xidmət» vasi-

təsilə vahid elektron baza da yaradılıb. Cənab Prezident, işlər davam edir və bu barədə ictimaiyyətə mətbuat vasitəsilə daim məlumatlar verilir.

**İlham Əliyev:** O, 9000-dən çox ev ki, onlara ziyan dəyib, əlbəttə, o evlərin bərpası bizim əsas vəzifələrimizdən biri olmalıdır. İndi işlər başlanıb. Siz də qeyd etdiniz, itirilmiş əmlakın bərpası, vətəndaşlara vəsaitin verilməsi – bütün bunları həll etmişik. Əlbəttə, evlərin tikintisində və bərpasında biz fəal iştirak edirik. Çalışmalıyıq ki, bu məsələ də qısa müddət ərzində öz həllini tapsın. Eyni zamanda, çoxmənzilli evlərin yenidən tikilməsi üçün vəsait ayrılıb. Hesablayın, əgər əlavə vəsait lazım olacaqsa, nə qədər lazımdırsa, o qədər də vəsait ayırmalıyıq.

Gəncə şəhərində yaşayış binalarının Ermənistan tərəfindən ballistik raketlərlə dağıdılması və bunun nəticəsində bir çox insanın həlak olması faktı erməni vəhşiliyini bir daha bütün dünyaya göstərdi. O evlər yenidən tikilməlidir. Amma hesab edirəm ki, həmin yerlərdə yox, həmin yerlər xatirə komplekslərinə çevrilməlidir. Biz artıq orada təmizləmə işlərinə start verməliyik. Çünki bir müddət o yerlər dağılmış vəziyyətdə qalmışdır ki, xarici jurnalistlər, eyni zamanda, diplomatik missiyaların nümayəndələri gedib orada erməni vəhşiliyini öz gözləri ilə görsünlər. Demək olar ki, dünyanın bütün aparıcı kütləvi informasiya vasitələri bu dəhşətli görüntüləri öz videoreportajlarında əks etdirmişlər. İndi isə Gəncə şəhərində dağıdılmış çoxmənzilli evlərin ərazilərində təmizlik işlərinə start verilməlidir. Yerli icra orqanlarına kömək göstərin və layihələr hazırlayın. Xatirə kompleksi həmin yerlərdə

olmalıdır ki, heç kim bizim şəhidlərimizi unutmasın. Biz onların əziz xatirəsini əbədiləşdirməliyik.

Azad edilmiş torpaqlarda artıq işlər başlanılıb. O mənada ki, müvafiq göstərişlər verilib. İlk növbədə, minalardan təmizlənmə işləri gedir. Şəhərsalma ilə bağlı artıq ilkin təmaslar yaradılıb.

Minalardan təmizlənmə ilə əlaqədar, hesab edirəm ki, biz bu sahəni böyük dərəcədə gücləndirməliyik. Çünki mənə verilən məlumata görə, bu günə qədər bu məsələ ilə məşğul olan qurumun heç hər hansı bir dövlət statusu da yoxdur. ANAMA qurumunun dövlət statusu yoxdur, bu, adi agentlikdir. O, faktiki olaraq, dövlət idarəetmə strukturunda agentliyə xas olan səlahiyyətlərə malik deyil. Bu, vaxtilə yaradılmış Komissiyanın nəzdində olan bir qurumdur. Ona görə mən artıq göstəriş verdim ki, bu qurum yaxın günlərdə yenidən təşkil edilsin. Ərazilərin Bərpası Agentliyi ilə birləşdirilməsinə də baxmaq olar. Çünki bu qurumun də faktiki olaraq, agentlik statusu yoxdur. Say tərkibinə baxılmalıdır. Mənə verilən məlumata görə, orada təqribən 500 adam çalışır. Nə qədərdir?

**Əli Əsədov:** 560 nəfər.

**İlham Əliyev:** Əlbəttə, bu tərkiblə biz istədiyimizə nail ola bilmərik. Yeni yaradılacaq bu qurum ən müasir texnika ilə təchiz edilməlidir. Dövlət İnvestisiya Proqramında bunu mütləq nəzərə alın ki, biz bu məsələyə çox vaxt itirməyək. İndi bəzi rəqəmlər səsləndirilir, bəzi bəyanatlar verilir. Hesab edirəm ki, bu bəyanatlar yersizdir. İndi oturub hesablamaq ki, biz bu torpaqları neçə ilə minalardan azad edəcəyik sadəcə olaraq, məsuliyyətsizlikdir. Heç kim deyə bil-

məz. Burada hər hansı bir meyar, yaxud da ki, əmsal ola bilməz. Çünki mənfur düşmən hər tərəfi minalayıb və xəritələri də bizə verməyib. Ona görə indi biz gərək öz işimizi prioritetlər əsasında quraq, əslində qurmuşuq da. Eyni zamanda, mən göstəriş verdim ki, Müdafiə Nazirliyində ən azı ilkin mərhələdə iki istehkamçı tabor yaradılsın. Dünən Müdafiə naziri mənə məlumat verdi ki, bu sahədə işlər gedir. Eyni zamanda, Türkiyədən 130 nəfərdən ibarət böyük heyət gəlibdir. Onlar həm təlimatçı kimi, bizim istehkamçılar üçün treninq keçirirlər, həm də özləri təmizləmə işləri ilə məşğuldurlar. İki gün bundan əvvəl Rusiyadan bir qrup istehkamçı gəlib və artıq onlar da bu fəaliyyətə başlayıblar. Biz bütün xarici tərəfdaşlara dərin təşəkkürümüzü bildiririk. Çünki bu ərazilərin bərpası üçün başlıca vəzifə minalardan təmizlənmədir. Bütün ərazilərin, şəhərlərin bərpası ilə əlaqədar vahid konsepsiya olmalıdır. Hər şəhər üzrə vahid konsepsiya olmalıdır. Mən bu barədə indi Samir Nuriyevə söz verəcəyəm. İlkin təmaslar artıq qurulub. Eyni zamanda, kəndlərin bərpası ilə bağlı vahid yanaşma olmalıdır. Çünki işğaldan əvvəl bəzi kəndlərdə yaşayan insanların sayı çox az idi, təqribən 20 nəfər, 30 nəfər, 50 nəfər. Əlbəttə, ilk növbədə, biz böyük yaşayış məntəqələrinin bərpası ilə məşğul olmalıyıq. Hesab edirəm ki, aidiyyəti qurumlar, hökumət, Prezident Administrasiyası kəndlərin optimal say tərkibini müəyyən etməlidir. Yəni bizim üçün bir oriyentir olmalıdır. Əlbəttə ki, bu tarixi yaşayış məntəqələrinin mövcudluğu, torpaq sahələri nəzərə alınmalıdır ki, orada məskunlaşacaq insanlar öz ailə

büdcələrini orada işləyərək təmin etsinlər. Yəni onlar daha dövlət dəstəyinə möhtac qalmasınlar. Onlar üçün elə torpaq sahələri ayrılmalıdır ki, orada rahat əkib-becərə bilsinlər və yaxşı da gəlir götürsünlər. Nəzərə alsaq ki, bu torpaqlarda torpaq islahatı aparılmayıb, bu islahatı aparmaq üçün biz, əlbəttə, yeni meyarlar işləməliyik. Çünki ötən əsrin 90-cı illərində torpaq islahatı bəzi hallarda natamam aparılıb və ondan sonra bəzi problemlər üzə çıxıbdır. Torpaq sahələri düzgün qeydiyyata alınmayıbdır. Ona görə biz indi belə bir vəziyyətlə üzləşmişik. Peykdən əldə edilən məlumat yerlərdə olan məlumatla uzlaşmır. İndi Kənd Təsərrüfatı Nazirliyi bu problemin həlli ilə məşğuldur. Amma azad edilmiş torpaqlarda bu səhvlərə, əlbəttə ki, yol verilə bilməz. Biz dəqiq bilməliyik ki, hansı torpaqlar dövlət torpaq fonduna veriləcək, hansı torpaqlar meşə fonduna veriləcək. Onu da bildirməliyəm ki, bizim meşələrimizin böyük hissəsi qırılıb. Məndə məlumat var, mən onu səsləndirəcəyəm. Ümumiyyətlə, azad edilmiş torpaqlarda əsas fəaliyyət sahələri kənd təsərrüfatı, kənd təsərrüfatı emalı və turizm sahələri olmalıdır ki, biz bu bölgənin təbiiliyini qoruya bilək. Ermənilər nə qədər çalışsalar da, orada məskunlaşma apara bilməmişlər. Çünki onların canlı resursları yoxdur. Bir də azad edilmiş torpaqlarda ki, ermənilər yaşayıb, mən orada olmuşam. Onlar elə gündə yaşayıblar ki, adam baxanda, vallah, dəhşətə gəlir. Məşhur Şurnux kəndi var ki, ermənilər orada bizim torpaqlarımızda yaşayıblar, indi onlar oradan çıxarılıblar.

Dünən Sərhəd Xidmətinin rəisi mənə məlumat verdi, dəhşətli bir mənzərədir. Elə bil it damıdır. Deyirəm ki, çəkin bunu. İndi jurnalistlər göndərilib. Çəkin göstərin, qoy görsünlər bunlar nə gündə yaşayıblar. Çünki resurs olmayıb, istək olmayıb, canlı resurs olmayıb. Bir də ki, onlar heç vaxt bu torpaqları öz torpaqları kimi qəbul etməyiblər. Əks təqdirdə – onların ən çox yaşadıqları Şuşa şəhəri olubdur – Şuşa şəhəri belə acınacaqlı vəziyyətdə olmazdı. Əgər onlar tarixi saxtalaşdıraraq, Şuşa şəhərini bütün dünyaya erməni şəhəri kimi təqdim etməyə çalışırdılarsa, heç olmasa, oraya əl gəzdirərdilər. O separatçı qurumun rəhbərləri özləri üçün imarətlər tikiblər. Erməni oliqarxlar imarətlər tikiblər. Amma onlardan başqa, bir dənə də müasir tikinti yoxdur. Bizim tarixi-memarlıq abidələrimizi dağıdıblar. Ona görə bu və digər məsələlərlə bağlı qaydalar, o cümlədən şəhərsalma qaydaları elə aparılmalıdır ki, bərpa olunacaq şəhərlərin dəqiq say tərkibi müəyyən edilsin. Biz özümüz hədəf qoymalıyıq, hansı şəhəri hansı formada görmək istəyirik. Əlbəttə, işlər əsaslı getməlidir. Minalardan təmizləmə, şəhərsalma qaydaları, infrastruktur layihələri və tikinti işləri ən müasir standartlara cavab verməlidir. Samir Nuriyev görülmüş və bundan sonra nəzərdə tutulan işlər haqqında məlumat versin.

**Samir Nuriyev** (*Prezident Administrasiyasının rəhbəri*): Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Sizin 2020-ci il 24 noyabr tarixli Sərəncamınızla Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılmışdır.

Əlaqələndirmə Qərargahı dərhal işə başlayıbdır. Gündəlik məsələlərin həll edilməsi ilə yanaşı, ortamüddətli planlaşdırma işlərinə də başlanılıbdır. İlk növbədə, qərargahın üzvləri toplaşaraq, aidiyyəti üzrə bütün məsələlərin mərkəzləşdirilməsi məqsədilə müzakirələr aparıblar. Eyni zamanda, işin təşkilini təmin etmək məqsədilə Əlaqələndirmə Qərargahı nəzdində idarələrarası mərkəz yaradılıbdır. Həmçinin bu mərkəzin nəzdində işçi qrupları yaradılıbdır. Möhtərəm cənab Prezident, qeyd etdiyiniz bütün istiqamətlər üzrə 16 işçi qrupu yaradılıbdır. İlk növbədə, əlbəttə ki, minalardan və partlamamış sursatlardan təmizləmə məsələləri ilə bağlı çox ciddi müzakirələr aparılıb və artıq müəyyən planlar tərtib olunubdur. Həmçinin sosial, iqtisadi, humanitar, hüquqi və digər məsələlər üzrə işçi qrupları yaradılıbdır. Ən əsas da şəhərsalma planlaşdırılması, bu çərçivədə tarixi abidələrin qorunması və bərpası məsələlərinə də ciddi yanaşmalar təklif olunur. Eyni zamanda, infrastruktur məsələləri və enerji təminatı üzrə işlər aparılır. Qeyd etmək istəyirəm ki, bu gün qərargahın nəzdində fəaliyyət göstərən işçi qruplarında 55 dövlət qurumunun 160 nümayəndəsi iştirak edir. Son bir ay ərzində gündəlik məsələlərlə və qəbul olunmuş qərarlarla yanaşı, Strateji Fəaliyyət Planının hazırlanması istiqamətində işlər aparılıbdır. Artıq bu fəaliyyət planı hazırdır.

Həmin planın əsasında tədbirlər planı da hazırlanıb və bütün aidiyyəti qurumlarla razılaşdırılıbdır. Əlbəttə, bütün işçi qruplarının arasında birmənalı olaraq əlaqələr qurulub. Bütün istiqamətlər üzrə daimi olaraq gündəlik əsasda fikir mübadiləsi aparılır,

bütün işlər planlı və kompleks yanaşma əsasında həyata keçirilir. Şəhərsalma planlaşdırılması ilə bağlı ilk növbədə, işğaldan azad olunmuş bütün ərazilər üzrə ümumi planın hazırlanması istiqamətində işlərə başlanılıbdır. Eyni zamanda, artıq işğaldan azad olunmuş ərazilərə yerində baxışlar keçirilir. Bir sıra şəhərlərin yerləşdirilməsi və onların planlaşdırılması ilə bağlı işlərə başlanılıbdır. Bununla yanaşı, bir sıra beynəlxalq və xarici şirkətlərlə əlaqələr qurulub, danışıqlara başlanılıbdır. Yerli mütəxəssislərin cəlb olunması təmin edilibdir. Cənab Prezident, Sizin Şuşa şəhərinə göndərdiyiniz böyük qrup çərçivəsində şəhərsalma üzrə mütəxəssislər də vardır və Şuşa şəhərinin baş planının hazırlanması üzərində işlərə başlanılıbdır. İlk növbədə, Şuşa şəhərinin ortofoto şəkli çəkilib və topoqrafiya işləri davam etdirilibdir. Eyni zamanda, ərazilərə baxış keçirilərkən orada dəymiş ziyanın qiymətləndirilməsi məsələsinə də diqqət yetirilir. Mövcud vəziyyət dəyərləndirilir və sənədləşdirilir.

Möhtərəm cənab Prezident, həyata keçirilən işlərin davam etdirilməsi üçün artıq bütün planlar hazırdır və yaxın günlərdə Sizə təqdim olunacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**İlham Əliyev:** Bərpa işlərinə qədər digər vacib bir məsələ də öz həllini tapmalıdır. Bu, dəymiş ziyanın hesablanmasıdır. Artıq müvafiq göstəriş verilib və İqtisadiyyat Nazirliyi bu məsələ ilə bağlı beynəlxalq tərəfdaşlarla da təmaslar qurub. Əlbəttə ki, bütün ilkin işləri biz özümüz görməliyik. Bütün şəhərlərin, bütün kəndlərin video və fotoçəkilişləri aparılmalıdır, təsdiq edilməlidir, protokollaşdırılmalıdır.

Bununla paralel olaraq, dağıdılmış və azad edilmiş bütün torpaqların peyk vasitəsilə çəkilişi aparılmalıdır. Dronlardan da istifadə etməklə hər bir şəhərin, hər bir kəndin sənədləşdirilməsi, əgər belə demək mümkündürsə, pasportlaşdırılması aparılmalıdır. Bunu biz özümüz aparmalıyıq. Xarici mütəxəssislər, beynəlxalq şirkətlər gələndə artıq bu materiallar onlara təqdim ediləcək. Əlbəttə, onlar özləri də sərbəst şəkildə bütün tədqiqatları aparmalıdırlar. Burada ilk növbədə, tarixi abidələrin məhv edilməsi, dağıdılması öz əksini tapmalıdır – ictimai binaların, dövlət binalarının, müəssisələrin – o vaxt bütün müəssisələr dövlət mülkiyyətində idi – fərdi evlərin və çoxmənzilli binaların dağıdılması. Bütün sənədləşmə işləri aparıldıqdan sonra bu əmlakların ovaxtkı qiyməti rubl ekvivalentində çıxarılmalıdır və bunun indiki qiymətləndirilməsi aparılmalıdır. Yəni bu işləri biz özümüz görməliyik və bu, xaricdən gələn şirkətlərin işini də bir qədər yüngülləşdirəcək. Onlar bunun əsasında müstəqil şəkildə öz hesabatlarını hazırlayacaqlar. Bu bizə mütləq lazımdır. Çünki təzminat davasının başlanması üçün bizdə mütləq tanınmış beynəlxalq şirkətlərin rəyi olmalıdır.

Dəymiş ziyana gəldikdə, eyni zamanda, biz itirilmiş gəliri də hesablamalıyıq. Çünki bu 30 il ərzində biz bu müəssisələrdən hansı gəliri götürə bilərdik. Orada bir çox müəssisələr və bu müəssisələrin böyük potensialı var idi. Onlar dağıdılıb və biz götürə biləcəyimiz o gəliri götürməmişik. O da hesablanmalıdır. Həmçinin ekologiyamıza vurulmuş ziyan hesablanmalıdır. Mən bəzi rəqəmləri səsləndirəcəyəm. Qırılmış

meşələr – bu meşələr elə-belə qırılmayıb. Bu meşələr qırılıb və satılıb. Qırılmış o meşələrin, ağacların bazar qiyməti hesablanmalıdır. Çünki bunlar satılıb və qanunsuz gəlir mənbəyi olubdur. Bununla paralel olaraq, bizim torpaqlarımız qanunsuz yollarla istismar edilib. İndi Ermənistan mətbuatında gedən məlumata görə,  o torpaqların böyük hissəsini kriminal rejimin başçıları zəbt etmişdilər. Orada Ermənistanın keçmiş prezidentləri Köçəryan və Sarkisyanın böyük torpaq sahələri var idi. Eyni zamanda, qanunsuz rejimə rəhbərlik edənlərin böyük torpaq sahələri var idi. Onlar hər il böyük gəlir əldə edirdilər. Çünki o torpaqlar çox münbitdir və çox məhsuldardır. Eyni zamanda, örüş sahələri, otlaq sahələri – bütün bunların qanunsuz istismarı gərək qiymətləndirilsin və pul ekvivalentinə çevrilsin.

Əlbəttə, oradakı təbii sərvətlərin qanunsuz istismarı artıq danılmaz faktdır. Bizdə şirkətlərin adları var. Bildirməliyəm ki, əgər bizim qızıl və digər yataqlarımızı qanunsuz istismar edən bu şirkətlər təzminat ödəməsələr, bu məsələ məhkəməyə gedəcək. Əgər bu təzminatı ödəməsələr, bütün işlər gedəcək beynəlxalq məhkəmələrə və onlar orada biabır olacaqlar. Bundan sonra onların biznes fəaliyyəti, demək olar ki, dayandırılacaq. Çünki başqa ölkədə təbii sərvətləri qanunsuz istismar edib, ondan gəlir qazanıb varlanan şirkətlərə, insanlara müasir dünyada yer yoxdur. Ona görə onların qarşısında məsələ qoyulub, onların qanunsuz istismar etdikləri qızılın və digər təbii sərvətlərimizin dəyəri hesablanmalıdır, dəymiş ziyan hesablanmalıdır, əldə edilmiş gəlir hesablanmalıdır və bizə qaytarılma-

lıdır. O təqdirdə biz beynəlxalq məhkəmələrə müraciət etməyə bilərik.

Söz düşmüşkən, azad edilmiş torpaqlarda iqtisadi sahələrin biri də dağ-mədən sahəsi olacaqdır. Bizim artıq bu sahədə də təcrübəmiz var və biz bu işlərlə də məşğul olacağıq.

Söz verilir İqtisadiyyat nazirinə. Bu məsələ və digər məsələlərlə bağlı məlumat verin.

**Mikayıl Cabbarov** (*İqtisadiyyat naziri*): Təşəkkür edirəm, möhtərəm cənab Prezident.

İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı konsepsiyası Sizin tapşırığınıza uyğun olaraq hazırlanıb. Onun hazırlanması və müzakirəsi prosesində iqtisadi şurada bütün rəylər nəzərə alınıb və aidiyyəti üzrə təqdim edilibdir. İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacaqdır.

İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir.

Tapşırığınıza uyğun olaraq, hər bir bölgəmizin təbii ehtiyatlarını, ənənəvi iqtisadiyyat sahələrini, nəqliyyat qovşaqlarını, o cümlədən yenidən bərpa olunan nəq-

liyyat dəhlizlərinə və Sizin göstərişinizlə artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq, hər bir iqtisadi rayonun profili, ixtisaslaşması nəzərdə tutulub. Həmçinin bu işlərin görülməsi zamanı dövlət vəsaitlərinə qənaət edilməsi və investisiyaların səmərəliliyinin artırılması məqsədilə yol-nəqliyyat, kommunal infrastrukturu, ənənəvi və alternativ enerji istehsalı, irriqasiya və meliorasiya sistemlərinin çəkilməsi və sair sahələr üzrə investisiya layihələrinin həyata keçirilməsində dövlət – özəl sektor tərəfdaşlığından geniş istifadə edilməsi, iqtisadi aktivliyin təşviq olunması məqsədilə işğaldan azad olunmuş ərazilərə xüsusi güzəştli iqtisadi rejimin tətbiqi təklif olunur.

Möhtərəm cənab Prezident, onu da qeyd etməliyəm ki, 2021-ci il üçün makroiqtisadi göstəricilərimiz planlaşdırılarkən məhz işğaldan azad olunmuş ərazilərdə geniş bərpa-quruculuq işləri qeyri-neft sektorumuzda və ümumiyyətlə, iqtisadiyyatımızda fəal artım drayverlərinin biri rolunu oynayır. O məhz bununla izah olunur ki, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının Azərbaycan iqtisadiyyatının 2021-ci il üçün proqnozlarına nisbətən (bu, oktyabr ayında olub) bizim proqnozlarımız daha nikbindir. Demək olar ki, biz artım tempini iki dəfə daha yüksək proqnozlaşdırırıq. Əgər onlar artım tempini 1,7–2 faiz arasında proqnozlaşdırırlarsa, qəbul olunmuş parametrlərə əsasən, biz iqtisadi artım tempini 3,4 faiz planlaşdırırıq.

**İlham Əliyev:** Bax, birinci dəymiş ziyanın hesablanması. Bu sahədə dediyim kimi, biz özümüz indi

hansı işləri həyata keçiririk və xarici tərəfdaşlarla bu əməkdaşlıq nə vaxtdan artıq konkret proqrama çevriləcəkdir?

**M i k a y ı l  C a b b a r o v:** Möhtərəm cənab Prezident, Sizin göstərişinizə uyğun olaraq, bu işlərin planlaşdırılması və metodoloji nöqteyi-nəzərdən vahid əsası təşkil edilib. Məhz gələcəkdə məhkəmə təzminatlarının, məhkəmə proseslərinin aparılmasını nəzərə alaraq, biz bu işi öncədən vahid metodoloji əsasda qururuq. Paralel olaraq həm yerli qiymətləndirici şirkətlərin, dövlət müəssisələrinin burada, ilk növbədə, Əmlak Məsələləri Xidmətinin kompetensiyaları çərçivəsində, həm də özəl sektorun cəlb edilməsi və digər aidiyyəti dövlət orqanları ilə birlikdə hər bir istiqamət üzrə bu fəaliyyətin həyata keçirilməsinə başlamışıq. Bu prosesin ilkin mərhələsində indiyə qədər keçirilmiş ayrı-ayrı qiymətləndirilmələrin və tədqiqatların ümumiləşdirilməsi, təhlili və paralel olaraq, ərazilərə təhlükəsiz çıxışın təmin edilməsi ilə birlikdə artıq həmin qiymətləndirilmələrin yerində aparılması həyata keçirilir.

Burada xüsusilə Siz qeyd etdiyiniz kimi, bizim dağmədən yataqlarının istismarından, daha doğrusu, dəyən zərərin qiymətləndirilməsində biz xeyli irəliləmişik. Bu fəaliyyəti artıq bir neçə ildir ki, Sizin göstərişinizə uyğun olaraq həyata keçiririk və hazırda sadəcə, dəqiqləşdirilmə işləri aparılır. Çünki bizim həmin yataqlara artıq fiziki çıxışımız da vardır. Analoji olaraq, dağıdılmış mülkiyyət, torpaq istismarı, istər dövlət mülkiyyəti, istərsə də özəl mülkiyyət üzrə təbii sərvət-

lərə dəymiş zərər kimi istiqamətlərdə fəaliyyət həyata keçirilir.

Son olaraq onu da məruzə etmək istərdim ki, qeyd etdiyiniz həmin vahid metodologiyanın tətbiqində bizə dəstək verən xarici məsləhətçilərin yanvar ayında səfəri nəzərdə tutulub. Mütəmadi olaraq diqqətinizə müvafiq məruzələri edəcəyik.

**İlham Əliyev:** Biz qiymətləndirmə aparmadan və eyni zamanda, dediyim kimi, xarici tərəfdaşlar, şirkətlər qiymətləndirmə aparmadan bərpa işlərinə başlaya bilmərik. Yəni mən bərpa işləri deyəndə evlərin, şəhərlərin bərpasından söhbət açıram. Çünki indi infrastruktur layihələrinin icrasına start verilib və onların bir neçəsi artıq icradadır. Ancaq evlərin bərpasına, daha doğrusu, dağıdılmış o evlərin yerində şəhərlərin yaradılmasına biz ancaq beynəlxalq qiymətləndirmə aparılandan sonra başlaya bilərik. Çünki əks təqdirdə, məhkəmələrdə qarşı tərəf bizi əsassız olaraq ittiham edə bilər ki, biz burada hansısa faktları saxtalaşdırırıq. Ona görə ilk növbədə, biz özümüz bütün sənədləşdirilməni aparmalıyıq, sonra beynəlxalq şirkətlər də gəlib bu sənədləşdirilməni aparmalıdır. Ondan sonra artıq şəhərlərin bərpası prosesinə start verə bilərik.

Şəhərlər bərpa olunarkən hesab edirəm, hər bir şəhərdə dağıdılmış yerlər qalmalıdır ki, bunu heç kim heç vaxt unutmasın. Şəhərsalma işləri aparılarkən müəyyənləşdirib, sonra mənə məruzə edin, misal üçün, Ağdam şəhərinin, Füzuli şəhərinin, digər şəhərlərin hansı hissəsi, hansı kvartalı dağıdılmış vəziyyətdə qalsın, Ermənistan işğalının açıq səma altında muzeyi

kimi. Hesab edirəm ki, azad olunmuş bütün şəhərlərdə işğal muzeyləri də yaradılmalıdır. Memorial komplekslərlə, bizim Zəfərimizi əks etdirən abidələrlə bərabər, işğal muzeyləri də yaradılmalıdır. İndidən bu muzeylərin konsepsiyasını işləyin. Bu muzeylərdə Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsi əks olunmalıdır. Eyni zamanda, hər bir şəhərin, hər bir rayonun öz təqdimatı orada göstərilməlidir ki, həm Azərbaycan vətəndaşları bunu heç vaxt unutmasınlar, həm də xaricdən gələn qonaqlar görsünlər biz hansı vəhşilərə qarşı müharibə aparmışıq, öz torpağımızı və Cənubi Qafqazı hansı bəladan xilas etmişik.

Digər məsələ su resursları ilə bağlıdır. Mən istərdim ki, Şahin Mustafayev məlumat versin. Bilirsiniz ki, bir müddət əvvəl su resurslarından səmərəli şəkildə istifadə etmək üçün xüsusi Komissiya yaradılıbdır. Komissiya fəal işləyir və artıq bəzi nöqsanlar da üzə çıxıb, qanunsuz birləşdirmələr, suyun uçotunun olmaması, hətta bizim ən böyük su anbarımız olan Mingəçevir anbarına daxil olan və oradan çıxan suların uçotunun olmaması. Yəni tamamilə xoşagəlməz mənzərə mövcud idi. Nöqsanların bir hissəsi qısa müddət ərzində aradan qaldırıldı. Eyni zamanda, qanunsuz birləşdirmələr, bəlkə də yüzlərlə qanunsuz birləşdirmə mövcud idi, bəzi sahələrə su həddindən artıq çox verilirdi, amma bəzi sahələrə su verilmirdi. Ona görə də fermerlər, kəndlilər haqlı olaraq öz narazılıqlarını bildirirdilər ki, onlara su çatmır. Yerlərdə inzibati resurslardan istifadə olunurdu, yerli icra orqanları özlərinə yaxın olan fermerlərə suyun verilməsini təmin edirdilər, ancaq başqa fermerlər problemlərlə üzləşir-

dilər. Xüsusilə nəzərə alsaq ki, keçən il və 2019-cu ildə quraqlıq olub və istisna edilmir ki, quraqlıq bu il də davam etsin. Əlbəttə, bizim azad edilmiş torpaqlarımızda çox böyük su mənbələrimiz var və mənfur düşmən bizi bu mənbələrdən məhrum etmişdi. Bu ərazilərdə ən böyük çayımız olan Tərtərin mənbəyi Kəlbəcər rayonudur. Ancaq Tərtər çayının sularından biz məhrum idik. Çünki Sərsəng, Suqovuşan su anbarları ermənilərin əlində idi, suyu kəsirdilər və biz məcbur olub bu bölgələrdə yüzlərlə subartezian quyusu qazmışıq. Bunun da böyük maliyyə yükü var – həm onların qazılmasında, həm də istismarında, çünki enerji sərf olunur. Biz Suqovuşan qəsəbəsini azad edəndən sonra artıq suyun axını təmin edilib, ancaq indi kanallar problemi üzə çıxıb. Çünki bu kanallar uzun illər ərzində istifadəsiz qalıbdır.

Bizim digər çaylarımız oradan mənbə alır və o ərazidən keçir – Həkəri çayı, Bazarçay, Oxçuçay, Xaçınçay. Onların bir çoxu Araz çayına axır və çaylar boyu orada su anbarlarının tikilməsi nəzərə alınmalıdır. Bu ilin Dövlət İnvestisiya Proqramına və azad edilmiş torpaqlarda görüləcək işlərlə bağlı proqrama o, mütləq salınmalıdır. Hesab edirəm ki, onların layihələndirilməsi və tikintisinə start verməliyik. Bir daha demək istəyirəm ki, orada onsuz da torpaqlar çox münbitdir. Amma su veriləndən sonra məhsuldarlıq daha da artacaq və biz ərzaq təhlükəsizliyimizi yüksək dərəcədə özümüz həll edəcəyik. Söz verilir Şahin Mustafayevə. Bu məsələ ilə bağlı hansı işlər görülüb və hansı işlər görüləcək?

**Ş a h i n  M u s t a f a y e v** (*Baş Nazirin müavini*): Təşəkkür edirəm, cənab Prezident.

Möhtərəm cənab Prezident, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq sərəncamınızla Komissiya yaradılıbdır. Komissiya ölkə ərazisində su anbarlarında yaranmış vəziyyəti, suvarma mövsümünün başlanmasını nəzərə alaraq, operativ tədbirlərin görülməsi məqsədilə fəaliyyətini intensiv formada təşkil edib və bütün aidiyyəti qurumların koordinasiyası təmin olunubdur.

Məlum olduğu kimi, əsas su anbarlarında su ehtiyatlarının həcmi ilbəil azalır və Komissiya fəaliyyətə başladığı ərəfədə suyun həcmi hətta 2019-cu ildən də aşağı olmuşdur. Belə ki, 2020-ci il aprelin 30-da ölkənin əsas su anbarlarında suyun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,4 milyard kubmetr, təkcə Mingəçevir su anbarında 1 milyard kubmetr az olmuşdur. İl ərzində də ümumilikdə su anbarları, o cümlədən Mingəçevir su anbarına daxil olan suyun həcminin aşağı olmasına baxmayaraq, su ehtiyatlarının planlı və optimal istifadəsi istiqamətində görülmüş tədbirlər sayəsində ilin sonuna əsas su anbarlarında suyun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 320 milyon kubmetr, o cümlədən Mingəçevirdə 240 milyon kubmetr çoxalmışdır. Suya qənaət imkanı verən əsas amillərdən biri sudan energetika məqsədləri üçün istifadənin suvarma və kommunal məqsədlər üçün istifadəyə uyğunlaşdırılmasıdır. Xüsusi əhəmiyyətə malik Mingəçevir və Ceyranbatan su

anbarları üzrə suvarma, içməli su təchizatı və energetika məqsədləri üçün sudan istifadə rejimi təsdiq olunmuş, hətta Mingəçevir su anbarından sudan istifadə üzrə hər 10 gündən bir yenilənən iş rejimi tətbiq edilmişdir. Belə ki, su ehtiyatlarının azlığı səbəbindən Mingəçevir su anbarı sadəcə, çoxillik nizamlama qabiliyyətini deyil, hətta hazırda illik tənzimlənmə qabiliyyətini də itirmişdir.

Hazırda ölkənin su ehtiyatları sahəsində gərgin vəziyyət təəssüf ki, davam edir. Əsas su anbarlarında 20,5 milyard kubmetr tutuma qarşı kəskin aşağı səviyyədə cəmi 10,5 milyard kubmetr su mövcuddur, onun da 8,6 milyard kubmetri ölü həcmdir. Bu baxımdan, qısamüddətli hədəf əsas su anbarlarında suyun həcmini əvvəlki 3 illə müqayisədə daha yüksək səviyyəyə çatdırmaq, beləliklə, növbəti suvarma mövsümünə nisbətən daha yaxşı vəziyyətdə daxil olmaq, sonra isə suyun həcmini minimum 2016-cı ilin səviyyəsinə uyğunlaşdırmaqdır.

Möhtərəm Prezident, Nazirlər Kabinetinin sərəncamı ilə su ehtiyatlarının formalaşması və istifadəsi üzrə ümumi dəyərləndirmələrin aparılmasına imkan verən su təsərrüfatı balansı tarixdə ilk dəfə təsdiq edilib və yeni yaradılmış elektron su təsərrüfatı informasiya sisteminə inteqrasiya olunubdur.

Cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi bizə imkan verir ki, növbəti ilin su təsərrüfatı balansı hazırlanarkən işğaldan azad olunmuş ərazilərimiz üzrə də su ehtiyatlarını qiymətləndirək. Siz artıq qeyd etdiyiniz kimi, ölkəmiz ərazi bütövlüyünü bərpa edəndən

sonra xalqımız hərtərəfli dividendlər əldə edəcək və bu baxımdan su resurslarının artırılması da bu sahələrdən biridir.

Qarabağ bölgəsi su ehtiyatları ilə zəngindir. Nəhayət, uzun fasilədən sonra Qarabağın su ehtiyatlarının və bundan istifadə məsələlərinin yenidən qiymətləndirilməsi diqqət mərkəzində olacaq. Artıq qeyd etdiyiniz kimi, bir sıra çaylarımız, 12 əsas çayımız vardır. Bir neçəsini mən qeyd etmək istəyirəm. Tərtərçay – onun illik su axınının həcmi 577 milyon kubmetrdir. Həkəri çayı – 341 milyon kubmetr, Qarqarçay – 54 milyon kubmetr, Quruçay – 54 milyon kubmetr, Xaçınçay – 40 milyon kubmetr, Köndələnçay – 22 milyon kubmetr və digər daha kiçik çaylar.

Eyni zamanda, çaylar yağış və qar suları ilə qidalanır. Qeyd etməliyəm ki, Araz çayının ölkəmizin ərazisindən keçən hissəsinə də Azərbaycanın tam nəzarəti təmin edilib və bu da bizə əlavə dividendlər gətirəcək. Bu ərazilərdə müxtəlif dövrlərdə su anbarları tikilib. Bir sıra anbarların adlarını da çəkmək istərdim. Xudafərin su anbarı 1,6 milyard kubmetr su həcmindədir. Qız qalası su anbarı tikilməkdədir – 62 milyon kubmetr. Sərsəng su anbarı 565 milyon kubmetr həcmindədir. Suqovuşan su anbarı – 6 milyon kubmetr, Xaçınçay su anbarı – 23 milyon kubmetr, Köndələnçay kiçik su anbarları – 14,8 milyon kubmetrdir. Təqribi hesablamalara görə, Azərbaycan 2 milyard kubmetrdən artıq su ehtiyatından daha səmərəli istifadə etmək imkanı əldə edibdir. Eyni zamanda, su tələbatının daha etibarlı imkanları, yeni imkanlar ya-

ranır və bu da su təhlükəsizliyimizin təmin olunması baxımından çox əhəmiyyətlidir.

Su ehtiyatlarından istifadədə səmərəliliyin artırılması, artan tələbata uyğun dayanıqlı su təchizatının təmin edilməsi, su təsərrüfatının idarə edilməsinin təkmilləşdirilməsi məqsədinə nail olunması üçün milli strategiya və onun həyata keçirilməsi üzrə fəaliyyət planının layihələri artıq hazırlanıbdır. Məhdud su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgü prinsipi əsasında 600 minə yaxın yazlıq və payızlıq əkin sahəsi üzrə bütün maraqlı tərəflərin imzaladığı suvarma qrafikləri tərtib olunubdur. Ötən ilin kəskin su çatışmazlığı şəraitində 1,4 milyon hektar sahədə kənd təsərrüfatı bitkiləri orta hesabla 3,2 dəfə suvarma suyu ilə təmin edilibdir. Nəticədə pambıq, şəkər çuğunduru, qarğıdalı, tütün, kartof, tərəvəz, üzüm və sair bitkilərin istehsalı əvvəlki ilə nisbətən müəyyən qədər artıbdır. Bununla belə, son illər davam edən quraqlıqlar və su anbarlarında kifayət qədər suyun toplanmaması öz mənfi təsirini göstərmiş, suya tələbatın tam və ya vaxtında ödənilməməsinə, xüsusilə suya tələbkar bitkilər üzrə əkin sahələrinin azalmasına səbəb olmuşdur. Suvarma sahəsində itkilərin azaldılması məqsədilə prioritet hesab edilən suvarma kanallarının yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırmalar və layihə sənədlərinin hazırlanması istiqamətində işlər davam etdirilir. İlk növbədə, Qızılarx İmişlidə, Xanarx və Tərtərçay Sol Sahil qeyd etdiyiniz Suqovuşan su anbarından qidalanır. Bu kanalların və Qusarda yerləşən Yuxarı Zeyxur kanalının yenidən qurulmasının texniki-iqtisadi əsaslandırılması və layihə sə-

nədlərinin hazırlanması məqsədilə tenderlər artıq baş tutubdur. Möhtərəm Prezident, bu il artıq bu kanalların yenidən qurulmasına başlamaq zərurəti yaranır.

Su ehtiyatlarının artırılması və bu istiqamətdə dağ çay sularının yığılması üzrə relyefə uyğun su anbarının yaradılması çərçivəsində texniki-iqtisadi əsaslandırmalar və layihə sənədləri hazır olan Yengicə su anbarı üzrə ekspert qiymətləndirilməsinin təmin edilməsi məqsədilə müvafiq tədbirlər görülür. Eyni zamanda, Əlicançay su anbarı üzrə texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanması işlərinin cari ilin ikinci yarısında yekunlaşdırılması, beləliklə, su anbarının tikintisi məsələsinə baxılması nəzərdə tutulub. Cənab Prezident, iki anbar üzrə bu ilin ikinci yarısında müvafiq əsaslandırma təqdim olunandan sonra bu il ərzində tikinti məsələlərinə baxılması artıq reallaşır.

Ölkə üzrə su anbarlarının lillənmə səviyyəsi araşdırılıb və Pirsaatçay su anbarı nümunəsində anbarların lildən təmizlənməsi imkanlarına dair təkliflər hazırlanır. Ölkədə üç lillənmiş su anbarı var: Pirsaatçay, Borqarçay və Şəki rayonu ərazisindəki su anbarları. Bunları araşdırmaq üçün lazımi qüvvələri cəlb etmişik və onların yenidən istifadə imkanları peşəkar səviyyədə araşdırılaraq təqdim olunacaqdır.

Neftçala şəhərinin içməli su təchizatı ilə bağlı şəhərə qədər uzunluğu 40 kilometr olan magistral su kəmərinin tikintisi başa çatdırılıb və 2020-ci ilin noyabr ayından içməli suyun verilməsi təmin edilibdir. İkinci Bakı su kəmərinin və Oğuz–Qəbələ–Bakı su kəmərinin məhsuldarlığının artırılması ilə bağlı texniki-iqtisadi əsaslandırmalar yekunlaşdırılıb, layihə-

lərin ətraf mühitə təsiri qiymətləndirilib, layihə sənədləri hazırlanaraq, aidiyyəti üzrə təqdim olunubdur. Ötən ilin avqust ayında keçirilmiş monitorinqlər zamanı regionlarda quraşdırılmış 460 modul tipli sutəmizləyici qurğudan 66 qurğunun suyunun lilli olması, mənbədə suyun olmaması, dəniz suyunun Kür çayına qarışması və yaşayış məntəqələrində suya tələbatın mərkəzləşdirilmiş şəbəkədən ödənilməsi kimi səbəblərdən fəaliyyətinin dayanması aşkar edilibdir. Əhalinin içməli su ilə təmin olunması məqsədilə modul tipli sutəmizləyici qurğuların fəaliyyətinin yaxşılaşdırılması üçün tədbirlər planı hazırlanıb. Ölkənin əsas hidroqovşaqlarının texniki təhlükəsizliyinin qiymətləndirilməsi məqsədilə Nazirlər Kabinetinin sərəncamı ilə Komissiyanın nəzdində Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi ilə işçi qrupu yaradılıb və qaldırılan məsələlərə işçi qrupu çərçivəsində baxılması nəzərdə tutulur.

Mingəçevir su anbarında Yuxarı Qarabağ kanalının baş suqəbuledici qurğusunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Fövqəladə Hallar Nazirliyinə müvafiq vəsait ayrılıb, suqəbuledici qurğuda mühəndis tədbirlərinin həyata keçirilməsinə başlanılıbdır. Antropogen təsirlər nəticəsində formalaşan sututarların suyundan istifadə məqsədilə aparılmış monitorinqlər zamanı ümumi həcmi 122 milyon kubmetr olan 43 ədəd sututar müəyyən edilibdir. Götürülmüş su nümunələri 40 ədəd sututarın suvarma və texniki məqsədlər üçün yararlı olduğunu göstəribdir. İmişli rayonundakı belə göllərdən istifadə məqsədilə nasos stansiyası quraşdı-

rılıb və su Baş Muğan kanalına verilməyə başlanıbdır. Kanala ötürülən su hesabına üç rayonda – İmişli, Saatlı, Sabirabadda 5000 hektardan çox əkin sahəsinin suvarılması mümkün olubdur.

Suyun mənbədən götürülməsindən son istehlakçıyadək bütün mərhələlər üzrə uçotun və dəqiq qiymətləndirilmənin aparılması vacib məsələ kimi qarşımızda dayanır. Hazırda aidiyyəti qurumlar tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq, su və su təsərrüfatı obyektlərində nəzarətdən kənar istifadənin aradan qaldırılması, inventarlaşdırmanın aparılması, uçotun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülür.

Möhtərəm cənab Prezident, ilk növbədə, Kür çayı boyunca və digər su hövzələrində monitorinqlər aparılıb, yüzlərlə belə nəzarətdən kənar qoşulmalar aşkarlanıbdır. Bunların böyük hissəsi aradan qaldırılıb, amma bu iş davam edir və hesab edirəm ki, davamlı aparılmalıdır. İtkilərin azaldılması üçün nəzarətdən kənar, uçotdan kənar istehlakın qarşısı birmənalı alınmalıdır. Əsas su və su təsərrüfatları obyektlərində aidiyyəti qurumlar tərəfindən 25 ədəd müasir ölçmə cihazı quraşdırılıb, əlavə 31 cihaz da quraşdırılacaqdır.

Cənab Prezident, Mingəçevir gölünə tökülən suya və çıxan suya artıq müasir cihazlarla nəzarət olunur, uçot müasir cihazlar vasitəsilə aparılır. Bu ayın sonunadək bizim bütün su anbarlarımızda, çaylarımızda müasir cihazların quraşdırılması başa çatdırılacaq və biz dəqiq uçota malik olacağıq. Eyni zamanda, bu cihazlar birbaşa elektron su təsərrüfat sisteminə birləşərək, insan amili də aradan qaldırılacaq və biz dəqiq

biləcəyik ki, harada nə qədər su axır və hansı hallarda nə qədər suyumuz vardır.

Möhtərəm cənab Prezident, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı görülən işlər barədə geniş hesabat hazırdır və yaxın günlərdə daha geniş formatda Sizə təqdim olunacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

**İlham Əliyev:** İndi bütün bu işlərin həyata keçirilməsi üçün bizim maliyyə imkanlarımız, əlbəttə ki, səfərbər olunmalıdır. Bu ilin büdcəsi kifayət qədər imkan yaradır. Həm sosial yönümlü büdcədir, həm kifayət qədər investisiyalar üçün imkan yaradır, həm də Dövlət İnvestisiya Proqramı xətti ilə, eyni zamanda, xüsusilə azad edilmiş torpaqlarda görüləcək işlərə daha da böyük dəstək vermək üçün vəsait nəzərdə tutulub. Maliyyə naziri büdcənin parametrləri haqqında və maliyyə təminatı ilə əlaqədar məlumat versin, çünki burada heç bir yubanma olmamalıdır. Biz qısa müddət ərzində böyük işlər görməliyik. Bu barədə məlumat verin.

**Samir Şərifov** (*Maliyyə naziri*): Çox sağ olun, möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Yola saldığımız 2020-ci il Azərbaycan dövləti və xalqı üçün ən yaddaqalan və şanlı dövr kimi tarixə yazılır. Möhtərəm cənab Prezident, son 17 il ərzində Sizin rəhbərliyinizlə ölkədə həyata keçirilmiş iqtisadi və hərbi potensialın artırılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü siyasət, dövlət və ordu quruculuğu və 44 gün

davam edən Vətən müharibəsində işğalçı Ermənistan üzərində parlaq qələbə qazanılmasını, işğal altındakı tarixi torpaqlarımızın azad olunmasını təmin etmişdir. Sizin maliyyə orqanları və hökumət qarşısında qoyduğunuz əsas, ən ümdə vəzifələrdən biri işğaldan azad olunmuş ərazilərin tezliklə bərpa edilməsi üzrə işlərin həyata keçirilməsi, həmin regionda müvafiq infrastrukturların yaradılması və bununla əlaqədar müvafiq maliyyə vəsaitlərinin təmin edilməsidir. Bununla əlaqədar Sizin tapşırığınıza əsasən, 2021-ci ilin təsdiq olunmuş dövlət büdcəsində məqsədli olaraq bərpa, yenidən qurulma işlərinin aparılması, eyni zamanda, həmin regionun Azərbaycan iqtisadiyyatına reinteqrasiyasının təmin edilməsi üçün 2,2 milyard manat vəsait nəzərdə tutulubdur.

Eyni zamanda, Sizin qarşımızda qoyduğunuz digər vacib məsələ Azərbaycan Ordusunun təchizatı, Azərbaycan sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsinin təmin olunmasıdır. Bu vəzifələrin həyata keçirilməsi üçün də dövlət büdcəsində müvafiq vəsaitlər nəzərdə tutulub. Qeyd etmək istərdim ki, ümumilikdə 4,6 milyard manat maliyyə təminatı yaradılıb. Bununla əlaqədar nəzərə alınmamış digər tədbirlərin həyata keçirilməsi üçün müəyyən ehtiyat vəsaitlər də nəzərdə tutulub. Onu da bildirmək istərdim ki, bu vəsaitlərin ayrılması ilə yanaşı, dövlət büdcəsi ilə ölkəmizin ənənəvi dövlət vəzifələrinin, nəzərdə tutulmuş bütün sosial proqramların həyata keçirilməsi və bir sıra təşəbbüslərin icra olunması da nəzərdə tutulub. O cümlədən Sizin tapşırığınız əsasında təhsil kreditlərinin verilməsi üzrə xüsusi bir mexa-

nizmin hazırlanması üçün müəyyən maliyyə təminatı nəzərdə tutulur ki, müvafiq qərar qəbul edildikdən sonra bu mexanizm işə salına bilər.

Digər tərəfdən, onu da nəzərə almaq lazımdır ki, 2020-ci il ölkə iqtisadiyyatı üçün sosial-iqtisadi cəhətdən kifayət qədər mürəkkəb bir il olmuşdur. Bu da bütün dünyada baş vermiş proseslərdən irəli gələn məsələdir. Çünki ölkəmiz xarici mənşəli şoklara məruz qalıb. Bu əsasən, qlobal koronavirus pandemiyası və onun ölkə iqtisadiyyatı üçün yaratdığı mənfi fəsadlardır. Həmin mənfi təsirlərin azaldılması üçün ötən il xüsusi olaraq vəsaitlər ayrılmışdır. Ayrılmış həmin vəsaitlər eyni zamanda, dövlət büdcəsindən, əlavə olaraq, müəyyən dövlət fondlarından, digər büdcədənkənar imkanlardan, özəl sektordan və maliyyə-bank sektorundan vəsaitlərin səfərbər edilməsi proqramı həyata keçirilmişdir. Həmin proqramın 2021-ci ildə də icra olunması üçün vəsaitlər nəzərdə tutulub. O cümlədən sahibkarlara güzəştli əsaslarla kreditlərin ayrılması üçün müəyyən dövlət zəmanətlərinin verilməsi, eyni zamanda, həmin zəmanətli kreditlərin faiz dərəcələrinin subsidiyalaşdırılması üçün vəsaitlər nəzərdə tutulubdur. Bununla yanaşı, ənənəvi olaraq, ipoteka proqramlarının həyata keçirilməsi üçün də dövlət büdcəsində vəsaitlər nəzərdə tutulub. Bu vəsaitlər eyni zamanda, Azərbaycanda sosial mənzillərin tikintisi məsələlərini də əhatə edəcəkdir. Bu məqsədlər üçün növbəti ilin büdcəsində 152 milyon manat vəsait nəzərdə tutulubdur.

Hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Sizin müvafiq fərmanınızın

icrası olaraq, son illər ərzində vəsaitlər ayrılır və bu il də bu məqsədlərə 35 milyon manat vəsait ayrılıbdır.

Digər tərəfdən, bəzi dövlət şirkətlərinin əhaliyə göstərdiyi xidmətlərin subsidiyalaşdırılmış qiymətlərlə həyata keçirilməsini nəzərə almaqla, dövlət tərəfindən həmin şirkətlərə müəyyən subsidiyaların verilməsi nəzərdə tutulur.

Onu da demək istərdim ki, yerli gəlirlərlə xərclər arasında da müsbət dəyişikliklər müşahidə olunmaqdadır. Artıq ölkəmizin 42 şəhəri və rayonu öz gəlirləri hesabına öz xərclərini təmin etmək iqtidarındadır. Yerdə qalan rayonların xərcləri ilə gəlirləri arasında kəsirin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən dotasiyaların verilməsi davam etdiriləcəkdir.

Xüsusi olaraq qeyd etmək istərdim ki, kənd təsərrüfatı sahəsində proqramlara vəsaitin ayrılması davam etdirilir. Bu məqsədlə növbəti ilin büdcəsində də 460 milyon manatdan çox vəsaitin ayrılması həyata keçiriləcək. Bu vəsait hesabına həm fermerlərə müəyyən subsidiyaların verilməsi, o cümlədən ərzaq, əkin sahəsi üzrə və son zamanlar digər yeni subsidiyalaşdırma mexanizmlərinin maliyyələşdirilməsi üçün vəsait ayrılması nəzərdə tutulubdur.

Möhtərəm cənab Prezident, 2021-ci il ölkə iqtisadiyyatı üçün olduqca məsuliyyətli bir il olacaq. Hesab edirik ki, ötən il pandemiyaya qarşı mübarizə tədbirləri həm səhiyyə sahəsində, həm də sosial-iqtisadi sahədə uğurla həyata keçirilib və prinsip etibarilə onun kəskin fəsadları aradan qaldırılıbdır. Artıq dünyada, o cümlədən ölkəmizdə də optimizm artmaqdadır. Sizin tapşırıqlarınızın icrası olaraq, peyvəndin

əldə edilməsi sözsüz ki, ölkəmizin sosial-iqtisadi inkişafına müsbət təsirini göstərəcəkdir. Bununla bağlı dövlət büdcəsində nəzərdə tutulmuş müvafiq vəsaitlər də inkişafı təmin etmək üçün öz rolunu oynayacaqdır.

**İ l h a m  Ə l i y e v:** Xərclərə nəzarət gücləndirilməlidir. Xüsusilə dövlət xətti ilə alınan mallara çox ciddi nəzarət olmalıdır. Çünki bəzi hallarda orada şişirtmələr də olur. Bəzi hallarda dövlət təşkilatları, necə deyərlər, öz rahatlıqları üçün lazım olmayan bir çox mal-material, əşya alırlar. Belə hallar vardır. Xaricdən avtomobillər, texnika, mebel alırlar. Buna son qoyulmalıdır. Biz bütün bu yersiz xərclərə son qoymalıyıq. Xərclərə nəzarət daha güclü olmalıdır və baxın, bəlkə də hansısa əlavə bir nəzarət mexanizmi də tətbiq edilə bilər. İkincisi, büdcəmizdə neftin qiyməti 40 dollar götürülüb. Bu çox konservativ, yəni mühafizəkar yanaşmadır. Ancaq indi dünya bazarında neftin qiyməti 50 dollardan çoxdur. Əlbəttə, proqnoz vermək çətindir, amma nəzərə alsaq ki, pandemiya bu il sona çatacaq – artıq bir çox ölkələrdə peyvəndləmə işləri də gedir – və beləliklə, iqtisadi fəallıq artacaq, gediş-gəliş artacaq, hava nəqliyyatı və digər sahələr açılacaq, yanacağa daha da böyük tələbat olacaqdır. Yəni kifayət qədər böyük ehtimal var ki, neftin qiyməti hər halda, 50 dollardan aşağı olmayacaqdır. Bunu nəzərə alsaq, bizdə profisit yarana bilər və siz indidən fikirləşin, bu profisit hansı istiqamətlərə yönəldilə bilər. Ola bilər ki, biz Neft Fondundan transfertləri azaldaq, əgər vəsaitə ehtiyac olmayacaqsa. Əgər ərazilərin bərpası üçün nəzərdə tutulan 2,2 milyard manat vəsait kifayət etməzsə, onda ola bilər bu

vəsaitdən, yəni əgər profisit yaranacaqsa, o istiqamətlərdə də istifadə etmək olar. Hər halda, bunu həyat göstərəcək. Birinci rübün yekunlarına baxdıqda görəcəyik ki, iqtisadiyyat hansı istiqamətdə gedir və ümumiyyətlə, dünyada hansı proseslər gedir.

Keçən il sosial sahə ilə bağlı çox böyük işlər görülüb. Mən bu barədə artıq qeyd etdim. İndi əgər hansısa əlavə olarsa, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri qeyd etsin. Eyni zamanda, bu il biz şəhid ailələri üçün daha böyük həcmdə evlərin verilməsini təmin etməliyik. Bütövlükdə 9000-dən çox şəhid ailəsi dövlət tərəfindən ev və mənzillərlə təmin edilib. Keçən il 1500 şəhid ailəsi üçün evlər nəzərdə tutulurdu. Əmək və Əhalinin Sosial Müdafiəsi naziri bu yaxınlarda mənə məruzə etdi ki, yanvarın 15-dək bu 1500 ailə evlərlə təmin olunacaq. Bu proqram bu il də davam etdirilməlidir. Vətən müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin doğmalarına, yaxınlarına evlər veriləcəkdir. Onu da bildirməliyəm ki, bundan sonra məcburi köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək. Bəzi layihələr davam edir, bəzi layihələr başa çatmaq üzrədir. İndi Füzuli rayonunda, Horadizdə və başqa bir kənddə evlər tikilib, onlar, əlbəttə ki, köçkünlərə veriləcəkdir. Ancaq bundan sonra daha Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində və hər hansı bir başqa yerdə köçkünlər üçün evlər tikilməməlidir. Köçkünlər, yəni keçmiş köçkünlər üçün evlər ancaq azad edilmiş torpaqlarda tikiləcək və biz bunu da xüsusi proqram əsasında həyata keçirəcəyik. Bunu hər kəs bilməlidir. Bu çox ədalətli yanaşmadır.

Bu yaxınlarda müşavirə keçirərkən mənə məlumat verildi ki, bütövlükdə keçmiş məcburi köçkünlərin 52 faizi şəhərlərdə məskunlaşıb. Bu insanların böyük əksəriyyəti kənd yerlərindən didərgin salınıb, ancaq nədənsə məskunlaşma şəhərlərdə aparılıb. Əlbəttə ki, bu insanları yenə də rayon yerlərinə qaytarmaq üçün xüsusi proqram olmalıdır. Mən bu yaxınlarda Prezident Administrasiyasına göstəriş verdim ki, köçkünlər arasında sorğu keçirilməlidir, onların niyyəti öyrənilməlidir. Həm evlərlə təmin olunmuş köçkünlər, həm də bu günə qədər yataqxanalarda, yaxud da uşaq bağçalarında ağır vəziyyətdə yaşayan köçkünlər arasında sorğular keçirilməlidir ki, biz real vəziyyəti bilək. Özümüz özümüzü aldatmamalıyıq, real vəziyyəti bilməliyik. Xahiş edirəm köçkünlərdən, onlara sual veriləndə səmimi cavab versinlər – öz dədə-baba torpaqlarına getmək fikirləri var, yoxsa yox. Bizə bildirsinlər, biz bilməliyik və buna görə öz bərpa işlərimizi həyata keçirməliyik. Mən tam əminəm ki, keçmiş köçkünlərin mütləq əksəriyyəti böyük həvəslə öz doğma torpaqlarına qayıdacaqlar. Buna nail olmaq üçün dövlət əlindən gələni əsirgəməyəcək. Ancaq eyni zamanda, bizdə rəsmi məlumat olmalıdır. Ona görə bu sorğunun keçirilməsi hesab edirəm ki, bir çox suallara cavab verəcək. Sorğuda hansı suallar olacaq, onu siz fikirləşin. Əlbəttə, ailənin tərkibi, ondan sonra harada işləyirlər, işdən razıdırmı, razı deyilmi, o ailələrin maddi vəziyyəti, maaşları, gəlirləri, onların sahibkarlıq fəaliyyəti vardır, yoxdur, onların arasında işsizlər nə qədərdir, bütün bu suallar verilməlidir. Əsas sual onların öz torpaqlarına qayıtmaq istəkləri ilə bağlı ola-

caqdır. Bu öz yerində. Ancaq bildirmək istəyirəm ki, məcburi köçkünlər üçün nəzərdə tutulmuş evlər şəhid ailələrinə veriləcək. Bu qərarı mən qəbul etdim. Artıq göstəriş verdim ki, Dövlətqaçqınkomun balansında olan mənzillər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin balansına verilsin. Kifayət qədər böyük bir proqramdır. O evlərdə həm müharibəyə qədər növbədə dayanan şəhid ailələri yerləşdirilməlidir, həm də İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəman hərbçilərimizin yaxınları. Bu, ədalətli qərardır. Hesab edirəm ki, köçkünlər, bağışlayın, keçmiş köçkünlər bunu düzgün anlayacaqlar. Mən hər şeyi həmişə necə var elə də demişəm. Mən bilirəm ki, onlar o evləri uzun illər idi gözləyirdilər, indi torpaqlar azad olunub. Ona görə keçmiş köçkünləri Bakıda, Gəncədə, Sumqayıtda yerləşdirmək heç bir məntiqə sığmır. Onlar üçün nəzərdə tutulmuş evləri şəhid ailələrinə vermək çox düzgün qərardır.

İndi məruzə edin, hansı işlər nəzərdə tutulur? Mən artıq giriş sözümdə dedim ki, şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata artırıldı. Digər artımlar da var. Bu haqda və görüləcək işlər haqqında məruzə edin.

**Sahil Babayev** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Möhtərəm cənab Prezident, 2020-ci ildə bütün sosial ödənişlər vaxtında və tam şəkildə həyata keçirilib. Sizin müvafiq sərəncamınızla 2020-ci ilin əvvəlində bütün pensiyalar ölkə üzrə 16,6 faiz indeksasiya olunaraq artırıldı. Ümumilikdə 2020-ci ildə pensiya ödənişləri 2019-cu illə müqayisədə 20 faiz artıb. Azərbaycan Respublikası Prezidentinin sərənca-

mına müvafiq olaraq, təqaüdlər 25 faiz, sosial müavinətlər 15 faiz artıb və ümumilikdə bu ödənişlər 2 milyondan çox vətəndaşımızı əhatə edibdir. Aparılan islahatlar nəticəsində Azərbaycanda orta pensiyanın məbləği 13 faiz artaraq 300 manata, yaşa görə pensiyanın orta məbləği isə 13 faiz artaraq 330 manata çatıbdır. Həm minimum, həm də orta pensiyanın alıcılıq qabiliyyəti indeksinə görə Azərbaycan MDB məkanında öz liderliyini qoruyubdur. Ünvanlı sosial yardım mexanizminin də əhatə dairəsi genişləndirilib. 2020-ci ildə 77 min ailənin 322 min üzvünə ünvanlı yardım ödənilib. Bu, 2019-cu illə müqayisədə 19 min nəfər çoxdur və 15 faizlik artımla orta aylıq ödənilən məbləğ 240 manata çatıbdır. Sizin tapşırıqlarınıza uyğun olaraq, bütün sosial ödənişlərin həyata keçirilməsində avtomatlaşdırılma, elektronlaşdırılma tədbirləri görülür, vətəndaş – məmur təması minimuma endirilir və bunun nəticəsində 2020-ci ildə artıq həm müavinət və təqaüd, həm də pensiyalar üzrə 95 min təyinat məhz elektron portal üzərindən hər hansı bir təmas olmadan həyata keçirilibdir. Eyni zamanda, əsassız pensiya işlərinin, əsassız və saxta əlillik işlərinin və digər ödənişlərin araşdırılması nəticəsində il ərzində 125 milyon manat qənaət əldə edilibdir. Digər tərəfdən, yığımların artması nəticəsində il ərzində 160 milyon manatlıq qənaət əldə olunub və ümumi məbləğin 250 milyon manatı dövlət büdcəsinə ödənilib, 35 milyon manatı isə Pensiya Fondunun 2021-ci il üçün ehtiyatına yönəldilibdir.

Cənab Prezident, qeyd edim ki, ümumilikdə son 2 il ərzində əhaliyə ödənişlərin 1 milyard manat artmasına

baxmayaraq, dövlət büdcəsindən transfertin məbləği azalıb və ümumilikdə 570 milyon manat vəsait dövlət büdcəsinə qaytarılıbdır. Siz qeyd etdiyiniz kimi, İkinci Qarabağ müharibəsində şəhid olmuş, müharibədə iştirak etmiş, yaralanmış əsgərlərimizin ailələrinə dəstək verilməsi üçün də mexanizmlər hazırlanıb və Sizin sərəncamınızla dekabrın 31-də şəhid ailələrinin təqaüdü 500 manata, 1-ci qrup müharibə əlillərinin təqaüdü 400 manata, 2-ci qrup müharibə əlillərinin təqaüdü 350 manata, 3-cü qrup əlillərin təqaüdü isə 300 manata qədər artırılıbdır. Milli qəhrəmanlarımızın təqaüdləri 1800 manata çatdırılıb və Sizin sərəncamınızla yeni bir təqaüd – Vətən Müharibəsi Qəhrəmanına Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis olunub, onun da məbləği 2000 manat olaraq müəyyən edilibdir. Təqaüdlərin artırılması ümumilikdə 100 minədək insanı əhatə edir. Burada müxtəlif kiçik məbləğli müavinətlər və pensiya əlavələri vahid təqaüd məbləğində birləşdirilib və məbləğlər artırılmaqla, bu rəqəmlər təsdiqlənibdir.

Bundan əlavə, İkinci Qarabağ müharibəsi döyüşlərində iştirak edən və ya şəhid olan vətəndaşlarımızın ailələri ilə bağlı son bir ayda görülmüş işlər 7000 şəxsi əhatə edibdir. 2300 şəxsə sosial ödənişlər təyin olunubdur. 2000 şəhid ailəsi və müharibə iştirakçısının ailəsi özünüməşğulluq proqramlarına cəlb edilib, 2700 nəfərə isə sosial-psixoloji və reabilitasiya xidmətləri göstərilibdir. Əlavə olaraq, mülki şəhidlərimizin sosial ödənişlərinin hamısı prioritet qaydada tam şəkildə təmin olunub, onlara sosial-psixoloji reabilitasiya xidmətləri təqdim edilibdir. Bu məqsədlə xüsusi işçi qrupu

yaradılıb. İşçi qrupunda bütün aidiyyəti dövlət qurumlarının üzvləri var və əlaqələndirilmiş iş nəticəsində şəhid ailələrinin, müharibədə yaralanmış şəxslərin, müharibə iştirakçılarının sosial təminatı, sosial ödənişləri, məşğulluq tədbirləri sürətlə aparılır.

Qeyd etdiyiniz kimi, 1500 şəhid ailəsinə, müharibə əlilinə mənzillərin və evlərin verilməsinə dair cari il üçün planımız var idi. 1450 mənzil və fərdi ev artıq bu şəxslərə təqdim edilib, növbəti 10–15 gün ərzində – 15 yanvaradək 1500 evin hamısı təqdim olunacaqdır.

Avtomobillərin verilməsi proqramı da davam etdirilib və il ərzində 400 müharibə əlilinə və əlilliyi olan şəxslərə avtomobillər təqdim olunubdur.

Məruzə edim ki, məşğulluq proqramlarımız da davamlı şəkildə icra olunub və məşğulluq mərkəzləri tərəfindən 1000 nəfər vətəndaşımız işlə təmin edilib, 12 min ailə isə özünüməşğulluğa cəlb olunubdur.

Özünüməşğulluq proqramı İşdən Sığorta Fondu ilə yanaşı, BMT İnkişaf Proqramı, yerli banklarımız, Heydər Əliyev Fondunun dəstəyi ilə icra edilibdir.

2021-ci il üçün hədəfimiz Sizin tapşırıqlarınıza uyğun olaraq, bu proqrama cəlb olunan ailələrin sayının artırılmasıdır və 16 min ailənin əhatə edilməsi planlaşdırılır. Haqqı ödənilən ictimai işlər proqramı icra olunur və yaradılmış 38 min daimi iş yerindən 98 faizi işçilərlə təchiz edilib. Pandemiyanın fəsadlarının aradan qaldırılması ilə bağlı tədbirlər planına əsasən yaradılmış 50 min ikiaylıq müvəqqəti iş yerləri də 75 faiz komplektləşdirilibdir.

Dövlət şirkətlərində yaradılmış 26 min ictimai iş yerinin də DOST İş Mərkəzinə ötürülməsinə dair tap-

şırığınız artıq icra olunur. Bu ildən ictimai iş yerləri də DOST İş Mərkəzi vasitəsilə təmin ediləcəkdir. Bütün bu proqramların şəffaflığının, ictimai açıqlığının təmin edilməsi üçün müvafiq elektron portal da yaradılıb. Həm özünüməşğulluq proqramı, həm də ictimai iş yerləri üzrə aktiv şəxs və ya işə cəlb edilən vətəndaşlar haqqında bütün məlumatlar ictimaiyyətə onlayn qaydada açıqlanır və hər kəsin istənilən məlumatı almaq imkanları vardır.

Cənab Prezident, Sizin tapşırığınızla pandemiya dövründə həssas təbəqədən olan insanlarımıza dəstək tədbirləri də icra olundu. 600 min işsiz, qeyri-formal işləyən şəxsə birdəfəlik ödəmə proqramı 190 manat məbləğində icra edildi. Bu məqsədlər üçün 450 milyon manat vəsait sərf olundu. Sosial tərəfdaşlarımızın dəstəyi ilə 110 min aztəminatlı ailəyə 3 dəfə ərzaq yardımları verildi. 65 yaşdan yuxarı və tənha yaşayan şəxslər daimi sosial xidmətə götürüldü və müxtəlif sosial xidmət müəssisələrində həssas kateqoriyadan olan insanlarımıza dəstək tədbirləri təqdim edildi. Bu proqramlar cari ildə də davamlı olaraq icra ediləcəkdir. Həm sosial xidmət müəssisələrimizin, həm də reabilitasiya mərkəzlərimizin şəbəkəsinin genişləndirilməsi ilə daha çox əhaliyə xidmət göstəriləcək. Məşğulluq proqramlarımız isə Sizin tapşırığınıza uyğun olaraq, ilk növbədə, prioritet əsasda həm işğaldan azad olunmuş ərazilərimizdə, həm də onlara yaxın regionlarımızda üstün şəkildə təmin ediləcəkdir.

**İlham Əliyev:** Mən giriş sözümdə meşələrin qırılması ilə bağlı məlumat verdim və söylədim ki, dəymiş ziyan hesablanmalıdır. İstəyirəm bütün Azər-

baycan xalqı bilsin ki, azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir. Ona görə bu məsələ çox ciddi təftiş edilməlidir. Qeyd etdiyim kimi, dəymiş ziyan hesablanmalıdır, eyni zamanda, bu meşə fondunun bərpası ilə əlaqədar aidiyyəti qurumlar, ilk növbədə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi xüsusi proqram tərtib etməlidir ki, biz ermənilər tərəfindən dağıdılmış meşələri bərpa edək.

Azad edilmiş torpaqlarda eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqlar olub. Mən bu məlumatı da Azərbaycan xalqına çatdırmaq istəyirəm. Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb. Oraya da mütləq bir qrup ezam olunmalı, yerində təftiş aparılmalı və bu qoruq bərpa edilməlidir.

Qubadlı Dövlət Təbiət Yasaqlığı 1969-cu ildə yaradılıb, 1988-ci ildə sahəsi 8500 hektar olub, 2020-ci ildə isə 6923 hektar. Yəni 1577 hektar dağıdılıb, talan edilibdir.

Daşaltı Dövlət Təbiət Yasaqlığı 1981-ci ildə Heydər Əliyev tərəfindən yaradılmışdır. 1988-ci ildə 400 hektar sahəsi var idi, hazırda 350 hektardır. Burada da 50 hektar dağıdılıb.

Laçın Dövlət Təbiət Yasaqlığı 1961-ci ildə yaradılıb, 1988-ci ildə 7500 hektar sahəsi var idi. Hazırda 4457 hektar qalıb, 3043 hektar ermənilər tərəfindən məhv edilib.

Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı 1993-cü ildə yaradılıb, sahəsi 1700 hektar idi. Hazırda cəmi 135 hektar qalıb. Yəni 1565 hektar məhv edilib. Bu məlumat «Azərkosmos» tərəfindən «Azərsky» peykindən götürülüb və mənə təqdim edilibdir. Ona görə bir daha deyirəm – oraya xüsusi qruplar ezam edilməli, yerində baxılmalı, sənədləşdirilməli, dəymiş ziyan hesablanmalı və Ermənistanın növbəti ekoloji terroru kimi qeydiyyata alınmalıdır.

Azad edilmiş torpaqlarda böyük əkin sahələri vardır. Mən Kənd Təsərrüfatı Nazirliyinə və Prezident Administrasiyasına göstəriş verdim ki, vaxt itirmədən keçən il və bu il müəyyən dərəcədə payızlıq əkini aparılsın. Düzdür, bunun üçün biz ilk növbədə, o əraziləri minalardan təmizləməliyik və artıq müəyyən dərəcədə işlər görülüb. İstərdim ki, həm bu məsələ ilə bağlı, həm də, ümumiyyətlə, keçən il görülmüş və bu il görüləcək işlər barədə məlumat verilsin, o cümlədən azad edilmiş torpaqlarda. Çünki bizim əsas hazırlıq

işlərimiz yaz mövsümünə qədər aparılmalıdır. Kənd Təsərrüfatı naziri, məlumat verin.

**İnam Kərimov** (*Kənd Təsərrüfatı naziri*): Möhtərəm cənab Prezident, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə müəyyən etdiyiniz vəzifələrə uyğun olaraq bu il də tədbirlər davam etdirilib. Sizin rəhbərliyinizlə müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi torpaqlar aqrar sektorun inkişafı üçün qarşımızda yeni vəzifələr qoyub, həmçinin yeni imkanlar yaradıbdır.

Kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası 2020-ci ildə də davam edib və bu sahə üzrə 2 faiz artım, bitkiçilikdə 1 faiz və heyvandarlıq üzrə 2,9 faiz artım olub. Pandemiya dövründə aqrar sektorun fəaliyyəti mövcud çağırışlara uyğun qurulub və kənd təsərrüfatı məhsullarının fasiləsiz istehsalı təmin edilib. 2020-ci ildə 1 milyon hektardan artıq sahədə taxıl əkini həyata keçirilib və işğaldan azad edilmiş ərazilər hesabına növbəti illərdə bu sahənin əkin balansının təqribən 10 faiz artırılması nəzərdə tutulub. Ancaq ötən il havanın quraqlıq keçməsi taxılçılığa təsirsiz ötməyib, 100 hektardan çox sahədə çıxış alınmayıb. Buna baxmayaraq, taxıl üzrə məhsuldarlıq ölkə üzrə 31,2 sentner təşkil edib. Qeyd etmək istərdim ki, suvarma problemi yaşanmayan əksər regionlarda məhsuldarlıq xeyli yüksək olub və bir çox rayonlarda məhsuldarlıq 40 sentneri ötüb. Bir sıra özəl və pilot təsərrüfatlarda taxıl üzrə məhsuldarlıq hətta 60 sentnerə qədər çatıb. Digər bitkiçilik məhsulları istehsalında da artım dinamikası davam edib. İlkin rəqəmlərə görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə

2,5 faiz çox tərəvəz, 4,2 faiz çox meyvə və giləmeyvə, 15 faiz çox tütün, 2,1 faiz çox kartof istehsal edilib. Həmçinin pambıq sahəsində yüksək nəticə əldə olunub. 100 min hektar pambıq sahəsindən bu il 335 min tondan çox məhsul istehsal edilib və pambıq üzrə orta məhsuldarlıq əvvəlki illə müqayisədə 4 sentner artıb, orta məhsuldarlıq 33,5 sentner təşkil edibdir.

Həmçinin tütün üzrə məhsuldarlıq 2019-cu illə müqayisədə 19,3 sentnerdən 22,1 sentnerə, şəkər çuğunduru üzrə məhsuldarlıq 328 sentnerdən 481 sentnerə, çəltik üzrə məhsuldarlıq 29,9 sentnerdən 32,8 sentnerə yüksəlibdir.

Yüksək əlavə dəyər yaradan sahələrdən biri kimi, intensiv bağçılığın inkişafı da müsbət nəticələr verib. 2020-ci ildə intensiv və superintensiv bağlar ümumi bağların 14 faizini təşkil edib. Cənab Prezident, bu il Sizin tapşırığınıza uyğun olaraq, intensiv üsulla fındıq, zeytun, nar və sitrus bağlarının salınmasına görə birdəfəlik əlavə maliyyə dəstəyi göstəriləcəkdir.

Heyvandarlıq sahəsində də müsbət dinamika saxlanılıb və ət istehsalında ilkin nəticələrə görə 3,1 faiz artım, süd istehsalında isə 1,7 faiz artım əldə olunubdur.

2020-ci ilin yanvar ayından fermerlərə subsidiyaların ödənilməsi yeni qaydalara əsasən həyata keçirilib və alternativsiz olaraq, elektron kənd təsərrüfatı sistemi üzərindən aparılıb. Bu günədək elektron kənd təsərrüfatı sistemində 546 mindən çox fermer qeydiyyatdan keçib. Fermerlərin kənd təsərrüfatı texnikasına olan tələbatını ödəmək məqsədilə nazirliyin Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 100-dən artıq

özəl şirkət vasitəsilə 3000 fermerə 7260 kənd təsərrüfatı texnikasının, həmçinin 8758 baş damazlıq heyvanın satışı maliyyələşdirilib. Keçən il 3400-dən çox fermerə mikrokreditlər verilibdir.

Fermerlərin təbii fəlakətdən və digər risklərdən qorunması üçün aqrar sığorta sistemi formalaşdırılıb. Ötən ilin noyabrından heyvandarlıq və bitkiçilik sahəsi üzrə sığorta məhsulu fermerlərə təqdim edilib. Su məsələləri komissiyasının koordinasiyası ilə fermerlərin suvarma suyuna olan tələbatını ödəmək məqsədilə tədbirlər davam etdirilib. «Meliorasiya və Su Təsərrüfatı» ASC ilə birlikdə mövcud suyun ədalətli və vaxtında bölüşdürülməsi üçün 57 rayon üzrə 674 mindən çox su qrafiki tərtib edilib və nazirlik tərəfindən dərc olunub. Hazırda payızlıq əkinlərin su tələbatının formalaşdırılması üzrə işlər davam etdirilir.

İşğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı verdiyiniz tapşırıqlara uyğun olaraq, işlərə artıq başlanılıb. Nazirlik «Azərkosmos» ASC ilə birlikdə azad olunmuş ərazilərdə faktiki əkinaltı torpaqlarda çoxillik əkmələrin peyk təsvirləri əsasında xəritələşməsini aparıb. Hazırda həmin torpaqlarda əkinlərin aparılması, o cümlədən çoxillik əkmələrə aqrotexniki qulluq tədbirlərinin göstərilməsi məqsədilə ilkin işlərə başlanılıb.

Möhtərəm cənab Prezident, bu il Sizin aqrar sahədə həyata keçirdiyiniz islahatlardan bəhrələnərək, nazirlik əsas diqqətini və fəaliyyətini yerlərdə fermerlərə məsləhət və informasiya xidmətinin gücləndirilməsinə, xidmətlərin daha əlçatan edilməsinə, innovativ üsulların tətbiqinə və əlbəttə, ən ümdə vəzifələrdən

biri kimi, işğaldan azad olunmuş ərazilərdə əkinlərin bərpasına yönəldəcək. Sizi əmin edirik ki, bu sahədə qarşıya qoyduğunuz vəzifələri layiqincə yerinə yetirmək üçün bütün səylərimizi göstərəcəyik.

Çox sağ olun.

**İlham Əliyev:** Azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır və hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi bəri başdan prioritetlər seçməlidir. İlk növbədə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün hansı məhsullar əkilməlidir. Azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı vardır. Kəlbəcər, Laçın rayonlarında çox böyük örüş sahələri, otlaq sahələri vardır. Azad edilmiş torpaqlarda sovet dövründə taxılçılıq, pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq, bağçılıq, heyvandarlıq çox geniş vüsət almışdı. Nəzərə almalıyıq ki, indi bizim yeni texnologiyalarımız var. Məsələn, keçən il pambıqçılıqda rekord göstəriciyə nail olduq. Xüsusilə nəzərə alsaq ki, 4-5 il bundan əvvəl dövlət pambıqçılıqla ciddi məşğul olmağa başlayanda hektardan məhsuldarlıq təqribən 14-15 sentner idi. Biz yavaş-yavaş məhsuldarlığı 33,5 sentnerə çatdırdıq. Deyə bilərəm ki, sovet dövründə xüsusilə pambıqçılığın sürətlə inkişaf etdiyi ötən əsrin 70-ci və 80-ci illərinin əvvəllərində 2, yaxud 3 il cəmi 30 sentnerdən çox məhsul götürülmüşdü. Bu da son hədd deyil. Çünki mən pambıqçılıqla məşğul olan rayonların siyahısına baxdım. Orada bir neçə rayonda məhsuldarlıq çox aşağıdır və əkin sahələri də çox kiçikdir. Ona görə siz yenidən baxın, misal üçün, indi Samux rayonunda, Cəlilabad

rayonunda, bəzi başqa rayonlarda əkin sahələri heç 1000 hektar da deyil, bəlkə orada, ümumiyyətlə, pambıqçılıq inkişaf etməməlidir, məhsuldarlıq da çox aşağı səviyyədədir. Biz o torpaqları başqa kənd təsərrüfatı sahəsinə çevirə bilərik.

Azad edilmiş torpaqlara gəldikdə, biz burada bu işləri planlı şəkildə görməliyik. Birincisi, ərzaq təhlükəsizliyi üçün. İkincisi, ixrac potensialımızın artırılması üçün. Biz burada da ixrac potensialımızı şaxələndirməliyik. Çünki bu yaxınlarda Rusiya tərəfindən pomidor ixracına qoyulan qadağa, əlbəttə, bizim üçün çox gözlənilməz oldu. Xatırlayıram, bir neçə il bundan əvvəl Rusiya tərəfi bizə müraciət etmişdi ki – o vaxt sanksiyalar tətbiq olunmuşdu – Azərbaycan Rusiyaya kənd təsərrüfatı məhsullarının ixracını artırsın. Məhz ondan sonra çox ciddi artım oldu. Əgər biz 4-5 il bundan əvvəl və keçən il Rusiyaya pomidor ixracına baxsaq, böyük fərq görərik. Əgər o qadağa qoyulmasaydı – düzdür, o qadağanın bir hissəsi artıq götürülüb – keçən il bizim ixracımız 200 min tona çatacaqdı. Ancaq siz də, hökumət də bu rəqəmləri bilirsiniz, 4-5 il bundan əvvəl daha aşağı idi. Yəni demək istəyirəm ki, biz kənd təsərrüfatı ixracına yenidən baxmalıyıq. Həm yeni bazarlar axtarmalıyıq ki, belə xoşagəlməz hallarla üzləşməyək, həm də kənd təsərrüfatı məhsullarının çeşidini artırmalıyıq. Ənənəvi bazarlar qalmaq şərti ilə biz yeni bazarlara çıxmalıyıq. Hesab edirəm ki, azad olunmuş torpaqlarda kənd təsərrüfatı, xüsusilə bağçılıq sahəsi çox ciddi inkişaf edə bilər. Çünki meyvə məhsulları istənilən bazarda qəbul olunur. Burada ənənəvi bazarlarımızın iqlimini

nəzərə alsaq, əlbəttə ki, bizim meyvəmizlə heç bir başqa meyvə rəqabət apara bilməz.

Tərəvəzə gəldikdə, indi istixanalar var. Düzdür, indi burada iqlim şəraiti də var, bizim tərəvəz təbii ki, daha keyfiyyətli və daha ucuzdur. Ancaq eyni zamanda, ənənəvi bazarlarda bizim tərəvəzimizlə yerli məhsul rəqabət apara bilər. Amma bağçılıqda, meyvə istehsalında bizimlə heç kim rəqabət apara bilməz.

Üzümçülüyün böyük potensialı vardır. Sovet dövründə böyük üzüm bağları var idi. Mənə «Azərkosmos»dan məlumat verilib ki, cəmi 1200 hektar üzüm bağından qanunsuz yollarla məhsul götürülürdü. Amma böyük taxıl sahələri vardır. Təqribən 100 min hektar və ya 90 min hektar taxılçılıq üçün nəzərdə tuturdu. Bu bizim üçün böyük imkanlar yaradır. Siz də baxın, bizə taxılçılıq üçün bu qədər hektar lazımdır, yoxsa yox, bəlkə başqa sahələrə yönəldək. Amma onu da bildirməliyəm ki, bu, Ermənistan üçün böyük itkidir. Çünki Ermənistanda, ümumiyyətlə, taxıl altında təqribən 200 min hektar var idi, yəni azad edilmiş torpaqlarla bir yerdə. Ermənistanda təqribən 100 min və o vaxt işğal edilmiş torpaqlarda da təqribən 90 min. İndi onlar bundan məhrum olublar. Əlbəttə, onların böyük problemləri, bizim isə böyük üstünlüyümüz yaranacaq. Bu amilləri nəzərə alın. Azad edilmiş torpaqlara qayıdacaq insanlar üçün də biz tövsiyələr hazırlamalıyıq, məsləhətlər verməliyik. Orada subsidiyalaşma ümumi sistemə inteqrasiya olunacaqdır. Ancaq dövlət – hələ ki, vətəndaşlar oraya qayıtmayıb – öz tərəfindən bütün bu işləri görür və görməlidir. Biz payızlıq və yaz əkin mövsümlərinə hazırlaşmalıyıq.

Bizim kifayət qədər imkanımız var ki, azad edilmiş torpaqlardan bu ilin mövsümündə bol məhsul götürək.

Azad edilmiş torpaqlarda eyni zamanda, böyük enerji potensialı vardır. Bəri başdan demək istəyirəm ki, mən azad edilmiş əraziləri yaşıl enerji zonası kimi görmək istərdim. Kifayət qədər imkanlar var. Birincisi, Xudafərin və Qız qalası hidroqovşaqlarında qurulacaq su-elektrik stansiyaları böyük enerji potensialına malikdir. Bu stansiyalar işə başlayandan sonra bizə düşən enerji gücləri təqribən 100 meqavatdan çox olacaqdır. Eyni zamanda, Kəlbəcər və Laçın rayonlarında su-elektrik stansiyalarının yaradılması məsələsi gündəlikdədir. Mənfur düşmən bu torpaqlardan çıxanda bütün su-elektrik stansiyalarımızı da məhv edib. Ermənilər 13 su-elektrik stansiyasını dağıdıblar, məhv ediblər, evləri yandırıblar, meşələri qırıblar, özlərini vəhşi kimi aparıblar. Eybi yoxdur, biz o stansiyaları yenidən quracağıq. Ərazilərin bərpası proqramında bu məsələ üçün vəsait ayrılmalıdır. Mütəxəssislər yerində baxmalıdırlar, təkliflər verməlidirlər. Əlbəttə, bu stansiyaların nə vaxt işə düşmək ardıcıllığı müəyyən edilməlidir. Çünki hələ ki, orada əhali yoxdur. Bu stansiyaların işə düşməsi oraya əhalinin qaytarılması və iqtisadi-sənaye fəaliyyətinin bərpası ilə uzlaşmalıdır. Amma bu işlər mütləq indidən görülməlidir. Bütün bu bölgə dünya üçün yaşıl enerji zonası kimi bir nümunə olacaq. Biz dünyaya göstərəcəyik ki, nəinki bu əraziləri bərpa etdik – mən buna şübhə etmirəm – həm də dünyanın ən gözəl məkanlarından birinə çevirdik. Eyni zamanda, ən müasir

texnologiyalar tətbiq edilməlidir, iqtisadi cəhətdən ən sərfəli texnologiyalar, elektrik enerjisinə qənaət edən texnologiyalar və yaşıl enerji – su, külək, Günəş. Nəzərə alın ki, bərpa olunan enerji növlərinə çox böyük maraq var və keçən il müzakirə olunan layihələr artıq reallaşır. 240 meqavat gücündə külək elektrik stansiyasının tikintisinə start verilir, xarici investor bu stansiyanı öz pulu ilə tikəcək. Digər layihə – 200 meqavat gücündə günəş elektrik stansiyası nəzərdə tutulur. Bunları nəzərə alaraq, biz xarici investorları azad olunmuş torpaqlara cəlb etməliyik. Çünki bu gün bu sahəyə investisiya qoymaq istəyən böyük transmilli şirkətlərin sayı kifayət qədər çoxdur. Bəlkə 10-a yaxın şirkət maraq göstərir və onlar üçün əsas istiqamət azad edilmiş torpaqlar olmalıdır. Biz öz enerji potensialımızı gücləndiririk. İndi gücü 300 meqavatdan çox olan Qobu Elektrik Stansiyası da inşa edilir və bu bizim enerji potensialımızı gücləndirəcək. Azad edilmiş torpaqlarda ən müasir standartlara cavab verən enerji sistemi yaradılmalıdır. Göstəriş verilib, artıq Şuşa şəhərinə iki xətt çəkilir, biri «Azərenerji», digəri isə «Azərişıq» tərəfindən. Əlbəttə, biz bunu operativ qaydada icra etməliyik. Çünki hazırda Şuşada ancaq generatorlar işləyir. Amma azad edilmiş bütün torpaqlarda bizim enerji sistemimizə inteqrasiya edilmiş, bir-biri ilə bağlı olan enerji sistemi yaradılmalıdır. Bu sahədə həm görülmüş işlər, həm də planlar haqqında məlumat vermək üçün söz Energetika nazirinə verilir.

**Pərviz Şahbazov** (*Energetika naziri*): Təşəkkür edirəm, möhtərəm cənab Prezident. 44 günlük Vətən

müharibəsində Sizin rəhbərliyinizlə qazanılmış tarixi qələbədən sonra digər sahələrdə olduğu kimi, energetika sahəsinin qarşısında da mühüm vəzifələr müəyyənləşdirmisiniz. Bu vəzifələrin ən başlıcası azad edilmiş torpaqlarımızda enerji infrastrukturunun qurulması və regionun enerji potensialından mümkün qədər səmərəli istifadədir. Həmin vəzifələrin icrası üçün ilk növbədə, enerji infrastrukturuna dəymiş ziyan qiymətləndirilir. Artıq «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti tərəfindən ətraf rayonlarda zədələnmiş energetika obyektləri bərpa edilib, Füzuli rayonunda, Cəbrayıl şəhərində və Hadrut qəsəbəsində həyati vacib obyektlər, Cəbrayıl rayonunda sərhəd zastavaları elektrik enerjisi ilə təmin olunub. Bununla yanaşı, paylayıcı elektrik şəbəkələrinin yaradılması ilə bağlı tədbirlər davam etdirilir. «Azərenerji» ASC-nin tədbirlər planına əsasən, may ayınadək Füzuli rayonundakı «Şükürbəyli» yarımstansiyası yenidən qurulacaqdır. Bu məqsədlə yüksəkgərginlikli əlavə xətt çəkilir, həmçinin yarımstansiyanın gücü qaldırılır.

Cənab Prezident, Şuşa şəhərinə, Siz qeyd etdiyiniz kimi, 75 kilometr məsafədə 110 kilovoltluq 2 dövrəli elektrik verilişi xəttinin tikintisi həyata keçirilir. Növbəti mərhələdə isə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında, ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovoltluq şəbəkə yaradılacaq. Bu ərazilərin təbii qazla təminatı ilə bağlı hazırlanmış proqramda SOCAR tərəfindən müxtəlif diametrlərdə 416 kilometr magistral qaz xəttinin çəkilməsi də təklif olunur.

Möhtərəm cənab Prezident, Sizin tapşırığınıza əsasən, ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, Qarabağ regionunda bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək yaşıl zona, yaxud yaşıl məkan konsepsiyasının hazırlanmasına başlanılıb. Bu istiqamətdə Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi ilə müzakirələr aparılmaqdadır. İlkin qiymətləndirmələrə görə, bu ərazilərdə 4000 meqavatdan çox Günəş, 500 meqavatadək külək enerjisi potensialı vardır. Kiçik su-elektrik stansiyalarının inventarlaşdırılması işinə başlanılıb. İlkin məlumatlara görə, bu stansiyaların sayı 30-a yaxındır, lakin əksəriyyəti yararsız hala salınıb. 3 stansiyada artıq bərpa işlərinə başlanılıb. Yaşıl enerji layihələrinə xarici investorların cəlb edilməsi üzərində iş aparılır.

Cənab Prezident, Siz qeyd etdiyiniz kimi, Cəbrayıl rayonu ərazisindəki «Xudafərin» və «Qız qalası» Su-Elektrik stansiyalarının tikintisinin başa çatdırılması bu ərazilərin enerji təminatına öz töhfəsini verəcəkdir.

Energetika sahəsinin ötən ildəki fəaliyyəti ilə bağlı da qısa məlumat vermək istərdim. Cənab Prezident, giriş nitqinizdə də qeyd etdiyiniz kimi, OPEC+ məhdudiyyətləri çərçivəsində neft hasilatımız keçən il 8,2 faiz azalıb. Amma eyni zamanda, qaz hasilatı artıb və xüsusilə də qaz ixracı 16,9 faiz artaraq 13,8 milyard kubmetr təşkil edibdir. Bu artımın əsas səbəbi «Cənub Qaz Dəhlizi» olub. Qeyd etdiyiniz kimi, 2020-ci il dekabrın 31-dən ilk dəfə TAP vasitəsilə kommersiya qazının Avropaya nəqlinə başlanılıb. Bu

bir daha göstərdi ki, cənab Prezident, Sizin irəli sürdüyünüz bütün təşəbbüslər əzmlə reallığa çevrilir. Hazırda, yəni bu gün üçün İtaliyaya gündəlik 10,5 milyon kubmetr, Yunanıstana 2 milyon kubmetr, Bolqarıstana isə 1 milyon kubmetr qaz ixrac edilməkdədir.

Hesabat dövründə elektrik enerjisinin ixracı 1,15 milyard kilovat-saat olub. Elektrik enerjisi generasiya güclərinin yaradılması və bərpası sahəsində də iş davam edir. Belə ki, müvafiq proqramlar çərçivəsində ümumilikdə 1300 meqavat güc bərpa olunub, 385 meqavatlıq «Qobu» Elektrik Stansiyasının və yarımstansiyasının tikintisi davam etdirilir. Yeni SCADA sistemi də qurulmaqdadır. Xarici investisiyaların cəlbi ilə istehsal gücü 550 meqavata qədər olan yeni istilik elektrik stansiyasının tikintisi üzrə müvafiq işlər görülür.

Qanunvericilik bazasının təkmilləşdirilməsi çərçivəsində dörd yeni qanun layihəsi hazırlanıb. Energetika sektorunun uzunmüddətli inkişaf strategiyasının layihəsi üzərində iş aparılır. Cənab Prezident, elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerji payının 30 faizə çatdırılması ilə bağlı Sizin irəli sürdüyünüz vəzifənin icrası məqsədilə qeyd etdiyiniz kimi, Səudiyyə Ərəbistanının «ACWA Power» şirkəti ilə 240 meqavat külək elektrik stansiyasının tikintisi üzrə müqavilələr artıq imzalanıb. Xarici sərmayəyə əsaslanan bu layihə ildə 200 milyon kubmetr qaza qənaət olunmasını təmin edəcək. Növbəti layihə, «Günəş» layihəsi Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti ilə birlikdə bu il mart ayının 1-dək yekunlaşdı-

rılmalıdır və bu istiqamətdə də işlər aparılır. Diqqətinizə görə təşəkkür edirəm.

## YEKUN NİTQİ

Bizim 2021-ci ildə işlərimiz çoxdur, həm ənənəvi işlər, hansılar ki, Dövlət İnvestisiya Proqramında təsbit olunub, həm də azad edilmiş ərazilərdə görüləcək işlər. Mən əsasən bu haqda sözümü demək istərdim, çünki bizim ənənəvi infrastruktur layihələrimiz, demək olar ki, başa çatmaq üzrədir. Əgər azad edilmiş torpaqları istisna etsək, indi qazlaşdırılma səviyyəsi 96 faizə çatıbdır. Elektrik enerjisi ilə heç bir problem yoxdur, əksinə, mən Davos Forumunun hesabatını Azərbaycan xalqının diqqətinə çatdırdım, biz burada 2-ci yerdəyik. Avtomobil yollarının böyük hissəsi artıq inşa edilib, qalan layihələr də plan üzrə gedir. Dəmir yolu xətləri və digər infrastruktur layihələri, o cümlədən suvarma ilə bağlı layihələr plan üzrə gedir və demək olar ki, başa çatmaq üzrədir. Ona görə bizim əsas diqqətimiz azad edilmiş torpaqlara olmalıdır və bu sahədə ilkin infrastruktur layihələrinin icrası artıq başlanıbdır. Birinci layihə Şuşa şəhərinə yol layihəsidir. Çünki Şuşa şəhərinə ənənəvi yollar hazırda bizim üçün o qədər də məqbul deyil.

Düzdür, biz bu yollardan istifadə edirik. Ancaq biz bu yollardan Rusiyanın sülhməramlı qüvvələrinin müşayiəti ilə istifadə edirik – həm Laçın dəhlizindən, həm də Qırmızı Bazar ərazisindən. Gələcəkdə, əlbəttə, biz bu yollardan da sərbəst şəkildə istifadə edəcəyik, o cümlədən Ağdam–Xankəndi–Şuşa yolundan

da istifadə edəcəyik. Noyabrın 10-da imzalanmış Bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq və beləliklə, müəyyən müddətdən sonra bu yollardan getmək də problemli olmayacaq. Ancaq bu gün Şuşa şəhərinə getmək üçün yeni yol çəkilişi mütləq lazımdır və biz bu sahədə işlərə artıq start vermişik. O çox çətin layihədir, relyef də çox çətindir və xüsusilə indi hava şəraiti də imkan vermir. Ancaq Əhmədbəyli–Alxanlı–Füzuli–Şuşa yolu inşa olunur və hesab edirəm ki, nəzərdə tutulmuş qrafikdən daha tez bir zamanda inşa ediləcəkdir.

Digər vacib layihəyə də artıq start verilib. Bu, Toğanalı – Kəlbəcər yoludur, bu da çox çətin relyefdən keçən bir yoldur. Bəzi yerlərdə yüksəklik 3500 metr olduğuna görə qış aylarında bu yoldan istifadə etmək çox çətindir. Ona görə tunellərin tikintisi nəzərdə tutulur, müvafiq göstərişlər verilib və bu layihə də indi icra edilir. Eyni zamanda, göstəriş verilib ki, Horadizdən Zəngilana, oradan Qubadlıya və oradan da Laçın rayonuna qədər yol çəkilsin və hazırlıq işləri gedir. Onu da əlavə etməliyəm ki, Toğanalıdan Kəlbəcərə çəkiləcək yol Laçın rayonuna da davam etdiriləcək. Beləliklə, biz iki tərəfdən – həm şimaldan, həm də cənubdan Laçın və Kəlbəcər rayonlarına yolnəqliyyat infrastrukturu yaradacağıq. Eyni zamanda, mənim göstərişimlə Laçın və ya Kəlbəcər rayonlarının ərazisində müasir beynəlxalq aeroportun tikilməsi üçün yer axtarılır. Düzdür, orada relyef çox çətindir və demək olar ki, ərazilərin mütləq əksəriyyəti dağlıq ərazilərdir. Orada düz yer tapmaq çətindir, amma indi araşdırmalar gedir, ümid edirəm ki, yaxın gələcəkdə

mənə məlumat veriləcək. Beləliklə, ya Laçın, ya da Kəlbəcər rayonunda yeni beynəlxalq aeroport tikiləcək. Füzuli şəhərində isə beynəlxalq aeroportun tikintisinə artıq az vaxt qalıb. Göstəriş verilib, yaxın gələcəkdə inşaat işlərinə başlanılacaq və bu il Füzuli şəhərində – şəhərdən indi əsər-əlamət qalmayıb – yaxud da ki, o ərazidə beynəlxalq aeroport fəaliyyətə başlayacaq. Bu həm Qarabağ bölgəsinin inkişafı üçün lazımdır, çünki bütün növ təyyarələr enə biləcək – həm Füzulidə, həm Kəlbəcər–Laçın zonasında – həm də Şuşaya gəlmək istəyən xarici qonaqlar rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedəcəklər. Aeroportun tikintisi ilə paralel olaraq, artıq Füzuli şəhərindən beynəlxalq uçuşların təşkili ilə bağlı ilkin araşdırmalar aparılmalıdır. Beynəlxalq aeroport beynəlxalq uçuşlar təşkil etməlidir. İlk növbədə, bizim aviaşirkətimiz AZAL bu məsələ ilə bağlı ciddi işləsin ki, aeroport açılandan sonra dərhal bizim qonşu ölkələrin bəziləri ilə hava nəqliyyatı təmin edilsin.

Hesab edirəm ki, iki beynəlxalq aeroport Qarabağ zonasını bərpa etmək, yüklərin daşınması, turizmin inkişafı üçün bizə kömək edəcək. Eyni zamanda, insanlar oraya qayıdandan sonra onların rahatlığı üçün də bunun böyük əhəmiyyəti olacaqdır.

Elektrik enerjisi ilə bağlı planlar təsdiq olunub. Bir daha demək istəyirəm – indi nazir də məlumat verdi – həm ənənəvi, həm bərpa olunan enerji növləri orada geniş vüsət alacaq və enerji sistemi bizim ümumi enerji sistemimizə tam inteqrasiya ediləcəkdir.

Dəmir yolları ilə bağlı göstəriş verilib, hazırlıq işləri gedir. Horadiz–Füzuli və ondan sonra Füzuli–Şuşa

dəmir yolunun tikintisi də nəzərdə tutulur. Gərək bunun icra cədvəli təsdiq edilsin. Şuşaya vətəndaşlar qayıdandan sonra, əlbəttə, bu yol istismara veriləcəkdir. İndi layihələndirmə işləri gedir, maliyyə vəsaiti də ayrılmalıdır. Şuşaya rahat gediş-gəlişi təmin etmək üçün mütləq dəmir yolu da çəkilməlidir. Bu il bu layihəyə start veriləcəkdir.

Eyni zamanda, Horadiz–Ağbənd dəmir yolu da – Ağbənd Zəngilan rayonunda Ermənistan sərhədinə yaxın olan qəsəbədir – yenidən tikiləcək. Çünki mənfur düşmən bu yolu dağıdıb və tamamilə sıradan çıxarıbdır. Naxçıvan dəhlizini açmaq üçün bu yol xüsusi əhəmiyyət daşıyır. Hazırda Naxçıvan dəhlizinin açılması üçün konkret işlər gedir. Mən hadisələri qabaqlamaq istəmirəm, amma bu dəhlizin açılması noyabrın 10-da imzalanmış Bəyanatda öz əksini tapıb. Ona görə bu, mütləq açılacaq və bölgəyə yeni imkanlar gətirəcək. Bu yoldan həm Azərbaycan, həm Türkiyə, həm Rusiya, həm Ermənistan, həm də İran istifadə edəcək. Bu yol gələcəkdə çoxtərəfli əməkdaşlıq üçün xüsusi əhəmiyyətə malikdir. Biz öz ərazimizdə Horadiz–Ağbənd dəmir yolunun tikintisinə başlayacağıq. Bununla paralel olaraq, Naxçıvan Muxtar Respublikasında dəmir yolunun bərpası və müasirləşdirilməsi istiqamətində də işlər aparılacaq. Nəzərə alsaq ki, Ermənistan dəmir yolları Rusiya dəmir yollarının mülkiyyətindədir, bizim tərəf müqabilimiz, əlbəttə, Rusiyadır. Çünki Ermənistan dövlətinin Mehri dəmir yolu layihəsinə heç bir aidiyyəti yoxdur. Biz bu məsələni Rusiya ilə müzakirə edirik. Çünki Rusiya dəmir yolları Ermənistan dəmir yollarının sahibidir.

İlkin müzakirələr müsbətdir. Hələlik bu qədər. Gələcək hadisələr haqqında məlumat veriləcəkdir.

Azad edilmiş torpaqlarda kənd təsərrüfatı məhsuldarlığının artırılması üçün suvarma işləri sürətlə getməlidir. Bu barədə artıq danışıldı. Ən müasir suvarma sistemləri təşkil edilməlidir. Nəzərə alaq ki, su mənbələri də kifayət qədər çoxdur.

Enerji təchizatı ilə bağlı artıq burada məruzə edildi, bütün göstərişlər verildi. Qarabağ bölgəsi yaşıl enerji zonası kimi, dünya üçün bir nümunə olacaqdır.

Sərhədlərin qurulması istiqamətində təxirəsalınmaz işlər aparılmalıdır. Çünki bizim Ermənistanla yüz kilometrlərlə sərhədimiz yaranıb. Yəni artıq bu sərhəd bizim nəzarətimizə keçib. Orada bütün sərhəd infrastrukturu təşkil edilməlidir. Dövlət Sərhəd Xidmətinə müvafiq göstərişlər verilib. Hazırda Dövlət Sərhəd Xidməti Zəngilan–Qubadlı sərhədinin mühafizəsi ilə məşğuldur. Kəlbəcər–Laçın istiqamətində Müdafiə Nazirliyinin qoşunları xidmət göstərir. Gələcəkdə bu məsələyə də baxılacaq. Hər halda, sərhədin mühafizəsi xüsusi əhəmiyyət daşıyır. Çünki Ermənistanda revanşist qüvvələr var və biz onların bəyanatlarını diqqətsiz qoya bilmərik. Amma hər kəs bilməlidir ki, əgər bizim sərhədimiz pozularsa, onu pozan cəzalandırılacaq və belə təxribatlar bu qüvvələrə çox baha başa gələcək.

Eyni zamanda, Azərbaycan Respublikası İran İslam Respublikası ilə öz sərhədini tamamilə bərpa edib. 132 kilometr uzunluğu olan yeni sərhəd yaranıb. Mən Xudafərin körpüsünə gedərkən bildirmişdim ki, bu sərhəd dostluq sərhədidir. Həqiqətən belə-

dir. Amma sərhəd sərhəddir və sərhəd infrastrukturu mütləq yaradılmalıdır. Bu məsələlər üçün də vəsait ayrılmalıdır.

Şəhərsalma qaydalarının tətbiq edilməsi ilə bağlı artıq bütün göstərişlər verilib. Azad edilmiş ərazilərə biz bundan sonra da xarici nümayəndələri, jurnalistləri, diplomatik korpus nümayəndələrini, Azərbaycana səfər edən nümayəndə heyətlərini dəvət etməliyik. Misal üçün, bu ay İSESKO-nun nümayəndə heyətinin səfəri gözlənilir. Yaxşı olardı ki, nümayəndə heyətinin bəzi üzvləri azad edilmiş ərazilərə getsinlər, ermənilərin, Ermənistan rəhbərliyinin dağıtdığı məscidlərə də baş çəksinlər, o məscidlərin qalıqlarına baxsınlar və bütün dünya müsəlmanlarına bu barədə daha dolğun məlumat versinlər. Nəinki dünya müsəlmanlarına, bütün dünyaya ki, bizim tarixi, dini abidələrimiz düşmən tərəfindən necə dağıdılıb.

Əlbəttə, Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə indidən turizm marşrutları işlənib hazırlanmalıdır ki, artıq həyat bu bölgəyə qayıdandan sonra vaxt itirmədən turizm sektoru da inkişaf etsin. İndidən beynəlxalq turizm sərgilərində – pandemiyadan sonra bu sərgilər bərpa ediləcək – Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələri göstərilməlidir ki, biz bu bölgəni doğrudan da dünya üçün çox cəlbedici bölgə kimi təqdim edək. Nəzərə alsaq ki, Qarabağ bölgəsinin çox zəngin, füsunkar, təkrarolunmaz təbiəti və tarixi abidələri var, əminəm, Azərbaycanın əsas turizm zonalarının birinə çevriləcəkdir.

Bir sözlə, planlarımız böyükdür. Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün nə qədər böyük işlər görülüb. Bərpa işləri başlanıb və bu onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir.

İl başlayıb, bizim hamımıza uğurlar, Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram. Keçmiş köçkünlərə tezliklə öz doğma torpaqlarına qayıtmağı arzulayıram. Hər halda, Azərbaycan dövləti əlindən gələni edəcək ki, o gün daha da yaxınlaşsın. Vahid Azərbaycan dövləti bundan sonra uğurla, inamla inkişaf edəcəkdir. Sağ olun.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ MOSKVAYA İŞGÜZAR SƏFƏR

*11 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfərə gəlmişdir.*

*Moskvanın «Vnukovo-2» Beynəlxalq Aeroportunda dövlət başçısını Rusiya Federasiyasının Xarici İşlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, RUSİYA FEDERASİYASININ PREZİDENTİ VƏ ERMƏNİSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*Moskva*

*11 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın yanvarın 11-də Moskvada üçtərəfli görüşü keçirilmişdir.*

**Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu! Hörmətli Nikol Vovayeviç!

Sizi Moskvada salamlamağa çox şadam. Sizə minnətdaram ki, keçən il noyabrın 10-da Dağlıq Qarabağa dair imzaladığımız üçtərəfli Bəyanatın reallaşdırılmasının gedişini, mövcud problemlərin aradan qaldırılmasına və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımları birlikdə müzakirə etmək təklifimizi qəbul etmisiniz.

Rusiya ölkələrimizi və xalqlarımızı bir-birinə bağlayan tərəfdaşlıq və mehriban qonşuluq münasibətlərini yüksək qiymətləndirir. Buna görə də biz alovlanmış silahlı münaqişəni həyəcanla və insanların ta-

leyinə görə narahatlıqla izləyirdik. Təəssüf ki, genişmiqyaslı hərbi əməliyyatlar xeyli sayda insan tələfatına gətirib çıxarıb, Cənubi Qafqazda onsuz da mürəkkəb olan vəziyyəti kəskinləşdirib, terrorizmin yayılma riskini artırıbdır.

Hörmətli həmkarlar, sizə təşəkkür etmək istəyirəm ki, Rusiya tərəfinin qan tökülməsini dayandırmağa, vəziyyəti sabitləşdirməyə kömək etməyə və davamlı atəşkəsə nail olmağa yönəlmiş fəal vasitəçilik səylərini müsbət qəbul etmisiniz. Ölkələrimizin diplomatik və hərbi idarələri bu mürəkkəb məsələnin həlli üzərində gərgin iş aparıblar. Biz sizinlə daim əlaqədə olmuşuq, birlikdə kompromis axtarmışıq.

Məhz bizim birgə səylərimiz nəticəsində intensiv, o cümlədən xatırladığınız kimi, noyabrın 10-da gecə vaxtı telefon danışıqlarımızdan sonra üçtərəfli Bəyanat razılaşdırıldı və biz sizinlə onu imzaladıq. Məlum olduğu kimi, bu baza sənədində, hər şeydən əvvəl, hərbi əməliyyatların tamamilə dayandırılmasından, regiona Rusiya sülhməramlılarının göndərilməsindən və xüsusilə əhəmiyyətli olan odur ki, hərbi toqquşmalardan zərər çəkmiş dinc əhalinin normal həyata qayıtmasına hərtərəfli və səmərəli kömək göstərilməsindən söhbət gedir.

Bu halda xüsusi qeyd etmək istərdim ki, Rusiya özünün bütün fəaliyyətində ATƏT-in Minsk qrupunda əldə edilmiş əsas qaydalara riayət etməyə çalışırdı. Biz öz hərəkətlərimizi mütəmadi olaraq tərəfdaşlarımız – Minsk qrupunun həmsədrləri ilə razılaşdırmaqda davam edirik.

Bu gün məmnuniyyətlə qeyd etmək olar ki, üçtərəfli razılaşmalar ardıcıl olaraq reallaşır. Biz əminik ki, bu, çoxdan davam edən münaqişənin ədalətli əsasda, həm erməni, həm də Azərbaycan xalqlarının mənafelərinə uyğun olaraq uzunmüddətli və tamformatlı nizamlanması üçün zəruri ilkin şərait yaradacaqdır.

Dağlıq Qarabağda təmas xəttində və Laçın dəhlizi boyunca atəşkəsə riayət edilməsinə nəzarət üçün Ermənistan və Azərbaycan tərəflərinin xahişi ilə rusiyalı sülhməramlı kontingent yerləşdirilib. Atəşkəs rejiminə riayət edilməsinin təmin olunması üçün səmərəli sistem yaradılıb. Rusiya sülhməramlılarının məsuliyyət zonasında 23 müşahidə məntəqəsi fəaliyyət göstərir, daha 4 əlavə post dəhliz boyunca hərəkətin təhlükəsizliyinə cavabdehdir. Hazırda regionda vəziyyət sakitdir.

Biz məcburi köçkünlərin və qaçqınların təhlükəsiz qayıtması üçün çox iş görürük. Noyabrın 14-dən keçən müddətdə 48 mindən çox insan artıq Qarabağa qayıdıb. Əsirlər və həlak olanların cəsədləri Rusiyanın vasitəçiliyi ilə dəyişdirilib.

Beynəlxalq Humanitar Müşahidə Mərkəzi uğurla fəaliyyət göstərir. Ölkələrimizin mütəxəssisləri bu Mərkəz çərçivəsində yaşayış məntəqələrinin normal həyatının nizamlanması, dağıdılmış infrastrukturun bərpası, tarixi, dini və mədəni abidələrin qorunması ilə bağlı ümdə məsələləri həll edirlər. Mərkəzin əməkdaşları enerji və istilik təchizatının bərpası ilə də məşğul olurlar.

Rusiyadan münaqişə zonasına 800 tondan artıq tikinti materialı, ümumilikdə 1,5 milyon tondan çox

humanitar yük çatdırılıb. Əhaliyə tibbi yardım göstərilir. 479 hektardan çox ərazi minalardan təmizlənib, 182 kilometr yol, 710 bina və tikili yoxlanılıb. Partlayış təhlükəsi olan 22 mindən çox əşya aşkar olunub və məhv edilib.

Fikrimcə, bu gün ilk növbədə, ötən il 10 noyabr tarixli birgə Bəyanatda göstərilmiş əsas nizamlama istiqamətləri üzrə növbəti addımların razılaşdırılması vacib olardı. Mən Rusiya sülhməramlı kontingentinin fəaliyyəti, demarkasiya xətlərinin dəqiqləşdirilməsi, humanitar problemlərin həlli, mədəni irs obyektlərinin qorunması ilə bağlı məsələləri nəzərdə tuturam.

Regionda iqtisadi, ticari və nəqliyyat əlaqələrinin bərpası, sərhədlərin açılması məsələsi xüsusi diqqətə layiqdir. Nəzərdə tutulur ki, bu məsələlərlə Rusiya, Azərbaycan və Ermənistanın Baş nazirləri müavinlərinin sədrliyi ilə üçtərəfli xüsusi işçi qrup məşğul olacaqdır.

Hörmətli həmkarlar, ümidvar olduğumu bildirmək istərdim ki, bizim bugünkü danışıqlar işgüzar şəraitdə keçəcək, regionda möhkəm sülhün, təhlükəsizliyin və davamlı sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət edəcəkdir. Şübhəsiz, biz hamımız bunda maraqlıyıq.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN, ERMƏNİSTANIN BAŞ NAZİRİ NİKOL PAŞİNYANIN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN BİRGƏ BƏYANATI

*Moskva*

*11 yanvar 2021-ci il*

Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:

**1.** 2020-ci il 10 noyabr tarixli Bəyanatın 9-cu bəndinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədilə Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirləri müavinlərinin və Rusiya Federasiyası Hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli İşçi qrupu yaradılması barədə təklifi dəstəklənir.

**2.** İşçi qrupu 2021-ci il yanvarın 30-dək ilk iclasını keçirəcək, bu iclasın nəticələrinə görə bəyana-

tın 9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmir yolu və avtomobil yollarını müəyyən edəcək, həmçinin bundan sonra Tərəflər adlanacaq Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında razılaşma əsasında digər istiqamətləri müəyyən edəcəkdir.

**3.** Fəaliyyətin əsas istiqamətlərinin reallaşdırılması məqsədilə İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə Tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Ekspert yarımqrupları İşçi qrupunun iclasından sonra bir ay müddətində layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və Tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaqdır.

**4.** İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin

bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcəkdir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İ.H.Əliyev**

**Ermənistan Respublikasının baş naziri**
**N.V.Paşinyan**

**Rusiya Federasiyasının Prezidenti**
**V.V.Putin**

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*Moskva*

*11 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilmiş üçtərəfli görüşdən sonra yanvarın 11-də Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Rusiya Prezidenti Vladimir Putinin bəyanatı

İlk növbədə, həmkarlarıma – həm Azərbaycan Prezidentinə, həm də Ermənistanın baş nazirinə bu gün Moskvaya gəlməyə, bizim keçən ilin 10 noyabr tarixli sülh razılaşmamızın şərtlərinin icrası ilə bağlı məsələləri müzakirə etmək üçün görüşməyə razılıq verdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Bu razılaşmanın şərtlərinə ümumilikdə riayət edildiyi,

heç bir ciddi insidentin qeydə alınmadığı qənaətinə gəldik.

Rusiyanın sülhməramlı qrupu hər iki tərəf qarşısındakı öhdəliklərini tam şəkildə yerinə yetirir.

Bugünkü görüşümüzün əvvəlində dediyim kimi, 48 mindən çox köçkün və qaçqın artıq Dağlıq Qarabağa qayıdıb. İnfrastruktur, energetika, yaşayış binaları, sosial infrastrukturun bərpası üçün davamlı iş aparılır.

Bugünkü görüşü son dərəcə vacib və faydalı hesab edirəm, çünki razılığa gələ bildik və bölgədəki vəziyyətin inkişafına dair birgə Bəyanat imzaladıq. İqtisadi əlaqələrin qurulması, infrastruktur layihələrinin inkişafı üzrə konkret addımları nəzərdə tuturam.

Bu məqsədlə üç hökumətin – Azərbaycan, Ermənistan və Rusiya Baş nazirləri müavinlərinin rəhbərlik edəcəyi İşçi qrupu yaradılacaq. Yaxın zamanda onlar İşçi ekspert alt qrupları yaradacaq, regionun nəqliyyat infrastrukturu və iqtisadiyyatının inkişafı üzrə konkret planlar təqdim edəcəklər. Əminəm ki, bu razılaşmaların icrası həm Ermənistan, həm də Azərbaycan xalqlarına fayda verəcək və heç şübhəsiz, bütövlükdə regiona, deməli, Rusiya Federasiyasının mənafeyinə də fayda verəcək. Sağ olun.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Vladimir Vladimiroviç, ilk növbədə, bu dəvətə və bu görüşün keçirilməsi təşəbbüsünüzə görə Sizə təşəkkür etmək istərdim. Mən də Sizin fikrinizə

şərikəm ki, bizim regionun bundan sonrakı davamlı və təhlükəsiz inkişafını təmin etmək üçün görüş çox vacib idi.

Atəşkəs elan edildikdən iki ay keçib və noyabrın 10-da Bəyanatı imzalamış üç ölkənin liderlərinin bu gün Moskvada toplaşması onu göstərir ki, biz nəticə əldə etmək, sentyabrda, noyabrda baş vermiş hadisələrə yekun vurmaq əzmindəyik. Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir.

Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar. Biz bundan sonra da qısa müddətdə səmərə verən və nəticəyə yönəlmiş fəaliyyət sahələrini tapmağa çalışmalıyıq.

Bütövlükdə demək istərdim ki, 10 noyabr tarixli birgə Bəyanat uğurla həyata keçirilir. Bu Bəyanatın bəndlərinin çox hissəsi yerinə yetirilib. Rusiya sülhməramlı missiyası öz işini səmərəli şəkildə yerinə yetirir və iki ay ərzində kiçik insidentlər istisna olmaqla, narahatlıq üçün ciddi əsas olmayıb. Bütün bunlar belə əminlik yaradır ki, Vladimir Vladimiroviçin dediyi kimi, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə

yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik.

Vladimir Vladimiroviç, dəvətə görə Sizə bir daha təşəkkürümü bildirirəm və hesab edirəm ki, görüş çox faydalı və səmərəli oldu. Sağ olun.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Moskva*

*11 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin yanvarın 11-də ikitərəfli görüşü olmuşdur.*

**Vladimir Putin:** Hörmətli İlham Heydər oğlu, Sizi Moskvada bir daha salamlayıram. Təklifimi qəbul etdiyinizə, Rusiyanın paytaxtına gəldiyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

Təbii ki, ötən ilin ən mühüm hadisəsi Dağlıq Qarabağda vəziyyətin ağır keçməsi olub. Lakin mən məmnun olduğumu bildirmək istəyirəm ki, biz hər halda, döyüş əməliyyatlarına, qan tökülməsinə son qoya bildik. Bugünkü işin nəticələri barədə indicə dediyimiz kimi, sülhməramlı missiya öz funksiyasını yerinə yetirir və bütövlükdə vəziyyət tədricən normallaşır. Bu gün bizim imzaladığımız birgə Bəyanatın əsasını uzunmüddətli perspektivdə vəziyyətin nizamlanması istəyinin təşkil etməsi isə, fikrimcə, çox vacibdir.

Lakin Dağlıq Qarabağ nizamlanması ilə bağlı hadisələrin kontekstindən əlavə, bizdə ikitərəfli gündəlik də mövcuddur və bununla əlaqədar bizim İkinci dünya müharibəsində Qələbənin 75 illiyini qeyd et-

məyimizlə bağlı işi bir daha vurğulamaq və təşəkkürümü bildirmək istərdim. Bu bizim ölkələrimiz üçün, postsovet məkanındakı bütün ölkələr üçün çox əlamətdar hadisə idi. Ona görə ki, biz hamımız ovaxtkı ümumi Vətənimizin azadlığı, müstəqilliyi uğrunda mübarizədə iştirak etmişik.

Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Bu ilk növbədə, əlaqələrin iqtisadi tərkib hissəsinə aiddir. Bizim birgə işimizin əksər istiqamətləri, o cümlədən iqtisadiyyat istiqaməti üzrə üst-üstə düşən maraqlarımız çoxdur. Mən çox ümid edirəm ki, bütövlükdə Cənubi Qafqazda vəziyyətin nizamlanması üzrə iş, şübhəsiz, indicə dediyim kimi, bizim ikitərəfli münasibətlərin də xeyrinə olacaqdır. Mən onu əsas götürürəm ki, bu nizamlama bizim həm iqtisadiyyatda, həm də humanitar sahədə daha sıx, daha sistemli münasibətlər qurmağımıza imkan verəcəkdir.

Bu gün Moskvada olmağınıza görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

**İlham Əliyev:** Sağ olun, hörmətli Vladimir Vladimiroviç! Rusiya paytaxtında olmaq mənə həmişə xoşdur. Dəvətə, həmçinin üçtərəfli görüşün keçirilməsi təşəbbüsünə görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Görüş çox faydalı və hesab edirəm ki, səmərəli oldu. Ona görə ki, görüşün yekunlarına əsasən, biz bəyanat imzaladıq. Bu, müharibə qurtarandan iki ay sonra imzalanmış və mahiyyət etibarilə keçən il baş verənlərə yekun vuran ikinci bəyanatdır. Bu bəyanat bizim regionda tamamilə yeni vəziyyətin yaranmasına – nəqliyyat kommunikasiyalarının bər-

pasına yönəlibdir. Bizim üçün bu, böyük əhəmiyyət kəsb edir, çünki beləliklə, 30 ildən artıq müddətdən sonra Azərbaycan Ermənistan ərazisindən keçən nəqliyyat kommunikasiyaları vasitəsilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə əlaqə imkanına, Ermənistan da Azərbaycan ərazisindən keçməklə Rusiyaya, İrana dəmir yolu çıxışı imkanına malik olacaqdır. Biz həmçinin Naxçıvan Muxtar Respublikası ərazisindən keçməklə, Türkiyə bazarına çıxış əldə edəcəyik, Türkiyənin və Rusiyanın dəmir yolu arteriyaları birləşəcək. Yəni bu Bəyanat çox böyük perspektivlər açır və əminəm ki, bizim bu gün yaratdığımız İşçi qrupu səmərəli işləyəcək, layihələrin reallaşdırılması barədə bizə vaxtaşırı məruzə edəcəkdir. Orada bir deyil, bir neçə layihə vardır. Əminəm ki, onlar hamısı reallaşacaqdır.

Hərbi əməliyyatların dayandırılmasında və 10 noyabr tarixli Bəyanatın imzalanmasında şəxsən iştirakınıza görə Sizə bir daha təşəkkürümü bildirmək istərdim. Hesab edirəm ki, Siz Rusiyanın lideri, həm Ermənistanın, həm də Azərbaycanın qonşusu kimi, iradə, qətiyyət, müdriklik nümayiş etdirdiniz. Sizin təşəbbüsünüzlə baş tutmuş bugünkü görüş bir daha bu məsələyə necə böyük diqqət yetirməyinizə dəlalət edir. Bu bizi çox sevindirir, çünki bütün regionda vəziyyətin müsbət inkişaf dinamikası çox cəhətdən Ermənistan ilə Azərbaycan arasında artıq tarixdə qalmış münaqişənin nizamlanmasından asılı olacaqdır. Tamamilə yeni, əvvəllər hətta təsəvvür edə bilməyəcəyimiz perspektivlər açılır.

İkitərəfli münasibətlərə gəldikdə isə, ötən ilin pandemiya ilə əlaqədar ağır keçməsinə baxmayaraq, hər halda, bizdə əmtəə dövriyyəsinin azalması o qədər də çox olmayıb. Əminəm ki, bu il biz bütün bunları kompensasiya edəcəyik. Gündəlikdə iqtisadi sahədə də çox geniş məsələlər durur. Siyasi sahədə Azərbaycan və Rusiya artıq çoxdandır ki, strateji tərəfdaşlardır. Müharibənin dayandırılmasında, habelə sülhməramlı missiyada Rusiyanın fəal iştirakı məhz ona dəlalət edir ki, bu uzunmüddətli strateji tərəfdaşlıq münasibətlərinin çox yaxşı dinamikası vardır. Siz ölkələrimiz arasında humanitar əməkdaşlığı qeyd etdiniz. Bu əməkdaşlıq həmişə yüksək səmimiyyəti, səmərəliliyi və konkret nəticəyə yönəlməsi ilə fərqlənib. Bütün başqa sahələrdə də biz həm bu il, həm də sonrakı illərdə çox səmərəli əməkdaşlıq etmək əzmindəyik. Ermənistan ilə Azərbaycan arasındakı vəziyyət uzun illər boyu yaranıb və nəticə etibarilə həll edilib. Mən əminəm ki, erməni tərəfi 10 noyabr tarixli Bəyanatı təftiş etmək üçün heç bir cəhd göstərməyəcək, hər iki xalq gələcək barədə və barışıq haqqında fikirləşmək üçün özündə iradə və müdriklik tapacaq.

Dəvətə görə və bu təşəbbüsünüzə görə bir daha sağ olun.

**Vladimir Putin:** Sizə təşəkkür edirəm.

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri yanvarın 11-də başa çatdı.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Cakarta şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan təlәfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2021-ci il*

## QAZAXISTAN RESPUBLİKASININ BİRİNCİ PREZİDENTİ – ELBASI, «NUR OTAN» PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

Hörmətli Nursultan Abişeviç!

Lideri olduğunuz «Nur Otan» Partiyasının Qazaxıstanda keçirilmiş parlament seçkilərində inamlı qələbə qazanması münasibətilə Sizi öz adımdan və Yeni Azərbaycan Partiyası adından ürəkdən təbrik edirəm.

Qazaxıstanın müasir tarixi ölkənin aparıcı siyasi qüvvəsi olan «Nur Otan» Partiyasının fəaliyyəti ilə sıx bağlıdır. Partiya yarandığı gündən Qazaxıstan dövləti və xalqına şərəflə xidmət etmiş, böyük işlər görmüşdür. Qurucusu olduğunuz və başçılıq etdiyiniz partiyanın bu qələbəsi Qazaxıstanın rifahı naminə həyata keçirdiyiniz ümummilli siyasətə, çoxşaxəli fəaliyyətinizə verilən yüksək qiymətin ifadəsi, xalqınızın Sizə olan inam və etimadının bariz təzahürüdür.

Azərbaycan ilə Qazaxıstanı ortaq mənəvi dəyərləri bölüşən xalqlarımızın iradəsindən qaynaqlanan strateji tərəfdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, bu xoş ənənələrə əsaslanan Azərbaycan–Qazaxıstan dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2021-ci il*

**QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SADIR JAPAROVA**

Hörmətli cənab Japarov!

Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Qırğızıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq, bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Qırğız xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2021-ci il*

## İSESKO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də İSESKO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, baş direktor!

Hörmətli qonaqlar, xoş gəlmisiniz! Sizi görməyə çox şadam. Səfəriniz üçün, işğaldan azad edilmiş əraziləri ziyarət etmək üçün vaxt tapdığınıza görə sizə çox minnətdaram. Mənə məlumat verilibdir ki, dünən siz müharibə zamanı Azərbaycanın işğaldan azad olunmuş şəhərlərini ziyarət etmisiniz və özünüz vəziyyətin şahidi olmusunuz. Hər şey tamamilə məhv edilib. Bizim bu barədə məlumatımız var idi. Çünki işğal edilmiş ərazilərdə vəziyyətlə bağlı bizdə müəyyən görüntülər var idi. Lakin səmimi desəm, biz dağıntıların bu qədər geniş vüsət almasını heç təsəvvürümüzə belə, gətirə bilməzdik. Bu onu nümayiş etdirir ki, torpaqlarımızı işğal altında saxlayan ölkə Azərbaycan mədəniyyətinin izini silmək istəyirdi. Azərbaycan xalqının irsini məhv etmək istəyirdi. Biz açıq-aydın başa düşürük ki, bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra edilibdir. Bu, müharibə zama-

nı edilməyibdir, çünki müharibə zamanı belə dağıntıları etmək mümkün deyil. Bu, Azərbaycan xalqına məxsus hər şeyi məhv etmək və gələcəkdə azərbaycanlıların geri qayıtmasına imkan verməmək üçün işğaldan sonra edilibdir. Bu bir daha onu nümayiş etdirir ki, demək olar, 30 illik danışıqlar ərzində Ermənistanın yalnız bir məqsədi olub, o da danışıqları sonsuz və faydasız etmək. Buna da nail olubdur. Demək olar ki, bu 30 illik danışıqlar prosesində heç bir nəticə yox idi. Yalnız danışıqlar, yalnız səfərlər, yalnız bəyanatlar var idi, lakin heç bir nəticə yox idi. Bu da təcavüzkara işğal olunmuş ərazilərin tarixi, mədəni və dini mənşəyini dəyişməyə cəhd etmək imkanını verdi.

Qanunsuz məskunlaşma siyasəti hərbi cinayətdir və onlar işğalın son dönəmində bu siyasəti heç gizlətmirdilər belə! Onlar dünyanın müxtəlif yerlərindən erməni mənşəli insanları gətirir və onları Şuşa şəhəri də daxil olmaqla, tarixi Azərbaycan ərazilərində məskunlaşdırırdılar. Şəhər və kəndlərimizin adlarını dəyişirdilər, hətta xristian dini abidələrinin mənşəyini belə, dəyişirdilər. Onlar xristian dininə ibadət edən qədim udilərin dini irsinin mənşəyini dəyişirdilər. Onlar qədim Qafqaz Albaniyasının kilsələrini erməni kilsələrinə çevirirdilər. Beləliklə, onlar cinayət predmeti olan bir çox əməllər törədiblər.

Sizin də yəqin bildiyiniz kimi, artıq Azərbaycan vurulmuş ziyanın qiymətləndirilməsi prosesinə başlayıbdır. Yəni yaxşı tanınmış beynəlxalq şirkətlərin köməyi ilə maddi, mədəni, mənəvi, ekoloji ziyan hərtərəfli qiymətləndiriləcək və bu da bizə təcavüzkar

Ermənistan dövlətini beynəlxalq məhkəmələrə vermək imkanını yaradacaq.

44 günlük müharibə regionda vəziyyəti dəyişdi. Dediyim kimi, müharibə bitib, biz növbəti səhifəyə keçməliyik. Biz ağrını, yaraları heç vaxt unutmayacağıq. Yaralar heç vaxt sağalmayacaqdır. Biz qəhrəmanlarımızı heç vaxt unutmayacağıq. Lakin biz gələcəyə baxmalıyıq və əraziləri, tam viran qalmış ərazini yenidən qurmalıyıq və biz bunu edəcəyik, artıq bu işlərə başlanılıb. İnfrastruktur layihələri, şəhər planlaması və yenidən qurulmanın bir çox digər mühüm elementləri artıq icra olunmaqdadır. Bu il biz bu işlər üçün əsaslı vəsait ayırmışıq.

Beləliklə, biz beynəlxalq birliyin sülh yolu ilə edə bilmədiyini və ya etmək istəmədiyini güc yolu ilə etdik. Azərbaycanın tarixi torpaqlarının azad edilməsi təkcə bizim tariximizdə tarixi hadisə deyil, eyni zamanda, müharibələr tarixində əlamətdar hadisədir. Çünki biz, demək olar ki, mümkünsüz kimi görünəni etdik. Zabit və əsgərlərimizin şücaəti və cəsarəti, müvafiq planlama, bütün xalqın sadiqliyi və birliyi ilə bunu etdik.

Cənab baş direktor, sıx əməkdaşlıq etdiyimiz bu illər ərzində şəxsən sizə və İSESKO-ya Azərbaycana davamlı dəstək göstərdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Xüsusilə müharibə zamanı qəbul edilmiş qərarlara görə təşəkkürümü bildirmək istəyirəm. Müharibə başlayandan bir neçə gün sonra – oktyabrın əvvəlində İSESKO Azərbaycanın ədalətli mövqeyinə çox dəstəkləyici bir bəyanat verdi və qərarlar qəbul etdi. Həmçinin bizim şanlı

Zəfərimizdən sonra sizin mənə qələbə münasibətilə göndərdiyiniz təbrik məktubunuza görə də minnətdarlığımı bildirmək istəyirəm. Bütün bunlar bizim birliyimizi, bizim xalqlarımızın birliyini nümayiş etdirir. Bildiyiniz kimi, Azərbaycan islam həmrəyliyi ilə bağlı məsələləri həmişə güclü təşviq edib və İSESKO Azərbaycanda çoxsaylı tədbirlər keçiribdir. Ümidvaram ki, bu belə də davam edəcək. Biz həmişə müsəlman ölkələri arasında birliyə çağırış etmişik. Sizin Ağdamda və digər yerlərdə gördükləriniz, həmçinin Ermənistan rəhbərliyinin müsəlmanların dini hisslərinə və tarixinə necə münasibət bəslədiyini göstərir. Onlar biri istisna olmaqla, bizim bütün digər məscidlərimizi dağıdıblar. Ağdamdakı məscidi onlar ona görə tam dağıtmayıblar ki, Azərbaycan Ordusu irəli gedəndə onların artilleriya hücumlarını planlaşdırmaq üçün ərazidə müəyyən bir oriyentirə ehtiyacı var idi. Onlar məsafəni ölçməli idilər. Səbəb bu idi. Lakin bizim məscidlərdə onların donuzları və inəkləri necə saxlaması ilə bağlı çoxsaylı şəkillər vardır. Bu təkcə azərbaycanlıların təhqir edilməsi deyil, bu, bütün müsəlmanlara qarşı təhqirdir. Zəngilanın işğaldan azad edilmiş ərazilərinə səfərim zamanı mən tamamilə dağıdılmış məscidə baş çəkdim. Şuşada onlar bütün məscidləri tamamilə dağıdıblar, bir məsciddən başqa. O da yarımçıq dağıdılmışdı, lakin sonra islama aid mədəni və dini məkanları qoruduqlarını nümayiş etdirmək adı altında onlar bəzi təmir işləri görməyə çalışmışdılar. Əfsuslar olsun ki, bir xarici şirkət bu təxribatçı təşəbbüsə qoşulmuş və bizim icazəmiz olmadan qanunvericiliyimizi, sərhədlərimizi pozaraq

Şuşaya gəlmişdi. Həmin xarici şirkət Azərbaycan hökumətinin icazəsi olmadan, Dağlıq Qarabağda həmin vaxt mövcud olan qanunsuz rejimin himayədarlığı altında bəzi təmir işləri görmüşdü. Beləliklə, onlar cinayətkarlarla əlbir olublar, çünki ermənilər işğal edilmiş ərazilərdə, demək olar ki, 70 məscidi dağıdıblar. Bu məscidlərdən birində təmir işləri aparmağa çalışmaq, sadəcə olaraq, onların sanki özlərini tolerant olduqlarını, müsəlman mədəniyyətinə, müsəlmanların hisslərinə hörmət etdiklərini nümayiş etdirmək cəhdi idi. Əgər onların münasibəti belə idisə, niyə digərlərini dağıdıblar və niyə digərlərini təmir etməyiblər? Şuşaya gəlmiş həmin xarici şirkət digər məscidlərin, bütün dini və mədəni irsin dağıdıldığını görmədimi? Onlar hətta bunu dağıdan separatçılardan da pis davrandılar. Lakin biz hər şeyi bərpa edəcəyik. Biz hər şeyi ilkin vəziyyətinə gətirəcəyik, əraziləri yenidən quracağıq. Əminəm ki, gələn dəfə siz bizə səfər edəndə mənim Azərbaycan mədəniyyətinin paytaxtı elan etdiyim Şuşanı da ziyarət etmək imkanınız olacaqdır.

Mənim sizinlə müzakirə etmək istədiyim məsələlərdən biri də İSESKO-nun Azərbaycanda regional mərkəzi ilə bağlı məsələdir. Bilirsiniz ki, bu məsələ son 3-4 il idi müzakirə olunurdu və biz bu müzakirələrə yenidən nəzər salmaq istəyirik. Əgər müsbət irəliləyiş olsa, düşünürəm ki, biz bunu çox tezliklə edə bilərik. Bu bizim üçün və islam həmrəyliyinin gücləndirilməsinə, islam mədəni irsinin qorunmasına töhfə verən bütün insanlar üçün çox mühüm əhəmiyyət kəsb edəcəkdir.

Cənab baş direktor, bir daha sizi salamlayıram, sizin indi – müharibə bitəndən sonra səfər etməyinizə dostluq və qardaşlıq nümunəsi kimi xüsusi önəm verirəm. Beləliklə, xoş gəlmisiniz!

**Salim bin Məhəmməd əl-Malik:** Zati-aliləri, təşəkkür edirəm. Rəhbərlik etdiyim nümayəndə heyəti ilə görüşməyiniz mənim üçün böyük şərəfdir. Mən hər zaman Sizi əzmli, həqiqətən, öz ölkəsi üçün mübarizə aparan, digərlərinə yol göstərən uzaqgörən liderlərdən biri kimi görmüşəm. Siz «Qoşulmama Hərəkatı»nın sədrisiniz. Sizin BMT Baş Assambleyasının sonuncu sessiyasındakı çıxışınıza istinad etmək istəyirəm, dediniz ki, Azərbaycan son 30 ildə 120-dən çox ölkəyə dəstək verib, çox sayda beynəlxalq forumlar təşkil edib. Bu, dünyaya böyük kömək deməkdir. Düşünürəm ki, bunun sayəsində Azərbaycan dünyada aparıcı ölkələr sırasındadır.

Zati-aliləri, əmin olun ki, Azərbaycan hər zaman bizim üçün prioritet olub və olmağa davam edəcəkdir.

Biz qələbəni qeyd etdik, çünki bu bizim bir parçamızdır, Sizin qələbəniz İSESKO-nun qələbəsinin bir parçasıdır. Bizim üzv dövlətlərimiz çox önəmlidir və biz kimliyindən asılı olmayaraq, onları hər zaman dəstəkləyəcəyik. Mənimlə birlikdə ən önəmli insanlar gəlib. Mən onların baş verənlərin şahidi olmalarını və həmçinin qələbəni qeyd etmələrini istəyirəm. Professor Rahil Qamar elm və innovasiya sektorunun rəhbəridir və İslamabadda yerləşən COMSATS Universitetinin rektoru olub. Professor Məhəmməd Zeynalabdin mədəniyyət üzrə baş katibdir və altı ay bun-

dan əvvəl Tunisin Mədəniyyət naziri idi. Səfir Xalid tərəfdaşlıq üzrə direktordur. Biz həmçinin sivilizasiya dialoqu üzrə mərkəz də qururuq. O, Sudanın Mərakeş Krallığında səfiri və Sudanın sabiq Prezidentinin xüsusi müşaviri olub. Cənab Sami Misirin ən məşhur qəzetlərindən biri olan «Əl-Əhram»ın redaktoru olub. Beləliklə, biz ilk növbədə, Sizi təbrik etmək üçün buradayıq. Ölkənizə səfər edib Sizinlə görüşmək və bu mühüm qələbənin qeyd edilməsində iştirak etməklə bağlı dəvətinizi yüksək qiymətləndiririk.

Biz işğaldan azad edilmiş ərazilərə səfər etdik və əvvəllər heç vaxt görmədiyimiz bir faciəni gördük. Tamamilə dağıdılmış, yerlə yeksan edilmiş şəhər, bu tamamilə qeyri-insani əməldir və heç bir ölçüyə sığmır. Bu, bəşəriyyət əleyhinə cinayətdir. Lakin dünən yerli hakimiyyət rəhbərlərində və vətəndaşlarda yenidən qurma əzmi və istəyinin şahidi olduq.

Mən nazirlə söhbətimdə dedim ki, hökumətin dəstəyi ilə həmin insanlar Qarabağı yenidən quracaqlar. Biz dünən görüşdüyümüz hər kəsdə məhz bunu hiss etdik. Bu istəyi görmək bizi qürurlandırdı.

* * *

*Sonra Prezident İlham Əliyev İSESKO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik və nümayəndə heyətinin üzvləri ilə xatirə şəkilləri çəkdirdi.*

*Daha sonra İSESKO-nun baş direktoru qələbə münasibətilə Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.*

**Salim bin Məhəmməd əl-Malik:** Bu, qələbəni əks etdirir. Burada Bismillahir Rəhmanir Rə-

him deyilir. Burada deyilir ki, biz qələbəni qeyd edirik və burada Allahın Məhəmməd peyğəmbərə kəlamları vardır.

**İlham Əliyev:** Çox sağ olun.

**Salim bin Məhəmməd əl-Malik:** Burada zati-aliləri Prezident İlham Əliyev üçün yazılıb, Dağlıq Qarabağda qələbəni qeyd edirik, bu bizim loqodur. Zati-aliləri, bu qılıncın 100-dən çox yaşı var.

**İlham Əliyev:** Çox sağ olun. Bizim qələbənin rəmzi dəmir yumruq idi, artıq bizdə qılınc da var. Təşəkkür edirəm.

## FÜZULİ–ŞUŞA AVTOMOBİL YOLUNUN VƏ FÜZULİ RAYONUNDA HAVA LİMANININ TƏMƏLQOYMA MƏRASİMİ

*14 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli–Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməlini qoymuşdur.*

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Azərbaycanın işğaldan azad edilmiş mədəniyyət paytaxtı Şuşa şəhərində olmuşlar.*

*Yolboyu dövlət başçısı avtomobili özü idarə etdi.*

**İlham Əliyev:** Səhər tezdən yola çıxmışıq. İstiqamət Şuşa şəhəridir. Azad edilmiş torpaqlara keçirik. Şanlı Azərbaycan Ordusu bu istiqamətdən hücum edərək, düşməni qova-qova torpaqlarımızdan çıxardı.

Füzuli rayonunun ermənilər tərəfindən dağıdılmış Qaraxanbəyli kəndi.

Füzuli–Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli

hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına yeni yol çəkiləcəkdir.

*Dövlət başçısı və xanımı yolun təməlini qoydular.*

**İlham Əliyev:** Füzuli–Şuşa yolunun təməlini qoyduq. İndi isə Füzuli hava limanının təməlini qoyacağıq və bu il hava limanının hər halda, uçuş-enmə zolağı istifadəyə verilməlidir.

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Füzuli rayonunda Beynəlxalq Aeroportun təməlini qoydular.*

*Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaqdır.*

**İlham Əliyev**: Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Aeroportunun təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Aeroportu bu il istifadəyə verilməlidir. Hər halda, uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli–Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyuldu, xarici qonaqlar Füzuli Beynəlxalq Aeroportuna gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verilib. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verilib. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq aeroport Kəlbəcər və ya Laçın rayonlarının ərazisində inşa ediləcək. İndi yer seçilir və beləliklə, iki beynəlxalq aeroportun tikintisi yaxın zamanlarda təmin edilməlidir.

Böyük qayıdış başlanır, bütün işlərə start verilib. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq – cəmi 44 gün ərzində – bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik.

Qarabağ Azərbaycandır!

## ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*14 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva yanvarın 14-də Füzuli Beynəlxalq Aeroportunun təməlqoyma mərasimindən sonra Şuşa şəhərinə yola düşmüşlər.*

*Şuşaya gedərkən dövlət başçısı avtomobili özü idarə etdi.*

**İ l h a m  Ə l i y e v:** Füzuli Beynəlxalq Aeroportunun təməlini qoyduq. Bu il Füzuli Beynəlxalq Aeroportu istifadəyə verilməlidir. Hər halda, uçuş-enmə zolağı istifadəyə verilməlidir ki, bu ildən başlayaraq vətəndaşlarımız, xarici vətəndaşlar və xaricdə yaşayan azərbaycanlılar Şuşaya təyyarə ilə rahat gələ bilsinlər. Bununla paralel olaraq, göstəriş verildi ki, Füzuli Beynəlxalq Aeroportundan beynəlxalq uçuşların təşkil edilməsi istiqamətində də işlərə başlanılsın. Eyni zamanda, Azərbaycanın digər şəhərlərindən – Lənkərandan, Naxçıvandan, Gəncədən buraya gəlib, Şuşaya rahat gedə bilərlər.

İndi isə istiqamət Şuşa şəhəridir və yol boyunca əlavə məlumat veriləcəkdir.

Füzulidən Xocavənd rayonuna gedirik. Ondan sonra da Şuşa şəhərinə gedəcəyik. Qarşımızda gözəl mənzərə açılır, gözəl, vüqarlı dağlar, dağların başında

qar, gözəl Azərbaycan diyarımızdayıq. Bu isə Şəkərcik kəndidir. Şəkərcik Füzuli şəhərinə bitişik kənddir. Füzuli şəhəri azad olunanda Şəkərcik uğrunda da şiddətli döyüşlər gedib. Baxın, düşmən işğal dövründə bütün bu əraziləri yerlə yeksan edib. Biz artıq Füzuli şəhərində olmuşuq. O dəhşətli mənzərəni Azərbaycan xalqı görüb, bütün dünya görüb və görməlidir. Ona görə göstəriş verdim ki, xarici qonaqlar Azərbaycana dəvət edilsinlər, bu bölgələrə gətirilərək, onlara erməni vəhşiliyi, əməlləri göstərilsin. Artıq bütün dünya görür ki, biz hansı vəhşi düşmənlə müharibə aparmışıq və hansı vəhşi düşməni məhv etmişik. Bu dağlar bizimdir.

Bura Xocavənd rayonunun Böyük Tağlar kəndinin ərazisidir. Baxın, bizim ölkəmiz necə gözəldir. Bütün bu ərazini işğalçılardan qəhrəman Azərbaycan Ordusu azad edib.

*Dövlət başçısı, xanımı və qızı xatirə şəkli çəkdirdilər.*

* * *

**İlham Əliyev:** Yolumuza davam edirik. Baxın, Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, qələbəyə aparan yoldur. Bu yol heç vaxt olmayıb. Qəhrəman hərbçilərimiz bu ərazilərdən keçib. Biz isə cəmi iki ay ərzində bu yolu açmışıq. Sonra yol genişləndiriləcək və asfalt döşə-

nəcək. Azərbaycan vətəndaşları Şuşaya rahat gedəcəklər.

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşa şəhərinə gəldilər.*

*Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.*

*Dövlət başçısı hərbçilərlə görüşdü və çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Əziz hərbçilər, noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək, Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirdilər.

Mən Şuşaya qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək, qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini və ondan sonra da Şuşanı işğalçılardan azad ediblər.

Əminəm ki, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən bö-

yük zərbə idi. Çünki düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir.

1992-ci ilin mayında ovaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC–Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilər öz «əməliyyat»larına bir ad vermişdilər – «dağlarda toy». Halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı. Ovaxtkı Müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, amma sonra qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər əfsanə uydurmuşdular ki, guya belə bir əməliyyat keçirilib – «dağlarda toy». İndi biz onlara elə toy tutduq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək, cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək, Şuşanı işğalçılardan azad etdilər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırıldı.

Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Bax, o gün gəldi. Xatırlayıram, erməni separatçı rejiminin bəzi «nümayəndələri» o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan «Dağlıq Qarabağ respublikası»nı tanısa və Azərbaycan Dağlıq Qarabağda öz səfirliyini açsa.

Görün nə qədər iyrənc, nə qədər təkəbbürlü ifadələr işlədilib. İndi siçan kimi oturublar, dillərini qoyublar qarınlarına. Bir kəlmə də deyə bilmirlər. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaqdır. Bütün dünya bizim qələbəmizdən danışır. Bütün dünyanın aparıcı media orqanları Azərbaycanın parlaq qələbəsi haqqında yazır, reportajlar hazırlayır. Analitik məqalələr dərc edilir, kitablar da yazılacaq.

Bizim şanlı ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə, o cümlədən hərbçilərlə çoxsaylı görüşlərimdə demişdim ki, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onu, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaq və belə də oldu, 44 günlük müharibənin hər bir günü Zəfər günü idi. Hər gün biz qabağa gedirdik. Bir gün belə, geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda müşahidə edilən bir mənzərədir. Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarla yaşa-

yış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək, 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik.

Onları məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar, rədd oldular bizim torpaqlarımızdan və biz qayıtdıq. Müharibə başlanan gündən mən deyirdim ki, rədd olun bizim torpağımızdan, dərhal öhdəlik götürün. Özü də bu öhdəliyi Ermənistanın rəhbərliyi götürməlidir, deməlidir ki, filan tarixdə mən torpaqlardan çıxıram, mən də müharibəni dayandırıram. Əks təqdirdə, sona qədər gedəcəyik. Bütün təzyiqlərə, bütün telefon zənglərinə, bütün təhdidlərə baxmayaraq, dedim ki, sona qədər gedəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Etdik də, getdik də, qovduq da və düşmən məcbur olub noyabrın 10-da kapitulyasiya aktını imzaladı və beləliklə, müharibəyə son qoyuldu.

Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbr versin. Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və o ailələr daim diqqət mərkəzində olacaqdır. Birinci Qarabağ müharibəsində həlak olmuş 9000 şəhidin ailəsinə dövlət tərəfindən artıq mənzillər, evlər verilibdir.

Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib. «Vətən Müharibəsi Qəhrəmanı» Azərbaycanın ən ali hərbi medalıdır. «Zəfər» ordeni, «Qarabağ» ordeni – bütün bu ordenlərin adlarını mən özüm təklif etmişəm. Qəsəbələrimizin, şəhərlərimizin azad edilməsində fərqlənmiş hərbçilərə o rayonların adlarını daşıyan medallar verilib. Ordumuz Şuşaya qədər qələbə yolu ilə uğurla gedərək, Cəbrayıl, Füzuli, Xocavənd rayonlarını, Suqovuşan, Hadrut qəsəbələrini, Murovdağ silsiləsini, Laçın rayonunun cənub hissəsini, Qubadlı, Zəngilan rayonlarını və noyabrın 8-də isə Şuşa şəhərini azad edibdir. Noyabrın 9-da düşmən təslim olub, ağ bayraq qaldırıb, diz çöküb və öz məğlubiyyətini etiraf edibdir.

Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm. Birinci dəfə yanvarın 14-də, bax, bu gün də yanvarın 14-də yenə buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcə-

yik. Ermənistan saxtakarlıq edərək, bütün dünyaya Şuşa haqqında uydurmalar yayırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoyublar, nə üçün bütün binaları dağıdıblar? Görün nə gündədir bu şəhər?! Daş üstə daş qalmayıb 30 il ərzində, ancaq özləri üçün villalar tikdiriblər, özləri üçün şərait yaradıblar.

Biz bu şəhəri bərpa edəcəyik. Mənim göstərişimlə böyük bir qrup ezam edildi, bütün təhlillər aparıldı. Dünən mənə ilk dəfə olaraq məruzə edildi, artıq müvafiq göstərişlər verilibdir. Yaxın zamanlarda biz Şuşanın bərpasını planlı şəkildə təmin edəcəyik. Əlbəttə, bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq. Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət belə, tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz. Bundan sonra həmişə belə olacaq. Azərbaycan Ordusu, xüsusi təyinatlılar, bizim qəhrəman övladlarımız, hərbi birləşmələrin döyüşçüləri Şuşanı və azad edilmiş bütün torpaqları göz bəbəyi kimi qo-

rumalıdırlar ki, düşmən bir daha belə cəhd etməsin. Cəhd edərsə, axırı lap pis olacaq.

Noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən çıxışımın sonunda demişdim: əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

*Sonra hərbçilərlə xatirə şəkli çəkdirildi.*

* * *

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı məscidini ziyarət etdilər.*

*Dövlət başçısı məscidə Quran hədiyyə etdi.*

**İlham Əliyev:** Saatlı məscidini ziyarət etdik, dualarımızı etdik, Məkkədən gətirilmiş Quranı Saatlı məscidinə hədiyyə etdim. Sonra Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərində olacağıq. Oraya da müqəddəs Məkkədən gətirdiyim Quranı bağışlayacağam. Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik.

Bildirməliyəm ki, ziyarət etdiyim Ağdam Cümə məscidinin əsaslı təmiri və bərpası işlərinə start verilib. Artıq mütəxəssislər oraya ezam edilib və yaxın zamanlarda təmirlə bağlı təkliflər veriləcəkdir. Eyni zamanda, Şuşa şəhərinin məscidləri də bərpa ediləcəkdir. Minarənin dağıdılması düşmənin islamofob xislətini göstərir. Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin. Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi müsəlman məscidlərini nə günə salıb. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox! Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək, həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır. Bunu dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər? Cavab versinlər buna. Mənə yox, öz xalqlarına cavab versinlər. Məscidləri dağıdan, oraya inək salan müsəlman öl-

kələri ilə dost ola bilər? Qoy onların xalqı buna cavab versin.

Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri bizdə qorunur – kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib. Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək, dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək, dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin öz gözlərinizlə baxın, görün nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Əfsuslar olsun ki, bir ölkənin şirkəti bu çirkin əməllərdə onlarla şərik olub. Əlbəttə, Yuxarı Gövhərağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və bu heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün

dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıbdır.

Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

* * *

*Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev-muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də vardır. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlət başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulubdur.*

**İlham Əliyev:** Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Mədəniyyət evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu.

Mənfur düşmən Şuşa Mədəniyyət evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini gülləbaran edibdir.

Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdı, 1982-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm ki, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrləri boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi.

Sonra müxtəlif vaxtlarda bəzi insanlar mənə müraciət etmişdilər ki, bəlkə bu büstləri Bakının hər hansı bir yerində qoyaq, orada olsun. Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq.

Dahi şəxsiyyətlərimizin büstləri bizim qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq.

Şuşaya gələn hər bir insan burada duracaq və yaxından görəcək erməni vəhşiliyini.

Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik – güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümləridir. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır.

Qarabağ Azərbaycandır!

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva keçmiş Şuşa Rayon Partiya Komitəsinin binasında oldular.*

**İlham Əliyev:** Mənfur düşmən burada özü üçün «meriya» adlı bir qurum yaratmışdı. Bu, Şuşa şəhərinin xunta başçısının qəbul otağı olub. Bu da keçmiş, batmış, gorbagor olmuş qondarma «Dağlıq Qarabağ respublikası»nın «Şuşi» şəhərinin «icra başçısı»nın otağı idi. «Şuşi» yox, Şuşa!

Unutmasınlar, dəmir yumruq yerindədir. Bu otaqda isə quldurlar istirahət ediblər. Bu da onların kitablarıdır, baxın. Bunların yeri zibilxanadır. Hamısı muzey eksponatları olacaq. Kondisioneri söküb aparıblar. Şuşadan qaçanda o qaçaqaçda vaxt tapıb kondisioneri də aparıb oğrular. Buradan meydana mənzərə açılır. Sınmış şüşələr, eyni zamanda, büstlər də buradan görünür.

Ermənilər Şuşanı tərk edərkən inzibati binalarda da kütləvi oğurluq və talançılığa yol veriblər. Məsələn, bu binadakı bütün kondisionerlər və istilik sistemi avadanlıqlarını söküb aparıblar. Bu, şübhəsiz ki, acgözlüyün və oğru xislətin təzahürüdür. Bu həm də

30 illik işğal dövründə Azərbaycan xalqının mədəniyyətini vandalizmə məruz qoyanların rəzil aqibətinin göstəricisidir.

*Dövlət başçısı, xanımı və qızı «Natəvan bulağı» ilə tanış oldular.*

**İlham Əliyev:** 1982-ci ildə atamla birlikdə burada idik, «Natəvan bulağı»nın önündə. 39 ildən sonra müzəffər ordunun Ali Baş Komandanı kimi qayıtmışam. Şuşa yenə bizimdir! Şuşa yenə Azərbaycandır!

* * *

*Dövlət başçısı Şuşa şəhərinin su və elektrik enerjisi təchizatı ilə maraqlandı.*

*Bildirildi ki, indi şəhər su ilə də, işıqla da normal şəkildə təchiz olunur.*

*Prezident İlham Əliyev sovet dövründə uşaq sanatorisi kimi fəaliyyət göstərən, işğaldan sonra ermənilər tərəfindən dağıdılmış Natəvan sarayının xan qızının evi kimi bərpa ediləcəyini bildirdi.*

*Dövlət başçısı və ailə üzvləri Natəvan sarayının önündə xatirə şəkli çəkdirdilər.*

* * *

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bülbülün dağıdılmış ev-muzeyinə də baxdılar.*

**İlham Əliyev:** Ermənilərin növbəti vandallığı, növbəti düşmənçiliyi. Görün dahi Bülbülün büstünü, evini nə günə qoyublar. Cavabını da artıqlaması ilə alıblar. Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların

qanları yerdə qalmadı. Xocalı soyqırımını, mədəni soyqırımı törədən mənfur düşmən döyüş meydanında məğlub oldu, məhv oldu. Əminəm ki, Polad gəlib atasının evini bərpa edəcəkdir.

* * *

*Dövlət başçısı, xanımı və qızı Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərini də ziyarət etdilər.*

*Prezident İlham Əliyev bu məscidlərə də Quran bağışladı.*

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Şuşadakı Qazançı kilsəsində oldular.*

*Şuşa şəhərində erməni vandalizminə məruz qalan abidələrdən biri də XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olmuşdur.*

*Şuşa şəhərinin məşhur yerində – Cıdır düzünə yaxın bir ərazidə böyük şairin məzarı üstündə inşa edilmiş məqbərə dördkünc quruluşa malikdir və mərmərlə bəzədilmişdi. Burada Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid 80-ə yaxın eksponat da sərgilənirdi. 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən eksponatlar məhv edilmişdi.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva vaxtilə Molla Pənah Vaqifin büstünün olduğu yerə gəldilər.*

**İlham Əliyev:** Bu da tarixi şəkildir. Heydər Əliyev Vaqifin büstünün önündə. Şəkildə məscidin minarələri də görünür. Vaqifin büstü ermənilər tərəfindən dağıdılıb. Onun yerində belə bir eybəcər dükan tikiblər. Bu, erməni vandalizminin növbəti təzahürüdür, növbəti cinayətdir.

*Dövlət başçısı və ailə üzvləri Vaqifin dağıdılmış məqbərəsinə baxdılar.*

**İlham Əliyev:** Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin 39 il bundan əvvəl – 1982-ci il yanvarın 14-də açılışı olmuşdur. Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlarda vardır. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü ulu öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı.

Xanın vəzirinin şərəfinə o vaxt – sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt – sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində

o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən, Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətinin əlaməti idi. Digər tərəfdən, bu məqbərənin Şuşada açılması bir daha təsdiq edirdi ki, Şuşa Azərbaycan şəhəridir.

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqda güdülən məqsəd də aydın idi ki, yavaş-yavaş, tədricən burada Azərbaycanın izi silinsin, bu ərazi erməniləşdirilsin və azərbaycanlılar öz respublikasının bu ərazisində azlıq təşkil etsinlər. Məqsəd bu idi. Ulu öndər Heydər Əliyevin dövründə – ötən əsrin 69–82-ci illərində onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndinə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibi Azərbaycan xalqının xeyrinə xeyli dəyişmişdi və 1982-ci ildə azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin 25 faizini təşkil edirdi. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər və beləliklə, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi, baş qaldıra bilməzdi.

Ulu öndərin uzaqgörənliyi, doğma xalqına bağlılığı, doğma ədəbiyyatına, mədəniyyətinə olan sevgisi bu məqbərənin tikintisində özünü göstəribdir.

Bir daha demək istəyirəm ki, sovet rəsmi ideologiyasında xanlıqlar antimilli qurum kimi qələmə verilirdi, xanlar ictimaiyyətə düşmən kimi təqdim edilirdi. Sovet dövlətinin rəsmi ideologiyası elə idi ki, sanki Azərbaycan ərazisində mövcud olan xanlıqlar insanları yalnız istismar edirdi. Azərbaycan xalqı sanki gözləyirdi ki, bu xanlıqlar ləğv edilsin və sovet hakimiyyəti yaradılsın. Təbii ki, bu cəfəngiyyatdır, Azərbaycan xalqı əsrlərboyu azadlıq, müstəqillik eşqi ilə yaşamışdır. Əfsuslar olsun ki, tariximizin böyük əksəriyyəti müstəmləkəçilik formatında keçib. Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Bizi məcbur ediblər, zorla, öz xoşumuzla yox.

Ulu öndər sovet dövründə də milli ruhun yüksək səviyyədə olması üçün çox böyük işlər görürdü. Bu məqbərənin açılışı tarixi hadisə idi. Mən o günü çox yaxşı xatırlayıram. Mən təxminən orada, kənarda durmuşdum, burada isə atam və görkəmli mədəniyyət xadimləri durmuşdular. Yadımdadır, Azərbaycan və erməni şairləri şeirlər deyirdilər. Hətta erməni şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Bu bir dostluq bayramı, dostluq tədbiri idi və heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bizim tarixi şəhərimizi əlimizdən alacaq, tarixi abidələrimizi, məscidlərimizi, bu məqbərəni bu günə salacaqdır, Azərbaycan xalqının çoxəsrlik irsini Qarabağ diyarından silməyə çalışacaqdır. Heç kimin ağlına gələ bilməzdi. Mən dəfələrlə demişəm və bir daha deyirəm – əgər Heydər Əliyev 1982-ci ildə Bakıdan Moskvaya getməsəydi, əgər onu

Moskvaya təyin etməsəydilər, o heç vaxt imkan verməzdi ki, burada separatizm baş qaldırsın, heç vaxt! Ancaq Heydər Əliyev hakimiyyətə gələndə artıq Şuşa işğal altında idi, Kəlbəcər işğal altında idi, Laçın işğal altında idi, Daşaltı işğal altında idi, bütün ətraf bölgələr işğal altında idi və Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdı.

AXC–Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar. Şuşa kimi alınmaz qalanı düşmənə təslim etdilər ki, Azərbaycanda ovaxtkı hakimiyyəti yıxsınlar və hakimiyyətə gəlsinlər. Belə də oldu. Şuşanın əldən getməsi ovaxtkı hakimiyyətin süqutuna gətirib çıxardı. Xalq Cəbhəsi bundan istifadə edib, Şuşa əldən gedəndən sonra və Laçın düşmənə təhvil veriləndən sonra hakimiyyətə gəldi.

Hər kəs bu tarixi görə bilər, bu, yaxın tarixdir. AXC–Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət törədib. Sonra nə edib? Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. AXC–Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etdilər, biabır etdilər. Ermənistan kim idi ki, biz onlara məğlub olaq? Kim idi? AXC–Müsavat, antimilli ünsürlər Şuşanı düşmənə verdilər, özləri də qaçıb gizləndilər.

Ondan sonra erməni vandalları bizim bütün şəhərlərimizi yerlə yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün

dünya da bunu görməlidir. Məscidlərimizi, qəbirlərimizi, tarixi abidələrimizi, bütün binalarımızı yerlə bir ediblər. Bu məqbərəni də yadelli düşmənlər dağıdıblar. Məqbərənin bu hissəsində naxışlar var idi, indi tarixi şəkillər var, hamısı sökülüb talan edilib, məqbərə dağıdılıbdır.

Onların ürəyində nə qədər düşmənçilik hissi olmalı idi ki, bax, bu vəhşiliyi törətsinlər. Bunu törədən Sarkisyan–Köçəryan cütlüyüdür. Bizim şəhərlərimizi bu günə salan Sarkisyan–Köçəryan cütlüyüdür. Quldurları, Xocalı cəlladlarını, özündən yalançı qəhrəman düzəldənləri biz məhv etdik. Onların ordusunu biz məhv etdik. Şuşanı onların ordusunun əlindən biz geri aldıq, qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq. Yüngül silahlarla, bıçaqlarla toplara, tanklara qarşı vuruşaraq, məhv etdik onların ordusunu. Harada idilər onlar? Qaçıb gizlənmişdilər İrəvanda. Biri burnunu soxmuşdu buraya, amma beş gündən sonra dovşan kimi qaçdı. O birisi, ümumiyyətlə, heç səsini çıxarmırdı. Üçüncüsü də var, müharibə cinayətkarı – Ohanyan, özü də burada doğulub, bizim torpağımızda. Müharibə dövründə guya Şuşanı müdafiə etməyə gəlmişdi. İti qovan kimi qovduq onu. İndi yenə sülənir Ermənistanda. Ağzını açıb çirkin sözlər deyir. Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim unutmasın bu dəmir yumruğu. Düşmənin belini qırdıq. Lazım olarsa, bir daha qırarıq. Köçəryan–Sarkisyan, Azərbaycan xalqının düşmənləri, siz buranı bu günə saldınız. Mən müzəffər ordunun Baş Komandanı kimi, gəlmişəm və burada durmuşam, öz torpağımda durmuşam.

Sizin iziniz də, tozunuz da rədd olub buradan və bir daha heç vaxt olmayacaq.

Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaqlar? Gəlin alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik!

Vaqif Poeziya Günləri bərpa ediləcək. Göstəriş vermişəm, bu il keçiriləcək. «Xarıbülbül» festivalı da bu il keçiriləcək. Biz artıq Şuşanın bərpasına başlayırıq. İndi baş plan hazırlanır. Binaların təftişi aparılıb. Şuşa Azərbaycanın mədəniyyət paytaxtı kimi, dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcək. Bu həmişə belə olub. İndi mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

* * *

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Cıdır düzündə də oldular.*

*Cıdır düzü tarixən cıdır yarışlarının keçirildiyi və Qarabağ xanlığı dövründən yerli əhalinin Novruz bayramını keçirdiyi ərazidir. Bu ərazidə bir çox milli xalq oyunları keçirilirdi. Bu oyunların qalibinə bəzən qızıl pullar, bəzən isə taxıl, buğda, məişət əşyaları veri-*

*lirdi. Bu düzdə güləş, qaçış, oxatma və sair oyunlar keçirilirdi. Sonralar həmin ərazidə at yarışları, çövkən oyunları keçirildiyinə görə bu ərazini Cıdır düzü adlandırıblar.*

**İ l h a m  Ə l i y e v:** Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq.

Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər – bütün dünya artıq bundan xəbərdardır – «Yallı» getmişlər. İzi-tozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik qələbəmizin əsas amilinə çevrildi.

Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu qələbədə böyük zəhməti var, payı vardır. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27–32 yaşı var. Onların

məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi. Gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bütün etnik qrupların nümayəndələri, bütün dinlərin nümayəndələri bir yumruqtək birləşib. Qələbəmizin rəmzi təsadüfən yumruq seçilməyib. Mən demişəm, burada – Cıdır düzündə bir daha demək istəyirəm ki, bu yumruq həm gücdür, həm birlikdir. Onsuz da bizdə birlik kifayət qədər yüksək səviyyədə idi, bundan sonra daha da güclü olacaq. Birliyi olan ölkələr qələbə qazanırlar. İradəli olan liderlər qələbə qazanırlar. Heç nəyə baxmayan, heç kimdən çəkinməyən, milli maraqları müdafiə edən liderlər qələbə qazanırlar. Azərbaycanın timsalında bunu hər kəs gördü.

Biz qələbə qazanmışıq, Ermənistan isə məğlub olub. Biz eyni zamanda, haqlıyıq. Bizim davamız haqq davasıdır. Ermənistanın davası işğalçılıq davasıdır. Haqq-ədalət zəfər çaldı, güc hesabına, iradə hesabına, siyasət hesabına, birlik hesabına!

Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

İşğal dövründə ermənilər qondarma «Dağlıq Qarabağ respublikası»nın qondarma parlamentini Şuşa şəhərinə köçürmək üçün burada bina tikməyə başlamışdılar. Ancaq şanlı Azərbaycan Ordusu düşmənin bu niyyətini puç etdi. Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildi. Qondarma rejimin parlament binasının inşası yarımçıq qaldı.

Qondarma rejim bəyan etmişdi ki, «Dağlıq Qarabağ respublikası»nın parlamentini Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək

üçün növbəti cəhd edilmişdi. Bax, bu binanı onlar «Dağlıq Qarabağ respublikası»nın parlament binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. Qondarma parlament də gorbagor oldu, status da gorbagor oldu, cəhənnəmə getdi.

Qarabağ Azərbaycandır!

*Daha sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı məktəbinin dağıdılmış binası ilə tanış oldular.*

– Dünyada onlar kimi saxtakar millət yoxdur. Bu bina da bərpa olunacaq.

*Şuşa Realnı məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olmuşlar.*

*1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı məktəbini yandıraraq, xarabazara çevirmişlər.*

## ALİ BAŞ KOMANDAN CIDIR DÜZÜNDƏ

*15 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva yanvarın 15-də səhər tezdən yenidən Cıdır düzünə gəlmişlər.*

**İlham Əliyev:** Bu gün yanvarın 15-də səhər tezdən yenə Cıdır düzünə gəldik. Artıq Şuşadan Bakıya yola düşürük. Getməmişdən əvvəl də istədik gələk bu müqəddəs, tarixi yerə, bir daha bu gözəlliyi seyr edək, Şuşaya «Çox sağ ol», «Gələn görüşlərədək» – deyək. Biz öz doğma torpağımıza qayıtmışıq, Şuşanı azad etmişik. Bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaq.

Dünən Şuşada bütün tarixi abidələri, məscidlərimizi ziyarət etdik. Ürək ağrısı ilə deyə bilərəm ki, burada olan dağıntılar hər bir Azərbaycan vətəndaşının qəlbini incidir. Amma Şuşanı dağılmış olsa da, əyilməz, əzəmətli görmək bizi hədsiz dərəcədə qürurlandırır. Şuşa ayaqdadır, Şuşa sınmayıb, əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Biz Şuşanın bütün yaralarını sağaldacağıq. Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Biz dünən gecə Şuşada qalmağa qərar verdik, halbuki Bakıya qayıtmalı idik. Ancaq mən hesab etdim ki, mütləq gecə Şuşada qalmalıyıq. Çünki Azərbaycan Prezidenti ilk dəfədir ki, Şuşaya gəlib. Bizim müs-

təqilliyimizin təxminən 30 yaşı var. Ancaq bu 30 il ərzində birinci dəfə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşaya gəlib, Şuşada qalıb və sözün düzü, Şuşadan getmək istəmir.

Şəhərin nadir memarlığı, relyefi, təbiəti, havası, aurası təkrarolunmazdır. Mən dünən qeyd etdiyim kimi, Şuşada iki dəfə 1982-ci ildə olmuşam. O vaxt burada bir neçə kütləvi tədbir keçirilmişdir. Yəni Şuşanı dünənki kimi, bugünkü kimi, bu formada görmək mənə nəsib olmamışdı. Bir daha gördüm ki, bu şəhərin nadir aurası, təbiəti, memarlığı bizim böyük sərvətimizdir.

Bu gecə cəmi 5 saat yatmışam. Saat 5-də oyanmışam, bilmirəm nəyə görə. Bəlkə dünən çox həyəcanlı idim. Çünki Şuşanı görmək, Şuşaya qayıtmaq təkrarolunmaz hissdir. Ola bilər, Şuşanın səfalı təbiəti, havası kifayət edir ki, insan heç çox yatmaq da istəmir.

Bakıya dönməzdən əvvəl yenidən gəldim buraya, Cıdır düzünə, Şuşanın tarixi yerinə ki, bir daha Azərbaycan xalqına öz sözümü deyim. Deyim ki, biz xoşbəxt xalqıq, çünki öz ərazi bütövlüyümüzü bərpa etmişik. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik. Bir daha deyim ki, Şuşa bizimdir!

Qarabağ Azərbaycandır!

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Cıdır düzündə çay süfrəsinə qonaq oldular.*

– Cıdır düzündə armudu stəkanda çay, paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*16 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi, əməkdaşlığımızın daim genişləndiyi bir daha vurğulandı. Prezident İlham Əliyev Türkiyə Prezidentini işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidən qurulma işlərinin başlanılması barədə məlumatlandırdı və artıq bu işlərdə Türkiyə şirkətlərinin fəal iştirak etdiyini məmnunluq hissi ilə qeyd etdi, bunun ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirdi.*

*Rəcəb Tayyib Ərdoğan dövlət başçımıza məlumatına görə minnətdarlığını bildirdi və öz növbəsində, Türkiyə şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında bərpa və yenidən qurulma işlərində iştirakından məmnunluq ifadə etdi.*

*Dövlət başçıları Ağdamda Türkiyə–Rusiya Monitorinq Mərkəzinin tezliklə fəaliyyətə başlamasından*

*danışaraq, bu Mərkəzin fəaliyyətinin uzunmüddətli sülhün təmin olunması işinə xidmət edəcəyini bildirdilər.*

*Türkiyə Prezidenti bundan sonra da ölkəsinin Azərbaycana dəstək verəcəyini vurğuladı.*

*Dövlət başçımız bununla bağlı təşəkkürünü bildirdi.*

## SUMQAYIT KİMYA SƏNAYE PARKINDA «AZƏRSULFAT», «GLASSİCA» ZAVODLARININ TƏMƏLQOYMA VƏ «AZERFLOAT» ŞÜŞƏ İSTEHSALI MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*18 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Sumqayıt Kimya Sənaye Parkında «Azərsulfat» MMC-nin Sulfat Turşusu İstehsalı, «Glassica» QSC-nin Şüşə Tara Məhsullarının İstehsalı zavodlarının təməlini qoymuş, «AzerFloat» QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.*

*Sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə yanaşı, sənayenin inkişafına xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər həyata keçirilir.*

*Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə yüzlərlə müasir sənaye müəssisəsi, yeni istehsal sahələri yaradılır, daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir.*

*Hazırkı dövrdə sənayenin yeni modellərin tətbiqi ilə inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qlobal çağırışlarla uzlaşan sənaye parkları və məhəllələri, aqroparklar kimi mütərəqqi mexanizmlər ixrac yönümlü məhsulların istehsalının genişləndirilməsinə, neft-qaz amilindən asılılığın daha da azaldılmasına, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabliyyətli sənayenin inkişafına və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına yeni imkanlar açır.*

*«Azərsulfat» MMC-nin «Sulfat turşusu istehsalı» layihəsi çərçivəsində tikiləcək zavodun investisiya dəyəri 6 milyon ABŞ dollarıdır. Zavodda ildə 20 min ton məhsul istehsalı nəzərdə tutulur. Bu ilin sonunda fəaliyyətə başlayacaq zavodda 30-dan çox iş yeri yaradılacaqdır.*

*Dövlət başçısı müəssisənin təməlini qoydu.*

*Bildirildi ki, təkcə son 3 ildə Azərbaycana hər il 5–10 min ton sulfat turşusu idxal edilir və bu zavodun fəaliyyətə başlaması ilə idxal yerli istehsalla əvəz olunacaqdır. Məhsulların növbəti mərhələlərdə Gürcüstana və Rusiyaya ixrac edilməsi də planlaşdırılır.*

*Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də «Glassica» Qapalı Səhmdar Cəmiyyətidir. Cəmiyyət burada Şüşə Tara Məhsullarının (butulka) İstehsalı zavodunu inşa edəcək. Müəssisənin məhsulları əsasən qida sektorunda qablaşdırılmada istifadə olunacaq. İnvestisiya dəyəri 12 milyon ABŞ dolları olan müəssisədə 160 nəfər daimi işlə təmin ediləcək.*

*Prezident İlham Əliyev zavodun təməlini qoydu.*

*Dövlət başçısına məlumat verildi ki, Azərbaycanda daxili bazarın rəngli butulkaya olan tələbatı təqribən 45–50 milyon ədəd arasında dəyişir. Zavodda 60–90 milyon ədəd müxtəlif çeşidli rəngli şüşə tara məhsullarının istehsalı nəzərdə tutulur. Yəni daxili bazarın tələbatı tam ödənilir, nəticədə ixrac perspektivi də yaranır.*

*«AzerFloat» QSC-nin Vərəqə Şüşə İstehsalı zavodu Azərbaycanda termoformalaşdırılmış şüşə hazırlanması üzrə ilk müəssisədir.*

*Ümumi investisiya dəyəri 100 milyon avro olan zavodda ildə 80 min ton müxtəlif çeşiddə vərəqə şüşə istehsal ediləcək. Müəssisənin layihələndirilməsi və qabaqcıl texnologiyalarla təchiz olunması Almaniyanın dünyada şüşəəritmə texnologiyaları sahəsində 135 illik təcrübəyə malik «HORN Glass Industries AG» şirkəti tərəfindən təmin edilib. Müəssisədə İtaliya, Finlandiya və Çin texnologiyalarından da istifadə olunur.*

*Dövlət başçısı zavodu işə saldı.*

*Məlumat verildi ki, hazırda ölkədə vərəqə şüşələrə olan tələbat tamamilə idxal məhsulları hesabına təmin edilir. Vərəqə şüşə şəffaf və ya rəngli, eyni zamanda, kiçik və böyük ölçülərdə istehsal olunur.*

*Hazırda dünyada vərəqə şüşənin 90 faizdən çox hissəsi – yüksəkkeyfiyyətli rəngli və rəngsiz (şəffaf), optik baxımdan təmiz şüşə tamamilə termoformalaşdırılma texnologiyası ilə istehsal edilir. Artıq Azərbaycanda da bu sahədə ən müasir texnologiya tətbiq olunur.*

*Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.*

**S u a l: Cənab Prezident, biz ilk növbədə, bu təməlqoymaları, eyni zamanda, istehsala başlamanı hərbi-diplomatik qələbələrimizdən sonra həm də iqtisadi sahədə uğurların davamı və Sizin prioritet kimi müəyyənləşdirdiyiniz sənayeləşmə siyasətinin növbəti təzahürü kimi qiymətləndirməliyik. Təməlini qoyduğunuz və eyni zamanda, hazırda məhsul istehsalına başlayan müəssisələrin növbəti mərhələlərdə qeyri-neft sənayesinin şaxələndirilməsi fonunda töhfəsini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə, Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda, son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti vardır. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə, insanların sağlamlığını nəzərə almışıq.

Bildiyiniz kimi, sovet vaxtında burada tikilmiş çoxsaylı müəssisələr istismar müddətini başa vurmuşdu, sıradan çıxmışdı və ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi. O müəssisələr söküldü və mənim göstərişimlə 10 il bundan əvvəl onların ərazisində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı yaradıldı. Son illər ərzində bu sənaye parkı o qədər böyüdü və genişləndi ki, artıq göstəriş verildi, əlavə torpaq sahələri tapılsın və bu istiqamətdə işlər aparılır.

Bu müəssisənin təməlini 2017-ci ildə şəxsən mən qoymuşam və şadam ki, artıq 100 milyon avro dəyərində belə böyük layihə həyata keçir və bizi vərəqə şüşələrin idxalından azad edəcək. Bu o deməkdir ki, valyuta ölkəmizdə qalacaq, yerli istehsal canlanacaq, iş yerləri yaradılacaq və iqtisadiyyatımızın şaxələndirilməsi təmin ediləcəkdir. Biz hətta dünya bazarlarında neftin qiymətinin aşağı səviyyədə olduğu bir dövrdə də öz dayanıqlılığımızı qoruya bilmişik. Mən bu yaxınlarda ilin yekunları ilə bağlı keçirdiyim müşavirədə qeyd etdim ki, bizim valyuta ehtiyatlarımız azalmayıb, hətta az da olsa, artıb. Nəyə görə? Çünki qeyri-neft sektoru uğurla inkişaf edir. Bütün dünya ölkələrində 2020-ci il iqtisadi tənəzzül ili olub, bizdə də həmçinin. Amma bizdə tənəzzül cəmi 4,3 faiz olub. İnkişaf etmiş bəzi ölkələrdə isə bu daha böyük rəqəmlərlə ölçülür. Bizdə qeyri-neft sənaye sahəsində artım 12,5 faiz olub, məhz bu kimi müəssisələrin hesabına. Sənaye, kənd təsərrüfatı, qeyri-neft sektoru, ixrac imkanları, idxaldan asılılığın azaldılması – bütün bu amillər bugünkü yeni reallığı yaradıbdır.

Beləliklə, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək. İlin əvvəlində məhz buraya gəlməyim təsadüfi deyil. Yəni 2021-ci il də artıq qələbələrlə başlayır. Əlbəttə, mənim bu il ilk səfərim hamımız üçün doğma Şuşa şəhərinə oldu. Bu da mətbuatda kifayət qədər işıqlandırılıb. İkinci səfərim isə Sumqayıtadır. Son 17 il ərzində mən Sumqayıtda bəlkə də 30 dəfə olmuşam. Hər dəfə burada olanda həm sənaye müəssisələrinin işə düşməsi, həm də şəhərsalma ilə bağlı görülən işlər, insanları narahat

edən problemlərin həlli daim diqqət mərkəzində olur. Bu gün Sumqayıt həm memarlıq, həm də ekoloji baxımdan gözəl şəhərdir, havası təmizdir, gözəl bulvarı var və iş yerləri də yaradılır. Bax, bu 3 müəssisədə 350-dən çox iş yeri yaradılıb və burada işləyənlərin əksəriyyəti məhz yerli sakinlər olacaqdır.

Biz bu müəssisələri yaratmaqla həm bu günün məsələlərini həll edirik, həm də gələcək məsələləri. Nə üçün Azərbaycanda bizə lazım olan bütün istehsalat sahələri yaradılmasın? Sadəcə olaraq, həm xarici, həm də yerli investorların ölkəmizin gələcəyinə inamı olmalıdır, bu da həmişə olub, bu gün də vardır. Gözəl investisiya iqlimi olmalıdır. Dünya Bankının «Doing Business» hesabatında biz 10 ən islahatçı ölkə sırasındayıq və dünya miqyasında 28-ci yerdəyik. Sabitlik olmalıdır, xalq–iqtidar birliyi olmalıdır, əmin-amanlıq olmalıdır, təhlükəsizlik olmalıdır və buna da biz nail olmuşuq. Artıq müharibə də başa çatıb, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qalıb. Ona görə mən tam əminəm ki, bugünkü Azərbaycana investisiyalar ilk növbədə, qeyri-neft sektoruna daha böyük həcmdə gələcəkdir. Çünki əgər əvvəlki illərdə – müharibə hələ həll olunmamış bir vəziyyətdə biz bu investisiyaları cəlb edə bilmişiksə, bu gün bunları cəlb etmək daha asan olacaqdır.

Bir də ki, ölkəmizdə islahatlar – kadr islahatları, struktur islahatları, iqtisadi, sosial sahədə islahatlar aparılır. Bu gün dünyada Azərbaycan kimi inkişaf üçün bir çox amilləri özündə ehtiva edən ölkələrin sayı azdır. Siyasi sabitlik, xalq–iqtidar birliyi, əmin-amanlıq, coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar

kadrlar – bu çox önəmlidir – ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər, heç bir ölkə ilə problemin olmaması. Ümid edirəm, müəyyən müddətdən sonra Ermənistan da deyəcək ki, onların da bizimlə heç bir problemi yoxdur. Çünki əsas məsələ bunda idi, onlar bizim torpağımızı işğal etmişdilər. Onlar bizə qarşı soyqırımı törədiblər. Onlar bizim şəhərlərimizi yerlə bir ediblər. Biz sadəcə olaraq, özümüzü lazımi səviyyədə müdafiə etmişik və işğalçıları torpaqlarımızdan qovmuşuq.

Beləliklə, ölkəmizin inkişafı üçün yeni bir dövr başlanıb. Bütün bu amillər ola-ola bu gün biz azad edilmiş torpaqlara qayıdaraq, o torpaqların potensialından istifadə edəcəyik. Orada çox böyük potensial – bərpa olunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları vardır. Yəni bu bölgə bir çoxlarının fikrinə görə, növbəti inkişafımızın aparıcı qüvvəsinə çevriləcək. Mən də, əlbəttə ki, bu fikri bölüşürəm. Sadəcə olaraq, azad edilmiş torpaqlarda hər şey planlı şəkildə aparılmalıdır, düzgün aparılmalıdır. Azad edilmiş torpaqların idarə edilməsi ilə bağlı məndə fikirlər vardır. Bu fikirlər yaxın zamanlarda həyata keçiriləcək. O bölgələrdə mövcud olan vəziyyətə uyğun müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin – şəhərsalma, dövlət orqanlarının funksiyaları. Çünki bilirsiniz, əfsuslar olsun ki, ölkəmizin müxtəlif yerlərində bəzi xoşagəlməz hallar məhz nəzarətsizlik ucbatından baş verir. Bəzi yerlərdə torpaqlar zəbt edilir, insanların əlindən alınır, qeyri-ədalətli

şəkildə bölünür. O cümlədən su resursları qeyri-ədalətli şəkildə bölünür, bəzilərinə su çatır, bəzilərinə su çatmır. Bütün bunlar bizə yaraşmır.

Biz özümüzü bu qüsurlardan təmizləməliyik və təmizləyirik. Təmizləmə prosesi gedir və gedəcəkdir. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı vardır. Yaxud da kimsə özünü toxunulmaz hesab etməsin. Azad edilmiş torpaqlarda hər şey, demək olar ki, dağıdılıb. Ona görə biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra onu başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək, mövcud qüsurlar aradan qalxsın və ölkəmizin uğurlu inkişafı təmin edilsin.

Mənim əsas işim Qarabağ məsələsinin həlli və sentyabr ayından başlayaraq gedən müharibəyə Ali Baş Komandan kimi, rəhbərlik etməyim idi. Bu gün də mənim fəaliyyətimdə o bölgənin – Qarabağ bölgəsinin bərpası xüsusi yer tutur. Bu, təsadüfi deyil, bu təbiidir. Ancaq mən ənənəvi iş fəaliyyətimə də həmişə diqqət yetirmişəm. Sumqayıta gəlməyim onu bir daha göstərir.

Müharibə başa çatdı, müzəffər ordumuz müharibədə qələbə çaldı, düşməni məğlub etdi. Azad olunmuş torpaqların bərpası üçün əlimizdən gələni edəcəyik. Hər gün mənim işimin əsas hissəsi buna həsr olunur. Ancaq digər ərazilərin inkişafı da heç vaxt yaddan çıxmayacaq, Azərbaycan xalqı əmin ola bilər. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, daha güclü Azərbaycan quracağıq.

**M ü x b i r:** Cənab Prezident, icazənizlə, müzəffər Ali Baş Komandanımıza Qələbəyə görə təşəkkür edi-

rik. Siz demisiniz ki, Qarabağ cənnətə dönəcək. Buna heç bir şübhəmiz yoxdur, təşəkkür edirik.

**İlham Əliyev:** Sağ olun.

* * *

*Azərbaycanın ilk, Cənubi Qafqazın isə ən böyük sənaye parkı – Sumqayıt Kimya Sənaye Parkında artıq qeydiyyata alınmış 24 rezidentdən 15-i istehsal fəaliyyətinə başlayıbdır. Sənaye parkında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika davam edir. 2020-ci ildə parkda 1,1 milyard manatlıq məhsul istehsal edilib ki, bu da əvvəlki illə müqayisədə 37 faiz çoxdur. İxrac isə 2019-cu illə (276 milyon manat) müqayisədə 18 faiz artaraq, 2020-ci ildə 336 milyon manat təşkil edibdir.*

*Beləliklə, Sumqayıt Kimya Sənaye Parkında təməli qoyulmuş və açılışı edilmiş müəssisələrin timsalında əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin sənayeləşmə siyasətinə uyğun olaraq, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi istiqamətində sistemli tədbirlər davam etdirilir.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Sulavesi adasında baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 yanvar 2021-ci il*

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ BAĞDAD AMREYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*19 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli cənab baş katib!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlayıram, gəlişinizə şadam. Mən bilirəm ki, siz Ağdamda və Füzulidə olmusunuz, işğalçı qüvvələrin bizim şəhərləri viran qoyduğunu özünüz görmüsünüz. Vaxtilə Qarabağın çiçəklənən, on minlərlə insanın yaşadığı Ağdam və Füzuli şəhərləri tamamilə dağıdılıb. Füzulidə bir salamat bina da yoxdur. Ağdamda da bütün binalar sökülüb, yalnız qismən dağıdılmış məscid qalıbdır. O da mənim dediyim kimi, sonradan məlum olub ki, yalnız Azərbaycan Ordusunun bu istiqamətdə hücum edəcəyi halda baş verə biləcək artilleriya zərbələrinin oriyentiri kimi, ərazidə səmtləşdirmək üçün qalıbdır. Təsadüfi deyil ki, xarici jurnalistlər Ağdamı «Qafqazın Xirosiması» adlandırıblar. Fikrimcə, eyni sözləri Füzuli şəhəri, həmçinin işğal altında olmuş başqa şə-

hərlər haqqında da demək olar. Zəngilan da, Cəbrayıl da, Qubadlı da praktiki olaraq, tamamilə dağıdılıb. Təkcə şəhərlər yox, kəndlər də. Siz Füzuliyə, Ağdama gedəndə yol boyunca yəqin ki, tamamilə dağıdılmış kəndləri də görmüsünüz. Bütün o dağıntılar Birinci Qarabağ müharibəsi başa çatandan sonra bu ərazilərdə Azərbaycanın mədəni irsinin izlərini məhv etmək üçün törədilibdir. Eləcə də azərbaycanlıların bu ərazilərə qayıtmalarına heç vaxt imkan verməmək və sırf oğurluq, qarət üçün törədilibdir. Vandallar və oğrular pəncərə çərçivələrini, qapıları, dam örtüklərini, aparılması mümkün olan nə varsa hamısını söküb aparıblar. Hər şeyin dağıdılmadığı ərazilərdə isə süni məskunlaşdırılma siyasəti aparılırdı, bu da Cenevrə Konvensiyasının ən kobud şəkildə pozulmasıdır və hərbi cinayətdir. Özü də işğalın ilk illərində Ermənistanın əvvəlki hakimiyyəti bu faktları gizlədirdisə, indiki hakimiyyət bununla fəxr edir, internetdə və özünün kütləvi informasiya vasitələrində Yaxın Şərqin digər dövlətlərinin erməni millətindən olan vətəndaşlarının buraya gəlməsi, Şuşada və digər şəhərlərdə məskunlaşması barədə videoçarxları nümayişkaranə şəkildə dərc edir, bununla da həm beynəlxalq hüquq normalarına, həm də insani əxlaq normalarına tam etinasızlıq göstərirdi.

Bir də hansı əxlaqdan danışmaq olar ki, indi bütün dünya işğalçıların törətdiyi dağıntıları görür?! Bəşər tarixində dünyada müharibələr və dağıntılar çox olub, lakin fikrimcə, XX əsrdə belə barbarlıq, vandalizm və dağıntılar, şəhərlərin və kəndlərin qəsdən məhv edilməsi görünməyibdir.

İşğaldan azad edilmiş digər ərazilərə gəldikdə isə, məsələn, Kəlbəcər, Laçın rayonlarında həm Ermənistan vətəndaşlarının, həm də əsasən diaspordan olan ermənilərin süni şəkildə məskunlaşdırılması aparılıb. Lakin noyabrın 10-da imzalanmış bəyanata müvafiq olaraq, işğalçılar həmin əraziləri tərk edəndə, onlara təxminən 20 gün vaxt verilmişdi və bu müddət ərzində onlar özlərinin tikmədiyi, qanunsuz olaraq soxulduqları evləri yandırır, meşələri qırır, bütün infrastrukturu məhv edirdilər. Laçın və Kəlbəcər rayonlarında 10-dan çox su-elektrik stansiyası vardı, onların hamısı dağıdılıb, yəni bu barbarlıqdır. Bütün dünyanın gözü qarşısında buna sadəcə, başqa ad vermək mümkün deyil. Azərbaycan işğal olunmuş ərazilərə qayıdandan sonra, beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri, jurnalistlər oraya səfər edir, hər şeyi öz gözləri ilə görürlər. Bu, misli görünməmiş vandallıqdır. Elə bil bu ərazilərdən vəhşi qəbilə keçib.

Şuşa şəhərinə gəldikdə isə, onun indiki vəziyyətinə heç kim laqeyd qala bilməz, çünki bu nadir və bənzərsiz şəhər Qafqazın incisidir. Fikrimcə, nəinki bizim regionda, dünyada onun bənzəri yoxdur. Şəhər tamamilə boşalıb, məscidlər dağıdılıb, tarix və mədəniyyət abidələri, Vaqifin məqbərəsi dağıdılıb, məzar daşı sındırılıb, Vaqifin barelyefi qırılıb, büstü məhv edilibdir. Natəvanın sarayı dağıdılıb, Bülbülün evi praktiki olaraq, yarıdağıdılmış vəziyyətdədir, Üzeyir Hacıbəylinin evi isə artıq yoxdur, onun yalnız divarları qalıb. Bu barbarlıqdır, bu, mədəni soyqırımıdır və buna heç cür haqq qazandırmaq olmaz. Müharibə qurtarıb, Azərbaycan qələbə qazanıb. La-

kin biz bunu heç vaxt unutmayacağıq və heç vaxt unutmamalıyıq. Buna görə mənim göstərişimə əsasən, bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləndə biz yəqin ki, hər şəhərdə bir məhəlləni, ola bilsin, böyük bir ərazini işğalçılardan sonra qalmış vəziyyətdə saxlayacağıq ki, Azərbaycan xalqı bunu heç vaxt unutmasın, gələcək nəsillər yadda saxlasınlar ki, biz öz torpağımızı qorumalıyıq və yalnız öz gücümüzə güvənməliyik. Əlbəttə, işğal edilmiş ərazilərdə dağıdılanların hamısını bərpa edəcəyik, bərpa prosesi başlanılıb. Fikrimcə, atdığımız ilk addımların nəticələri lap yaxın vaxtlarda görünəcək. Böyük qayıdış proqramı hazırlanır. Zənnimcə, lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik.

Hörmətli baş katib, sizə, həmçinin TÜRKSOY-un rəhbərinə müharibə dövründə və müharibədən sonra bizi dəstəklədiyinizə görə təşəkkürümü bildirmək istərdim. Türk Şurasının baş katibi müharibə dövründə dəfələrlə bəyanatlarla çıxış edib, müharibənin lap əvvəlində siz Azərbaycanı dəstəkləyən, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini, onun sərhədlərinin toxunulmazlığını dəstəkləyən bəyanat vermişdiniz. Həmçinin bəyan etmişdiniz ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanmalıdır. Bu, müharibənin praktiki olaraq, ikinci günü idi. Oktyabrın 20-də siz Gəncə şəhərinin ballistik raketlərlə bombalanmasını pisləyən bəyanatla çıxış etdiniz, Azərbaycan xalqına başsağlığı verdiniz. Daha sonra, oktyabrın sonunda siz münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində nizamlanmasının zəruri olması barədə bəyanatla çıxış etdiniz,

Ermənistan tərəfindən Cenevrə Konvensiyasının pozulması barədə danışdınız. Siz mənə noyabrın əvvəlində məktubla müraciət etdiniz, ayın 2-də isə sizinlə Bakıda görüşdük və siz Azərbaycanı dəstəklədiyinizi bir daha bildirdiniz. 44 gün ərzində dörd dəfə Türk Şurasının baş katibi adından rəsmi bəyanat verildi. Biz bunu, həmçinin hazırda sizin Azərbaycanda olmağınızı, işğaldan azad edilmiş ərazilərə səfər etməyinizi, eşitdiklərinizi və yəqin ki, qismən televizorda gördüklərinizi öz gözlərinizlə görməyinizi çox yüksək qiymətləndiririk. Buna görə də sizə bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır. Biz başqa təşkilatlara – İslam Əməkdaşlıq Təşkilatına da, «Qoşulmama Hərəkatı»na da təşəkkür edirik. Bu müddətdə bizi dəstəkləyən ölkələrə təşəkkür edirik. Ona görə ki, bu çətin vaxtda mənəvi-siyasi dəstək, əlbəttə, bizim xalqımız üçün, habelə baş verənlər barədə həqiqəti bütün dünyanın daha çox bilməsi üçün olduqca vacibdir. Bizim qələbəmizin nəticələrindən biri də o oldu ki, bu gün artıq keçən əsrin 90-cı illərinin əvvəllərində müharibəyə nəyin səbəb olması, işğalın nəticələrinin nədən ibarət olması, işğalçıların zəbt etdikləri ərazilərdə nələr törətməsi barədə heç kəsin şübhəsi yoxdur. Buna görə də həm beynəlxalq hüquq, həm Qarabağın Azərbaycana mənsub olması barədə tarixi həqiqət, həm də bu gün beynəlxalq kütləvi informasiya vasitələrinin, beynəlxalq təşkilatların əyani şəkildə gördükləri bizim haqlı olduğumuzu bir daha sübut edir. Biz 30 il ərzində bunu sübut edirdik və son nə-

ticədə döyüş meydanında işğalçıları müqəddəs torpaqlarımızdan qovaraq, silah gücünə bunu sübut etdik.

Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Azad edilmiş ərazilərin qardaş ölkələrlə birlikdə bərpa olunması dövründə fəal qarşılıqlı əlaqələrimizə ümid edirəm. Mən artıq demişəm ki, ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər. Buna görə də, əlbəttə, bu mövzu Türk Şurası çərçivəsində müzakirə ediləcək. Biz baş verənləri təhlil edəcəyik və gələcək üçün planlar quracağıq. Lakin artıq əminliklə deyə bilərəm ki, ərazilərin bərpası prosesi də bizə qardaş olan ölkələr tərəfindən dəstəklənəcək.

Əlbəttə, bizim tarix və mədəniyyət abidələrinin bərpasında TÜRKSOY-un fəal dəstəyinə ümid edirəm və buna əminəm. Ona görə ki, azad edilmiş ərazilərdə 70-ə yaxın məscid dağıdılıb, muzeylər qarət edilib, bütün sosial infrastruktur məhv edilibdir. Siz yəqin ki, Ağdamda Dram Teatrının qalan divarını görmüsünüz. Görünür, sadəcə, dağıtmaqdan yorulublar. Yəqin daha gücləri çatmayıb. Buna görə də düşünürəm ki, işğalçı qüvvələrin barbarlığını, məhz bizim mədəni-tarixi irsin məhv edilməsini dünya ictimaiyyətinə çatdırmaq, həmçinin bizim mədəni-tarixi abidələrin bərpa edilməsində bizə kömək də TÜRKSOY-un diqqət mərkəzində olacaqdır. Bu proses artıq başlanılıb. Ağdam məscidinə gəldikdə, artıq mütəxəssislər cəlb

edilib. Bir neçə gün bundan əvvəl mən Şuşaya səfər edəndən sonra bizim dini abidələrin bərpasına dair işlərin başlanılması üçün də göstərişlər verdim. Bu məsələdə Heydər Əliyev Fondu fəal rol oynayacaq. Vaqifin məqbərəsinin bərpasına dair təlimatlar da verilib. Mən onun bu il bərpa olunmasını tapşırmışam. Biz bu il Vaqif Poeziya Günlərinin keçirilməsini bərpa etməyi, həmçinin «Xarıbülbül» festivalını keçirməyi planlaşdırırıq. Mənim Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etməyim təsadüfi deyil. Fikrimcə, Şuşa bərpa edildikdən sonra öz təbiətinə, landşaftına, tarixinə, tarixi abidələrinə görə haqlı olaraq bütün regionun mədəniyyət paytaxtına çevrilə bilər. Əlbəttə, ümid edirəm ki, siz bizə növbəti gəlişinizdə Şuşaya səfər edəcəksiniz. İndi biz artıq oraya yol çəkirik. Lap yaxın vaxtlarda, bu il beynəlxalq aeroport da açılacaq. Buna görə də Şuşa hələ çox beynəlxalq tədbirlər görəcək, bütün tarixboyu olduğu kimi, öz dostlarını, qardaşlarını qəbul edəcəkdir.

Sizə bir daha təşəkkür edirəm, bizi dəstəklədiyinizə görə sağ olun və sizə ən xoş arzularımı bildirirəm.

**Bağdad Amreyev:** Çox sağ olun, cənab Prezident. Bizi bu gün qəbul etdiyinizə görə təşəkkür edirəm. Əvvəla, Azərbaycanın Qarabağda qazandığı zəfər münasibətilə başda zati-aliniz olmaqla, bütün qardaş Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Azərbaycan torpaqlarının azad edilməsi sadəcə, Azərbaycanın zəfəri deyil, bütün türk dünyasının böyük zəfəridir. Bu zəfər daim yanınızda olan türk xalqlarını çox sevindirmiş və qürurlandırmışdır. Türk

dünyası adından Sizə bir daha təşəkkür edirəm, Azərbaycan və türk dünyasına yeni zəfərlər diləyirəm.

Cənab Prezident, bizə ruh yüksəkliyi verən çıxışınıza görə Sizə dərin təşəkkürümü bildirirəm.

Həqiqətən, dünən biz işğaldan azad edilmiş ərazilərdə olduq, praktiki olaraq, tamamilə dağıdılmış obyektləri öz gözlərimizlə gördük. Əlbəttə, bu dağıntıların mənzərəsi olduqca təəssüf doğurur.

Mən mətbuat nümayəndələri ilə görüşüm zamanı dedim ki, bu torpaqlar heç vaxt sahibsiz olmayıb, bu torpaqların həqiqi sahibləri var, onlar bu torpaqları özlərinə qaytardılar və çox tezliklə bu torpaqları, Füzulinin çiçəklənən torpaqlarını, şanlı Ağdam torpağını və azad olunmuş digər əraziləri bərpa edəcəklər. Bu yerlərin əvvəlki şöhrəti, əvvəlki zəngin siması çox tezliklə bərpa olunacaqdır.

Noyabrın 2-də biz ölkələrimizin biznes qurumlarının rəhbərləri ilə birlikdə burada olduq. O vaxt biz Azərbaycanın bərpa layihələrində bizim ölkələrin sahibkarlarının iştirakının mümkünlüyü məsələsini müzakirə etdik. Hazırda bu məsələ fəal müzakirə olunur. Tezliklə Bakıda bizim sahibkarların bu işlərdə iştirakına dair böyük biznes-forum keçirəcəyik. Dünən mən digər türk təşkilatlarının rəhbərləri – TÜRKSOY-un baş katibi Düsen Kurabayeviç Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə olmaq şərəfinə nail oldum. Biz mədəni abidələrin bərpasında təşkilatlarımızın iştirakının mümkünlüyünü də müzakirə etdik və tezliklə bizim ölkələrlə birlikdə müvafiq iş aparacaq,

görüşlər keçirəcək, bu abidələrin bərpasında Azərbaycanla birlikdə necə iştirak edəcəyimizi müzakirə edəcəyik.

Ölkələrimiz arasında ilkin danışıqlar bizim ölkələrimizin və xalqlarımızın Azərbaycana kömək etmək əzminin çox möhkəm olmasını göstərdi. Biz hər il türk dünyasının mədəniyyət paytaxtını elan edirik. 2022-ci ildə Şuşanın belə paytaxt elan olunmasını və mədəni xarakterli çoxlu tədbirlərin keçirilməsini təklif edirik. Bu tədbirlər Şuşanın bütün türk və islam dünyası üçün böyük mədəni əhəmiyyətini vurğulayar. Dünən biz bu məsələni Xarici İşlər naziri cənab Bayramovla da müzakirə etdik. Siz icazə versəniz, biz bu işə başlayarıq və 2022-ci ildə Şuşada 20-yə yaxın mədəni tədbir keçirərik.

Əminik ki, o vaxta qədər Şuşa bərpa olunacaq, öz əvvəlki simasını alacaqdır. Biz həmişə Sizin yanınızda olmuşuq və həmişə Sizin yanınızda olacağıq.

Fürsətdən istifadə edib, Türk Şurasının cari gündəliyi barədə Sizə məruzə etmək istərdim. Biz Bakı Sammiti zamanı Sizin verdiyiniz göstərişə əsasən, 2020–2025-ci illər üçün türk strategiyasının və 2020–2040-cı illər üçün türk dünyası barədə təsəvvürlərimizi əks etdirən sənədin hazırlanmasını başa çatdırmışıq. Bu sənəd türk dünyasının gələcəyini, bizim əməkdaşlığımızı, bütün sahələrdə – siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, turizm, gənclər və başqa sahələrdə inteqrasiyanı əks etdirir.

Hazırlanmış həmin «Turkic World Vision–2040» sənədinin surətini bu gün mən Sizə təqdim etməyi özümə şərəf sayıram. Siz Türk Şurasının üzvü olan öl-

kələrin nazirlikləri və idarələri ilə sıx əlaqəli şəkildə işlənib hazırlanmış bu sənədi bəyənəndən sonra qarşıdakı sammitdə biz bir il ərzində onu reallaşdırmağa başlayacağıq.

Biz həm də bu il martın sonunda Türküstanda Qazaxıstanın birinci Prezidenti – elbası Nursultan Abişeviç Nazarbayevin təşəbbüsü ilə qeyri-rəsmi sammitə, həmçinin bu ilin payızında İstanbulda keçirilməsi planlaşdırılan Türk Şurasının növbəti sammitinə hazırlaşırıq. Fikrimcə, bu sammitlər Sizin dəstəyinizlə bizim inteqrasiyanın inkişafı, türk dünyasının birləşməsi üçün daha bir dönüş anı olacaqdır.

Cənab Prezident, Türk Şurası bizim münasibətlərin daha da dərinləşməsi üzrə bütün zəruri işləri görməyə həmişə hazırdır. Türk dünyası üçün gördüyünüz bütün işlərə görə çox sağ olun.

* * *

*Sonra Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un baş katibi Düsen Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdilər, türkdilli dövlətlərin və xalqların mədəni irsinə həsr edilmiş kitabları dövlət başçısına təqdim etdilər.*

## ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də sovet imperiyasının Bakıda törətdiyi qanlı 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət etmişlər.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etdilər.*

*Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*Otuz bir il əvvəl yanvarın 20-də ölkəmizə ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına axışaraq, buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə gətirib çıxardı. Ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması to-*

*talitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Sovet imperiyasının hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnmiş 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə qovuşmağa can atan Azərbaycan xalqının həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.*

*Qanlı 20 Yanvar Azərbaycan xalqının tarixində təkcə faciə günü yox, həm də şərəf səhifəsidir. Xalqımız həmin gün üstünə şığıyan dəhşətli kabusa qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpası uğrunda savaşmaq əzminə sahibdir. Təəssüf ki, həm SSRİ, həm də ovaxtkı Azərbaycan rəhbərliyi bu qanlı qırğının bilavasitə təşkilatçıları və iştirakçıları olduqlarından nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə, bu cinayəti ört-basdır etmək üçün əllərindən gələni etdilər.*

*Qara 20 Yanvar faciəsindən bir gün sonra ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı nümayəndəliyinə gedərək, sovet rejiminin Azərbaycanda həyata keçirdiyi qanlı aksiyasını törədənləri ifşa etməsi o dövrdə xalqımıza dayaq, təsəlli oldu.*

*Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi. Uzun illər Azərbaycana rəhbərlik etmiş, keçmiş ittifaq*

*dövlətində yüksək vəzifələrdə çalışmış, zəngin idarəçilik təcrübəsi və sarsılmaz iradəsi ilə SSRİ rəhbərliyinin qəzəbinə tuş gələrək, təqaüdə göndərilmiş Heydər Əliyev yenə də bütün məhrumiyyətlərə baxmayaraq, o ağır günlərdə xalqının yanında, onunla birgə, həmrəy oldu.*

*Ulu öndər Heydər Əliyev öz bəyanatı ilə əslində Azərbaycanda gedən proseslərə qiymət verdi. O, SSRİ rəhbərliyinin Azərbaycana münasibətdə qətiyyən xoşniyyətli davranmadığını diqqətə çatdırdı. Hakimiyyəti həm də onda qınadı ki, Azərbaycana siyasi savadı olmayan, kölə xislətli insanın rəhbər təyin olunması xalqla hakimiyyət arasında dərin uçurumun yaranmasına səbəb olub. Bu uçurumun yaradılması da, ilk növbədə, mərkəzi hakimiyyətin maraqlarına xidmət edirdi və bununla belə, gələcəkdə yaranacaq bütün problemlərin, konkret desək, 20 Yanvar faciəsinin baş verməsinə səbəb olmuşdu.*

*Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 1990-cı il noyabrın 21-də bu hadisəyə ilk dəfə siyasi-hüquqi qiymət verdi. Sovet hakimiyyətinin süqutundan və Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bir müddət başları hakimiyyət uğrunda mübarizəyə qarışan Azərbaycan rəhbərləri xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması və cinayətkarların müəyyənləşdirilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra – 1994-cü ildə 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı.*

*Beləliklə, 20 Yanvar faciəsi tarixi yaddaşımızda təkcə kədərli hadisə, hüzn günü kimi qalmadı, onun xalqımızın taleyində və tarixindəki yeri məna və mahiyyət baxımından daha mötəbərdir. 20 Yanvar Azərbaycan xalqının tarixinə həm də fədakarlıq və qəhrəmanlıq zirvəsi kimi daxil oldu. Xalqımız XX yüzilliyin sonunda əvəzedilməz qurbanlar verdi, amma əsrlərlə iftixar ediləcək, qürur duyulacaq müstəsna iradə və cəsurluq, milli ruhun sarsılmazlığı ilə müşayiət olunan bir tarix qazandı. Bütün dünyaya sübut etdi ki, biz bir millət olaraq, haqq-ədaləti bərqərar etməyə və öz ləyaqətimizi qorumağa qadirik. Odur ki, Qanlı Yanvar Azərbaycan xalqı üçün faciə olmaqdan daha çox ləyaqətini qorumaq baxımından ən uca zirvə, bu yolda hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli səhifədir. Tariximizin bu səhifəsi imperiya güllələrinin səsindən açılsa da, şəhidlərimizin qanı ilə yazıldı. Həm də əbədi.*

*Bu gün ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Azərbaycan xalqının 30 illik həsrətinə son qoyaraq, torpaqlarımızı erməni işğalından azad edib yeni reallıq yaratdı, dəmir yumruq qalib gəldi.*

*İndi həmin ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işlərinə başlanılıb və məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmağa hazırlaşırlar. Azərbaycan xalqı artıq Şəhidlər xiyabanına qürurla, ağ üzlə gedir. Çünki şəhidlərimizin ruhu artıq şaddır.*

## TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*21 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında Xəzər dənizində «Dostluq» yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı videokonfrans formatında görüş keçirmişlər.*

*Türkmənistan və Azərbaycan prezidentləri görüşdə çıxış etdilər.*

### Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədovun çıxışı

Hörmətli İlham Heydər oğlu, ilk növbədə, Sizi salamlamaq və bu görüşdə iştirak etdiyinizə görə təşəkkürümü bildirmək istərdim.

Bu gün Türkmənistan ilə Azərbaycan arasında ənənəvi dostluq, qardaşlıq münasibətlərində çox əhəmiyyətli gündür. Türkmənistan Hökuməti ilə Azər-

baycan Respublikası Hökuməti arasında Xəzər dənizində «Dostluq» yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında qarşılıqlı Anlaşma Memorandumu imzalanır. Ölkələrimiz tərəfindən aparılmış çoxillik böyük işin nəticəsi olan bu sənəd enerji sahəsində əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, iki nəhəng enerji dövlətinin çox zəngin birgə potensialının üzə çıxarılmasına, Xəzər dənizi regionunda davamlı energetikanın, geniş qarşılıqlı faydalı və beynəlxalq tərəfdaşlığın inkişafı üçün ən əlverişli şəraitin yaradılmasına yönəldilibdir.

Məlum olduğu kimi, 2020-ci ilin mart ayında mənim Bakıya rəsmi səfərim zamanı Sizinlə birlikdə Xəzər dənizində energetika sahəsində ikitərəfli əməkdaşlıq imkanlarını ətraflı müzakirə və təhlil etdik. Nəticədə Xəzərdə iri karbohidrogen resursları yataqlarından birində birgə iş barədə razılaşma əldə edildi. Həm də vurğulandı ki, həmin fəaliyyətin əsas prinsipləri həmrəylik, qarşılıqlı hörmət və dəstək olacaq. Buna görə də həmin yatağı «Dostluq» adlandırmaq barədə bizim ümumi qərarımız dərin rəmzi məna daşıyır. Şübhə yoxdur ki, yuxarıda qeyd etdiyim razılaşmalar, qəbul olunmuş qərarlar bizim münasibətlərimizin, dövlətlərimizin tarixinə həqiqi mehriban qonşuluğun, məsuliyyətin və uzaqgörənliyin, hüquq bərabərliyinin və bir-birinin mənafelərini nəzərə almağın parlaq nümunəsi kimi daxil olacaq. Onlar Türkmənistan və Azərbaycan xalqları, həmçinin bizim dövlətlərimiz arasında dostluğu və qardaşlığı daha da möhkəmləndirəcəkdir.

Şübhəsiz ki, memorandumun imzalanması Xəzərdə Türkmənistan ilə Azərbaycanın energetika sahəsində əməkdaşlığının prinsipcə yeni mərhələsi deməkdir. Möhkəm beynəlxalq hüquqi bazaya əsaslanan birgə iş üçün yeni imkanlar açılır, bizim regiona sistemli və uzunmüddətli əsasda iri xarici investisiyalar axını üçün əlavə ciddi stimullar yaranır, ölkələrimizin milli iqtisadiyyatlarının inkişafına və dinamik artımına, yəni yeni iş yerlərinin yaradılmasına, insanların həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsinə güclü təkan verilir. Fürsətdən istifadə edib iki ölkənin mütəxəssislərinə və ekspertlərinə, həmçinin məhz bu sənədin hazırlanmasına töhfə verənlərin hamısına dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, bu gün Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər ardıcıl və dinamik inkişaf edir. Biz beynəlxalq arenada ümumi sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinin tərəfdarları kimi uğurla əməkdaşlıq edirik. Bizim ölkələr qlobal gündəliyin prinsipial əhəmiyyətli mövzusu olan enerji təhlükəsizliyi, beynəlxalq enerji axınlarının konfiqurasiyası barədə təsəvvürlər və bütövlükdə dünya energetikasının arxitekturası haqqında eyni fikirdədir. Burada iki dövlətin beynəlxalq təşkilatlarda da fəal və səmərəli qarşılıqlı fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Türkmənistan onun beynəlxalq təşəbbüslərinin daim dəstəklənməsinə və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası qətnamələrinin Türkmənistan tərəfindən irəli sürülmüş bir sıra layihələrinin həmmüəllifi kimi, Azərbaycana təşəkkürünü bildirir. Öz növ-

bəmdə, mən də Türkmənistanın Azərbaycanın beynəlxalq qurumlarda irəli sürdüyü təşəbbüsləri və təklifləri dəstəkləməyə hazır olduğunu təsdiq edirəm. Bu kontekstdə Azərbaycan Respublikasının «Qoşulmama Hərəkatı»nda parlaq sədrliyini qeyd etmək istərdim. Bu, Azərbaycanın və onun rəhbərliyinin yüksək nüfuzunu təsdiq etdi. 2019-cu ilin oktyabr ayında «Qoşulmama Hərəkatı»nın uğurla keçirilmiş Zirvə görüşünün gedişində Türkmənistan ədalətli və şəffaf prinsiplərə, enerji mənbələrindən, onların çatdırılması vasitələrindən bərabərhüquqlu istifadəyə, həm istehsalçıların, həm də enerji resurslarını nəql edənlərin və istehlakçıların maraqlarının nəzərə alınmasına və tanınmasına əsaslanan qlobal enerji təhlükəsizliyi sisteminin formalaşmasında qoşulmayan dövlətlərin fəal iştirakının tərəfdarı kimi çıxış edib.

Xəzər mövzusunda qarşılıqlı fəaliyyət Türkmənistan–Azərbaycan əməkdaşlığının ən mühüm istiqamətidir. Ölkələrimiz Xəzər dənizinin möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və səmərəli tərəfdaşlıq zonasına çevrilməsinə böyük töhfə verir. Bütün Xəzəryanı ölkələrin fikrincə, Xəzər dənizi sülh və mehriban qonşuluq dənizidir. 2018-ci ilin avqust ayında sahilyanı beş dövlətin rəhbərləri tərəfindən Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın imzalanması çoxtərəfli birgə işin nəticəsi idi. Bu Konvensiya Xəzərdə, o cümlədən enerji sahəsində əməkdaşlığın yeni mərhələsinin başlanğıcı oldu. 2019-cu ildə Türkmənbaşı şəhərində keçirilmiş birinci Xəzər İqtisadi Forumunun gedişində biz Azərbaycan hökumətinin nümayəndə heyəti ilə çox məzmun-

lu və faydalı danışıqlar apardıq, bir sıra mühüm razılaşmalar əldə etdik. Bu gün biz məhz ikitərəfli münasibətləri ardıcıl olaraq möhkəmlətməyin zəruriliyini şüurlu olaraq anlamağa, Xəzərdə əməkdaşlığın əsas istiqamətləri üzrə uzunmüddətli maraqların üst-üstə düşməsinə, Xəzərdə bizim dövlətlər, digər sahilyanı ölkələr, həmhüdud regionlar və iri beynəlxalq biznes üçün yəqin ki, açılan çox böyük perspektivlərin başa düşülməsinə əsaslanırıq.

Nəqliyyat sferası da tərəfdaşlığımızın mühüm sahəsidir. Türkmənistan və Azərbaycan bu gün əfqanıstanlı, gürcüstanlı və türkiyəli tərəfdaşları ilə birlikdə Asiya ilə Avropa arasında ən mühüm kontinental magistrala çevrilməli olan Lapis-Lazuli nəqliyyat dəhlizinin səmərəli fəaliyyəti üzərində fəal iş aparır. Türkmənistan və Azərbaycan həm də Xəzər dənizi–Qara dəniz nəqliyyat yolu sisteminin yaradılmasının təşəbbüskarlarındandır.

Hörmətli İlham Heydər oğlu, biz birlikdə böyük, mühüm və çox perspektivli bir layihəyə başlayırıq. Əminəm ki, «Dostluq» yatağında Türkmənistanın və Azərbaycanın birgə işi uğurlu və səmərəli olacaq. Bu tarixi sənədi dəstəklədiyinizə, xalqlarımız, dövlətlərimiz arasında dostluğun, qardaşlığın, əməkdaşlığın inkişafı və möhkəmlənməsi işinə böyük diqqətinizə və şəxsi töhfənizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Sizi bugünkü əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə möhkəm cansağlığı, dövləti və siyasi fəaliyyətinizdə yeni uğurlar arzu edirəm. Həmçinin bütün Azərbaycan xalqına sülh, fi-

ravanlıq və rifah arzularımı çatdırmağınızı Sizdən xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. İmzalama mərasiminin hörmətli iştirakçıları, icazə verin, çıxış üçün sözü dərin hörmətlə zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə verim. Buyurun, qardaş.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Çox sağ ol, qardaş. Hörmətli cənab Prezident, hörmətli Qurbanqulu Məlikqulıyeviç! Sizi görməyimə çox şadam. Təəssüf edirəm ki, bu gün qardaş Türkmənistanda keçirilən mərasimdə iştirak edə bilmədim, lakin aydındır ki, pandemiya səbəbindən bu hələ mümkün deyil. Bununla belə, bu gün biz videokonfrans formatında yenidən görüşmək, mühüm məsələləri müzakirə etmək, bizim qardaşlıq, dostluq münasibətlərinin xarakterini və ruhunu əks etdirən əlamətdar sənədin imzalanmasında iştirak etmək imkanına malikik. Qəti əminəm ki, ölkələrimiz arasında bütün səviyyələrdə, ilk növbədə, prezidentlər səviyyəsində sıx siyasi qarşılıqlı fəaliyyət olmasaydı, bugünkü sənədin imzalanması mümkün olmazdı.

Hörmətli Qurbanqulu Məlikqulıyeviç, Sizinlə birlikdə səy göstərmişik ki, ölkələrimizin müvafiq strukturları məhz prezidentlərin onlara göstərdiyi kimi – əməkdaşlıq, dostluq, qarşılıqlı dəstək və qarşılıqlı maraqların düzgün başa düşülməsi ruhunda işləsinlər. Mən bugünkü sənədi tarixi sənəd adlandırardım, çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq

Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcəkdir.

Son illərdə ölkələrimiz arasında münasibətlər çox müsbət dinamikaya malikdir. Ali səviyyədə qarşılıqlı səfərlərimizin xronologiyasına nəzər salmaq kifayətdir. Son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb. Müqayisə üçün deyim ki, bizim qarşılıqlı münasibətlərimizin tarixi ərzində 100-dən çox sənəd imzalanıb ki, onların yarısı son 3 ildə olub. Ən sevindirici hal ondan ibarətdir ki, bütün bu sənədlər, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə etdiyimiz razılaşmalar yerinə yetirilir. Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaqdır.

İkitərəfli qarşılıqlı fəaliyyət məsələlərinə də toxunmaq istərdim. Siz bu barədə danışdınız. Mən Sizin sözlərinizi tamamilə dəstəkləyirəm ki, biz beynəlxalq strukturlarda bir-birimizi fəal dəstəkləyirik. Fürsətdən istifadə edib Sizi və bütün qardaş türkmən xalqını keçən il qeyd etdiyiniz Türkmənistanın neytrallığının yubileyi münasibətilə təbrik etmək istərdim. Bir daha qeyd etməliyəm ki, Azərbaycan BMT Baş

Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həmmüəllifi olub. «Qoşulmama Hərəkatı»nın sədri kimi, Azərbaycanın fəaliyyətini qiymətləndirdiyinizə görə də Sizə təşəkkürümü bildirirəm. Sədrlik çərçivəsində bizim təşəbbüsləri, xüsusən «Qoşulmama Hərəkatı»nın Zirvə görüşünün, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin, həmçinin BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələləri üzrə xüsusi sessiyasının keçirilməsi təşəbbüslərini dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Belə qarşılıqlı dəstək bizim münasibətlərimizin ruhunu və xarakterini əks etdirir. Əminəm ki, biz milli maraqlarımızın təmin edilməsi üçün gələcəkdə də beynəlxalq arenada fəal qarşılıqlı əlaqə saxlayacağıq.

Hörmətli Qurbanqulu Məlikqulıyeviç, nəqliyyat sahəsində əməkdaşlığımızı Siz artıq qeyd etdiniz. Bu əməkdaşlıq həm bizim ölkələr, həm də qonşularımız üçün böyük perspektivlər açır. Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıbdır. Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla, daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu bizim bü-

tün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq.

Türkmənistanın nəqliyyat-logistika potensialının möhkəmləndirilməsi işində Sizin şəxsi xidmətlərinizi xüsusi qeyd etmək istərdim. Ona görə ki, tranzitlə bağlı məsələlərdə qonşu ölkələrlə qarşılıqlı fəaliyyət olmasa, nəticə əldə etmək mümkün deyil. Bu gün bizim nəqliyyat-logistika infrastrukturunun yüksək səviyyəsini qeyd etməyimiz Türkmənistanın və Azərbaycanın bu sahədə məqsədyönlü fəaliyyətinə dəlalət edir. Bu bizim regionda və hətta bu regiondan uzaqda – Avrasiya məkanında yerləşən bütün ölkələr üçün çox böyük imkanlar yaradır. Ona görə ki, nəqliyyat sferası da enerji sferası kimi, ölkələri birləşdirir. Bir daha demək istəyirəm ki, bu gün bizim bu memorandumu imzalamağımız əlamətdar hadisədir, onun müsbət nəticələri olacaqdır.

Sizin dediyiniz regional əməkdaşlıq məsələsinə də toxunmaq istərdim. Azərbaycan, Türkmənistan və Türkiyə arasında, həmçinin Azərbaycan, Əfqanıstan və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatı artıq mövcuddur. Bu əməkdaşlıq konkret nəticəyə, biznes fəaliyyəti, iri infrastruktur layihələrinin reallaşdırılması üçün daha əlverişli şəraitin yaradılmasına yönəlibdir.

Hörmətli Qurbanqulu Məlikqulıyeviç, əlbəttə, Sizin müdrik rəhbərliyinizlə Türkmənistanın durmadan inkişaf etməsini xüsusi qeyd etmək istərdim. Siz öz ölkənizi inamla inkişaf, sosial həyatın ən mühüm məsələlərinin həlli, dövlətinizin sərhədləri ilə məhdudlaşmayan infrastruktur layihələrinin həyata keçirilməsi

yolu ilə irəli aparırsınız. Həmhüdud dövlətlərdə də Sizin investisiya siyasətiniz barədə bilirəm. Bunsuz «Lapis-Lazuli» layihəsini bu gün reallaşdırmaq mümkün olmazdı. Bəlkə də çoxları bilmir ki, bu gün Əfqanıstandan yüklərin Türkmənistana, Azərbaycana və daha sonra digər ölkələrə çatdırılmasını təmin edən dəmir yolu məhz Türkmənistanın qonşu Əfqanıstanda investisiyalara dair müdrik siyasəti nəticəsində inşa edilibdir. Qeyd etmək istərdim ki, məhz region ölkələri ilə əməkdaşlığa bizim ümumi yanaşmamız və həm bizim üçün, həm də qonşularımız üçün vacib məsələlərin həlli tamamilə yeni reallıq yaradır.

Siz də qeyd etdiyiniz kimi, Xəzər mehriban qonşuluq və əməkdaşlıq dənizidir. Əminəm ki, Xəzər ölkələrimiz arasında təbii sərhəd olduğuna baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək. Fürsətdən istifadə edib Sizdən xahiş etmək istərdim ki, qardaş Türkmənistan xalqına ən xoş arzularımı, firavanlıq, inkişaf, sülh və rifah diləklərimi çatdırasınız.

Diqqətinizə görə sağ olun.

**Qurbanqulu Berdıməhəmmədov:** Məzmunlu çıxışınıza, Türkmənistana və onun xalqına ünvanlanan xoş sözlərinizə görə təşəkkür edirəm.

İndi isə biz Sizin razılığınızla, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mühüm tarixi sənədin imzalanması mərasiminə başlayırıq.

* * *

*Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində «Dost-*

*luq» yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalandı.*

*Sənədi Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini, Xarici İşlər naziri Rəşid Meredov imzaladılar.*

* * *

**Qurbanqulu Berdıməhəmmədov:** Hörmətli İlham Heydər oğlu, ilk növbədə, Sizi və bizim bütün azərbaycanlı qardaşlarımızı tarixi sənədin – Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində «Dostluq» yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması münasibətilə təbrik edirəm. Ölkələrimizin və xalqlarımızın həyatında həqiqətən, əlamətdar olan bu hadisə dostluğun və əməkdaşlığın möhkəmləndirilməsinə istiqamətlənib. Uzun illər ərzində Türkmənistan və Azərbaycan iki müstəqil dövlət kimi, ən geniş istiqamətlər spektri üzrə münasibətləri ardıcıl olaraq inkişaf etdirir. Qeyd etmək lazımdır ki, ikitərəfli səmərəli əlaqələrin əsasını ən yüksək dövlət səviyyəsində qurulan açıq, konstruktiv və səmimi siyasi dialoq təşkil edir. Sizinlə mütəmadi görüşlərimizin gedişində siyasi, diplomatik, ticari, iqtisadi, mədəni, humanitar və sair sahələrdə ikitərəfli tərəfdaşlığa dair mühüm mövzular müzakirə edilir. Sözsüz ki, belə əlaqələrin nəticələri iki dövlətin hökumət və

xarici siyasət idarələrinin sonrakı fəaliyyətinin predmetinə çevrilir.

Mən bu kontekstdə Türkmənistanın və Azərbaycanın dövlət strukturlarının, yəni prezidentlər səviyyəsində əldə olunmuş razılaşmaların icrasına məsuliyyət daşıyan qurumların fəaliyyətinin aktivləşdirilməsini məmnuniyyətlə qeyd etmək istərdim. Bu öz növbəsində, hər iki tərəfi Türkmənistan–Azərbaycan əməkdaşlığında böyük potensial imkanlardan istifadəyə yönəlmiş yeni ideyaların və təşəbbüslərin axtarılmasına və icrasına stimullaşdırmalıdır. İmzalanmış memorandumun əhəmiyyəti məsələsinə qayıdaraq, Sizin diqqətinizi bir daha ona yönəltmək istərdim ki, bu sənəd strateji istiqamətdə – enerji sahəsində Türkmənistan–Azərbaycan tərəfdaşlığında prinsipcə yeni mərhələ açır. Bunun üçün zəruri olan hər şey – həm siyasi iradə, həm texniki və texnoloji təchizatın yüksək səviyyəsi, həm yüksəkixtisaslı kadrlar, həm də neft-qaz sahəsində zəngin iş təcrübəsi vardır. Lakin Xəzərdə birgə uğurlu fəaliyyətin əsas rəhni əsrlərboyu türkmən və Azərbaycan xalqlarında mövcud olan möhkəm qardaşlıq telləridir. Xəzər regionunda möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraitinin yaradılmasında Türkmənistanın və Azərbaycanın töhfəsini və səyini xüsusi vurğulamaq istəyirəm. Məhz bizim iki ölkənin yüksək siyasi və diplomatik fəallığı nəticəsində son onilliklərdə Xəzəryanı dövlətlərin mütəmadi əsasda Zirvə görüşləri və digər yüksək forumlarının keçirilməsi mümkün olub, Xəzəryanı ölkələrin indiki və gələcək tələblərinə cavab verən, Xəzər dənizində təhlükəsizlik, iqtisadiyyat və

ekologiya kimi mühüm sahələrdə çoxtərəfli qarşılıqlı fəaliyyətin əsas parametrlərini müəyyən edən beynəlxalq hüquqi baza yaradılıb. Fikrimcə, bu çox cəhətdən Türkmənistan ilə Azərbaycan arasında qarşılıqlı anlaşmanın yüksək səviyyəsi və Xəzər problemlərinə aid bütün məsələlərin həllinə bizim yanaşmalarımızın ümumiliyi sayəsində mümkün olubdur.

Mən Türkmənistan–Azərbaycan münasibətlərinin vəziyyətini bütövlükdə çox yüksək qiymətləndirirəm, ikitərəfli qarşılıqlı fəaliyyətin və tərəfdaşlığın səmərəliliyini və müsbət dinamikasını qeyd etmək istəyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizi bugünkü tarixi hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə bir daha möhkəm cansağlığı, çoxşaxəli dövləti fəaliyyətinizdə gələcək uğurlar, qardaş Azərbaycana sülh, xoşbəxtlik və firavanlıq arzu edirəm. Diqqətinizə görə bir daha təşəkkür edirəm. Əlbəttə, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Heydər oğlu Əliyevə bir daha söz vermək istərdim. Buyurun, qardaş.

**İlham Əliyev:** Sağ ol, əziz qardaş. Artıq qeyd etdik ki, bu gün bizim münasibətlərimizdə tarixi gündür. Əminəm ki, bugünkü imzalanma mərasimi regional əməkdaşlığın inkişafı üçün çox müsbət səmərəyə malik olacaqdır. Siz artıq qeyd etdiniz ki, Xəzəryanı ölkələrin əməkdaşlığı da çox dinamik, qarşılıqlı anlaşma və qarşılıqlı dəstək ruhunda inkişaf edir, bunun nəticəsində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb. Xəzəryanı ölkələr xoş məram, siyasi iradə nümayiş etdiriblər. Çoxillik uzun

diskussiyalardan sonra enerji resurslarının mənimsənilməsi, habelə Xəzərin qorunması üzrə birgə fəaliyyət üçün ölkələrə yeni imkanlar açan Konvensiya razılaşdırılıb. Biz birgə səylərimizlə bundan sonra da xalqlarımıza bu qədər nemətlər bəxş edən bu nadir su hövzəsini qorumaq üçün nə lazımdırsa etməliyik. Bu gün imzalanma prosesini müşahidə edərək düşündüm ki, əcdadlarımız bugünkü mərasimi görsəydilər, yəqin ki, şad olardılar. Necə deyərlər, onların ruhu şaddır. Onlar bizə görə, iki qardaş xalqın əl-ələ, çiyin-çiyinə birlikdə inamla irəliləməsinə, bir-birini dəstəkləməsinə, öz xalqlarının gələcəyi naminə əməkdaşlıq etməsinə, bununla da ölkələrimizin hələ illər boyu, onilliklər boyu davamlı inkişafını təmin etməsinə görə qürur duyardılar.

Onu da qeyd etmək istərdim ki, bugünkü mərasim ölkələrimizin müstəqilliyinin, suverenliyinin, iqtisadi potensialının möhkəmləndirilməsi üzrə çoxillik gərgin fəaliyyətinin nəticəsidir.

Bu gün Türkmənistan və Azərbaycan beynəlxalq arenada tam əsasla müstəqil xarici və daxili siyasət barədə danışa bilən ölkələrdir. Təəssüf ki, artıq bu gün dünyada belə hallara az-az rast gəlirik. Bizim ölkələrimiz özlərini tamamilə təmin edən ölkələrdir. Onlar istər beynəlxalq kreditlərdən, istər xarici köməkdən, istərsə də xarici təsirin hər hansı başqa formasından və növündən asılı deyil. Bu ölkələr öz milli-mənəvi, əxlaqi ənənələrinə möhkəm sadiqdir. Bu bizi irəliyə aparan əsasdır.

Bu gün Türkmənistan və Azərbaycan nisbətən gənc müstəqil dövlətlərdir. Bizim müstəqil dövlətlərə

çevrilməyimizdən hələ 30 il keçməyib, lakin bu illər ərzində çox böyük uğurlar qazana bilmişik. Məsələn, bu gün inamla irəliləyirik, sosial rifah, iqtisadi inkişaf, qlobal transmilli layihələr sahəsində çox mühüm məsələləri həll edirik. Ölkələrimiz investisiyalar üçün açıqdır. Xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırır, ona görə ki, əmindirlər, onların vəsaitləri qorunacaq. Bizim ölkələrdə siyasi sabitliyə əmindirlər, o da bu gün ən mühüm inkişaf amilidir. Sabitlik olmadan inkişaf mümkün deyil. Sabitlik tərəqqiyə, rifaha, investisiyalara, ən iri beynəlxalq şirkətlərin diqqətinə və bununla da ölkələrin beynəlxalq aləmdə rolunun, onların təsirinin möhkəmləndirilməsinə gətirib çıxarır. Bu gün ölkələrimizin həm tarixi, həm də mədəni baxımdan oxşarlığı, ortaq köklərimiz, ortaq dilimiz, ortaq dinimiz barədə danışarkən, biz, əlbəttə, bütün bu müsbət cəhətləri səmərəli əməkdaşlığa transformasiya etmişik. Beləliklə, bu gün biz sadəcə, Xəzərdə bir yataq haqqında memorandum imzalamırıq, bu gün biz münasibətlərimizin gələcək uğurlu inkişafında çox mühüm addım atırıq.

Hörmətli Qurbanqulu Məlikqulıyeviç, Sizi təbrik etmək, qardaş türkmən xalqına bir daha ən xoş arzularımı bildirmək, Sizə möhkəm cansağlığı, təşəbbüslərinizdə uğurlar arzu etmək istərdim. Abadlıq, şəhərsalma sahəsində çox böyük səylərinizi də qeyd etmək istərdim. Mən bilirəm ki, Siz həm Aşqabadda, həm də digər şəhərlərdə şəhərsalma layihələrinə şəxsən rəhbərlik edirsiniz. Buna görə də Sizin dostlarınız, qardaşlarınız kimi, Aşqabada gələndə biz ürək-

dən sevinirik ki, müasir, gözəl, sakinlər üçün rahat şəhər yaradılıb. Bu Sizin ölkənin inkişafına yönəlmiş çoxillik səylərinizin və öz xalqınıza bağlılığınızın, ona sədaqətinizin nəticəsidir. Sonda bizim birliyimizi bir növ təsdiqləyərək, Türkmənistanda da aydın başa düşüləcək sözləri demək istəyirəm – yaşasın Azərbaycan–Türkmənistan dostluğu!

**Qurbanqulu Berdıməhəmmədov:** Çıxışınıza görə çox sağ olun, qardaş.

## XALQ ARTİSTİ ELDAR QULİYEVƏ

Hörmətli Eldar müəllim!

Sizi – Azərbaycanın görkəmli kino xadimini 80 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür və möhkəm cansağlığı diləyirəm.

Sizin zəngin yaradıcılığınız milli kino sənətinin parlaq səhifələrindəndir. Dünya kinematoqrafiyasının mühüm nailiyyətlərindən məharətlə bəhrələnərək, yaratdığınız çoxsaylı filmlər Azərbaycan kino salnaməsində xüsusi yer tutur.

Siz Azərbaycan mədəniyyəti və tarixinin yetirdiyi görkəmli şəxsiyyətlərə unudulmaz ekran həyatı bəxş etmisiniz. Ölkəmizin hüdudlarından kənarda da Azərbaycan mədəniyyətini müvəffəqiyyətlə təmsil etməyiniz təqdirəlayiqdir. Milli kinematoqrafiyanın inkişafı sahəsində uzunmüddətli səmərəli xidmətlərinizə görə Siz yüksək dövlət mükafatları ilə təltif edilmisiniz. Novator ruhlu böyük yaradıcı şəxsiyyət kimi, Sizin daim axtarışlarla dolu sənət yolunuz gənc kinematoqrafçılar nəsli üçün bundan sonra da bir məktəb olacaqdır.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2021-ci il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**VLADİMİR ZELENSKİYƏ**

Hörmətli cənab Prezident!

Xarkov şəhərindəki Ahıllar evində baş vermiş yanğın nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Ukrayna xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2021-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİF İLƏ GÖRÜŞ

*25 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifi qəbul etmişdir.*

**İlham Əliyev:** Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz!

**Məhəmməd Cavad Zərif:** Təşəkkür edirəm, cənab Prezident. Mən Prezident Ruhaninin ən xoş arzularını və salamlarını Sizə çatdırıram.

**İlham Əliyev:** Çox sağ olun. Mənim də ən səmimi salamlarımı və yeni ildə ən xoş arzularımı cənab Prezidentə çatdırın. İl artıq başlanıb və mən planlarımızı müzakirə etmək, görülmüş işlərə yenidən nəzər salmaq üçün sizi Azərbaycanda qəbul etməyə şadam. Biz ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən çox məmnunuq. Bildiyiniz kimi, biz çoxsaylı – prezidentlər səviyyəsində 10-dan çox, eləcə də digər yüksəkrütbəli rəsmilər səviyyəsində görüşlər keçirmişik. Bu görüşlərin hamısı çox səmərəli olub. Bu yaxınlarda ölkənizdə səfərdə olan Baş Nazirin müavini Şahin Mustafayev mənə aparılmış müzakirələr və razılaşmalar barədə hesabat verdi.

Biz planlaşdırdığımız bütün işləri həyata keçirmişik. Biz son bir neçə ildə iki qardaş ölkənin çox yaxın olduğu siyasi, eləcə də iqtisadi, nəqliyyat, enerji sahələrində çox yaxşı nəticələr görürük.

Bizim bu gün diqqətimizdə olan Şimal–Cənub nəqliyyat dəhlizi kimi, bütün layihələr, enerji infrastrukturu ilə bağlı layihələr uğurla inkişaf edir. Şimal–Cənub nəqliyyat dəhlizi işləyir. Mənə indicə məlumat verildi ki, ötən il yükdaşımaların həcmi, demək olar ki, 20 faiz artıb. Bu çox müsbət nailiyyətdir. Baxmayaraq ki, bu layihəni tam şəkildə başa çatdırmamışıq, biz bu istiqamətdə hərəkət edirik.

Regionda yeni vəziyyətlə əlaqədar yeni imkanlar, sözsüz ki, özəl investorlar, həmçinin dövlət qurumları üçün əməkdaşlığa geniş qapılar açır. Hazırda yeni nəqliyyat əlaqələri müzakirə mərhələsindədir. Sözsüz ki, bizim Xudafərin su anbarı ilə bağlı əməkdaşlığımız və elektrik stansiyasının tikintisi ilə əlaqədar gələcək planlar artıq çox aktiv fazadadır. Ümidvaram ki, qarşıdakı bir neçə ildə bu layihəni tamamlaya və hər iki tərəfi yeni elektrik enerjisi istehsalı ilə təmin edə biləcəyik. Həmçinin bizim bir neçə il əvvəl yüksək səviyyədə razılaşdırdığımız layihə – Ordubad və Marazad Su-Elektrik stansiyaları ilə bağlı işlər uğurla gedir. Beləliklə, bizim geniş gündəliyimiz var. Bundan əlavə, ümidvaram ki, tezliklə çay üzərindən yeni körpünün təməlqoyma mərasimi də keçiriləcəkdir.

Bizim müzakirə edəcəyimiz çox məsələlər vardır. Mən ilk növbədə, ikitərəfli əlaqələrimizi, onların səviyyəsini, inkişaf tempini, nailiyyətləri və yeni planları

yüksək qiymətləndirdiyimi bildirmək istərdim. Əlbəttə, biz işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasında iştirak edəcək şirkətlər arasında İran şirkətlərini görməyə çox şad olarıq. Bu təbiidir, çünki dediyim kimi, yalnız dost ölkələr bizim tərəfdaşımız olacaq. Sözsüz ki, İran şirkətlərinin bizə yaxın yerləşməsi, logistika və böyük təcrübə kimi üstünlükləri vardır. Beləliklə, cənab nazir, bir daha xoş gəlmisiniz!

**Məhəmməd Cavad Zərif:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Əvvəlcə, Sizi və Azərbaycan xalqını ərazilərinizi azad etməyiniz münasibətilə təbrik etmək istərdim. Ölkəniz və region baxımından bu qələbə Sizin rəhbərliyiniz və Azərbaycan xalqının mətanəti sayəsində mümkün olubdur. Ümid edirik ki, bu, region dövlətləri arasında dinc və normal münasibətlərin başlanğıcı olacaqdır. Mən Sizin «3+3» əməkdaşlıq formatı təklifinizə uyğun olaraq, regionun 6 ölkəsini ziyarət edəcəyəm, yəni 5 üstəgəl İran. Sizin sülhlə bağlı təqdim etdiyiniz baxışınızın müzakirəsini və onun reallığa çevrilməsini təmin etmək üçün çalışacağam, çünki region ölkələrin bir-biri ilə əməkdaşlıq edə bilməsi hamımızın maraqlarına uyğundur.

Ölkənizin ərazi bütövlüyünün bərpası və işğala son qoyulması, habelə azərbaycanlıların öz doğma yurdlarına qayıtmaq imkanı əldə edildikdən sonra artıq normal vəziyyət mövcuddur və İran bu işdə yardımçı olmaq arzusundadır. Biz Sizin dostunuz olmaqdan əlavə, yaxın qonşuyuq və əhalinin qayıdacağı, yenidən qurulma işlərinin aparılacağı ərazilərinizin bərpası baxımından digər ölkələr ilə müqayisədə üstünlüyə

malikik. Biz o insanları ailə və soydaş hesab edirik. Arazın hər iki sahili boyu hər zaman soydaşlıq və dostluq münasibətləri mövcud olubdur.

Energetika, yenidən qurulma və geri dönəcək əhalinin yaşayışı üçün vasitə ola biləcək kənd təsərrüfatı kimi sahələr bizim üçün prioritet təşkil edir və şirkətlərimiz işə başlamağa hazırdır. Zati-aliniz tərəfindən qeyd edilən layihələrə gəldikdə, bildirmək istəyirəm ki, biz Sizin rəhbərliyiniz altında bu günə qədər həyata keçirdiyimiz səfərlər, o cümlədən ölkənizin Baş Nazirinin müavini və Xarici İşlər nazirinin İrana olduqca uğurlu səfərlərini yüksək qiymətləndiririk. Biz Şimal–Cənub və Cənub–Qərb dəhlizləri çərçivəsində həmin sahələr üzrə işləmək arzusundayıq. Buraya elektrik enerjisinin istehsalı, energetika, Xudafərin və Qız qalası hidroqovşaqları ilə bağlı əməkdaşlıq və digər məsələlər də aiddir. Çox şadıq ki, rəsmilərinizin İrana səfərləri zamanı bu layihələr üzrə sürətli irəliləyiş əldə olunub və artıq biz ölkələrimiz arasında daha uzun birgə dostluq sərhədinə sahibik.

**İ l h a m  Ə l i y e v:** Bildiyiniz kimi, mən Xudafərin ərazisinə səfər edərkən həmin sərhədi dostluq sərhədi adlandırdım. Bu məhz dost və qardaş xalqların sərhədidir.

# FRANSA RESPUBLİKASININ AVROPA VƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ JAN BATİST LÖMUAN İLƏ GÖRÜŞ

*26 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransa Respublikasının Avropa və Xarici İşlər Nazirliyinin Dövlət katibi Jan Batist Lömuanı qəbul etmişdir.*

*Dövlət katibi Jan Batist Lömuan 4 il əvvəl Azərbaycana səfərini və Bakıda Fransa–Azərbaycan Universiteti – UFAZ-ın yeni tədris binasının açılışında iştirakını məmnunluqla xatırlatdı.*

*Söhbət zamanı regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı, Azərbaycan–Fransa əlaqələrinin gündəliyinə toxunuldu.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.*

## NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ RƏŞAD NƏBİYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*26 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Rəşad Nəbiyevi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Siz Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, Siz bu etimadı doğruldacaqsınız.

Rəhbərlik edəcəyiniz sahələrə mən daim böyük diqqət göstərmişəm, bu gün də göstərirəm. Son illərdə bu sahələr uğurla inkişaf edib. Mən Prezident vəzifəsinə seçiləndə həm nəqliyyatda, həm də rabitə sahəsində vəziyyət bizi qane etmirdi. O vaxt yüksək texnologiyalardan, ümumiyyətlə, söhbət getmirdi, yollar bərbad vəziyyətdə idi, dəmir yolları infrastrukturu köhnəlmişdi, dəniz nəqliyyatı sahəsində hər hansı bir irəliləyiş yox idi, əksinə, bizim donanmamız olduqca köhnəlmişdi. Bütövlükdə bu sahədə vəziyyət ürəkaçan deyildi. Görülmüş tədbirlər nəticəsində bu gün Azərbaycan nəqliyyat sahəsində dünyada lider döv-

lətlərdən biridir. Bunu Azərbaycan vətəndaşları da görür, eyni zamanda, Azərbaycan beynəlxalq təşkilatların reytinqlərində daim yüksək yerlər tutur. Təkcə Davos Dünya İqtisadi Forumunun hesabatına baxmaq kifayətdir, hər kəs görsün ki, bu sahədə çox ciddi islahatlar aparılır və Azərbaycan reytinqlərə görə dünya miqyasında qabaqcıl yerlərdədir. Avtomobil yollarının keyfiyyətinə görə 24–27-ci yerləri bölüşürük. Dəmir yollarının səmərəliliyinə görə biz dünyada 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdəyik. Yəni bu yüksək yerləri əldə etmək böyük səylər, düşünülmüş siyasət tələb edirdi. Əlbəttə, bu yeni vəziyyəti nəqliyyat infrastrukturuna qoyulmuş vəsait yaradıbdır. Nəqliyyat sahəsinə qoyulmuş vəsait bu gün ölkəmizin iqtisadi, xüsusilə qeyri-neft sektorunun inkişafına da müsbət təsir göstərir. Çünki yol olmayan yerdə inkişaf da olmur. Yol olmayan yerdə fermer öz məhsulunu bazara çatdıra bilmir. Dəmir yolları olmayan yerdə heç bir tranzit imkanından söhbət gedə bilməz. Ona görə biz ilk növbədə, ölkə daxilində infrastrukturu tamamilə yenidən qurduq. Eyni zamanda, ölkəmiz üçün çox vacib olan və uzunmüddətli inkişaf strategiyamıza uyğun olan tranzit imkanları da yaratdıq. Son 17 il ərzində 17000 kilometrdən çox avtomobil yolu çəkilib, həm magistral yollar, həm kənd yolları, həm də şəhərlərarası yollar. Bu proses bu gün də davam etdirilir. Eyni zamanda, azad edilmiş torpaqlarda da yol infrastrukturunun yaradılmasına bu il start verildi. Biz bu işləri planlı şəkildə görəcəyik. Füzulidən Şuşa şəhərinə açılmış

yeni yol onu göstərir ki, biz bu işləri faktiki olaraq, ən qısa müddət ərzində görə bilərik.

Ölkə daxilində dəmir yolu nəqliyyatı sahəsində önəmli layihələr icra edilib, dəmir yollarımızın reabilitasiyası layihələri icra olunub. Bakı dairəvi dəmir yolu inşa edilib və bu, insanların rahatlığı üçün çox önəmli hadisədir.

Müxtəlif şəhərlərdə dəmir yolu vağzalı inşa edilib.

Əlbəttə, Bakı–Tbilisi–Qars dəmir yolunun Azərbaycanın təşəbbüsü ilə inşa edilməsi bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat xəritəsini yaratdı. Bizim tərəfdaşlarımız hazırda bu yoldan istifadə edərək, öz məhsullarını müxtəlif istiqamətlərə çatdırırlar. Qeyd etməliyəm ki, Azərbaycan ərazisindən keçən yolların çoxşaxəli olması bizim imkanlarımızı xeyli artırır. Pandemiya dövründə bütövlükdə bütün dünyada iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, bildirməliyəm ki, Şimal–Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi təxminən 20 faiz artıbdır. Bizim dəmir yolu infrastrukturumuzdan bir çox ölkələr istifadə edir. Hazırda Çin–Qazaxıstan–Xəzər dənizi–Azərbaycan–Avropa marşrutu, eyni zamanda, Əfqanıstan–Türkmənistan–Xəzər dənizi–Azərbaycan–Avropa marşrutu mövcuddur. Bakı–Tbilisi–Qars dəmir yolunu faktiki olaraq, Lapis-Lazuli yolu ilə birləşdirdik və əlbəttə ki, burada çoxşaxəli nəqliyyat infrastrukturu öz rolunu oynadı. Çünki bizim imkanlarımız genişlənib. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə istismara verilmiş Bakı Gəmiqayırma zavodunda bütün növ gəmilər istehsal olunur və biz bu istehsalı hər il artırırıq. Hazırda zavodda tankerlər,

Ro-Ro gəmiləri və yük gəmiləri istehsal olunur. Biz bu sahədə xaricdən asılılığı aradan qaldırmışıq, minlərlə iş yeri açmışıq və neft-qaz əməliyyatlarında iştirak edən şirkətlər üçün də imkanlar yaratmışıq. Onlar da öz sifarişlərini bu zavoda verirlər.

Biz Xəzər Gəmiçiliyini müasirləşdirmişik, Xəzərdə ən böyük donanmaya sahibik və hər il donanmaya yeni gəmilər təqdim edilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizində yükdaşımaların təşkili üçün əvəzolunmaz rol oynayır. Birincisi, biz limanı Bakı şəhərindən çıxardıq. Bu, Bakının ekoloji vəziyyətinə müsbət təsir göstərdi, eyni zamanda, yeni istirahət zonası yaradıldı. Ələtdə ən müasir dəniz ticarət limanının işə düşməsi bizim imkanlarımızı böyük dərəcədə artırıbdır.

Hava nəqliyyatına gəldikdə, təkcə onu demək kifayətdir ki, bu gün bizim təyyarə parkı ən müasir parklardan biridir. Həm yük təyyarələrimiz, həm sərnişin təyyarələrimiz müasirdir, dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Bakıdakı Heydər Əliyev Beynəlxalq Aeroportu beşulduzlu hava limanıdır və dünyada belə hava limanlarının sayı 10-a yaxındır. MDB-də isə artıq neçə ildir ki, Heydər Əliyev Beynəlxalq Aeroportu 1-ci yerdədir.

Mənim göstərişimlə digər şəhərlərimizdə inşa edilmiş hava limanları bizim nəqliyyat potensialımızı yüksək dərəcədə gücləndirir. Son illərdə 7 hava limanı inşa edilibdir. Onlardan 6-sı beynəlxalq statusa malikdir və bütün növ təyyarələri, o cümlədən ən ağır yük təyyarələrini qəbul edə bilir. Bildiyiniz kimi, Füzuli şəhərində yeni beynəlxalq hava limanının inşası-

na start verilib və azad edilmiş torpaqlarda – ya Laçın, ya Kəlbəcər rayonlarının ərazisində ikinci beynəlxalq hava limanı inşa ediləcəkdir.

Bir sözlə, nəqliyyat sektoruna göstərilən diqqət və aparılan düşünülmüş siyasət, bax, bu reallığı yaradıbdır. Bu gün nəqliyyat sektorumuz həm müasirdir, həm də ölkə qarşısında duran vəzifələri icra etməyə imkan verir. Eyni zamanda, bu sahəyə qoyulan milyardlarla dollar səviyyəsində sərmayələr artıq bizim qeyri-neft iqtisadiyyatımıza öz müsbət təsirini göstərir. Nəqliyyat sektoruna qoyulan sərmayələr 1-2 ilə, hətta 5–10 ilə geri qayıdan sərmayələr deyil. Bu, uzunmüddətli sərmayələrdir. Bu sərmayələr insanların rahatlığına və ölkənin uzunmüddətli dayanıqlı inkişafına nail olmaq üçün qoyulubdur. Digər sahələrə gəldikdə, burada da müsbət dinamika, tərəqqi vardır. Hesab edirəm ki, Azərbaycan rabitə və yüksək texnologiyalar sahəsində bölgədə mərkəzi rol oynayır. Təsadüfi deyil ki, artıq dünya miqyasında böyük nüfuz qazanmış «BakuTel» sərgisi ənənəvi olaraq Bakıda keçirilir.

Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbərləri ilə mənim çoxsaylı görüşlərim göstərir ki, bizdə bu sahəyə qoyulan investisiyalara və yetirilən diqqətə beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymət verilir. Hesab edirəm ki, biz ölkə daxilində rabitə sahəsində bütün əsas məsələləri həll etmişik. İnternet istifadəçilərinin sayı 80 faizdən çoxdur. Hər kəs bilir ki, Azərbaycanda internet azaddır, heç bir senzura, heç bir məhdudiyyət yoxdur.

Əlbəttə, mən texnoloji inkişafla bağlı görülmüş işlər sırasında peykləri qeyd etməliyəm. Bu sahəyə rəh-

bərlik edən şəxs kimi, Siz bütün bu işləri yaxşı bilirsiniz. Biz peykləri orbitə çıxaranda bəziləri sual verirdilər ki, bu nə üçün lazımdır? Ancaq həyat göstərdi ki, bu bizə çox lazımdır. Həm müharibə dövründə, həm müharibədən sonrakı dövrdə peyklərdən istifadə bizə çox böyük üstünlük təmin etdi.

Bizim həm telekommunikasiya, həm Yer səthini müşahidə edən peyklərimiz qarşıda duran bütün vəzifələri icra etmək üçün imkan yaradır. Biz məhdud sayı olan kosmik klubun üzvüyük. Burada kadr hazırlığı önəmli rol oynayır. Bu sahədə çalışan kadrlar artıq bizim ümumi intellektual potensialımızı gücləndirirlər. Eyni zamanda, Vətən müharibəsi dövründə düşmənin hərəkətlərini onlayn formatda izləmək və onların təxribatlarının qarşısını almaq bizə əlavə üstünlük yaratdı. Təsadüfi deyil ki, Vətən müharibəsi, Azərbaycanın apardığı əməliyyatlar dünyada hərbi ekspertlər tərəfindən XXI əsrin müharibəsi adlandırıldı. Çünki bu, texnoloji inkişaf baxımından bir yenilikdir.

Müharibədən sonra – hazırda bizim bərpa işləri ilə bağlı planlarımız üçün də peyklərin çox böyük əhəmiyyəti vardır. Sizin mənə təqdim etdiyiniz məlumatlar əsasında biz indi daha böyük səmərə ilə minatəmizləmə işləri görürük. Eyni zamanda, kənd təsərrüfatının, meşə fondunun, su resurslarının, ekoloji vəziyyətin gələcək inkişafı ilə bağlı peykdən ötürülən məlumatlar xüsusi əhəmiyyətə malikdir. Biz burada heç bir ölkədən asılı deyilik. Eyni zamanda, gələcəkdə bərpa işlərini düzgün təşkil etmək üçün bu imkanlar, əlbəttə ki, bizə böyük üstünlük yaradır. Bir sözlə, Azərbaycanda həm nəqliyyat, həm texnologiyalar,

həm də rabitə sahələrində görülmüş işlərə birmənalı şəkildə müsbət qiymət vermək olar. Bu müsbət qiyməti, o cümlədən dünyanın aparıcı maliyyə qurumları və Davos Dünya İqtisadi Forumu veribdir.

Gələcək vəzifələrə gəldikdə, bu müsbət dinamika saxlanılmalıdır. Eyni zamanda, heç kimə sirr deyil ki, dünyada texnologiyalar çox sürətlə inkişaf edir və biz addımlarımızı bu inkişafa uyğun şəkildə atmalıyıq. Əlbəttə, Azərbaycanda texnologiyaların inkişafı sahəsində daha böyük addımlar atılmalıdır. Xüsusilə gəncləri bu işlərə biz daha geniş miqyasda cəlb etməliyik. Mən istedadlı gənclərlə görüşlər əsnasında gördüm ki, onların bəziləri öz biliklərini, innovasiyaları həyata keçirmək üçün xaricə üz tuturlar. Misal üçün, startaplarla bağlı bizim siyasətimiz müsbətdir. Amma buna baxmayaraq, bu istedadlı gənclərlə görüşlər əsnasında aydın oldu ki, onların bir çoxu xaricdə fəaliyyət göstərir və Azərbaycana gəlib-gedirlər. Biz elə bir şərait yaratmalıyıq ki, istedadlı gənclərimiz Azərbaycanda fəaliyyət göstərsinlər, öz biliklərini burada tam realizə edə bilsinlər və ölkə iqtisadiyyatına, ölkəmizin güclənməsinə xidmət etsinlər. Ona görə yeni texnologiyaların Azərbaycanda tətbiqi prioritet məsələlərdən biridir. Burada ilk növbədə, dünyada artıq üzə çıxmış ən müasir texnologiyaların Azərbaycanda tətbiqindən söhbət gedir. Bunu biz mütləq etməliyik. Ən müasir texnologiyalar Azərbaycanda bütün sahələrdə tətbiq edilməlidir.

Eyni zamanda, istedadlı insanların fəaliyyəti daha düzgün təşkil edilməlidir ki, Azərbaycan texnologiyaların istehsalçısı kimi də öz rolunu oynasın və öz sö-

zünü desin. Məsələn, nə üçün biz ictimai xidmətlər sahəsində texnologiyaları icad edən və ixrac edən ölkəyə çevrilə bilmişik? Çünki qarşıya düzgün hədəflər qoyulub, kadr təminatı düzgün seçilib və Prezident tərəfindən bu sahəyə daim diqqət göstərilibdir. Ancaq bu diqqət bütün qurumlar tərəfindən göstərilməlidir. Çünki mənim tərəfimdən verilən tapşırıq bəzi hallarda müəyyən müddət ərzində icra edilir, sonra icra edilmir, ya unudulur, yaxud da hansısa başqa xoşagəlməz hallar meydana çıxır. Ona görə dövlət qurumları, nazirliklər, dövlət şirkətləri mənim göstərişlərimi axıra qədər icra etməlidirlər və belə olan halda, heç bir yerdə axsama olmayacaqdır.

Yeni texnologiyaların tətbiqi imkan verəcək ki, biz bundan sonra da öz hərbi gücümüzü daim yüksək səviyyədə saxlaya bilək. Bu gün Azərbaycan döyüş meydanında öz üstünlüyünü göstərdi. Qəhrəman övladlarımızın şücaəti, fədakarlığı, eyni zamanda, texniki təchizat və yeni texnologiyaların tətbiqi müharibədə qələbənin qazanılmasının əsas amillərindən biridir. Texnoloji təminat, əlbəttə ki, bizə əlavə imkanlar yaratdı. Ancaq mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, torpaqları azad edən Azərbaycan əsgəridir, Azərbaycan zabitidir. Bayrağı azad edilmiş torpaqlara gətirən də, yüksəklərə qaldıran da Azərbaycan vətəndaşıdır.

Buna baxmayaraq, biz texnoloji inkişaf sahəsində daim qabağa hədəflənməli, hərbi sahədə yenilikləri Azərbaycana gətirməliyik. Nəzərə alsaq ki, bu sahədə aparıcı ölkələrlə çox sıx dostluq əlaqələrimiz var və Azərbaycana texnoloji ixracla bağlı hər hansı bir

məhdudiyyət yoxdur, biz bu sahədə daim qabaqlayıcı addımlar atmalıyıq. Hər zaman öz siyasətimizi elə qurmalıyıq ki, Azərbaycanın hərbi potensialı, müdafiə qabiliyyəti daim yüksək səviyyədə olsun və heç vaxt heç kim bizə qarşı hər hansı bir təxribat törətməyə belə, cəhd etməsin.

Azad edilmiş torpaqlarda bərpa işlərini apararkən mütləq yüksək texnologiyalardan istifadə olunmalıdır. Hazırda minalardan təmizləmə prosesi gedir.

Bununla paralel olaraq, şəhərsalma layihələri icra edilir. Şəhərsalma layihələri hazır olandan sonra biz artıq praktiki inşaat işlərinə start verəcəyik. Burada infrastruktur layihələri ilə bərabər, mütləq nəqliyyat və texnologiya sahələri də diqqət mərkəzində olmalıdır. Mən artıq bəyan etmişəm ki, azad edilmiş ərazilər bütövlükdə yaşıl enerji zonası olmalıdır, buna imkan vardır. Bizim su resurslarımız kifayət qədər genişhəcmlidir. Eyni zamanda, Günəş və külək enerjisi növlərinin yaradılması üçün imkanlar vardır. Xarici tərəfdaşları, investorları bu işlərə mütləq cəlb etmək, yerli şirkətlərə şərait yaratmaq lazımdır. Azad edilmiş torpaqlar yüksək texnoloji inkişaf ərazisi olmalıdır.

Yaşıl enerji zonası ilə bərabər, kənd təsərrüfatında ən müasir texnologiyalar tətbiq edilməlidir. Nəzərə alsaq ki, azad edilmiş ərazilərdə torpaqlar çox münbitdir, həm bitkiçilik, həm heyvandarlıq üçün çox böyük imkanlar var, çox böyük örüş sahələri var, orada kənd təsərrüfatının ən müasir texnologiyalar əsasında inkişafı mütləq təmin edilməlidir. Biz bu işi indidən planlaşdırmalıyıq ki, məhsuldarlıq yüksək olsun.

Azad edilmiş ərazilərdə qurulacaq şəhərlər və kəndlər «smart city», «smart village» – yəni «ağıllı şəhər», «ağıllı kənd» konsepsiyası əsasında qurulmalıdır. Bu işləri indidən planlaşdırın ki, şəhərsalma aparılarkən, layihələr icra edilərkən mütləq dünyanın ən qabaqcıl texnologiyaları orada tətbiq olunsun. Ondan sonra və bəlkə də bununla paralel olaraq, bizim digər şəhər və kəndlərimizdə buna oxşar layihələri də icra etmək lazımdır. Çünki bunu bu gün etməsək, sabah geri qalacağıq. Biz geri qala bilmərik.

Bildiyiniz kimi, Davos Dünya İqtisadi Forumunda iştirakım zamanı onlarla şirkətin rəhbərləri ilə görüşlərim olur, onların böyük əksəriyyəti texnoloji şirkətlərdir. Bu görüşlər əsnasında görürəm ki, dünyada hansı yeniliklər var, hansı müsbət inkişaf var və çalışıram ki, o şirkətləri Azərbaycana cəlb edim. Ona görə «ağıllı şəhər», «ağıllı kənd» konsepsiyası işlənməli və tətbiq edilməlidir.

Kadr hazırlığı xüsusi yer tutur. Hesab edirəm ki, hazırda bu sahədə kifayət qədər peşəkar kadr potensialı yaranıbdır. Biz gənclərimizi xaricdə aparıcı ali məktəblərdə oxutmaq üçün böyük proqramlar icra etmişik və bu gün bu, davam edir. Şadam ki, xaricdə təhsil alan gənclərimizin böyük əksəriyyəti ölkəmizə qayıdıb və bu bizim kadr potensialımızı gücləndirir. Hesab edirəm ki, sizin nazirliyiniz bu sahədə – təhsillə bağlı müvafiq ali məktəblərlə də sıx təmasda olmalıdır. Kadr hazırlığı ölkəmizin iqtisadi və texnoloji inkişafı ilə uzlaşmalıdır. Ancaq belə olan halda, biz istədiyimizə nail ola bilərik.

Hal-hazırda azad edilmiş ərazilərdə böyük nəqliyyat layihələri icra edilməyə başlanıbdır, Füzuli Beynəlxalq Aeroportunun inşasına başlanılıbdır. Qeyd etdiyim kimi, Kəlbəcər, yaxud Laçın rayonlarının ərazisində ikinci hava limanı inşa ediləcəkdir.

Biz Füzuli–Şuşa avtomobil yolunun inşasına start vermişik. Bununla paralel olaraq, indi bölgədə nəqliyyat-kommunikasiya sahəsində böyük layihələr müzakirə edilir. Burada, əlbəttə ki, Horadiz–Zəngilan dəmir yolu, ondan sonra Zəngilan–Naxçıvan dəmir yolu, Naxçıvan–Türkiyə dəmir yolu layihələri prioritet təşkil edir və digər layihələr də həmçinin. Çünki hesab edirəm ki, müharibədən sonra yaranmış vəziyyət bölgə ölkələri üçün yeni imkanlar açır. Azərbaycan bu sahədə əməkdaşlığa hazırdır və bu işə öz töhfəsini verməkdədir. Mənim tərəfimdən göstəriş verildi ki, Horadiz–Ağbənd dəmir yolunun layihələndirilməsi başlansın. Artıq start verilib və digər layihələrə də həmçinin. Burada ən müasir texnologiyalar tətbiq edilməlidir ki, Azərbaycan bu sahədə də daim liderliyi öz əlində saxlaya bilsin. Mən ümid edirəm ki, siz bütün bu vəzifələri şərəflə yerinə yetirəcəksiniz.

Ölkəmizin inkişafı üçün indi yeni imkanlar açılıb. Azərbaycan özünü dünyada ləyaqətli, güclü, məsuliyyətli ölkə kimi göstəribdir. Müharibə bir çoxlarına Azərbaycanın potensialının nədən ibarət olduğunu göstərdi. Biz döyüş meydanında da qələbə qazandıq, mülki sahədə də qələbə qazandıq. Çünki əgər güclü iqtisadiyyat qurmasaydıq, güclü ordu da qura bilməzdik. Ona görə bütün amillərin sintezi həm qələbəni şərtləndirdi, həm də bundan sonra bizim inkişaf dina-

mikamızı da şərtləndirəcəkdir. Hətta pandemiya dövründə də bizim qeyri-neft sənayemiz artıbdır, özü də xeyli dərəcədə. Keçən il qeyri-neft sənayemiz 12,5 faiz artıbdır. Nəyə görə? Texnoloji inkişaf, sənayeləşmə, investisiyalar, güzəştli şərtlərlə kreditlərin verilməsi, dövlət–özəl sektor tərəfdaşlığı – bütün bu amillər öz rolunu oynayıbdır. Texnologiyalar, telekommunikasiya sahələrində artıq bir çox yerli şirkətlər yaranıb və həm Azərbaycanda, həm də xaricdə fəaliyyət göstərir.

Biz onlara da dəstək verməliyik. Onların xaricdəki fəaliyyətlərini dəstəkləməliyik və burada da dövlət–özəl sektor tərəfdaşlığı bir nümunə olmalıdır. Bu sahə hər bir ölkə üçün, deyə bilərəm ki, hər bir ölkənin gələcəyi üçün həlledici sahədir. Texnoloji inkişafda kim qabağa gedibsə, o da udacaq, kim geridə qalıbsa, asılı vəziyyətdə qalacaqdır. İndi sirr deyil, elə peşələr var ki, 5 ildən sonra sıradan çıxacaq, yəni olmayacaq. Yeni peşələr meydana çıxacaq və biz hazır olmalıyıq ki, bu peşələrə yiyələnək. Kadr potensialımız imkan verməlidir ki, dünyada gedən sənayeləşmə, xüsusilə Dördüncü Sənaye İnqilabı ilə bağlı proseslər daim Azərbaycanın inkişafını təmin etsin. Təsadüfi deyil ki, Davos Dünya Forumu məhz Azərbaycanı Dördüncü Sənaye İnqilabının mərkəzlərindən biri seçdi. Məhz onların təşəbbüsü ilə bu, baş verdi və müvafiq sənəd də imzalandı.

Ona görə sizin nazirliyinizin üzərinə böyük funksiyalar düşür. Mən sizdən əvvəl bu vəzifədə çalışmış nazirin fəaliyyətindən də razıyam. O da öz vəzifə borcunu şərəflə yerinə yetirirdi, bir çox önəmli məsələləri həll etmişdir, Azərbaycanın bu sahədəki inkişafını tə-

min etmişdir. Ancaq hər yerdə islahatlar gedir, islahatlar labüddür və ölkə qarşısında yeni vəzifələr durur. Mən hesab edirəm ki, siz bu vəzifələri icra edə bilərsiniz. Hər halda, buna ümid edirəm. Bir daha qeyd etmək istəyirəm ki, bu sizə göstərilən böyük inamdır, etimaddır və sizin üçün böyük məsuliyyətdir. Siz bu məsuliyyəti öz işinizlə doğrultmalısınız.

**Rəşad Nəbiyev:** Təşəkkür edirəm, cənab Prezident. Əvvəlcə, icazənizlə, Sizi rəhbərliyinizlə qazanılmış böyük qələbə münasibətilə təbrik edirəm. 44 günlük müharibədə ordumuzun göstərdiyi peşəkarlıq nümayiş etdirdi ki, bu gün Azərbaycanda istənilən sahədə güclü kadr potensialı formalaşıbdır. Sizin seçim imkanlarınızın geniş olduğu bir təqdirdə mənə bu yüksək etimadı göstərdiyiniz üçün dərin təşəkkürümü bildirirəm və bu fakt özlüyündə mənim məsuliyyətimi daha da artırmış olur.

Görülmüş işlərə verdiyiniz qiymətlə bağlı isə qeyd edim ki, Sizdən bu sözləri eşitmək şərəfli olduğu qədər də məsuliyyətlidir. Amma heç şübhəsiz ki, Sizin yürütdüyünüz xarici siyasət nəticəsində ölkəmizin etibarlı tərəfdaş imici olmasaydı, heç bir dövlət peyklər kimi yüksək texnoloji məhsulları bizə ixrac etməzdi. Eyni zamanda, cənab Prezident, Sizin yürütdüyünüz daxili siyasət nəticəsində ölkəmizin iqtisadi qüdrəti və nəticə etibarilə maliyyə resurslarımız olmasaydı, bu peykləri əldə etmək imkanımız da olmazdı. Ən başlıcası isə, cənab Prezident, Sizin kosmik sənayenin inkişafına göstərdiyiniz davamlı diqqət və qayğı uğurlarımızı şərtləndirən əsas amil olmuşdur. Mənim və həmkarlarımın üzərinə düşən vəzifə isə sadəcə, bu əl-

verişli vəziyyətdən istifadə edərək, Sizin etimadınızı doğrultmaq idi. Yeni təyinatla üzərimə düşən vəzifələri və bu vəzifələrdən irəli gələn şəxsi məsuliyyətimi də tam şəkildə dərk edirəm. Nazirliyin tabeliyində olan müəssisələrin səmərəli fəaliyyət göstərməsi üçün onların ən qısa zamanda korporativləşmələrinin vacib olduğunu anlamaqla yanaşı, əsas vəzifəmizin sahə üzrə, yəni nazirliyə həvalə edilmiş sahə üzrə effektiv dövlət siyasətinin həyata keçirilməsi, ədalətli tənzimləmə mexanizmlərinin yaradılması və nəticə etibarilə ədalətli rəqabət mühitinin formalaşdırılmasıdır.

Cənab Prezident, Siz hər zaman söyləyirsiniz ki, əgər ədalətli rəqabət mühiti formalaşarsa, o zaman həmin sektora xarici investisiyaların axını baş verər və bu da özlüyündə yalnız həmin sektorda deyil, ümumiyyətlə, ölkədə innovasiya və texnologiyaların inkişafını təşviq etmiş olar.

Cənab Prezident, sonda icazə verin, Sizi əmin edim ki, iqtisadi islahatların dərinləşdirilməsi ilə bağlı qarşıya qoyduğunuz tapşırıqlara da sahə nazirliyi olaraq öz töhfəmizi verə bilmək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Həmkarlarımla birlikdə nazirliyin səlahiyyətləri çərçivəsində qəbul edəcəyimiz bütün qərarların və atacağımız bütün addımların əsas qiymətləndirmə meyarı Sizin siyasətinizin ayrılmaz hissəsi olan Azərbaycan vətəndaşlarının sosial maraqlarının qorunması olacaqdır. Göstərdiyiniz bu yüksək etimada görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Çalışacağıq ki, bütün işimizdə Sizin etimadınızı doğruldaq.

Cənab Prezident, çox sağ olun, təşəkkür edirəm.

## PREZİDENTİN ŞUŞA RAYONUNDA XÜSUSİ NÜMAYƏNDƏSİ TƏYİN EDİLMİŞ AYDIN KƏRİMOV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*27 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Mən sizi Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu məsuliyyəti dərk edəcəksiniz və öz işinizlə qarşınızda duran vəzifələrin icrasına çalışıb onları yerinə yetirəcəksiniz. Azad edilmiş ərazilərdə Prezidentin Xüsusi Nümayəndəsi İnstitutu mənim təşəbbüsümlə yanvarın 19-da yaradılıb. Birinci təyinat məhz Şuşa rayonuna olan təyinatdır. Bu da təbiidir. Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olub və ermənilərin saxta-

karlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edibdir.

Şuşanın işğal altına düşməsi böyük faciə idi. Hər bir şəhərin, kəndin, rayonun işğal altına düşməsi böyük faciə idi. Amma Şuşanın işğal altına düşməsi bizim üçün bəlkə də ən ağrılı itkimiz olmuşdur. Təkcə ona görə yox ki, Şuşanın strateji yerləşməsi imkan verirdi ki, bütün bölgəyə – əgər orada işlər düzgün qurulsaydı – nəzarət edək, imkan verirdi ki, Şuşanı müdafiə etmək üçün hətta az qüvvələrlə bütün lazımi tədbirləri görək. Şuşanın itirilməsi xalqımız üçün böyük sarsıntı yaratmışdı, mənəvi sarsıntı yaratmışdı və biz 28 il Şuşasız yaşamışdıq. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşaya qayıtdıq və noyabrın 8-də bu müjdəni Azərbaycan xalqına verərək dedim ki, Şuşa, sən azadsan! Biz öz tariximizə qayıtdıq. Əlbəttə, Şuşanı bərpa edəcəyik, Şuşanı dirçəldəcəyik və dirçəlmə prosesi artıq başlanıbdır.

Ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmişlər. Baxmayaraq ki, 28 il ərzində buna çalışmışlar, bir çox xarici qonaqları qanunsuz olaraq Şuşaya gətirmişlər, Şuşa haqqında uydurmalar ortaya atmışlar, Şuşanın adını dəyişdirmişlər.

Buna baxmayaraq, heç kim buna inanmırdı. Çünki Şuşaya gələn hər bir insanın fikri ondan ibarət idi və hər bir insan öz gözü ilə görürdü ki, Şuşanın memarlıq

ansamblı Azərbaycan memarlıq məktəbini təcəssüm etdirir. İndi qədim tarixi saxtalaşdırırlar, indi saxta kitablar yazdırırlar, simpoziumlar, tədbirlər keçirirlər. Amma bu, nisbətən yaxın tarixdir. Şuşanı quran, Şuşa şəhərini salan bizim əcdadımız Pənahəli xan olubdur. Məhz onun fəaliyyəti, səyləri nəticəsində Şuşa şəhəri salınıbdır. Ondan əvvəl Pənahəli xan Bayat qalasını, Şahbulaq qalasını salıbdır. Təsadüfi deyil ki, bu şəhərə verilmiş birinci ad Pənahabad idi, öz adını vermişdir. Ondan sonra isə Şuşanın təmiz havasını, şüşə kimi havasını nəzərə alaraq, bu şəhərə Şüşə, yəni Şuşa adı verilmişdir.

Bu dərəcədə saxtakarlıq ola bilərmi? Məlumdur ki, işğal dövrünə qədər Şuşa şəhərində daim azərbaycanlılar yaşayıblar. Burada erməni əhalisi, demək olar ki, yox idi. Hətta keçən əsrin 20-ci illərində bizim torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanın əhalisinin əksəriyyəti azərbaycanlılar olub və işğal dövründə əhalinin 98 faizi azərbaycanlılar idi.

Şuşa bizim tarixi şəhərimizdir və biz bu şəhərə qayıtmışıq. Əgər ermənilər bu şəhəri özlərinki hesab edirdilərsə, nə üçün 28 il ərzində bir daşı daş üstə qoymayıblar? Nə üçün Şuşanın tarixi abidələrini qoruyub saxlaya bilməyiblər? Bütün bulaqlar quruyub. Hər bir məhəllədə bulaq olub, indi birində də su yoxdur. Yaxşı, əgər bu sənin şəhərindirsə, niyə sən bulaqları qurutmusan? Bütün tarixi abidələr yerlə yeksan edilib. Əgər bu sənin şəhərindirsə, niyə sən bu abidələri dağıtmısan? Əgər sən Ermənistan olaraq bəyan edirdin ki, Şuşanı azad etdiniz, kimdən azad etdiniz? Dinc əha-

lidən azad etdiniz? Azərbaycanlılardan azad etdiniz? Yaxşı, əgər hesab edirdiniz ki, siz bunu azad etmisiniz, niyə binaları dağıdırsınız? Əgər bu, erməni şəhəridirsə, nə üçün yerlə yeksan edirsiniz? Orada təkcə bizim məscidlərimiz yox, bütün binalar dağıdılıb. Sovet vaxtında tikilmiş «xruşovka» deyilən binalar – hansı ki, Şuşanın memarlıq ansamblını kobudcasına pozur – qalmışdı, orada da məskunlaşmışdılar.

Mən Şuşada olarkən bu dağıntıları öz gözümlə gördüm. Elə bil ki, oradan vəhşi qəbilə keçib, vandallar Şuşanı nə günə salıblar. Sonra da deyirlər ki, Şuşa erməni şəhəridir. Bu, növbəti erməni yalanıdır, saxtakarlığıdır! Onların bütün tarixi saxtakarlıq və mifologiya üzərində qurulub. Onlar və onların müxtəlif ölkələrdəki havadarları onlar üçün saxta tarix yaradıblar və bu saxtakarlıq bu gün də davam edir. Baxın görün erməni nümayəndələri və onların xaricdəki havadarları Şuşanın azad olunması ilə bağlı nələr deyirlər? Guya Şuşa bizə elə-belə verilib, döyüşlər getməyib, ermənilər Şuşanı tərk ediblər. Ağ yalandır! Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək, Şuşanı azad edib, demək olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub. Şuşa əməliyyatında yüzlərlə işğalçı məhv edilib, onların sayını biz bilirik. Ermənistan

rəhbərliyi bunu nə qədər öz xalqından gizlətsə də, gizlədə bilməyəcək. Şuşanı müdafiə edən yüzlərlə işğalçını Azərbaycanın qəhrəman övladları məhv edib. Necə demək olar ki, Şuşa bizə bağışlanılıb? İkincisi, belə bir şəhəri kimsə kiməsə bağışlaya bilər? Biz Şuşanı qəhrəman övladların rəşadəti, qanı, canı bahasına düşmənlərin əlindən, əsarətindən almışıq. Bundan sonra Şuşada əbədi yaşayacağıq və Şuşanı qoruyacağıq!

Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC–Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC–Müsavat cütlüyü hakimiyyətə can atırdı, ovaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq, düşmənə təhvil verdi. O vaxt Azərbaycanın Müdafiə naziri AXC–Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə yəni sənin günahın yoxdur, satqın, xain?! Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu gülləni çaxmayıb öz satqın başına. AXC–Müsavat cütlüyü öz çirkin niyyətlərinə çatmışdı. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində ovaxtkı hakimiyyət kənarlaşdırılmış və hərbi çevriliş nəticəsində AXC–Müsavat hakimiyyətə gəlmişdi. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq, ermənilərə bağışlayıb, digər xəyanət törətmişdi – 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil vermişdi. Günahsız, əliyalın

insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməmişdi. Ondan sonra da nə edib?! Fərarilik edib qaçmışdı. Ali Baş Komandan fərari, Dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizlənmişdilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fəraridir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır.

Mən demişəm, bir daha demək istəyirəm ki, tariximizin həqiqətə uyğun olması ilə bağlı bizim alimlər, bizim mütəxəssislər gərək dolğun məlumat versinlər, tariximizi malalamasınlar. Bizə saxta tarix lazım deyil. Sovet dövründə nə qədər saxta tarixlə üzləşmişdik. Bizim qəhrəmanlarımız düşmən kimi, xalqımızın düşmənləri, qaniçənlər qəhrəman kimi göstərilirdi. 26 Bakı komissarı – o erməni bolşevik quldur dəstəsi qəhrəman kimi göstərilirdi, ancaq onlara qarşı vuruşan milli vətənpərvər insanlar düşmən kimi göstərilirdi. Biz bunu görmüşük. Bizim nəsil bunu görüb, saxta tarix nədir. İndi yenə kimsə saxta tarix yaratmaq istəyir. Yenə kimsə hansısa fərarinin, satqının, qorxağın günahlarını yumaq istəyir. Biz buna imkan verə bilmərik. Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir.

Şuşanın qorunması ilə bağlı müvafiq göstərişlər verilib. Azərbaycan hərbçiləri Şuşanı qoruyurlar, ətraf yüksəklikləri nəzarətdə saxlayırlar və saxlayacaqlar. Şuşada komendantlıq yaradılıb, indi isə mülki idarəetmə institutu yaradılır. Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası,

dirçəlməsi hamımızın işidir. Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz.

Mən artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam etmişdim. Onların arasında siz də var idiniz və vəziyyətlə tanış olmusunuz. Bu qrup bir neçə gün Şuşada qalıb, bütün təftiş, təhlil işlərini aparıb və mənə məruzə edibdir. Şuşanın bərpası bunun əsasında aparılacaqdır.

Eyni zamanda, biz Şuşanın bərpadan sonrakı həyatını da geniş müzakirə edəcəyik. Mən artıq Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etmişəm. Bərpadan sonra Şuşada həyat qaynamalıdır. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, həm bir çox beynəlxalq tədbirlər – festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni Şuşa nəinki Azərbaycanın, əminəm ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaqdır.

Təsadüfi deyil ki, bu yaxınlarda qəbul etdiyim iki nümayəndə heyətinin başçısı Şuşaya xüsusi diqqəti dilə gətirib. İSESKO-nun baş katibi mənimlə görüş zamanı bildirdi ki, onlar Şuşanın islam mədəniyyətinin paytaxtı elan edilməsini təklif edəcəklər. Bu bizi çox məmnun edən bir addımdır. Onu da bildirməliyəm ki, bu günə qədər Azərbaycanın iki şəhəri bu şərəfli ada layiq görülmüşdür – Bakı və Naxçıvan şəhəri. Mən xatırlayıram, İSESKO belə qərarı qəbul edəndə bir neçə il əvvəl qərar verilir, ondan bir neçə il sonra artıq o şəhər bu şərəfli ada layiq görü-

lür. Növbə də var, sıra da var. Ona görə belə bir bəyanatın Bakıda səsləndirilməsi xüsusi məmnunluq doğurur.

Bu yaxınlarda Türk Şurasının nümayəndə heyəti ilə görüş əsnasında Türk Şurasının baş katibi də belə bir təklif irəli sürdü ki, Şuşa türk dünyasının mədəniyyət paytaxtı seçilsin. Baxın, bu tarixi şəhərimizə türk dünyasında və bütövlükdə müsəlman dünyasında nə qədər böyük maraq, nə qədər böyük məhəbbət vardır. Bu, təsadüfi deyil. Biz Şuşanın gələcək həyatı ilə bağlı öz addımlarımızı atacağıq. Artıq mən bildirmişəm ki, bu il iki tədbir keçirilməlidir. «Xarıbülbül» festivalı, Vaqif Poeziya Günləri bərpa edilməlidir. Vaqifin məqbərəsinin bərpası ilə bağlı işlərə start verilməlidir və çalışmalıyıq ki, məqbərə bu il bərpa edilsin. Vaqif Poeziya Günləri məqbərənin önündə keçiriləcəkdir.

Təbii ki, düşmən Şuşanı talan edib, viran qoyub, dağıdıb. Şuşada olarkən, bu acı mənzərəni seyr edərkən adamın ürəyi ağrıyır. Amma biz bütün infrastruktur layihələrini icra edərək, Şuşanı tez bir zamanda bərpa edəcəyik. Bildiyiniz kimi, Şuşaya gediş-gəlişin təşkil edilməsi üçün mənim sərəncamımla yol çəkilir. Füzuli hava limanı inşa edilir və bu ilin sonuna qədər istifadəyə verilməlidir. Ondan sonra beynəlxalq uçuşlar təşkil edilməlidir. Şuşa ilə bağlı indidən müxtəlif ölkələrdə təqdimatlar və sərgilər keçirilməlidir.

Siz Azərbaycan Dövlət Turizm Agentliyi və Mədəniyyət Nazirliyi ilə birlikdə bu proqramı işləyin. Dünyanın müxtəlif ölkələrində Şuşanın tarixi, işğal dövrü, bugünkü bərpa işləri ilə bağlı təqdimatı keçi-

rilməlidir. Həm Azərbaycan ictimaiyyəti, həm beynəlxalq ictimaiyyət bərpa işlərimizin gedişi ilə bağlı məlumatlandırılmalıdır.

İnfrastruktur layihələrinə gəldikdə, Şuşa infrastruktur baxımından, demək olar ki, tamamilə geridə qalmış bir şəhərdir. Düşmən orada bir daşı daş üstə qoymayıb, bir bina tikməyib. Özləri üçün bir neçə villa tikdiriblər. Villanın biri o xunta başçısına, biri isə deyilənə görə, Ermənistan rəhbərliyində təmsil olunan zəngin, rüşvətxor məmura məxsusdur. Mənfur düşmən 28 il ərzində orada ondan başqa bir dənə də bina tikməyib. Yollar bərbad, binalar dağılmış, hər tərəf xəzanlıq, zir-zibil, çirkin köşklər. Olan-qalanı da dağıdıblar. Bir daşı daş üstə qoymayıblar, ancaq istismar ediblər. Bundan sonra gəlib deyirlər ki, Şuşa erməni şəhəridir, onun adını da dəyişdirməyə cəhd ediblər. Ona görə infrastruktur layihələrinin icrası birinci məsələdir. Bununla paralel olaraq, şəhərsalma işləri düzgün aparılmalıdır. Siz bu təyinata qədər Dövlət Şəhərsalma və Arxitektura Komitəsində işləmisiniz, təcrübəniz var və əminəm ki, bu işlərə rəhbərlik edəcəksiniz.

Tarixi, dini abidələrimizin bərpası ilə bağlı konkret proqram işlənilir. Müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu məsələyə fəal qoşulubdur, eyni zamanda, Mədəniyyət Nazirliyi, digər aidiyyəti qurumlar. Yaşayış fondu təftiş edilib. Yaşayış fondunun böyük hissəsi yararsız vəziyyətdədir. İşğal dövründə Şuşada təqribən maksimum 2-3 min adam yaşayıb. Ermənilər nə qədər çalışsalar da, Şuşanı məskunlaşdıra bilməmişlər. Halbuki xaricdən gətirilmiş

ermənilәri orada yerləşdirməklə, hərbi cinayət törətmişlər. Bütün bu aksiyalar təbliğat xarakteri daşıyırdı. Orada yaşayanların böyük hissəsi hərbçilər və onların köməkçiləri idi. Yaşayış fondunun təftişi mütləq daha müfəssəl aparılmalıdır – birinci təftiş aparılıb – əlbəttə, ondan sonra bərpa işləri aparılacaqdır.

Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən söz vermişəm və sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim ki, biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik də. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq və o vaxt müharibə dövründə bundan artığını deyə bilmirdim. Çünki müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi.

Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik. Əgər müharibənin gedişatına hər bir mütəxəssis nəzər salsa görər ki, bizim strateji hədəfimiz nə idi. Biz Ermənistan tərəfindən qurulmuş istehkamları yararaq, cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd rayonlarının bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən

diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri aldıq. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər Günü elan edildi.

Bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi və bir daha göstərdi ki, nəyi demişəmsə, onu da etmişəm. Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır. Azərbaycan xalqına kiçik də olsa, siqnal verirdim ki, hər şey yaxşı olacaq. İstədiyimizə nail olacağıq, sadəcə olaraq, hər şeyin vaxtı var. Müharibə dövründə ancaq bir dəfə Şuşa haqqında demişdim, o da müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu deyə bilməzdim, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq.

Mən heç şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!

Bir daha demək istəyirəm ki, sizin üzərinizə çox böyük məsuliyyət düşür. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və Şuşanın dirçəldilməsi işində öz fəal rolunuzu oynayacaqsınız. Yəqin onu da bilirsiniz və şübhə etmirsiniz ki, Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir. Sizə uğurlar arzulayıram.

**Aydın Kərimov:** Möhtərəm cənab Prezident, mənə bu etimadı göstərdiyinizə görə Sizə dərin min-

nətdarlığımı bildirmək istəyirəm. Sizin rəhbərliyinizlə müzəffər ordumuzun şücaəti nəticəsində Şuşa şəhəri işğaldan azad olunduqdan sonra etdiyiniz tarixi çıxışınızda «Şuşa, biz səni dirçəldəcəyik!» şüarını səsləndirmisiniz. Bu şüar altında quruculuq işlərində iştirak etmək mənim üçün böyük şərəf və eyni zamanda, böyük məsuliyyətdir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşanın planlı və sistemli şəkildə yenidən qurulması, olduqca zəngin tarixi, mədəni irsinin bərpa edilməsi, sakinlərin rahat və əlçatan müasir məxsusi şəhər mühitində yaşamaları üçün qarşımda qoyduğunuz vəzifələrin, bütün tapşırıqlarınızın vaxtında və tələb etdiyiniz səviyyədə yerinə yetirilməsi üçün əlimdən gələni edəcəyəm. Bir daha təşəkkür edirəm, cənab Prezident.

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELU REBELU DE SOUZAYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Portuqaliya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 yanvar 2021-ci il*

## SABUNÇU RAYONUNDA YENİDƏN İNŞA EDİLMİŞ 90 SAYLI VƏ SURAXANI RAYONUNDA 97 SAYLI TAM ORTA MƏKTƏBLƏRDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*28 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də paytaxtın Sabunçu rayonunda yenidən inşa olunmuş 90 saylı və Suraxanı rayonunda 97 saylı tam orta məktəblərdə yaradılmış şəraitlə tanış olmuşdur.*

*Hər iki məktəbdə yeni korpusların tikintisi və təmir-bərpa işləri Azərbaycan Prezidentinin «Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında» 2020-ci il 5 may tarixli Sərəncamına əsasən həyata keçirilib.*

*Prezident İlham Əliyev əvvəlcə Sabunçu rayonunun Ramana qəsəbəsində yerləşən 90 saylı tam orta məktəbdə yaradılmış şəraitlə tanış oldu.*

*Dövlət başçısına məlumat verildi ki, bu təhsil ocağının 1939-cu və 2002-ci illərdə inşa edilmiş iki korpusu sökülərək, onların yerində 960 şagird-yerlik yeni korpus tikilib. Məktəbin müasir tədris avadanlığı ilə təchiz olunmuş yeni korpusunda 40 sinif, 2 informatika, 4 əmək təlimi otağı, hərbi, musiqi kabinetləri, kimya, fizika, biologiya laboratoriyaları, kitabxana,*

*idman və akt zalları, 2 yeməkxana yaradılıbdır. Bu təhsil ocağında 2006-cı ildə inşa edilmiş 288 şagird-yerlik tədris korpusu və idman zalı da əsaslı təmir edilibdir.*

*Məktəb üçün yeni qazanxana, nasosxana, hər birinin tutumu 100 kubmetr olan 2 yeraltı su anbarı inşa edilib, həyətyanı sahədə abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri görülübdür.*

*Prezident İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən 97 saylı tam orta məktəbdə yaradılmış şəraitlə də tanış oldu.*

*Məlumat verildi ki, təhsil ocağının 1937-ci və 1970-ci illərdə inşa edilmiş iki korpusu sökülüb. Onların yerində 264 şagird-yerlik dördmərtəbəli yeni müasir korpus tikilibdir. Eyni zamanda, 2007-ci ildə ibtidai siniflər üçün inşa edilmiş korpus əsaslı təmir olunub. Yeni tikilmiş və əsaslı təmir edilmiş korpuslarda zəruri tədris avadanlığı və vəsaiti ilə təchiz olunmuş sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, kitabxana, yeməkxana, idman və akt zalları vardır.*

*Həyətyanı sahəsində geniş abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri aparılmış məktəb üçün yeni qazanxana, nasosxana və yeraltı su anbarları inşa edilibdir.*

*Məktəblərin tikintisi və əsaslı təmiri Azərbaycanda həyata keçirilən sosial infrastruktur layihələri içərisində xüsusi yer tutur. Çünki təhsil sahəsində keyfiyyət dəyişiklikləri üçün sistemli yanaşma var və maddi-texniki bazanın təkmilləşdirilməsi yenidən qurulma işləri ilə paralel aparılır.*

*Görülən işlər bir daha sübut edir ki, hətta pandemiyanın dünya, o cümlədən Azərbaycan iqtisadiyyatına təsirinə baxmayaraq, ölkəmizdə heç bir sosial layihə təxirə salınmır.*

## SSRİ XALQ ARTİSTİ MURAD KAJLAYEVƏ

Hörmətli Murad Maqomedoviç!

90 illik yubileyiniz münasibətilə sizə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Sizin yaradıcılığınız sovet və Rusiya musiqi mədəniyyəti tarixində layiqli yer tutur. Çoxtərəfli və parlaq ideyalarla zəngin bir insan kimi, siz müxtəlif janrlarda və üslublarda işləyərək, artıq bu gün haqlı olaraq, klassika hesab edilən əsərlər yaratmısınız.

Siz uzun illər boyu yorulmadan təkcə bəstəkar və dirijor kimi deyil, həm də pedaqoq kimi çalışırsınız, bütün gücünüzü, dərin biliklərinizi və qiymətli təcrübənizi gənc nəslə verirsiniz.

Uşaqlıq və gənclik illərinizin keçdiyi, sənətin əsaslarını öyrəndiyiniz Azərbaycanda sizi sevir və yüksək qiymətləndirirlər. Sizə doğma olan Bakının səhnələrində keçirilmiş yaradıcılıq gecələri istedadınızın bütün pərəstişkarlarında böyük maraq doğurur, xüsusi səmimiliyi ilə fərqlənirdi. Siz Azərbaycan musiqisinin inkişafı və Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında musiqi sənəti sahəsində əməkdaşlığın möhkəmləndirilməsi üzrə səmərəli fəaliyyətinizə görə Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmisiniz.

Əziz Murad Maqomedoviç, sizi əlamətdar yubileyiniz münasibətilə bir daha təbrik edirəm, sizə möhkəm cansağlığı, firavanlıq diləyir, ən xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 yanvar 2021-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*30 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Dövlət başçımız Ağdam rayonunda Türkiyə–Rusiya Monitorinq Mərkəzinin açılışı ilə bağlı Türkiyə Prezidentini təbrik etdi.*

*Türkiyə Prezidenti təbrikə görə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları bu Mərkəzin fəaliyyətə başlamasının bölgədə uzunmüddətli sülhün və təhlükəsizliyin təmin olunması işinə xidmət edəcəyinə əminliklərini bildirdilər.*

*Telefon söhbəti zamanı noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının icra olunduğu məmnunluqla qeyd edildi, Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyi vurğulandı.*

*Dövlət başçıları Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidən qurulma işlərində*

*Türkiyə şirkətlərinin fəal iştirakından məmnunluqlarını bildirdilər.*

*Azərbaycan və Türkiyə prezidentləri, həmçinin pandemiyaya qarşı mübarizədə qarşılıqlı dəstəyin önəmini qeyd etdilər.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*30 yanvar 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng etmişdir.*

*Dövlət başçımız Ağdam rayonunda Türkiyə–Rusiya Monitorinq Mərkəzinin fəaliyyətə başlaması ilə əlaqədar Rusiya Prezidentini təbrik etdi.*

*Rusiya Prezidenti təbrikə görə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları bu Mərkəzin fəaliyyətinin bölgədə uzunmüddətli sülhün və sabitliyin təmin olunması işinə xidmət edəcəyini vurğuladılar.*

*Prezident İlham Əliyev və Prezident Vladimir Putin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəqliyyat-kommunikasiya bəndinin müddəalarının icrası ilə bağlı Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri səviyyəsində keçirilmiş görüşün əhəmiyyətini qeyd etdilər.*

*Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan–Rusiya dostluq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik bildirildi.*

## YENİDƏN QURULMUŞ 220/110/10 VƏ YENİ TİKİLMİŞ 110/35/10 KİLO-VOLTLUQ «XIRDALAN» YARIMSTAN-SİYALARININ AÇILIŞI MƏRASİMİ

*1 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 1-də yenidən qurulmuş 220/110/10 kilovoltluq və yeni tikilmiş 110/35/10 kilovoltluq «Xırdalan» yarımstansiyalarının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı «Xırdalan» yarımstansiyasında yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, 220/110/10 kilovoltluq «Xırdalan» yarımstansiyası istismar müddətini başa vurduğuna və artan tələbatı qarşılaya bilmədiyinə görə tam yenidən qurulubdur.*

*Bakı şəhərinin dairəvi elektrik təchizatı üzrə 60 faizini elektrik enerjisi ilə qidalandıran bu yarımstansiyaya Şirvan şəhərindəki «Cənub» Elektrik Stansiyasından 108 kilometr məsafədə elektrikötürmə xətti çəkilib. Bu, Mingəçevir şəhərindəki generasiya mənbələrindən asılılığı azaltmağa xidmət etməklə yanaşı, paytaxtın etibarlı və dayanıqlı enerji ilə təmin edilməsində əvəzsiz rol oynayır.*

*Prezident İlham Əliyev məsafədən idarəolunan SCADA dispetçer sistemi vasitəsilə yeni tikilmiş*

*110/35/10 kilovoltluq «Xırdalan» yarımstansiyasını işə saldı.*

*Bildirildi ki, qəzaların qarşısının alınması və istehlakçıların keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsində bu stansiya mühüm əhəmiyyətə malikdir.*

*Xırdalan şəhərində son illərdə tikilmiş yüzlərlə çoxmərtəbəli binanın, iqtisadi, sosial, sənaye obyektlərinin elektrik enerjisinə artan tələbatını qarşılamaq, güc qıtlığını aradan qaldırmaq üçün 110/35/10 kilovoltluq yeni «Xırdalan» yarımstansiyası tikilibdir.*

*Dövlət başçısına yeni SCADA layihəsinin birinci mərhələsinin başa çatması barədə də məlumat verildi.*

*Qeyd edildi ki, yarımstansiyanın yeni inzibati binasında SCADA idarəetmə sisteminin tam həcmdə Ehtiyat Dispetçer İdarəetmə Mərkəzi yaradılıb. SCADA sistemi sınaqdan keçirilib. Azərbaycanın enerji sisteminin – 25 elektrik stansiyasını, 100-dən artıq yarımstansiyanı, o cümlədən «Azərişıq» ASC-nin İdarəetmə Mərkəzi ilə əlaqəni özündə əks etdirən məsafədən idarəolunan SCADA əsas və Ehtiyat Dispetçer İdarəetmə Mərkəzindən, 7 Regional Monitorinq Mərkəzindən ibarətdir.*

*İşğaldan azad olunmuş torpaqlarda qurulacaq sistemlər də SCADA sistemi vasitəsilə məsafədən idarə olunacaq. İndiyədək bu ərazilərdə görülmüş işlərə gəldikdə isə, Suqovuşan qəsəbəsi və ətraf ərazilərin elektrik enerjisi təchizatı üçün «Tərtər» yarımstansiyasından «Suqovuşan» yarımstansiyasına birdövrəli müasirtipli 35 kilovoltluq elektrik verilişi xətti çəkilir.*

*Suqovuşan qəsəbəsinədək mövcud 10 kilovoltluq hava xətti təmir edilir. Talış kəndinə qədər mövcud 10 kilovoltluq hava xəttinin əsaslı təmiri və 2 yeni mərkəzin quraşdırılması işləri aparılır. Həmçinin Qubadlı və Zəngilan rayonlarının ilkin mərhələdə elektrik enerjisi ilə təmin olunması üçün mövcud şəbəkələrdən istifadə edilən 10 kilovoltluq elektrik verilişi xətlərinin bərpası və yenidən qurulması davam etdirilir.*

*Görülən işlər sübut edir ki, pandemiya ilə əlaqədar 2020-ci ilin iqtisadi cəhətdən fərqli il olmasına baxmayaraq, Prezident İlham Əliyevin davamlı strategiyasına əsasən, digər sahələrdə olduğu kimi, energetika sahəsində həyata keçirilən layihələr də təxirə salınmayıb.*

## XIRDALAN ŞƏHƏRİNDƏ 3 SAYLI TEXNİKİ-TƏBİƏT FƏNLƏRİ TƏMAYÜLLÜ MƏKTƏB-LİSEYDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*1 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 1-də Abşeron rayonunun Xırdalan şəhərində 3 saylı Texniki-təbiət fənləri təmayüllü məktəb-liseydə yaradılmış şəraitlə tanış olmuşlar.*

*Dövlət başçısının 2019-cu ilin yanvarında imzaladığı sərəncamla bu təhsil müəssisəsinin 1176 şagird-yerlik korpusu əsaslı təmir olunub və 1200 şagird-yerlik yeni əlavə korpus inşa edilibdir. Yeni tikilmiş korpusda müasir sinif otaqları, informatika, hərbi hazırlıq, əmək təlimi, məktəbəqədər hazırlıq kabinetləri yaradılıb və zəruri dərs vəsaiti ilə təchiz olunubdur. Yeni korpusun Abşeron rayonunda şagird sıxlığının aradan qaldırılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılır.*

*Burada, həmçinin STEAM – elm, texnologiya, mühəndislik, incəsənət, riyaziyyat otaqları, laboratoriyalar, akt zalı və açıq idman meydançası yaradılıb. STEAM sistemi işarələrlə, alqoritmlərlə robotexnologiyanın hazırlanması və proqramlaşdırılması, onların üzərində uşaqların birgə əməkdaşlığı, digər fənlərlə*

*inteqrasiyasını nəzərdə tutur. Bu, mahiyyət etibarilə yeni təfəkkür formasının yaradılması deməkdir.*

*Xırdalan şəhərindəki 3 saylı Texniki-təbiət fənləri təmayüllü məktəb-lisey üçün fevralın 1-i azı 3 hadisə ilə əlamətdardır: əvvəla, uzun fasilədən sonra 1–4-cü sinif şagirdləri üçün dərslər bərpa olunub. İkincisi, müasir təhsil infrastrukturuna malik korpus istifadəyə verilib. Nəhayət, ölkədə sayca 3-cü, Abşeronda isə 1-ci tədris müəssisəsidir ki, 6–11 yaşlı şagirdlər də daxil olmaqla, STEAM təhsil metodunun tətbiqinə başlanılır.*

## YASAMAL RAYONUNDA YENİ SALINMIŞ MEŞƏ TİPLİ PARKIN AÇILIŞI MƏRASİMİ

*1 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 1-də paytaxtın Yasamal rayonunda yeni salınmış meşə tipli parkın açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı parkda yaradılmış şəraitlə tanış oldular.*

*Dövlət başçısının tapşırığına əsasən salınmış bu parkın ümumi ərazisi 4 hektardır. Vaxtilə bu ərazi bəzi adamlar tərəfindən zəbt olunmuşdu və onlar bunu hissə-hissə satmaq niyyətində idilər. Məhz Prezident İlham Əliyevin müdaxiləsindən sonra bu proses dayandırıldı və bu torpaqlar dövlət fonduna qaytarıldı.*

*Yeni salınmış parkda yaşıllıq zonası ərazinin 70 faizindən çoxunu əhatə edir. Artıq yeni parkda ətraf ərazi sakinlərinin istirahəti üçün bütün şərait vardır. Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlət başçısını və xanımını salamladılar.*

*Yeni istifadəyə verilmiş park şəhərsalma standartlarına və müasir tələblərə uyğun şəkildə qurulub. Ərazi yüksək səviyyəli infrastruktur əsasında abadlaşdırılıb. Park həm də şəhərin sosial-ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir.*

## ABŞERON RAYON MƏRKƏZİ XƏSTƏXANASININ YENİ İNŞA EDİLMİŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*1 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilmiş binasının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva xəstəxanada yaradılmış şəraitlə tanış oldular.*

*Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə tikilmiş 150 çarpayılıq tibb müəssisəsi ən zəruri avadanlıqlarla təchiz olunub. Burada dünyanın aparıcı şirkətlərinin avadanlığı quraşdırılıb. Xəstəxanada cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, dializ və digər şöbələr, həmçinin laboratoriyalar fəaliyyət göstərəcəkdir. Bu binaya Abşeron Rayon Mərkəzi Xəstəxanasının nəzdində olan Mərkəzi Xəstəxana, Abşeron rayon poliklinikası, Abşeron rayon uşaq poliklinikası və təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin köçürülməsi nəzərdə tutulubdur.*

*Yeni tibb müəssisəsində yaradılmış şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.*

**S u a l: Cənab Prezident, ilk növbədə, müsahibəyə vaxt ayırdığınıza görə Sizə minnətdarlığımızı bildiririk. İlk sualım açılışını etdiyiniz bu səhiyyə ocağı ilə bağlı təəssüratlarınız barədə olacaq. Necədir təəssüratlarınız?**

**C a v a b:** Təəssüratlar çox müsbətdir. Yeni tikilmiş bu xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir. Bildiyiniz kimi, son illərdə bir çox xəstəxanalar tikilib və onların da müəyyən standartları var, həm memarlıq baxımından, həm də avadanlıqlarla təchizat baxımından. Əminəm ki, bu xəstəxanada vətəndaşlara keyfiyyətli tibbi xidmət göstəriləcək. Çünki bütün müasir avadanlıqlar burada quraşdırılıbdır.

Bir də ki, xəstəxana eyni zamanda, həkimlərin iş yeridir. Burada 200-dən çox həkim və bütövlükdə 600-dən artıq tibb işçisi çalışacaq və təbii ki, onların da iş şəraiti müsbətə doğru dəyişir. Əminəm ki, burada göstəriləcək tibbi xidmət vətəndaşların sağlamlığını təmin edəcək, bərpa edəcək.

Xəstəxananın inşası bir daha onu göstərir ki, bu sahədəki fəaliyyətimiz ardıcıl şəkildə davam etdirilir və Abşeron rayonunda da müasir xəstəxana artıq fəaliyyət göstərir. Bunun üstünlüyü həm də ondadır ki, bu vaxta qədər müxtəlif tibb müəssisələri fərqli-fərqli yerlərdə məskunlaşmışdı, amma indi burada xəstəxana, poliklinika, uşaq poliklinikası, doğum şöbəsi, təcili tibbi yardım şöbəsi – bütün şöbələr bir yerdə fəaliyyət göstərəcək. Əlbəttə, bu, insanların rahatlığı üçün də çox önəmlidir.

**S u a l: Cənab Prezident, Sizin təşəbbüsünüzlə Azərbaycanın bütün bölgələrində ən müasir standartlara**

**cavab verən xəstəxanalar tikilib. Bundan sonrakı mərhələ barədə fikrinizi öyrənmək istəyərdik, yəni bu proqram artıq bitib, yoxsa icrası davam etdiriləcək?**

**C a v a b:** Hesab edirəm ki, bütövlükdə artıq başa çatmaq üzrədir. Çünki ölkəmizin bütün bölgələrində xəstəxanalar fəaliyyət göstərir. Son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilibdir. Səhiyyə sistemimizin xəstəxana və tibb müəssisələri fondu, demək olar ki, indi ən yüksək standartlara cavab verir. Bundan sonra, əlbəttə ki, biz ilk növbədə, səhiyyə sisteminin təkmilləşdirilməsi və tibbi xidmətin xüsusilə indiki dövrdə keyfiyyətini artırmaq üçün əlavə addımlar atacağıq.

Səhiyyə sisteminin maddi-texniki bazasının yaradılması, müasirləşdirilməsi başlıca vəzifə idi. Mən xatırlayıram, 2004-cü ildə, Prezident vəzifəsinə seçiləndən sonra bəyan etmişdim ki, biz «qara qızıl»ı insan kapitalına çevirməliyik. Sözün düzü, o vaxt «qara qızıl»ımızın həcmi o qədər də böyük deyildi, Bakı–Tbilisi–Ceyhan neft kəməri hələ inşa edilməmişdi, ancaq biz bütün bu işləri artıq proqnozlaşdıra bilirdik. Bilirdik ki, bizi böyük neft hasilatı dövrü gözləyir. Ona görə neftdən əldə edilən gəlirləri insan kapitalına yönəltmək mənim başlıca vəzifəm idi. Dediyim kimi, bu vəzifə artıq bütövlükdə icra edilib. Bütün bölgələrdə ən müasir xəstəxanalar, poliklinikalar, diaqnostika mərkəzləri fəaliyyət göstərir. Əgər biz buna nail olmasaydıq, son illərdə hər il 5 milyon insan tibbi müayinədən keçə bilməzdi. Hesab edirəm ki, bu da böyük nailiyyətdir. Çünki mən 100-dən çox – bəlkə də daha çox, indi hamısını xatırlamıram – xəstəxana-

nın, tibb müəssisəsinin açılışında olarkən, dəfələrlə bir məsələyə vətəndaşların diqqətini cəlb edirdim ki, mütləq hər bir insan ildə bir dəfə müayinədən keçməlidir. Artıq bunu demirəm, buna ehtiyac yoxdur. Çünki bu, həll olundu və artıq bir neçə ildir ki, kütləvi surətdə müayinədənkeçmə prosesi gedir. Yenə də deyirəm, dövlət hesabına 5 milyon insanı – ölkə əhalisinin yarısını tibbi müayinədən keçirmək böyük təşkilatçılıq və maliyyə resursları tələb edir. Azərbaycan nadir ölkələrdəndir ki, bu təşəbbüsü həm irəli sürüb, həm də bunu reallaşdırıb. Eyni zamanda, bildiyiniz kimi, biz indi icbari tibbi sığorta sisteminə keçmişik. Bu keçid də mərhələli yollarla həll olunub. Pilot layihələrin icrası bizə ilkin məlumatlar verdi və məlumatlar da çox müsbət idi. Pilot layihələrlə əhatə olunmuş üç şəhərdə həm tibbi xidmətin keyfiyyəti artdı, həm də vətəndaşların məmnunluğu yüksək səviyyədə idi. Ona görə biz artıq bu sistemə keçmişik.

Əgər müasir xəstəxana fondu olmasaydı, buna keçmək mümkün olmazdı. Yəni biz hər şeyi ardıcıllıqla edirik və yəqin ki, gələn 1-2 il ərzində böyük xəstəxanaların tikintisinə artıq son qoyulacaq və daha çox səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi istiqamətində addımlar atılacaqdır.

**S u a l: Cənab Prezident, yəqin ki, bu xəstəxananın açılışının pandemiya dövründə edilməsinin də xüsusi əhəmiyyəti vardır. Qlobal pandemiya bir ildən artıqdır ki, davam edir. İndiyə qədər Azərbaycanda bu virusla mübarizədə görülən işləri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bəli, əlbəttə, bu xəstəxananın açılışının pandemiya dövrünə təsadüf etməsi əlamətdar hadi-

sədir. Amma təbii ki, bu xəstəxananın tikintisi pandemiyaya qədər başlamışdı və biz xəstəxanaların tikilməsi ilə özümüzü mümkün olan sürprizlərdən sığortalamalı idik. Çünki heç kimin ağlına gələ bilməzdi ki, pandemiya baş verəcək. Ancaq başqa hansısa xoşagəlməz hadisələr baş verə bilərdi. Ona görə bizim xəstəxana fondu buna hazır olmalı idi.

Pandemiya ilə mübarizədə Azərbaycan ilk günlərdən qabaqlayıcı tədbirlər görərək, hesab edirəm ki, istədiyinə nail oldu. Biz vəziyyəti bütün dövrlərdə, yəni bu bir il ərzində nəzarətdə saxlamağı bacardıq. Burada, əlbəttə ki, yeni laboratoriyaların ölkəyə gətirilməsi xüsusi rol oynadı. Çünki pandemiyaya qədər bizdə cəmi 8 laboratoriya var idi və gündə cəmi 1000 test keçirilə bilərdi. Hazırda laboratoriyaların sayı 42-dir və 20 min test keçirilə bilər və biz bunu keçiririk. Bütövlükdə 2 milyon 400 min test keçirilib. Yəni bu çox böyük rəqəmdir.

Eyni zamanda, pandemiya dövründə ilk günlərdən modul tipli xəstəxanaların ölkəyə gətirilməsi ilə məşğul olmağa başladıq və hesab edirəm ki, burada da liderlik göstərdik. Çünki bizdən sonra bir çox ölkələr oxşar addımlar atdı, ancaq istehsalçılar artıq çatdıra bilmirdilər. Biz isə modul tipli 13 xəstəxananı Azərbaycana gətirdik, quraşdırdıq. İndi bizdə xəstəxana fondu tam imkan verir ki, xəstəliklə bağlı bütün məsələlər həll olunsun və həm palatalar, həm reanimasiya palataları kifayət qədərdir. Bunun və eyni zamanda, son həftələr ərzində dövlət siyasətinin nəticəsidir ki, müsbət dinamika müşahidə olunur, sağalanların sayı xəstələnənlərin sayından xeyli çoxdur. He-

sab edirəm ki, vaksinasiya başladığı üçün bu sahədə daha da uğurlu addımlar atılacaq. Məhz buna görə biz indi yumşalma mərhələsinə qədəm qoymuşuq. Biz il ərzində rejimi gah yumşaldırdıq, gah sərtləşdirirdik, vəziyyətə uyğun şəkildə addımlar atırdıq ki, insanların sağlamlığını qoruyaq, eyni zamanda, insanlar üçün lazım olmayan halda, əlavə çətinliklər yaratmayaq. Yəni biz daim bu məsələyə çox həssaslıqla yanaşmışıq ki, bu iki vacib məsələni həll edək – insanların sağlamlığı, onların rahatlığı və necə deyərlər, mənəvi durumu.

**S u a l: Cənab Prezident, biz həm də Azərbaycanın bu preventiv, eyni zamanda, mübarizə tədbirlərinin beynəlxalq səviyyədə çox yüksək qiymətləndirildiyinin şahidi olmuşuq, müxtəlif aparıcı beynəlxalq qurumlar bu barədə öz fikirlərini ifadə ediblər. Hətta mübarizədə «Azərbaycan modeli» ifadəsindən də bəzi hallarda istifadə olunurdu. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bəli, bu bizi çox sevindirir. Biz, əlbəttə, çox məmnunuq ki, beynəlxalq təşkilatlar Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirir. Ancaq əsas vəzifəmiz ondan ibarət idi ki, xalqımızı, vətəndaşlarımızı qoruyaq. Çünki pandemiyanın ilk günlərində bəlli deyildi ki, bu xəstəliyin hansı təhlükələri, yaxud da ki, hansı fəsadları ola bilər və bu gün də tam axıra qədər tədqiqatlar aparılmayıb. Ona görə biz ilk günlərdən bu addımları ataraq və eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatı ilə təmaslar quraraq, bu sahədə maksimum səmərəli iş aparmaq üçün çalışmışıq. Qeyd etdiyiniz kimi, artıq Ümumdünya Səhiyyə Təşkilatı «Azərbaycan modeli» haqqında danışır,

görülən işlərə yüksək qiymət verir, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim edibdir. Eyni zamanda, bu yaxınlarda mənə verilən məlumata görə, dünyanın aparıcı rəy sorğusu şirkəti olan «Gallup» da Azərbaycan vətəndaşları arasında təhlil-rəy sorğusu aparıb. Vətəndaşların 86 faizi dövlətin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir və bu göstəriciyə görə Azərbaycan dünyada 4-cü yerdədir. Yəni həm beynəlxalq təşkilatlar, bu sahədə aparıcı təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı, həm də ölkə əhalisi bizim fəaliyyətimizi yüksək qiymətləndirir. Bu özlüyündə bir göstəricidir və onu göstərir ki, biz düzgün yoldayıq, hər zaman vətəndaşlara həqiqəti demişik. Hər zaman vətəndaşlara problem yarada biləcək hansısa məhdudiyyətlər haqqında danışanda deyirdik ki, bu zəruridir, bu labüddür, bunu etməsək, böyük problemlərlə üzləşə bilərik, bizim səhiyyə sistemimiz artan xəstələrin müalicəsi ilə bağlı öz resurslarını səfərbər edə bilməyəcək. Şadam ki, bizim bütün çağırışlarımız vətəndaşlar tərəfindən də anlayışla qarşılandı. Nəticə etibarilə həm dövlət siyasəti, həm vətəndaşların artan məsuliyyəti imkan verdi ki, bu gün vəziyyət nəzarət altındadır.

**M ü x b i r:** Biz həm də bu müddət ərzində Azərbaycanın xarici ölkələrə yardımının da şahidi olmuşuq.

**İ l h a m Ə l i y e v:** Doğrudur. Bunu bir məsuliyyətli ölkə kimi, özümüzə borc bildik. Xüsusilə Azərbaycan «Qoşulmama Hərəkatı»na sədrlik edən bir ölkə kimi, mütləq bunu etməli idi. Bir çox ölkələrin maddi vəziyyəti xüsusilə indiki dövrdə çox aşağıdır. Bir çox ölkələr vətəndaşların gündəlik tələbatlarını

ödəyə bilmir. Belə olan halda, biz hesab edirik ki, mütləq imkan daxilində bu yardımı etməliyik. Beləliklə, bu dövr ərzində 30-dan çox ölkəyə maliyyə və humanitar yardım göstərilibdir, eyni zamanda, beynəlxalq təşkilatlara, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində könüllü ianə verilibdir. Onun 5 milyonu onların ümumi pandemiya ilə bağlı tədbirlərinə, 5 milyonu isə «Qoşulmama Hərəkatı»na üzv olan, xüsusilə kasıb ölkələrin yardımına istiqamətləndirilibdir.

Bundan əlavə, biz beynəlxalq müstəvidə Zirvə görüşlərinin keçirilməsinin də təşəbbüskarı olmuşuq. Həm Türk Şurasının, həm «Qoşulmama Hərəkatı»nın iki Zirvə görüşü COVID-19-a həsr edilmişdir. Onların da çox müsbət nəticələri olmuşdur. Çünki birinci belə bir təşəbbüs idi, bunu da biz irəli sürdük, hər iki qurumun sədri kimi. Ondan sonra artıq «Qoşulmama Hərəkatı»nın üzvlərinin dəstəyi ilə BMT Baş Assambleyasının xüsusi sessiyasını keçirdik. Bu o qədər də asan deyildi. Çünki Baş Assambleyanın xüsusi sessiyasını keçirmək üçün bir çox amillər lazımdır. Deyə bilərəm ki, bəzi ölkələr açıq etiraz etməsələr də, buna o qədər də maraqlı deyildilər. Çünki bəziləri hesab edirdi ki, belə bir təşəbbüs ancaq böyük ölkələrə məxsus olmalıdır və belə bir təşəbbüs yəqin ki, onların fikirlərinə görə, gərək daha əvvəl razılaşdırılaydı. Biz isə onu öz təşəbbüsümüz kimi irəli sürdük. Bildiyiniz kimi, Ermənistan buna qarşı çıxdı və bu da böyük təəccüb doğurdu. Yəni Ermənistanda azərbaycanofobiyanın nə qədər böyük olduğunu Ermənistan bir

daha bütün dünyaya göstərdi və bu, müharibədən əvvəl olan hadisə idi.

BMT Baş Assambleyasının xüsusi sessiyasında mən «Qoşulmama Hərəkatı»nın sədri kimi çıxış edərkən, bütün ölkələri həmrəyliyə çağırdım ki, bu bəlaya qarşı mübarizədə biz səylərimizi birləşdirməliyik, burada hansısa birtərəfli addımlar atılmamalıdır, zəngin ölkələr məsuliyyət göstərməlidir. Peyvənd bütün ölkələrin xalqlarına çatmalıdır. Hətta dedim ki, kasıb olan ölkələrin vətəndaşları üçün zəngin olan ölkələr o peyvəndi alıb onlara ötürsünlər. Şirkətlərə də çağırışlar etdim ki, onlar da bu sahədə qazanc dalınca qaçmasınlar, yəni məsuliyyətli olsunlar. Prinsipcə, mənim bu çağırışlarımı bir çox ölkələr dəstəklədi, amma əfsuslar olsun ki, real həyat bizə tam başqa mənzərə nümayiş etdirir. Burada sözlə əməl arasında böyük bir fərqi görürük.

**S u a l: Siz vaksinlərin ədalətli bölgüsünə toxundunuz. Bir məsələ ilə bağlı da fikrinizi öyrənmək istəyərdik. Ümumiyyətlə, hazırda pandemiya ilə mübarizədə deyə bilərik ki, yeni mərhələ başlayıb – dünya üzrə vaksinasiya. Hətta bu sahədə də artıq müəyyən ölkələr arasında ümumən gərginliyin şahidi oluruq. Misal üçün, Avropa İttifaqı ilə Böyük Britaniya arasında olan qalmaqalı göstərə bilərik. Sizcə, bunun səbəbi nədir?**

**C a v a b:** Bunun səbəbi, yenə də deyirəm, ədalətsizlikdir, bu sahədə hətta müttəfiqlər arasındakı münasibətlərdə olan ziddiyyətlərdir. Dediyiniz bu fakt özlüyündə çox narahatedici bir faktdır. Çünki Böyük Britaniya bu vaxta qədər Avropa İttifaqının üzvü idi və Avropa İttifaqı ölkələrini Böyük Britaniya ilə çox-

əsrlik tellər bağlayır. Eyni zamanda, bu ölkələr NATO-nun üzvləridir və onların arasında belə qalmaqal, əlbəttə ki, bir çox suallar doğurur. Biz bunu açıq mətbuatdan görürük. Misal üçün, mən bu yaxınlarda gördüm ki, Avropa İttifaqı nümayəndələri Böyük Britaniyanı ittiham edirlər ki, onların istehsal etdikləri vaksinin qeyri-ədalətli bölünməsi ilə bağlı çox ciddi proseslər gedir. Hətta mən o rəqəmləri də xatırlayıram. Bildirilmişdir ki, Böyük Britaniya vətəndaşlarının 13 faizi artıq peyvəndi alıb, Avropa İttifaqının vətəndaşları isə 2 faiz. Əgər belə gedərsə, Böyük Britaniya əhalisinin 75 faizi iyul ayına qədər vaksinlə təmin ediləcək, Avropa İttifaqı isə oktyabr ayına qədər. Yəni bu çox düşündürücü açıqlamalardır. Hətta ondan sonra biz gördük ki, bəzi embarqolar da qoyuldu.

Bildiyiniz kimi, bəzi istehsal sahələri Avropada təşkil olunub. Ona görə belə bir qalmaqal yarandı. Əlbəttə, biz gərək buna diqqətlə nəzər salaq. Əgər inkişaf etmiş ölkələr bu vaksinləri öz aralarında ədalətli bölə bilmirlərsə və qarşılıqlı ittihamlar irəli sürürlərsə, onda başqa ölkələr nə fikirləşməlidir? Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm.

Ona görə biz «Qoşulmama Hərəkatı»nın sədri olaraq və öz bəyanatlarımıza sadiq qalaraq, artıq dünya arenasında bu məsələni qaldırırıq. Mən sədrliyi öz üzərimə götürərkən demişdim ki, Azərbaycan beynəlxalq hüququ və ədaləti müdafiə edəcək, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcək və biz bunu edi-

rik. Bu iki Zirvə görüşünün və bir xüsusi sessiyanın keçirilməsi onu göstərir ki, biz özümüzü bu sahədə də məsuliyyətli ölkə kimi aparırıq və bundan sonra da öz səsimizi daim ucaldacağıq. Çünki istisna edilmir ki, bundan sonra vaksinlər uğrunda mübarizə daha da kəskinləşəcək və bu çox faciəvi fəsadlara gətirib çıxara bilər.

**S u a l: Cənab Prezident, icazənizlə, vaksinləmə prosesinin Azərbaycana aid olan hissəsinə qayıdaq. Siz çıxışınızın əvvəlində artıq qeyd etdiniz ki, ölkəmizdə bu prosesə başlanılıb. Görülən işləri necə qiymətləndirirsiniz?**

**C a v a b:** Müsbət qiymətləndirirəm. Çünki Azərbaycan Cənubi Qafqazda ilk olaraq artıq vaksinasiya işlərinə start verdi. Eyni zamanda, yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulub, bütün lazımi addımlar atılıb, beynəlxalq təşkilatlarla təmaslar qurulubdur. Biz COVAKS təşəbbüsünün üzvüyük və COVAKS xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik. Eyni zamanda, biz bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlamışıq. Amma onların bəzilərinin icrası indi yubanır, yəqin ki, dediyim bu səbəblərə görə. Eyni zamanda, biz artıq 4 milyon doz vaksin sifariş etmişik və onların Azərbaycana gətirilməsi təmin edilib, Çin istehsalı olan vaksinlər. Yanvarın 18-dən başlayaraq, Azərbaycanda vaksinasiya başlanıbdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlanmışdır. Yəni bir aydan sonra Azərbaycan vətəndaşları bu

vaksinləri alırlar, peyvənd olunurlar. Əlbəttə, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür.

Onu da bildirməliyəm ki, indiki şəraitdə, xüsusilə zəngin ölkələr arasında olan bu ixtilaflar istehsalçılara da mənfi təsir göstərir, bir çox ölkələrin vətəndaşlarını bu vaksinlərdən məhrum edir. Ondan başqa, bu, dünyada ölkələr arasındakı inamsızlığı da alovlandırır. İndi siz Avropa İttifaqı ilə Böyük Britaniya arasındakı qalmaqaldan danışdınız, amma başqa misallar da vardır. Misal üçün, yenə də açıq mətbuata istinad edərək deyə bilərəm ki, inkişaf etmiş ölkələr dünya əhalisinin 14 faizini təşkil edir. Halbuki inkişaf etmiş ölkələr bu günə qədər dünya vaksinlərinin 53 faizini sifariş edib. Yəni bu yenə də ədalətsizlik, qeyri-bərabərlikdir. «Moderna» vaksini var, səhv etmirəmsə Amerika istehsalıdır. «Moderna» vaksininin 98 faizini zəngin ölkələr sifariş edib. «Pfizer» Avropa istehsalı vaksinidir. «Pfizer» vaksininin 96 faizini zəngin ölkələr sifariş edib. Yaxşı, bəs kasıb ölkələrin vətəndaşları nə etməlidirlər, xəstələnməlidirlər? Onlar xəstələnəndə ölmək ehtimalı daha böyükdür. Çünki o ölkələrdə səhiyyə sistemi inkişaf etmiş ölkələrdən müqayisəedilməz dərəcədə geridə qalıb. Bax, bu məsələlər haqqında danışmalıyıq, bunu gizlətməməliyik. Ancaq bu məlumat açıq mətbuatda gedir, sonra sanki unudulur. Çünki sərf etmir. Dünya mediasına rəhbərlik edən qurumlara sərf etmir. Çünki bu o aktorların sözlərinin əməlləri ilə böyük fərqini göstərir.

Bir misal da gətirə bilərəm. Bu yaxınlarda verilmiş məlumata görə, Kanada 154 milyon əhali üçün vak-

sin sifariş edib. Kanadanın əhalisi 38 milyondur. Yəni bu ölkə, bu ölkənin hökuməti, hansı ki, Vətən müharibəsi zamanı sırf ermənipərəst mövqe sərgiləyirdi, işğalçıları dəstəkləyirdi, bizim haqq işimizə kölgə salmaq istəyirdi və hətta «Bayrakdar» pilotsuz uçuş aparatlarının kameralarının Türkiyəyə ixrac edilməsi ilə bağlı əsassız embarqo qoymuşdu, həmin bu ermənipərəst ölkə 154 milyon vaksin sifariş edir, onun pulunu verir, öz ölkə əhalisinin sayı 38 milyondur. Yəni dörd dəfə çox. Deməli, 120 milyona bu vaksin çatmayacaq. Onlar almayacaqlar, onlar xəstələnəcəklər, öləcəklər. Onların isə vecinə deyil. Onlar ancaq eqoist hisslərə qapılaraq, öz maraqlarını təmin etmək istəyirlər. Belə olan halda, hansı demokratiyadan söhbət gedə bilər? Hansı ədalətdən, mərhəmətdən, insan haqlarından söhbət gedə bilər? Deməli, kasıb ölkələrin insan haqları tapdalanır, onların səhhəti, sağlamlığı risk altına düşür, amma zəngin ölkələr öz maraqlarını artıqlaması ilə – 4-5 mislini təmin edir.

Bu sadəcə olaraq, xəstəliklə bağlı olan məsələ deyil. Bunun çox dərin kökləri var və bu, təsadüfi deyil. Çünki bu dərin köklər bizi müstəmləkəçilik dövrünə aparır. Amma elə bil ki, biz neomüstəmləkəçilik dövrünü qeyri-rəsmi müşahidə edirik, yaxud da ki, elan edilməmiş müstəmləkəçilik, bunun başqa adı yoxdur. Belə olan halda, bu ölkələrin mənəvi haqqı varmı kiməsə nəsə desin, kimisə nədəsə ittiham etsin? Bu eqoizmdir, vicdansızlıqdır. Azərbaycan – «Qoşulmama Hərəkatı»na sədrlik edən ölkə burada səssiz qalmır və qalmayacaq. Bu gün mən bu imkandan istifadə

edərək, «Qoşulmama Hərəkatı»nın üzvlərinə də çağırış edirəm ki, onlar da bizim səsimizə qoşulsunlar və biz bu məsələni beynəlxalq kürsülərdən, BMT kürsüsündən qaldıraq. Ümumdünya Səhiyyə Təşkilatına müraciət etməliyik, şirkətlərə müraciət etməliyik, zəngin ölkələrə müraciət etməliyik ki, bu ölkələr bu praktikadan əl çəksinlər. Bu ədalətsizlikdir. Buna göz yummaq olmaz. Bunun üstünü örtmək olmaz. Bu barədə Azərbaycan BMT-dən sonra ikinci böyük təsisatın lideri kimi, öz sözünü bundan sonra da deyəcək.

**Müxbir:** Siz Vətən müharibəsi məsələsinə toxundunuz. Növbəti sualım icazənizlə, erməni işğalından azad edilmiş torpaqlarla bağlı olacaq. Həmin ərazilərə artıq bir neçə dəfə səfər etmisiniz. Təəssüratlarınızı bir daha eşitmək istəyərdik.

**İlham Əliyev:** Təəssüratlarım, əlbəttə ki, hər bir Azərbaycan vətəndaşının keçirdiyi hissləri mən də keçirirəm. Bəlkə daha da çox. Çünki mən artıq əyani şəkildə o torpaqlarda oldum. İndi vaxtaşırı televiziya reportajlarında o dağılmış, viran qoyulmuş ərazilər göstərilir. Amma onu əyani şəkildə görəndə mənzərə tam başqadır. Bu bir daha göstərir ki, hansı bəlaya qarşı biz mübarizə aparmışıq. Bu gün bizim haqlı davamıza kölgə salmaq istəyən ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr bilməlidirlər ki, mənfur Ermənistan bizim torpaqlarımızı zəbt edərək, işğal edərək, bütün infrastrukturu dağıdıb. Mən Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında, Şuşa şəhərində oldum. Ağdam şəhəri tamamilə dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Bir yarıdağılmış məscid qalıb, onu da ermənilər təhqir ediblər. Fü-

zuli şəhərində bir dənə də bina yoxdur. Bir üç-dörd mərtəbəli hərbi hissənin binasıdır. Cəbrayıl şəhərində, şəhərin girəcəyində bir hərbi hissə var, şəhər yoxdur. Qubadlı və Zəngilanda bir neçə ev qalıb, özü də yarıdağılmış vəziyyətdə. O evlərdən də onlar polis şöbəsi kimi, hərbi baza kimi istifadə ediblər. Yol boyunca kəndlərdə bir dənə də salamat bina yoxdur. Kəndlərin bütün binaları dağıdılıb, talan edilibdir. Bu mənzərə indi bütün dünyaya təqdim edilir və təqdim edilməlidir. Uzun illər Ermənistan rəhbərliyi və onun havadarları bunu gizlədirdilər. Sanki belə bir şey yoxdur. O bölgələrdə olan beynəlxalq təşkilatların nümayəndələri də bunun üstünü örtürdülər. Bu talançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir. Məhz buna görə biz oraya jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edirik. Daha da böyük sayda dəvət etməliyik ki, hər kəs görsün. Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır.

Mən özümə sual verirdim ki, nə üçün onlar bunu edib və sözün düzü, suala cavab tapa bilmirəm, bu günə qədər də. Bir səbəb ondan ibarətdir ki, onlar hesab edirdilər ki, belə olarsa, bütün evlər yerlə yeksan edilərsə, azərbaycanlılar o torpaqlara qayıtmayacaqlar. Çünki onlar hesab etmirdilər ki, biz o faciədən sonra ayağa dura bilərik, möhkəmlənə bilərik, zəngin təbii ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edib

ölkəmizi inkişaf etdirə bilərik, bu torpaqları, əraziləri bərpa edə bilərik. Onlar hesab edirdilər ki, heç vaxt biz oraya qayıtmayacağıq.

Bu, birinci səbəb. İkinci səbəb, bəlkə də birinci səbəb, onların ürəyində bizə qarşı olan düşmənçilikdir. Biz bunu sovet dövründə bilmirdik, hiss etmirdik. Mən o illəri yaxşı xatırlayıram. Azərbaycanda minlərlə erməni yaşayırdı. Bizim onlara münasibətimiz çox müsbət idi. Onlar da özlərini burada cəmiyyətin normal üzvləri kimi aparırdılar. Heç bir ədavətdən, düşmənçilikdən söhbət gedə bilməzdi. Bəs necə oldu ki, keçən əsrin 92–93-cü illərində onlar bizə qarşı bu qədər qəddarlıq göstərdilər – Xocalı soyqırımı, onların digər günahsız insanların öldürülməsi ilə nəticələnmiş hərbi əməliyyatları, dinc əhaliyə qarşı bu qədər qəddarlıq? Deməli, bunların ürəyində bu düşmənçilik toxumları həmişə var idi. İndi Azərbaycan onların belini qırıb, başını əzib, ordusunu məhv edib, ideologiyasını məhv edib, onların illər boyunca, onilliklər boyunca yetişdirdikləri ideoloji əsaslarını məhv edib, bu gün aydın məsələdir, onların bizə münasibəti nədir. Bəs o vaxt biz nə pislik etmişdik? Heç bir pislik etməmişdik. Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstlərini güllələbaran etməklə, gərək adamın ürəyində nə qədər nifrət olsun, nə qədər düşmənçilik olsun, özü də kimə? O xalqa ki, sənə burada yer verib, sən burada yuva salmısan.

Sənin üçün yad olan torpağa, Qarabağa köçürülmüsən, Anadoludan, İrandan köçürülmüsən, gəlmisən, Azərbaycan xalqı sənə burada qucaq açıb çörək verib. Sən «çox sağ ol» əvəzinə, ötən əsrin 92–93-cü

illərində bütün binaları dağıdıbsan, məscidləri dağıdıbsan, təhqir edibsən. Bu kadrlar var internetdə. O hərbi cinayətkar, İkinci Qarabağ müharibəsində Qarabağa gəlmiş və siçan kimi oradan qaçmış Köçəryan Ağdam məscidinin önündə dayanıb və Ağdam məscidinin divarının üzərində təhqiramiz ifadələr yazılıb. Bax budur o, bu hisslərlə yaşayıb. Biz onların belini qırdıq, onları məhv etdik.

Hesab edirəm ki, müasir dünya ikinci belə vəhşilik görməmişdir. Əliyalın insanları, uşaqları yandırıblar, öldürüblər. Bütün binaları, məscidlərimizi dağıdıblar. Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcəkdir. O cümlədən erməni xalqı da vaxt keçəcək, bizə minnətdar olacaq ki, biz onları bu bəladan xilas etmək istədik. Ümid edirəm ki, onlar xilas olunacaqlar. Əks təqdirdə, Ermənistan dövlətinin dövlət kimi gələcəyi çox böyük şübhə altındadır.

**S u a l: Cənab Prezident, mətbuatda gedən bir məlumatda deyilir ki, Mərkəzi Bankın sədri Şuşada təmsil etdiyi qurumun nümayəndəliyinin açılacağını bildirib. Bu məsələyə münasibətiniz necədir?**

**C a v a b:** Buna münasibətim mənfidir. Özü də deyim nəyə görə. Birincisi, bu özbaşınalıqdır. Belə açıqlama veriləndə mütləq rəhbərliklə məsləhətləşmə aparılmalıdır. Azad edilmiş torpaqların bərpası ilə bağlı mənim tərəfimdən bir çox önəmli qərarlar qəbul edilib, qərargah yaradılıb. Qərargaha Prezident Administrasiyasının rəhbəri rəhbərlik edir. Mən demişdim

ki, bütün təkliflər, bütün təşəbbüslər oraya göndərilməlidir. Çünki biz kim necə istəyir o torpaqları, əraziləri bərpa edə bilmərik. Biri filial açmaq istəyir, biri nə bilim başqa qurum açmaq istəyir. Bu yolverilməzdir və qəbuledilməzdir! Burada subardinasiya olmalıdır. Ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özü üçün hansısa bir yeni ofis yaratmaq üçün belə açıqlamaların verilməsi tamamilə qəbuledilməzdir və buna son qoyulmalıdır.

İkincisi, biz bütün işləri ardıcıllıqla edirik. Bu ardıcıllıq haqqında Azərbaycan xalqına dəfələrlə demişəm ki, insanlar da bilsinlər. İlk növbədə, keçmiş köçkünlər nə vaxt qayıda bilərlər o torpaqlara. Ən vacibi minalardan təmizləmədir. Bu, böyük bir prosesdir. Ermənilər bizə mina sahələrinin xəritələrini vermirlər. Ona görə indi partlayışlar da tez-tez olur. Biz Minatəmizləmə Agentliyini yenidən formalaşdırırıq və onun fəaliyyəti daha səmərəli olacaqdır. Ancaq bu, müəyyən vaxt aparacaqdır. Mina təmizləməklə əlaqədar işlər başa çatmalıdır. Ondan sonra ziyanın qiymətləndirilməsi. Əgər ziyanın qiymətləndirilməsini etməsək, sabah biz təzminat davasında da uğur qazana bilmərik. Ona görə ilk növbədə, bütün dağılmış evlərin pasportlaşdırılması aparılmalıdır, video, fotoçəkilişlər, dron çəkilişləri, protokollaşdırılma – hər bir binanın, hər kənddə, hər şəhərdə yerləşən binanın öz pasportu olmalıdır. Cəlb edilmiş beynəlxalq şirkətlərə bu məlumatı biz verəcəyik, sonra onlar özləri tədqiqat aparacaqlar, monitorinq missiyaları həyata keçirəcəklər və bizə Ermənistana qarşı açılacaq təzminat davasında kömək göstərəcəklər. Yəni ardıcıllıq

budur. Bu işlər görüləndən sonra infrastruktur layihələri icra edilməlidir. Axı infrastruktur olmasa, orada insanlar necə yaşayacaq? Su yox, işıq yox, yol yox, necə yaşamaq olar? Ondan sonra evlər tikilməlidir. Mən artıq göstəriş vermişəm, bizim qurumlar işləyirlər, bütün şəhərlərin baş planları hazırlanır, özü də elə-belə yox, «ağıllı şəhər», «ağıllı kənd» konsepsiyasına uyğun. Bu, zaman tələb edir, hər şey planlı şəkildə olmalıdır. Yoxsa biri oradan durub deyəcək ki, mən burada bunu tikəcəyəm, biri oradan deyəcək ki, mən də bunu. Kimsən sən? Get öz işinlə məşğul ol. Yenə də deyirəm, ucuz populyarlıq dalınca qaçanların axırı pis olur, bu bir. İkincisi, ölkədə qayda-qanun var. Heç kim özbaşınalıq edə bilməz. Əgər kimsə bunu unudursa, biz onun yadına salarıq. Təkcə bu işlərlə məsələ bitməyəcək. Sosial obyektlər də tikilməlidir. Evlərin tikintisi ilə paralel olaraq sosial obyektlər – xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları, idman qurğuları da tikilməlidir. Yoxsa indi biz gedib haradasa məktəb ya xəstəxana tiksək, kim oraya gedəcək? Orada adam yoxdur.

Şuşa şəhərinə gəldikdə, Şuşa şəhəri mənim tərəfimdən ölkəmizin mədəniyyət paytaxtı elan edilib. Bunu hər kəs bilir və bu qərar yüksək qiymətləndirilib. Şuşa nəinki Azərbaycanın, hətta bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq soydaşlarımız da bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar. Şuşa, demək olar ki, dağılıb, bütün binalar dağılıb. Bir keçmiş raykom binası qalıb, harada ki, mənfur xunta özü üçün yuva salmışdı, bir

xunta başçısının villası və bir-iki də cinayətkar, rüşvətxor erməni məmurunun villası. Orada başqa bina yoxdur. Bir də «xruşovka»lar, hansılar ki, çoxdan öz ömrünü bitirib, orada da 2000 erməni yaşayırdı. Mərkəzi Bank orada insanlara xidmət göstərib ki, filial açsın? Kimin üçün filial açacaq? Özü üçün ki, gedib orada otursun, yaxud da ki, gedəndə bunun bir iqamətgahı olsun, şəraiti olsun, oraya pullar xərclənsin. Bunun insanlara hansı xeyiri dəyəcək? Heç bir xeyiri. Təkcə bu deyil. Digər qurumlar da mənə müraciət ediblər. Onların hər halda, ağlı çatıb mənə müraciət etməyə, mən də onlara dedim ki, gedin oturun yerinizdə. Onların adını da deyə bilərəm, sadalaya bilərəm, qoy Azərbaycan vətəndaşları bilsinlər. «Azəravtoyol»un rəhbəri mənə müraciət edib ki, icazə verin, Şuşada «Azəravtoyol» qurumunun regional mərkəzini açaq. Nə üçün? Yol çəkmək lazımdır, get yol çək. Heç kim öz hesabına yol çəkmir, dövlət büdcə ayırır. Şuşada «Azəravtoyol»un regional mərkəzinin nə işi var? İstəyir ki, özü üçün şərait yaratsın, getsin o torpağı zəbt etsin, özü üçün iqamətgah tikdirsin, onu hasara alsın, bir qarovulçu da qoysun və bəli, oraya gedəndə oturub təbiəti, necə deyərlər, seyr etsin. AZAL-ın rəhbəri mənə müraciət edib ki, AZAL-ın hansısa qurumunu Şuşada yaratmaq istəyir. Bu, prinsipcə absurddur. Ona da lazımi sözləri dedim ki, get otur yerində. Ondan sonra, Dövlət Gömrük Komitəsi Şuşada Qarabağ Regional Mərkəzinin yaradılması ilə bağlı müraciət edib. Şuşada sərhəd var ki, gömrüyün regional mərkəzi olsun?

Bilirsiniz, belə ziyanlı fikirlər bu adamların beyninə gəlir və onlar da bunu tələffüz edirlər. Siyahı davam edir hələ. Fövqəladə Hallar naziri mənə müraciət edib ki, icazə verin, Şuşa şəhərində Fövqəladə Hallar Nazirliyinin Qarabağ Regional Mərkəzini yaradaq. Yenə də eyni məqsədlə, yenə də torpaq, hələ ki, orada indi heç kim yoxdur, yenə də hasar, yenə də nə bilim tikanlı məftil, iqamətgah. Dövlət Sərhəd Xidməti. Bu təklifi indi desəm yəqin ki, mənim kimi, Azərbaycan xalqı da güləcək. Xidmətin rəisi mənə zəng edib deyir ki, icazə verin, sərhəd xidmətini Şuşa zastavasında yaradaq. Dedim ki, a kişi, Şuşada sərhəd var? De də mənə, Şuşada sərhəd var, yoxsa yox? Deyir yoxdur. Deyirəm, bəs nə zastava yaradırsan? O boyda indi bizim sərhədimiz yaranıb, ta şimaldan cənuba qədər, Kəlbəcərdən Cəbrayıla qədər Ermənistanla sərhəd. Cəbrayıl rayonunda İranla sərhəd, get orada yarat da. Şuşada nə işin var sənin?! Yenə də gəlim, oturum, yerləşim, iqamətgah qurum, burada mənim bir rezidensiyam olsun, hamısı da dövlət hesabına. Mən bəzi şeyləri demirəm vətəndaşlara ki, onları iyrəndirməyim, bağışlayın sözümə görə, ifadəmə görə. Amma mənim də artıq səbrim tükənir və dedim ki, vətəndaşlar da bilsinlər, məmurlar da bilsinlər. Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar. Bir də mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm. Ona görə hərə otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbiləşdirməsin. Şuşanın ərazisinin ölçüsü 300 hektardır. Mən icazə verməmişəm ki, bir dənə daş daş üstə qoyulsun. Çünki birinci təhlil aparmalıyıq. Ondan sonra o ta-

rixi binaları bərpa etməliyik. Necə bərpa etməliyik, bunu mən də deyə bilmərəm, mütəxəssislər deməlidir, biz onları cəlb etmişik. Misal üçün, Xurşidbanu Natəvanın sarayı necə bərpa edilməlidir? Sarayın bir divarı var, qalan divarlar uçub. Hansı formada o, bərpa edilməlidir? Onun uçulmuş hissəsi yenidənmi eyni formada tikilməlidir, yaxud elə tikilməlidir ki, oraya gələn görsün – bax, bu buradan dağılıb, oradan sökülüb. Bu suala mənim cavabım yoxdur, çünki mən mütəxəssis deyiləm. İndi müxtəlif şirkətlər, yerli, xarici şirkətlər məşğul olurlar bu işlərlə. Şuşada biz ancaq və ancaq tarixi binaları bərpa etməliyik, mən belə hesab edirəm. Ondan sonra «xruşovka»larla bağlı, indi qabaqlamaq istəmirəm, fikrim var ki, onların bir çoxu oradan yığışdırılmalıdır. Onların yerində yəqin ki, müasir 4-5 mərtəbəli yaşayış binaları tikilməlidir, ancaq bunu yenə də mən sadəcə olaraq, öz fikirlərimi bölüşürəm, amma necə olacaq, onu mütəxəssislər deyəcək, memarlar, tarixçilər və şuşalılar özləri, onlar bu şəhəri necə görmək istəyirlər, çünki bu onların şəhəridir. Yoxsa bütün bu işlər kənarda qala-qala biri durur ki, mən filial açıram, biri deyir ki, mən zastava açıram, biri deyir ki, mən fövqəladə hallar açıram. Vallah, adam söz tapmır. Mən söz tapmışam, onlara elə söz demişəm ki, onlar o sözü unutmayacaqlar. Azərbaycan vətəndaşlarına da deyirəm: bərpa ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır. Olmasa, bax, bilin, yenə də eybəcər binalar tikiləcək, torpaqlar zəbt ediləcək, hərə özü üçün bir obyekt tikəcək. İndi bir məsələni də demək istəyirəm. Mən müvəqqəti idarəetmə strukturu ya-

ratmışam. Nəyə görə? Çünki görürəm, bilirəm, artıq gözlər tikilib oraya. İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, bu torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır. Otursun hərə öz yerində işi ilə məşğul olsun. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir torpaq zəbt oluna bilməz. Hər şey planlı və əsaslı şəkildə olacaqdır. Mən əminəm ki, buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma eyni zamanda, elə olsun ki, bu oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın qüdrətini bütün dünyaya göstərsin.

**M ü x b i r:** Cənab Prezident, bizə ayırdığınız vaxta görə bir daha Sizə minnətdarıq.

## TÜRKİYƏNİN MİLLİYYƏTÇİ HƏRƏKAT PARTİYASININ SƏDR MÜAVİNİ MEVLÜT KARAKAYA İLƏ GÖRÜŞ

*2 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədr müavini, Ankaradan deputat Mevlüt Karakayanı qəbul etmişdir.*

*Milliyyətçi Hərəkat Partiyasının sədr müavini Mevlüt Karakaya partiyanın sədri Dövlət Baxçalının salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, dövlət başçımızın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Zəfər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.*

*Prezident İlham Əliyev Dövlət Baxçalının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Milliyyətçi Hərəkat Partiyasının sədrinə çatdırmağı xahiş etdi.*

*Dövlət başçısı Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana göstərdiyi siyasi, mənəvi və diplomatik dəstəyi xatırlatdı. Müharibə dövründə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatlarının Azərbaycana böyük dəstək olduğunu deyən Prezident İlham Əliyev Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının müttəfiqi olan Milliyyətçi Hərəkat Parti-*

*yasının sədri Dövlət Baxçalının da açıqlamalarının siyasi, mənəvi önəm kəsb etdiyini vurğuladı.*

*Milliyyətçi Hərəkat Partiyasının sədr müavini Mevlüt Karakaya Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında mədəniyyət və incəsənət təmayüllü məktəbin tikintisi ilə bağlı təşəbbüs barədə dövlət başçısına məlumat verdi. Bu xüsusda Azərbaycanın Təhsil naziri və digər rəsmi şəxsləri ilə görüşdüyünü diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev bu təşəbbüsə görə təşəkkürünü bildirdi, azad edilmiş torpaqlarda aparılan bərpa və şəhərsalma işləri çərçivəsində bu təşəbbüsün nəzərə alınacağını dedi. İşğaldan azad olunmuş ərazilərdə şəhərlərin baş planlarının hazırlandığını vurğulayan dövlət başçısı məktəb binası üçün münasib yerin seçilməsi məqsədilə müvafiq təlimat verəcəyini qeyd etdi.*

*Söhbət zamanı Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin uğurlu inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## QEYDLƏR

**1. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Əhalisi 40,2 min nəfər, sahəsi 802 km2-dir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci il ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 5, 8, 9, 10, 11, 12, 13, 14, 18, 19, 22, 23, 84, 85, 89, 140, 149, 153, 156, 196, 230, 289, 303, 320, 321.

**2. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 5, 6, 7, 8, 12, 19, 20, 21, 22, 23, 39, 41, 50, 72, 76, 84, 85, 139, 140, 149, 153, 155, 156, 182, 196, 200, 230, 276, 303, 320, 321.

**3. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-

Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə

Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 7, 9, 10, 11, 23, 60, 79, 100, 187, 188, 190, 192, 198, 203, 204, 205, 206, 211, 214, 215, 216, 239, 301, 304, 306, 307.

**4. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 5, 12, 18, 22, 84, 85, 149, 150, 196, 199, 230, 289, 320, 321, 327.

**5. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Al-

maniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 6, 85, 171.

**6. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min $km^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 7, 86, 265.

**7. Cenevrə Konvensiyası –** 1949-cu ildə İsveçrənin Cenevrə şəhərində keçirilən konfransda dörd Cenevrə Konvensiyası qəbul edilmişdir. Cenevrə konvensiyaları və onlara əlavə edilmiş protokollar silahlı münaqişələr zamanı yaralı, xəstə və gəmi qəzasına uğramış hərbçilərin vəziyyətini yaxşılaşdırmaq, hərbi əsirlərə baş çəkmək, mülki əhaliyə köməklik göstərmək və ümumilikdə, humanitar hüquq ilə mühafizə edilən şəxslərə qarşı müvafiq rəftarı təmin etmək hüququnu müəyyən edir. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi bütün beynəlxalq norma və prinsiplərə əməl etməyərək Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozub – dinc əhalini, çox-

saylı ev və mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə alıb, mülki vətəndaşlara qarşı cinayətlər törədib. Hədəf kimi seçilən ərazilər əhalinin kompakt olduğu məntəqələr – rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektlər – xəstəxanalar, tibb məntəqələri, məktəb binaları, uşaq bağçalarıdır. – 8, 230, 233.

**8. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 8, 14, 15, 21, 34, 37, 44, 50, 54, 69, 70, 71, 72, 73, 74, 75, 78, 92, 93,

109, 111, 149, 152, 153, 154, 183, 187, 188, 189, 190, 191, 192, 193, 195, 196, 197, 198, 199, 201, 202, 203, 204, 205, 207, 209, 211, 212, 213, 214, 215, 216, 230, 235, 237, 267, 276, 280–291, 320, 323, 325.

**9. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozub.

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq üçün əks-hücum əməliyyatlarına başlamışdır. Aparılan hərbi əməliyyatlar zamanı rəşadətli Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Şuşa şəhərlərini və xeyli sayda kənd və yaşayış məntəqələrini işğaldan azad etmişdir. – 10, 17, 20, 23, 34, 38, 44, 49, 56, 68, 80, 84, 86, 88, 122, 150, 156–158, 162, 171, 183, 186, 189, 201, 207, 208, 211, 212, 213, 216, 227, 235, 280, 282, 327.

**10. Şükür Həmidov,** Şükür Nəriman oğlu (1975–2020) – polkovnik, Azərbaycanın Milli Qəhrəmanı.

Aprel döyüşləri zamanı Lələtəpə yüksəkliyinin azad edilməsində iştirak etmişdir. İkinci Qarabağ müharibəsində döyüşlər başladığı andan etibarən ön xətdə olmuş və 23 oktyabr 2020-ci ildə doğma rayonu olan Qubadlı uğrunda gedən döyüşlər zamanı şücaət göstərərək şəhid olmuşdur. Azərbaycan Respublikasının «Zəfər» ordeni ilə təltif edilmişdir. – 12.

**11. Aprel döyüşləri –** 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında işğal olunmuş bəzi ərazilərimizin azad olunması əməliyyatı. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş – Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi tərəfindəki yollar tamamilə erməni tapdağından azad edilmişdir. – 12, 52, 53.

**12. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci il tarixində imzalanan müqaviləyə əsasən, Laçın rayonu işğaldan azad edildi. Bəyanata əsasən, 1 dekabr 2020-ci il tarixində Laçın rayonu boşaldılıb Azərbaycan Silahlı

Qüvvələrinə təhvil verildi. – 13, 14, 16, 44, 74, 84, 85, 88, 92, 139, 140, 144, 149, 152, 153, 154, 156, 189, 195, 196, 209, 231, 270, 276, 289, 290.

**13. 10 noyabr bəyanatı** – Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistanın nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi haqqında müqavilə. – 16, 17, 38, 39, 153, 160, 163, 164, 167, 169, 300.

**14. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 $km^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci il müqaviləsinə əsasən, 20 noyabrda Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 16, 21, 50, 52, 66, 69, 71, 84, 85, 117, 149, 182, 195, 199, 207, 229, 234, 290, 320.

**15. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir.

1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 $km^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci ildə imzalanan müqaviləyə əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu Ermənistan tərəfinin Rusiya vasitəsilə xahişinə əsasən, Azərbaycana 25 noyabrda təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. – 16, 37, 44, 84, 85, 89, 92, 119, 144, 149, 153, 154, 156, 189, 195, 209, 231, 270, 276, 284, 289, 290, 327.

**16. UNESKO** – BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 21, 50, 65, 67, 75, 77, 79.

**17. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-ın bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə

yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. 2 palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 21, 47.

**18. Qazaxıstan,** Qazaxıstan Respublikası – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 24, 176, 177, 238, 268.

**19. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 25, 29, 30, 31, 38, 39, 40, 48, 61, 62, 87, 145, 152, 155, 159, 160, 161, 162, 163, 164, 165, 166, 167, 168, 169, 171, 172, 173, 174, 217, 220, 298, 300.

**20. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–

97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 25, 61, 159, 160, 164, 166, 167, 168, 169, 170, 171, 172, 174, 300.

**21. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 26, 36, 37, 38, 39, 40, 41, 42, 48, 107, 155, 173, 217, 218, 276, 298, 299, 330, 331.

**22. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 26, 36, 42, 217, 298, 330.

**23. Giorgi Qaxaria** (d.1975) – Gürcüstan siyasətçisi və dövlət xadimi. 2019–2021-ci illərdə Gürcüstanın Baş Naziri olmuşdur. – 27, 28.

**24. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 27, 28, 48, 220.

**25. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünü-

dərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azər-

baycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya

və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 32, 88, 139, 140, 171, 202, 205, 206, 207, 208, 209, 240, 241, 242.

**26. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 32, 100, 312, 313, 314, 320.

**27. Türk Şurası** – 3 oktyabr 2009-cu ildə Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan arasında qurulmuş beynəlxalq təşkilat. Türk Şurasının üç mərkəzi vardır. İstanbul Ümumi katibliyin, Bakı Parlamentar Assambleyanın, Nur-Sultan isə Türk Akademiyasının mərkəzidir. – 32, 229, 250.

**28. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv ol-

duğu digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkatda sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 32, 47, 184, 233, 246, 250, 313, 314, 315, 316, 319, 320.

**29. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 32, 100, 101, 314.

**30. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya, Baş Assambleyanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 32, 33, 47, 184, 245, 249, 250, 314, 315.

**31. Yaşar Gülər** (d.1954) – türk generalı, 2018-ci ildən Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisidir. – 36.

**32. Hulusi Akar** (d.1952) – ordu generalı. 2015–2018-ci illərdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, 2018-ci ildən isə Türkiyə Respublikasının Müdafiə naziridir. – 36, 40.

**33. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildən ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 37, 69, 74, 84, 85, 117, 132, 149, 153, 154, 187, 188, 190, 191, 196, 199, 229, 230, 236, 267, 276, 289, 320.

**34. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda şəhər. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilsə də, 1994-cü ildə keçirilən «Horadiz əməliyyatı» zamanı işğaldan azad edilib.

27 Sentyabr 2020-ci ildə Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyat nəticəsində işğaldan tamamilə azad edilmişdir. – 39, 132, 154, 155, 276.

**35. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 km$^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərin-

də yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 39, 41, 53, 155, 190, 276.

**36. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. – 41, 43, 50, 161.

**37. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il

müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 43, 48, 232.

**38. Birinci Qarabağ müharibəsi** – 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər, əsasən 1992-ci ildə başlamışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 44, 179, 195.

**39. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1768 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 46, 309.

**40. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir. Avropa Parlamenti beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avropa Parlamenti Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 47.

**41. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 48, 76, 233.

**42. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 48, 156, 173, 261, 263, 264, 322.

**43. Kürəkçay sazişi** – 1805-ci il 14 may tarixində imzalanmış Qarabağ və Şəki xanlıqlarının Rusiya tərəfindən ilhaqı. – 49.

**44. Gəncə** – Azərbaycan Respublikasında əhalisinə görə Bakıdan sonra ikinci böyük şəhər. Gəncə şəhəri Kiçik Qafqazın şimal-şərqində, Gəncə–Qazax düzənliyində yerləşir. Sahəsi 173 $km^2$, əhalisi 360,4 min nəfərdir. – 49, 93, 104, 105, 132, 134, 190, 232.

**45. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 49, 50, 73, 89, 92, 205, 210, 322.

**46. Gəncə terroru** – İkinci Qarabağ müharibəsi zamanı Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən bombalanması ilə törədilən terror aktları.

Mülki şəxsləri hədəf alan hücumlar nəticəsində 27 nəfər ölmüş, 125 nəfər yaralanmışdır. Hücumlardan həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. Terror aktları nəticəsində şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər binalara, avtomobillərə ciddi ziyan dəymişdir. Bununla da Ermənistan yenə beynəlxalq hüququn norma və prinsiplərini, insan haqlarını kobudcasına pozmuş, qeyri-insani əməllərinin arealını genişləndirmişdir. – 49, 232.

**47. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 50, 65, 68, 137, 198, 235, 288.

**48. Günnüt əməliyyatı** – 2018-ci il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasında Azər-

baycan Silahlı Qüvvələri ilə Ermənistan silahlı qüvvələri arasında baş vermiş hərbi münaqişə. Əlahiddə Ümumqoşun Ordusunun əks-həmlə əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndi, «Ağbulaq» yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları azad olunub, Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan ordusunun nəzarəti altına keçib. Döyüşlər nəticəsində, ümumi olaraq, 11,000 hektarlıq ərazi azad olunub. – 53.

**49. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 57, 96, 150.

**50. Trans Adriatik boru xətti** (TAP) – Xəzərin Azərbaycan sektorundan təbii qazı Yunanıstandan Albaniya və Adriatik dənizindən keçərək İtaliyaya və daha sonra qərbi Avropaya nəql edəcək boru xətti layihəsidir. Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olan TAP kəməri ilə «Şahdəniz-2» layihəsi çərçivəsində hasil olunan qazın ilkin olaraq ildə 10 mlrd. Kubmetrinin Avropaya nəqli nəzərdə tutulur, bununla Avropada təxminən 7 milyon ailə enerji ilə təmin ediləcəkdir. – 57, 96, 150.

**51. Teymur Rəcəbov,** Teymur Boris oğlu (d.1987) – Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeyster. 14 yaşında ikən dünyanın ən gənc qrossmeysteri olmuşdur. 2004-cü ildə FİDE dünya çempionatında yarımfinala qədər yüksəlmişdir. Onun əsas uğurları 2007-ci ildə «Veyk-an-Zea» turniri, 2008-ci ildə Elista Qran-prisini, 2017-ci ildə Cenevrə

Qran-prisini və 2019-cu ildə Dünya Şahmat Kubokunu qazanmasıdır. – 59.

**52. Şahin Mustafayev,** Şahin Abdulla oğlu (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri, 2016–2019-cu illərdə isə İqtisadiyyat naziri olmuşdur. 22 oktyabr 2019-cu ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir. – 62, 118, 119, 120.

**53. Anar Kərimov,** Anar Qabil oğlu (1977) – diplomat. 2008–2009-cu illərdə Xarici İşlər Nazirliyinin humanitar və sosial məsələlər şöbəsində birinci katib vəzifəsində çalışmışdır. 2010–2014-cü illərdə isə Azərbaycan Respublikasının UNESKO yanında Daimi Nümayəndəliyinin müşaviri, müvəqqəti işlər vəkili vəzifələrində işləmişdir. Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə Mədəniyyət naziri vəzifəsinə təyin edilmişdir. – 63, 78.

**54. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoy-

muş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 64, 65.

**55. İmadəddin Nəsimi,** S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb və fars dillərində yazmışdır. Şairin əsərləri dəfələrlə çap edilmiş, haqqında tədqiqat əsərləri yazılmışdır. UNESKO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi dünya miqyasında geniş qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən 2019-cu il «Nəsimi ili» elan edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə İmadəddin Nəsimi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. – 65.

**56. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 65.

**57. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın

daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 67.

**58. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası və ona bitişik Divanxana, aşağı həyətdə türbə və minarəli Şah məscidi, yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin türbəsi və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 67.

**59. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd

Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə Prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 67.

**60. Molla Pənah Vaqif,** P ə n a h M e h d i a ğ a o ğ l u (1717) – XVIII əsr Azərbaycan Şairi, məşhur ictimai və siyasi xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri. Vaqif lirikasının əsas xüsusiyyətləri millilik, xəlqilik, reazilm, sadəlik və nikbinlikdir. Vaqif yaradıcılığında «Badi-səba, bir xəbər ver könlümə», «Namə gedər olsan yarın kuyinə», «Bayram oldu», «Gözlərin cəlladdır, baxışın yağı», «Durnalar», «Heyran olmuşam» və s. Şeirləri xüsusi yer tutur. 12 yanvar 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. – 73, 205, 206, 207, 211, 231, 235, 287.

**61. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional mu-

siqi sənətinin və milli operasının, həmçinin şərqdə ilk operanın banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 74, 201, 203, 231, 322.

**62. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 29,12 $km^2$, əhalisi 55 min nəfərdir. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci il tarixində imzalanan müqaviləyə əsasən, Rusiyanın sülhməramlı qüvvələri şəhərdə yaşayan ermənilərin, habelə Xankəndiyə köçürüləcək hər iki xalqın yerləşdirilməsinə və təhlükəsizliyinə nəzarət mexanizmi həyata keçirir. – 74, 87, 207.

**63. Fransisk** (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 76.

**64. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 77, 157, 179, 181, 182, 183, 184, 185, 186, 286.

**65. Ağoğlan** (*Hadrut*) – Azərbaycan Respublikasının Xocavənd rayonu inzibati ərazi dairəsində qəsəbə. Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğal edilmişdir.

9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir. – 84, 196, 289.

**66. Suqovuşan** (Madagiz) – Azərbaycan Respublikası Tərtər rayonu Çaylı kənd inzibati ərazi dairəsində kənd. Suqovuşan ilk dəfə 1991–92-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. 1994-cü ilin aprel ayında isə yenidən Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

3 oktyabr 2020-ci il tarixində Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən tarixi adı bərpa edilərək Suqovuşan adlandırılmışdır. – 84, 119, 196, 302, 303.

**67. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 92, 155, 173.

**68. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Pa-

latası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 92.

**69. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 96.

**70. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 97, 115, 224.

**71. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u (DİF) – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. 1971-ci ildə yaradılmışdır. Ötən əsrin 70-ci illərinin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlandı. 1987-ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos forumu üçün ənənəvi şəkildə illik keçirilən görüşlər xarakterikdir. DİF-in hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını,

nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 27–31 yanvar 1995-ci ildə Heydər Əliyev ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib. – 98, 152, 267, 272, 275, 277.

**72. Əli Əsədov,** Ə l i H i d a y ə t o ğ l u (d.1956) – iqtisadçı. Azərbaycanın dövlət və siyasi xadimi. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. 1998–2019-cu illərdə Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi, 2012–2017-ci illərdə Azərbaycan Respublikası Prezident Administrasiyası rəhbərinin müavini, 2019-cu il oktyabrın 8-dən isə Azərbaycan Respublikasının Baş Naziridir. – 99, 106.

**73. Samir Nuriyev,** S a m i r R a f i q o ğ l u (d.1975) – mühəndis-iqtisadçı. 2018–2019-cu illərdə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, 2019-cu ildən isə Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəridir. – 107, 109.

**74. Mikayıl Cabbarov,** M i k a y ı l Ç i n g i z o ğ l u (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu illərdə

Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 23 oktyabr 2019-cu ildən İqtisadiyyat naziridir. – 114, 116.

**75. Samir Şərifov,** Samir Rauf oğlu (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təmsilçi direktordur. – 127.

**76. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir Yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda

Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 134, 136, 323.

**77. Sahil Babayev,** S a h i l R a f i q o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999– 2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin Hüquq Departamentinin baş mütəxəssisi və müdiri vəzifələrində çalışmışdır. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin, 2011–2014-cü illərdə isə Beynəlxalq Təşkilatlarla Əməkdaşlıq şöbəsinin müdiri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə isə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir. 2018-ci ildən Azərbaycan Respublika-

sının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 134.

**78. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 135.

**79. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərar-

gahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 137, 320.

**80. İnam Kərimov,** İ n a m  İ m d a d  o ğ l u (d.1977) – 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 141.

**81. Pərviz Şahbazov,** P ə r v i z  O q t a y  o ğ l u (d. 1969) – mühəndis, diplomat. 2005–2016-cı illərdə Azərbaycanın Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Energetika naziridir. – 148.

**82. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə  Ə r ə b i s t a n ı  K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 34,2 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı Kraldır. Ölkədə bütün hakimiyyət Krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı Kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 151.

**83. Xudafərin körpüsü** – Azərbaycan və İranı birləşdirən, Azərbaycanın Cəbrayıl rayonu ərazisində yerləşən, Araz çayı üzərində salınmış körpü. Xudafərin körpüsü 1027-ci ildə Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən Rəvvadilərlə mübarizə aparmaq üçün inşa olunub. Unikal memarlıq abidəsi olan körpüdə Azərbaycan memarlıq məktəbinin üslubu izlənilməkdədir. Təbii qayalar üzərində inşa edilən körpünün bir hissəsi dövrümüzə qədər gəlib çatıb. Ermənistan silahlı qüvvələrinin 1993-cü ildə işğal etdiyi Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüsünün üzərində 18 oktyabr 2020-ci ildə Azərbaycan bayrağı ucaldıldı. – 156, 264.

**84. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 175, 228.

**85. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 175, 228.

**86. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın birinci Prezidenti – elbası, Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti, 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər isə Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 176, 238.

**87. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 187, 190, 192, 203, 204, 205, 206, 211, 214, 215, 216.

**88. Pənah xan,** Pənahəli xan (1693–1763) Qarabağ xanlığının yaradıcısı və 1-ci hakimi. Cavanşir xanları sülaləsinin əsasını qoymuşdur. – 193, 197, 282.

**89. Natəvan,** Xurşidbanu xan qızı (1832–1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 201, 202, 203, 204, 231, 322.

**90. Bülbül,** Murtuza Məşədi Rza oğlu Məmmədov (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı, SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. Yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. – 201, 203, 204, 322.

**91. Polad Bülbüloğlu,** Polad Murtuza oğlu (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublika-

sının «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 202, 205.

**92. Əbdürrəhim bəy Haqverdiyev,** Ə b d ü r r ə h i m b ə y Ə s ə d b ə y o ğ l u (1870–1933), Azərbaycan yazıçısı və dramaturqu, ictimai-siyasi və teatr xadimi, pedaqoq, ədəbiyyatşünas, Azərbaycan SSR Əməkdar incəsənət xadimi. 1906-cı ildə «Həyat» qəzetində hekayələr və «Molla Nəsrəddin» jurnalında gizli imzalarla felyetonlar, məzhəkələr çap etdirib. «Marallarım», «Xortdanın cəhənnəm məktubları», «Şeyx Şaban», «Xəyalət», «Ac həriflər» və digər əsərlərin müəllifidir. – 214.

**93. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 221.

**94. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Avropanın şimalında Baltik dənizi sahilində dövlət. Sahəsi 338 min km$^2$, əhalisi 5.3 milyon nəfərdir. Finlandiya inzibati cəhətdən 12 ərazi vahidinə (lyaniya) bölünür. Finlandiya parlament respublikasıdır. Paytaxtı Helsinki şəhəridir. – 221.

**95. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min $km^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 221.

**96. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 221, 268.

**97. Ceyhun Bayramov,** Ceyhun Əziz oğlu (d.1973) – iqtisadçı-hüquqşünas. 2018–2020-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. 16 iyul 2020-ci ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 237, 253.

**98. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs

edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 239, 240, 242.

**99. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 243–258, 268.

**100. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistanın Prezidentidir. – 243, 248, 251, 252, 253, 257, 258.

**101. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,2 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 251, 252, 268.

**102. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 260.

**103. Vladimir Zelenski** (d.1978) – Ukraynanın dövlət xadimi, siyasətçi, rejissor, bədii direktor, aktyor. 2019-cu ildən Ukraynanın Prezidentidir. – 260.

**104. Rəşad Nəbiyev,** R ə ş a d N ə b i o ğ l u (d.1977) – iqtisadçı. 2004–2011-ci illərdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində şöbə müdiri işləmişdir. 2011-ci ildən «Azərkosmos» ASC-nin sədridir. – 266, 278.

**105. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 268.

**106. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 315, 316, 318.

**107. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt,

Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 315, 318.

**108. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 316.

## Şəxsi adlar göstəricisi


**Akar Hulusi** – 36, 40
**Amreyev Bağdad** – 229, 235
**Babayev Sahil** – 134
**Baxçalı Dövlət** – 330
**Bayramov Ceyhun** – 237, 253
**Berdıməhəmmədov Qurbanqulu** – 243, 248, 251, 252, 253, 257, 258
**Borisov Boyko** – 57, 58
**Bülbüloğlu Polad** – 202, 205
**Bülbül** – 201, 203, 204, 322
**Cabbarov Mikayıl** – 114, 116
**Çəmənzəminli Yusif Vəzir** – 214
**Dündar Ümit** – 36
**Əfəndiyeva Günay** – 236, 238
**Əliyev Heydər** – 32, 88, 139, 140, 160, 171, 202, 205, 206, 207, 208, 209, 240, 241, 242
**Əliyeva Leyla** – 187, 198, 203, 204, 205, 206, 211, 214, 215, 216
**Əliyeva Mehriban** – 5, 7, 9, 10, 11, 23, 60, 79, 100, 187, 188, 190, 192, 198, 203, 204, 205, 206, 211, 214, 215, 216, 239, 301, 304, 306, 307
**Ərdoğan Rəcəb Tayyib** – 26, 36, 42, 217, 298, 330
**Əsədov Əli** – 99, 106
**Əsgərov Rüfət** – 10

**Gülər Yaşar** – 36
**Hacıbəyli Üzeyir** – 74, 201, 203, 231, 322
**Haqverdiyev Əbdürrəhim bəy** – 214
**Həmidov Şükür** – 12
**Xurşidbanu Natəvan** – 201, 202, 203, 204, 231, 322
**İmadəddin Nəsimi** – 65
**Japarov Sadır** – 178
**Kajlayev Murad** – 296, 297
**Karakaya Mevlüt** – 330, 331
**Kaseinov Düsen** – 236, 238
**Kərimov Anar** – 63, 78
**Kərimov Aydın** – 280, 290
**Kərimov İnam** – 141
**Qaxaria Giorgi** – 27, 28
**Qamar Rahil** – 184
**Quliyev Eldar** – 259
**Lömuan Jan Batist** – 265
**Məhəmməd bin Salim** – 179, 184, 185, 186
**Məhəmməd Füzuli** – 65
**Məmmədov Saleh** – 30
**Milanoviç Zoran** – 35
**Molla Pənah Vaqif** – 73, 205, 206, 207, 211, 231, 235, 287
**Mustafayev Şahin** – 62, 118, 119, 120
**Nazarbayev Nursultan** – 176, 238
**Nəbiyev Rəşad** – 266, 278
**Nizami Gəncəvi** – 64, 65
**Nuriyev Samir** – 107, 109
**Nuru Paşa** – 40
**Osseyn Rober** – 60
**Overçuk Aleksey** – 61, 62

**Özbal Adnan** – 36
**Pənahəli xan** – 193, 197, 282
**Putin Vladimir** – 25, 61, 159, 160, 164, 166, 167, 168, 169, 170, 171, 172, 174, 300
**Rəcəbov Teymur** – 59
**Rudenko Andrey** – 159
**Souza Marselu** – 292
**Şahbazov Pərviz** – 148
**Şərifov Samir** – 127
**Tokayev Kasım-Jomart** – 24
**Vidodo Coko** – 175, 228
**Zelenski Vladimir** – 260
**Zeynalabdin Məhəmməd** – 184

## Coğrafi adlar göstəricisi


**Abşeron** – 304, 305, 307
**Ağdam** – 16, 21, 50, 52, 66, 69, 71, 84, 85, 117, 149, 182, 195, 199, 207, 229, 230, 234, 290, 320
**Ağoğlan** (*Hadrut*) – 84, 196, 289
**Alxanlı** – 153
**Almaniya** – 221
**Amerika Birləşmiş Ştatları** – 92
**Anadolu** – 322
**Asiya** – 247
**Aşağı Mollu** – 10
**Avrasiya** – 96
**Avropa** – 57, 96, 97, 150, 247
**Bazarçay** – 10 , 11, 119
**Belçika** – 7
**Bərdə** – 88
**Bərgüşad** – 11
**Biləsuvar** – 8
**Birinci Ağalı** – 6
**Birləşmiş Ərəb Əmirlikləri** – 151
**Bolqarıstan** – 57, 58, 151
**Borqarçay** – 124
**Böyük Britaniya** – 315, 318
**Böyük Tağlar** – 191
**Cakarta** – 175
**Cəbrayıl** – 5, 12, 18, 22, 84, 85, 149, 150, 196, 199, 230,

289, 320, 321, 327
**Cəlilabad** – 144
**Cıdır düzü** – 211, 212, 213, 215, 216
**Çanaqçı** – 14
**Çin** – 221, 268
**Dağlıq Qarabağ** – 10, 17, 20, 23, 34, 38, 44, 49, 56, 68, 80, 84, 86, 88, 122, 150, 156–158, 162, 171, 183, 186, 189, 201, 207, 208, 209, 211, 212, 213, 216, 227, 235, 280, 282
**Daşaltı** – 14, 192, 209
**Diləli Müskənli** – 11
**Əfqanıstan** – 251, 252, 268
**Əhmədbəyli** – 153, 187
**Əlicançay** – 124
**Finlandiya** – 221
**Fransa** – 7, 86, 265
**Füzuli** – 37, 69, 74, 85, 117, 132, 149, 153, 154, 187, 188, 190, 191, 196, 199, 229, 230, 236, 267, 276, 320
**Gəncə** – 49, 93, 104, 105, 132, 134, 190, 232
**Gəndob** – 31
**Giləzi** – 31
**Göyərçin Veysəlli** – 6
**Göygöl** (*rayon*) – 17
**Güləbird** – 14
**Günnüt** – 53
**Gürcüstan** – 27, 28, 48, 220
**Həkəri çayı** – 10, 11, 119, 122

**Hollandiya** – 7
**Horadiz** – 39, 132, 154, 155, 276
**Xaçınçay** – 119, 122
**Xaçmaz** – 31
**Xankəndi** – 74, 87, 207
**Xanlıq** – 8, 9, 12, 13
**Xarkov** – 260
**Xırdalan** – 30, 304, 305
**Xızı** – 31
**Xocalı** – 49, 50, 73, 89, 92, 205, 210, 322
**Xocavənd** – 14, 84, 90, 190, 191, 196, 289
**Xorvatiya** – 35
**İran** – 48, 156, 173, 261, 263, 264, 322
**İmişli** – 125
**İndoneziya** – 175, 228
**İslamabad** – 184
**İtaliya** – 221
**Kanada** – 318, 319
**Kəlbəcər** – 16, 17, 37, 44, 84, 85, 89, 92, 119, 144, 149, 153, 154, 156, 189, 195, 209, 231, 270, 276, 284, 289, 290, 327
**Köndələnçay** – 122
**Kür çayı** – 125, 126
**Qafqaz** – 6, 42
**Qarqarçay** – 122
**Qazaxıstan** – 24, 176, 177, 238, 268
**Qəbələ** – 124
**Qəzyan** – 11

**Qırğızıstan** – 178
**Quba** – 29, 30, 31
**Qubadlı** – 5, 8, 9, 10, 11, 12, 13, 14, 18, 19, 22, 23, 84, 85, 89, 140, 149, 153, 156, 196, 230, 289, 320, 321
**Quruçay** – 122
**Qusar** – 31
**Laçın** – 13, 14, 16, 17, 44, 74, 84, 85, 88, 92, 139, 140, 144, 149, 152, 153, 154, 156, 189, 195, 196, 209, 231, 270, 276, 289, 290
**Lənkəran** – 190
**Mahmudlu** – 13
**Masazır** – 29, 30
**Məkkə** – 198
**Mərakeş** – 185
**Mingəçevir** – 118, 120,121, 132
**Misir** – 185
**Moskva** – 159, 160, 164, 167, 169, 171, 172, 208, 240,
**Murovdağ** – 196
**Naxçıvan** – 39, 41, 53, 155, 190, 276
**Naxçıvan Muxtar Respublikası** – 92, 155, 173
**Neftçala** – 124
**Nic** – 68
**Oğuz** – 8, 124
**Oxçuçay** – 119
**Padar** – 13
**Pirsaatçay** – 124
**Portuqaliya** – 292

**Rusiya** – 25, 29, 30, 31, 38, 39, 40, 48, 61, 62, 87, 145, 152, 155, 159, 160, 161, 162, 163, 164, 165, 166, 167, 168, 169, 171, 172, 173, 174, 217, 220, 298, 300
**Saatlı** – 198
**Sabirabad** – 8
**Sabunçu** – 293
**Saray** – 11
**Sarıyataq** – 13
**Samux** – 144
**Samur** – 31
**Seləli** – 7
**Səfiyan** – 14
**Səudiyyə Ərəbistanı** – 151
**Sığınaq** – 14
**Sudan** – 185
**Suqovuşan** – 84, 119, 196, 302, 303
**Sulavesi** – 228
**Sumqayıt** – 132, 134, 219, 222, 223, 226, 227
**Suraxanı** – 293, 294
**Şabran** – 8, 31
**Şəkərcik** – 191
**Şəki** – 124
**Şurnux** – 108
**Şuşa** – 8, 14, 15, 21, 34, 37, 44, 50, 54, 69, 70, 71, 72, 73, 74, 75, 78, 92, 93, 109, 111, 149, 152, 153, 154, 183, 187, 188, 189,

190, 191, 192, 193, 195, 196, 197, 198, 199, 201, 202, 203, 204, 205, 207, 209, 211, 212, 213, 214, 215, 216, 230, 235, 237, 267, 276, 280–291, 320, 323, 325, 327
**Tərtər** – 103
**Tərtərçay** – 122, 123
**Toğanalı** – 153
**Tovuz** – 33
**Tunis** – 185
**Türkiyə** – 26, 36, 37, 38, 39, 40, 41, 42, 48, 107, 155, 173, 217, 218, 276, 298, 299, 330, 331
**Türklər** – 14
**Türkmənbaşı** – 246
**Türkmənistan** – 243–258, 268
**Ukrayna** – 260
**Üçüncü Ağalı** – 6
**Yaşma** – 31
**Yevlax** – 207
**Yunanıstan** – 151
**Zəngilan** – 5, 6, 7, 8, 12, 19, 20, 21, 22, 24, 39, 41, 50, 72, 76, 84, 85, 139, 140, 149, 153, 155, 156, 182, 196, 200, 230, 276, 289, 320, 321

# MÜNDƏRİCAT

İŞĞALDAN AZAD EDİLMİŞ QUBADLI VƏ ZƏNGİLAN RAYONLARINA SƏFƏR

*23 dekabr 2020-ci il*......................................................................5

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*....................................................................24

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*....................................................................25

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*....................................................................26

GÜRCÜSTANIN BAŞ NAZİRİ GİORGİ QAXARİA İLƏ TELEFONLA GÖRÜŞ

*24 dekabr 2020-ci il*....................................................................27

GÜRCÜSTANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ QAXARİAYA

*26 dekabr 2020-ci il*....................................................................28

BAKI–QUBA–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN MASAZIR DAİRƏSİNƏDƏK OLAN HİSSƏSİNİN

YENİDƏN QURULMASI ÇƏRÇİVƏSİNDƏ
GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ

*28 dekabr 2020-ci il* ........................................................................ *29*

DÜNYA AZƏRBAYCANLILARINA

*29 dekabr 2020-ci il* ........................................................................ *32*

XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ZORAN MİLANOVİÇƏ

*29 dekabr 2020-ci il* ........................................................................ *35*

TÜRKİYƏ RESPUBLİKASININ MİLLİ MÜDAFİƏ
NAZİRİ HULUSİ AKARIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 dekabr 2020-ci il* ........................................................................ *36*

AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*31 dekabr 2020-ci il* ........................................................................ *43*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
BOYKO BORİSOV İLƏ TELEFONLA GÖRÜŞ

*1 yanvar 2021-ci il* ........................................................................ *57*

QROSSMEYSTER TEYMUR RƏCƏBOVA

*3 yanvar 2021-ci il* ........................................................................ *59*

ROBER OSSEYNİN AİLƏSİNƏ

*3 yanvar 2021-ci il* ........................................................................ *60*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN
SƏDR MÜAVİNİ, RUSİYA–AZƏRBAYCAN

İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏR-
ARASI BİRGƏ KOMİSSİYASININ HƏMSƏDRİ
ALEKSEY OVERÇUK İLƏ GÖRÜŞ

*3 yanvar 2021-ci il* ........................................................................ *61*

MƏDƏNİYYƏT NAZİRİ VƏZİFƏSİNƏ YENİ
TƏYİN OLUNMUŞ ANAR KƏRİMOV
İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*5 yanvar 2021-ci il* ........................................................................ *63*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN
İCMASINA

*5 yanvar 2021-ci il* ........................................................................ *80*

2020-ci İLİN YEKUNLARINA HƏSR OLUNMUŞ
VİDEOFORMATDA MÜŞAVİRƏ

*6 yanvar 2021-ci il* ........................................................................ *82*

YEKUN NİTQİ

*6 yanvar 2021-ci il* ........................................................................ *152*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİNİN DƏVƏTİ İLƏ MOSKVAYA
İŞGÜZAR SƏFƏR

*11 yanvar 2021-ci il* ...................................................................... *159*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİ-
DENTİ, RUSİYA FEDERASİYASININ PREZİ-
DENTİ VƏ ERMƏNİSTAN RESPUBLİKASI
BAŞ NAZİRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*11 yanvar 2021-ci il* ...................................................................... *160*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN, ERMƏNİSTANIN BAŞ NAZİRİ NİKOL PAŞİNYANIN VƏ RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN BİRGƏ BƏYANATI

*11 yanvar 2021-ci il ........................................................................ 164*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*11 yanvar 2021-ci il ........................................................................ 167*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*11 yanvar 2021-ci il ........................................................................ 171*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*12 yanvar 2021-ci il ........................................................................ 175*

QAZAXISTAN RESPUBLİKASININ BİRİNCİ PREZİDENTİ – ELBASI, «NUR OTAN» PARTİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*12 yanvar 2021-ci il ........................................................................ 176*

QIRĞIZ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SADIR JAPAROVA

*12 yanvar 2021-ci il ........................................................................ 178*

İSESKO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 yanvar 2021-ci il ........................................................................ 179*

FÜZULİ–ŞUŞA AVTOMOBİL YOLUNUN VƏ FÜZULİ RAYONUNDA HAVA LİMANININ TƏMƏLQOYMA MƏRASİMİ

*14 yanvar 2021-ci il ........................................................................ 187*

ŞUŞA ŞƏHƏRİNƏ SƏFƏR

*14 yanvar 2021-ci il ........................................................................ 190*

ALİ BAŞ KOMANDAN CIDIR DÜZÜNDƏ

*15 yanvar 2021-ci il ........................................................................ 215*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*16 yanvar 2021-ci il ........................................................................ 217*

SUMQAYIT KİMYA SƏNAYE PARKINDA «AZƏRSULFAT», «GLASSİCA» ZAVODLARININ TƏMƏLQOYMA VƏ «AZERFLOAT» ŞÜŞƏ İSTEHSALI MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*18 yanvar 2021-ci il ........................................................................ 219*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*19 yanvar 2021-ci il ........................................................................ 228*

TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ BAĞDAD AMREYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*19 yanvar 2021-ci il* ........................................................................ *229*

ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2021-ci il* ........................................................................ *239*

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ

*21 yanvar 2021-ci il* ........................................................................ *243*

XALQ ARTİSTİ ELDAR QULİYEVƏ

*23 yanvar 2021-ci il* ........................................................................ *259*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR ZELENSKİYƏ

*23 yanvar 2021-ci il* ........................................................................ *260*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİF İLƏ GÖRÜŞ

*25 yanvar 2021-ci il* ........................................................................ *261*

FRANSA RESPUBLİKASININ AVROPA VƏ XARİCİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ JAN BATİST LÖMUAN İLƏ GÖRÜŞ

*26 yanvar 2021-ci il* ........................................................................ *265*

NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ RƏŞAD NƏBİYEV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*26 yanvar 2021-ci il* ........................................................................ *266*

PREZİDENTİN ŞUŞA RAYONUNDAXÜSUSİ NÜMAYƏNDƏSİ TƏYİN EDİLMİŞ AYDIN KƏRİMOV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*27 yanvar 2021-ci il* ........................................................................ *280*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MARSELU REBELU DE SOUZAYA

*27 yanvar 2021-ci il* ........................................................................ *292*

SABUNÇU RAYONUNDA YENİDƏN İNŞA EDİLMİŞ 90 SAYLI VƏ SURAXANI RAYONUNDA 97 SAYLI TAM ORTA MƏKTƏBLƏRDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*28 yanvar 2021-ci il* ........................................................................ *293*

SSRİ XALQ ARTİSTİ MURAD KAJLAYEVƏ

*29 yanvar 2021-ci il* ........................................................................ *296*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*30 yanvar 2021-ci il* ........................................................................ *298*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*30 yanvar 2021-ci il* ........................................................................ *300*

YENİDƏN QURULMUŞ 220/110/10 VƏ YENİ TİKİLMİŞ 110/35/10 KİLOVOLTLUQ «XIRDALAN» YARIMSTANSİYALARININ AÇILIŞI MƏRASİMİ

*1 fevral 2021-ci il* ........................................................................... *301*

XIRDALAN ŞƏHƏRİNDƏ 3 SAYLI TEXNİKİ-TƏBİƏT FƏNLƏRİ TƏMAYÜLLÜ MƏKTƏB-LİSEYDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*1 fevral 2021-ci il* ........................................................ *304*

YASAMAL RAYONUNDA YENİ SALINMIŞ MEŞƏ TİPLİ PARKIN AÇILIŞI MƏRASİMİ

*1 fevral 2021-ci il* ........................................................ *306*

ABŞERON RAYON MƏRKƏZİ XƏSTƏXANASININ YENİ İNŞA EDİLMİŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*1 fevral 2021-ci il* ........................................................ *307*

TÜRKİYƏNİN MİLLİYYƏTÇİ HƏRƏKAT PARTİYASININ SƏDR MÜAVİNİ MEVLÜT KARAKAYA İLƏ GÖRÜŞ

*2 fevral 2021-ci il* ........................................................ *330*

QEYDLƏR ........................................................ *332*

*Şəxsi adlar göstəricisi* ........................................................ *375*

*Coğrafi adlar göstəricisi* ........................................................ *378*

**Texniki redaktor** *Zoya Nəcəfova*

**Yığım üzrə operator** *İlhamə Kərimova*

**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.